www.vivo-book.com

# Əzizə Cəfərzadə

# BAKI 1501

**BAKI 1501**

www.vivo-book.com



(Roman)

Xəzər! Ey nemət, bərəkət dənizim mənim! Sahilində dayanmışam, sahilində sevmişəm, sahilində şənlənmişəm. Xəstəliyim olubsa, – qızılı qumun sağaldıb; dincəlib dalğalarının qoynunda səyahətlərə çıxmışam. Sən mənim baba yurdum, sən mənim damarlarımda axan qanım qədər doğmasan, Xəzərim, dənizim mənim! Tarixlərdən əvvəlki tariximin yaşıdı dənizim! Atilladan, Tomrisdən, Pompeydən bəri (onlardan daha əvvəlləri kim bilir?) sənə nə qədər adlar qoyublar. Tarixçilərin dediyinə görə, qədim yazılı abidələrdə, kitabələrdə onlarla adın var! Səni hələ antik dünyanın adamları Kaspi, ərəblər Dərbənd dənizi, tatarlar Ağ dəniz, türkmənlər Gökgöz, farslar Qulzum, çinlilər Siqay, atəşpərəst babalar Varqan, Çinayid-Dayeti, məşhur səyyah Marko-Polo Bakı dənizi, Aleksandr Düma İrkani adlandırıb. Daha sonralar müxtəlif mənbələrdə sənə Gilan,

Təbəristan, Sari, Cürcan İbar, Xorasan, Həştərxan, Abosükun, Şirvan və b. adlar veriblər.

Sahillərində yaşayan hər xalq, hər qəbilə səni öz dilində bir cür adlandırıb... Daha bilmirəm nələr... Cabbarlının «Quzğunu» göy Xəzərim mənim! Sahillərindən kimlər keçib, sularında kimlər üzməyib? Neçə cahangirlər at oynadıb, nə qədər vətən oğlu-qızı azadlığını qanı bahasına qılıncının ucunda müdafiə edib? İllər, qərinələr, əsrlərin odlu-soyuq nəfəsi döyəcləyib sahillərini sənin.

Səni coğrafiya kitablarında adicə «duzlu göl» adlandıranlar da olub. Amma mənim üçün, xalqım üçün Xəzərsən. Xəzərim mənim! Zülmətli qərinələrdə qızların Göz yaşları sularına qarışıb. Dəli suların kükrədiyi, dağ boyda dalğaların oynadığı yerdə bəkarət rəmzi – alınmaz-satılmaz bir qız, bir mələk özünü sularına atıb. Bir əfsanə qalıb ondan, bir də Göz dağı olan Qız qalası!

Yenə də illər, qərinələr bir-birini əvəz edib. Nələr Görməyib Xəzər. Ağ yelkənlərdə qan, göy sularda nisgil, qızıl qumlu sahillərdə fədailərinin meyiti, ortadan qırılmış qılınc, yerə sancılmış paslı nizə... Bir cahangirin əvəzinə başqa birisi gəlib. Ağır döyüş illərində sahilindən qopunub gedən neçə cavan son nəfəsində səni anıb, səni düşünüb. Qəhrəmanlar yurdu, igidlər oylağı Xəzərim mənim!

Sahilində izlərim durur. Sularına dərdli məhəbbətimi pıçıldaya-pıçıldaya söykəndiyim qayalar durur. Qumlarından izlərimi gah mehriban, gah çılğın ləpələrin yuyub aparıb. Gözəlliyini Səttarım əbədiləşdirib, Səmədim tərənnüm edib, ay coşqun, ay mehriban dənizim mənim, Xəzərim mənim!

İzninlə, sahilində yaşamış, sahilində doğulub böyümüş, son nəfəsinə qədər sənə sadiq bir gözəlin həyatını sənə xatırlatmaq, gənc nəslə uzaq keçmişin acılı-şirinli bir hadisəsini danışmaq istəyirəm. Səndən şəfqət, məndən zəhmət, istəkli oxucumdan səbir və iltifat istəyirəm!..

# İlk görüş

Şahzadə Qazi bəy darıxırdı. Neçə gün idi ki, onun müəllimi, Şirvanşahlar sarayının qazısı olan Məhəmmədyar vəfat etmişdi: Musiqi və kef məclislərinə ara verilmişdi. Şahzadə özünə yer tapmırdı. Yuxudan durandan sonra nə edəcəyini bilmirdi.

Bu gün də elə oldu. Bir qədər yerində çevrikdi. Nədimi Salehi çağırıb Gəzintiyə çıxmaq üçün hazırlıq görməsini əmr etdi. Özü isə yeməyə əyləşdi. İştahası da yox idi. Bir az cücə çığırtması yedi, bir piyalə süd içib sarayın eyvanına çıxdı. Nədim onu qarşıladı:
– Atlar hazırdı, şahzadə.
– Çox gözəl.

Şahzadə ov paltarında həyətə endi. Xəyal onu götürmüşdü:

«Bu ov libası nəyimə gərəkdir? Şirvanın ceyranlı düzənlərində, kəklikli dağlarında olsaydım, yerinə düşərdi. Bu qumluqlar diyarında əlimə ov keçməyəcək. Nə isə... Uğur olsun!» – deyə öz-özünə səfər səlamətliyi diləyib atlandı. Nədimin də onunla yollanmasını əmr etdi. Nədim Saleh atını mindi. Hər iki cavan Hacibə:

– Soruşsalar gəzintiyə çıxdıq, deyərsən, – tapşırıb saray həyətini tərk etdi.

Onlar hara getdiklərinin fərqinə varmadan qumlar arasında düşmüş cığırla irəliləyirdilər. Bir tərəf sıldırım qayalıqlı təpəlik, bir tərəf dəniz. Xəzər bu gün çox sakit idi. Bahardı. Təkəmseyrək kol-kos görünən sahildə, qayaların altında arabir qara ləkələr nəzərə çarpırdı. Xəfif gilavar kəsif neft iyini dağıda bilmirdi. Gilavar xırdaca-xırdaca ləpələri qovub uzaqlara aparırdı. Buradan daşlı-kəsəkli təpələrin döşü ilə uzanan qayalıq yollarda nə ağac, nə bir iri kol var idi. Amma yamaclar qumların rənginə çalan sarıgüllər, çobanyastığı, dəvətikanı, qiyaq və yepələk ilə örtülməyə başlamışdı.

Cavan şahzadə özünəməxsus gözəlliyi olan bu aləmi duya bilmirdi. O firuzəyi Xəzərinənginliklərinə baxdıqca həsrətlə Şamaxının yaşıl çəmənlərini, güllü-çiçəkli bağlarını, Fit dağı və Gülüstanın qalın meşələrini, ceyranlı-cüyürlü, kəklikli-turaclı ovlaqlarını xatırlayırdı, havaların qızmasını gözləyirdi ki, Şirvanşah Fərrux Yasar köç əmrini versin və saray, yay aylarında Şamaxıya – yaylağa yollansın. Şahzadə Qazi bəy məhz bu aylarda canlanır, bütün günlərini nədimi ilə birlikdə ovda keçirir, çadırlarda yatır, çox vaxt yastığı yəhər, yorğanı əngin səma olurdu. Şüvüllərdən yonduqları şişlərə ceyran-cüyür əti, ya da ov quşları çəkib yeyirdilər.

Bütün bu arzularla birlikdə indi yetkin gənclik dövrünə qədəm qoymuş şahzadənin qəlbində bir şeir bulağı qaynamağa başlamışdı. Yox, o şeir qoşmurdu. Başqalarının yazdığı şeirləri oxuyur, qəlbində dönəm-dönəm təkrar edirdi. Mavi gözlü Xəzər, sonu görünməyən dumduru sular onu çəkib harasa uzaqlara, bir eşq aləminə aparırdı. Sarayda, onun bəxtindən, gözəl bir müəllim var idi. Düzdür, Qazı Məhəmmədyar ona şəriəti öyrətməli idi. Şahzadəyə indi

qaydaları təlqin etməli idi. Amma çox vaxt dərsləri qədim tarixə malik Azərbaycan, ərəb, fars ədəbiyyatını öyrənməklə keçirdi. Qazı Məhəmmədyar indi rütbəsinə baxmayaraq, gözəl bir alim və şair ruhlu insan idi.

Şahın və mələkənin gözündən iraq düşən kimi, gənc tələbəsinə doğma ana dilində yazıb-yaradan şairlər haqqında da məlumat verirdi. Çox vaxt ona Nəsiminin şeirlərini oxuyurdu, deyirdi:

– Düzdür, həyatının sonunda Seyid İmadəddin dinsizliyə üz qoydu, Allaha şərik qərar verdi. Tohidi[1] dandı. Dini-mübinimizə xeyli zərər vurdu və bunun cəzasını da çəkdi. Amma bununla belə o, insanı göylərə ucaldan, pak, bəşəri məhəbbəti tərənnüm etmişdi. Şeirimizdə onun qəzəliyyatının misli yoxdur. Müqəddəs, ülvi sədaqət və məhəbbət

---

[1]İslam dininin əsaslarından birincisi: «Allah birdir – iki deyil».

tərənnümündə binəzirdir[2].

Sonra da həmin binəzir adlandırdığı əşardan nümunələri həvəs və bəlağətlə oxuyardı:

Gətir, gətir, gətir ol kaseyi ravanpərvər,
Gətir, gətir, gətir ol cəngi bir nəva göstər.
Verim, verim, verim öz canımı mən ol yara.
Öpüm, öpüm, öpüm ol ləli-şəhd ilən şəkkər.

«Hayıf, çox hayıf ki, elə bir müəllim köçdü bu dünyadan». Bir əzizin, bir yaxşının ölüm xəbərini eşidəndə deyirdi: «Yer üzündə bir hakim var ki, əzəli də odur, əbədi də. Onun dərgahında şahla gəda bir təndədi; onun dərgahında hər şeyə qadir olan pul-varidat da acizdir. Ölüm! Bəli ölüm – qarşısıalınmaz bir sirri-kainatdır!» İndi özü də bu sirli kainatın qoynuna çəkildi, öldü getdi. Allah bilir şah babam

[2]Əvəzsizdir

yerinə kimi təyin edəcək? Yerində, görəsən, hansı bir molla olacaq? Onun yanında Nəsiminin nəinki əşarını oxumaq, hətta bəlkə heç adını da çəkmək olmayacaq. «Bunlar hamısı küfrdür»– deyəcək. Amma mənim könlüm bu küfrü bir həyat, bir Allah bəxşeyişi hesab eləyir»,– deyə düşündü.

Qazi bəyin könlü irişilməmiş – hələ əli çatmayan bir eşq ilə çırpınırdı. O, bu eşqin harada, kimə qovuşaçağını bilmirdi. Bu, bir saray gözəlimi, atasının hərrac bazarında aldıracağı yaraşıqlı cariyəmi olacaqdı? Hər halda gənc ürək idi, şairlər demişkən «eşq ilə nümuv» – dopdolu idi. Qəlbinin qapıları açıq idi. Bu qapıdan kim girəcəkdi, bilmirdi.

---

...Yol onları Bibiheybət pirinə gətirib çıxardı. Şıxlar pir ətrafında görünmürdülər. Görünür, bu gün ya zəvvar çox idi, evlərinə yığışmışdılar; ya da əksinə, zəvvar az idi, pirin həyətindəki böyük tut ağacının altına toplaşıb kölgəlikdə laqqırtı vururdular.

Onlar məqbərəyə yaxınlaşmadan, qara qayaların üstündə piyadalandılar. Qazi bəy el arasında «Qırx qızlar» adlanan bu qayaları çox sevirdi. Arabir Bibiheybətə yolu düşəndə mütləq buraya gələr, Xəzərin mavi sularına sallanmış qara qayaların üstündə saatlarla oturardı. Həm dənizi seyr edər, həm də arasından dumduru, gözyaşı kimi su gillənən bu qayaların həzin ninnisinə qulaq asardı. Danışmışdılar ona, demişdilər ki, «Qırx qızlar»ın faciəli macərası var. Bir zaman şiələrin səkkizinci imamı imam Rza, xəlifə Məmun tərəfindən zəhərləndirilib öldürüləndən sonra onun bacısı Hökümə xatın təqib olunur, düşməndən qaçır. Xəzərə pənah aparır. Xorasan hakimi imam Rzanın bacısı Hökümə xatının qırx kənizi varmış. Xanım Heybət adlı birisinin gəmisinə minib qaçanda kənizlərini də özü ilə götürür. Qaçqın qızlar həmin bu sahilə yan alırlar. Az sonra Hökümə xatın vəfat edir. Onu buradaca dəfn edirlər. Kənizlər – doğma ana qucağından, vətənindən qoparılıb diyar-diyar düşmüş qızlar isə həmin bu yerdə qaya dibində daşa dönürlər. Qayalardan sızan su onların göz yaşlarıdır. Həzin ninnilər onların

sızıltısıdır. Analarını səsləyirlər, vətənçünmü ağlayırlar kim bilir?

Şahzadə Qazi bəy «Qırx qızlar»ı sevirdi. İndi də həmin yerdə dayandı.

– Saleh, o şıxların üzünü görməmişdən əvvəl gəl burda bir az dincələk.

Nədim Saleh qəlbindəki sevinci gizlədə bilmədi. Bütün yolboyu şahzadə xəyallara dalıb gedir, görünür, müəlliminin vəfatından yaman qüssə çəkirdi. Salehlə bir kəlmə də kəsməmişdi. Halbuki Salehin bir nədim kimi vəzifəsi öz şahzadəsini əyləndirmək idi. Xoş sözlər, gözəl şeirlər, musiqi və əyləncələrlə onu məşğul etməli, könlünü açmalı idi. Saleh qorxurdu ki, Qazi bəy ovdan inciyə, şaha xəbər verə ki, «bu nədim öz ağasını əyləndirə bilmir, o mənə lazım deyil» və Saleh də bir parça rahat çörəyini itirə. İndi cavan şahzadənin onunla gülümsər və mehriban danışmağı nədimi ovundurdu.

– Doğru buyurursan, şahzadə, mənim də onlardan zəhləm

gedir.

Şahzadə nədənsə birdən-birə tutuldu. Öz rəiyyəti haqqında başqasına yaman demiş, başqasından da yaman eşitmişdi. Halbuki mərhum müəllimi Məhəmmədyar ona deyərdi: «Rəiyyət sənin övladın mənzələsində olacaq. Rəhmli və ədalətli olmağa səy göstər. Öldürsən də, yada vermə!»
O, Salehin də könlünə dəymək istəmirdi. Təxminən yaşıdı olan bu cavanı sevirdi. Axı elə indi onun hamını, hər şeyi sevən vaxtı idi.
– Bilirsən Saleh, o yazıq şıxlarda da taxsır yoxdur, – deyə şahzadə dilləndi. – Bir ətrafına bax! Baharın gözəl çağında belə qupquru olan bu qayalar üstündə püstəni, zeytunu min zəhmətlə onlar yetişdirib. Əkinəcəyə yararlı torpaqları azdır. Karvan yollarından qıraqdadılar. Neyləsinlər. Nə ziyarət, nə ticarət, nə də heyvandarlıq heç birindən Allah onlara bol pay verməyib. Zığda, Badamdarda azacıq əkin yerləri ruzularına yetmir. Onlar nə iləsə dolanmalıdılar. Odu ki, gözlərini dikiblər zəvvarlara... Qayıqla daşıyırlar, başqa xidmətlərini yerinə yetirirlər... Bununla da dolanırlar...

Saleh yəhərqaşı heybələrdən qumqumaları çıxardı, irəlicədən şərabla doldurulmuş sənəkçələrin birini şahzadəyə uzatdı və düşünürdü ki, «hə, bunlar rəhmətlik müəllimin sözləridi. Görəsən, şahzadə hakimiyyəti ələ alandan sonra da belə fikirləşəcək, ya da dədə-babası kimi davranacaq rəiyyətlə?!»

Nədim şahzadənin sözlərinə təsdiqlə başını tərpətdi. Qəlbindən keçənləri şahzadənin oxuya biləcəyi qorxusundan gözlərini uzaqlara, Xəzərdə dalğalanan tək bircə qayığa zillədi.

... Onlar yenidən atlandılar, Bibiheybətdən keçib Şıxlar kəndinin yastı damlı, daş evlərini arxada buraxdılar və əl-ayaqlarını yuyub dincəlmək üçün Xəzərin hamar, tərtəmiz, inci qumlu sahilinə endilər... Axırıncı evə çatanda Qazi bəy daxili bir heyrət və vurğunluqla atını saxladı; endi, atı Salehin yedəyinə verdi, əli ilə ona «sən sahilə düş, mən də gəlirəm», – işarəsi verdi.

Onu saxlayan xoş səslə oxunan bir nəğmə idi. Nəğməni qız, özü də çırtmaq vura-vura oxuyurdu! Şahzadə qəribə bir maraqla bu sadə, eyni zamanda gənclik qayğısızlığı duyulan mahnını dinləməyə başladı. Kələ-kötür daşlardan bir-birinin üstünə yıxılmaqla qurulan hasarın o biri üzünü görə bilmədiyi qız oxuyurdu:

Araxçının yan qoyub,
Yan qoyub, bu yan qoyub,
Qapıdan keçən oğlan
Ürəyimə qan qoyub.

Səsdəki cazibə şahzadənin də «ürəyinə qan qoyub», onu hasarın lap dibinə çəkdi. O yaxınlaşdı, daşların arasındakı deşiklərdən içəri baxdı: İlahi, insan əli nəyə qadirdir? Bu susuz, qumsal aləmin ortasındakı bu balaca həyət behiştin bir guşəsi idi. Həyətin tən ortasında bağara ilə işləyən bir quyu, quyunun ətrafında qızıl qumlar üstünə sərilmiş gömgöy meynələr, birmərtəbəli yastı-yapalaq evin səkisi boyu qızılgül və başqa çiçək kolları, qarşıda hasar uzunu

alçaq əncir ağacları görünürdü. İplərə qağayı kimi ağappaq paltar yuyulub sərilmişdi.

Quyunun yanında isə o – oxuyan qız dayanmışdı. Bağaranın dəstəyindən yapışıb, sürətlə fırladır, su çəkir və küllüyünü suvarırdı. İşlədikcə də elə bil heç bir ağırlıq duymur, həvəslə, sevinclə, fərəhlə çalışır, yorğunluq hiss etmirdi. Bütün qəlbi, varlığı ilə işinə və nəğməsinə dalmışdı. Vurğun-vurğun işləyir, candan-ürəkdən oxuyurdu. Şahzadə də heyran-heyran tamaşa edirdi.

Qızın xınalı əlləri, xınalı ayaqları Şirvanın qayalarında, yosunlu daşlarında pərvaz edən kəkliklərin ayağı kimi al rəngdə idi. Bir cüt hörüyünü əl-ayağına, satılına dolaşmasın deyə, belində tumanının lifəsinə sancmışdı. Nazik tuman bir qədər islanıb mütənasib qıçlarına yapışmışdı. Əynində sadə çit köynək vardı, köynəyinin dəyirmi yaxasında bir düzüm orta həcmli mərcan qızarırdı. Bütün bəzəyi bundan, bu bir düzüm mərcandan ibarət idi.

Saray xanımlarının zərrin geyimləri, əlvan örtükləri, qızıllı, mirvarili, almazlı bəzəklərinə alışmış şahzadə sadə geyimli qızın belə gözəl görünə biləcəyinə inanmırdı; deyəsən, balaca «pəncərə» indi şahzadəyə darlıq edirdi. O, qızın gözlərini görmək, danışığını eşitmək, dodaqlarını, yanaqlarını yaxından seyr etmək istəyirdi. Qəlbinin qapısı açıq idi; deyəsən, həmin sadə geyimli, sadə mahnılı gözəl, al hənalı əlləri ilə bu qapının çərçivəsindən yapışıb: «Qoru özünü, şahzadə, qalxanını başına çək, zərbəmin altından sağ qurtara bilməyəcəksən», deyirdi.

Şahzadə nə etdiyinin, necə qarşılanacağının qayğısına qalmadan hasar boyu yeriyib qapını axtarmağa başladı. Tapdı. Şirlənmiş taxta qapı açıq idi, cəftəsi vurulmamışdı. Şahzadə qapı ağzında dayanıb qıza baxmağa başladı. İçəridən birisinin çıxıb ona nalayiq bir söz deyə biləcəyi ağlına da gəlmirdi. Qəribə bir hiss heç bir şaqqıltı, hənirti eşitməyən qızı diksindirdi. Ona elə gəldi ki, bir cüt yad göz vücudunda gəzir. Başını qaldırıb qapıya tərəf baxdı və oğlanı gördü. O, əlbəttə, şahzadəni tanımırdı. Amma

geyimindən ali məqamlı bir adam olduğunu başa düşdü. Buralarda belə geyimdə yerli ola bilməzdi. Görünür ki, zəvvardır, babasını axtarır, ev tutmaq, dincəlmək istəyir. Qız belə şeylərə alışmış şıxlar ailəsindən olduğundan özünü itirmədi, kəndli qızlarına xas olan bir cürətlə qonağın qarşısına çıxdı, xoşgəldin elədi. Dayanıb durdu. Cavanın nə istədiyini gözlədi. Cavan isə... cavan isə özünü, bütün ətraf aləmi unutmuşdu. İndi bütün aləm Kürdü ceyranlarının gözünə bənzəməyən bu bir cüt gözdə, Gülüstanda bitən vəhşi qızılgül ləçəklərini xatırladan zərif yanaqlarda, boynundakı mərcanla rəqabətə girişən al dodaqlarda mərkəzləşmişdi. Qız isə bu gəlişdə bir qeyri-adilik duyub, alıcı baxışlar altında özünü itirdi, qeyri-iradi bir hərəkətlə hörüklərini cəld belindən açdı; yenə də cavanın danışmasını gözlədi. Danışmadığını görüncə dözmədi, özü dilləndi, sükutu pozdu:

– Nə istəyirdin, qardaş?

– Ay qız, bir içim su verərsən?

Qızın ürəyi toxtadı, özünü ələ alıb gülümsədi:

– Nöş vermirəm? – Quyunun üstünə tərəf döndü. Naxışlı

mis birəllini satıldan doldurdu və gətirib şahzadayə verdi:

– Ala, nuş canın olsun,

– Çox sağ ol. – İçdi, vücuduna sərinlik yayıldı. – Nə gözəl sudu! Elə bil heç quyu suyu deyil, bulaq suyudu.

– Helədi, bizim quyunun bu yerlərdə tayı  yoxdu. Onu rəhmətlik atam daşda çapıb, dərindən çıxır. Həm sərindir, həm şirin.

«Danış, dilin nə şirindi, danış, sən nə cürətli qızsan», – sözləri cavanın qəlbindən keçdi. Qızın adını soruşmaq istədi, dili gəlmədi.

– Bu kimin evidi? – maraqlandı.

– Bizim. Babamın.

– Babanın adı nədi?

– Şıx Kəbləli.

– Hardadı?

– Pirdə. Zəvvar gözləyir şıxlarnan.

– Siz zəvvar saxlayırsız?

– Həlbət ki. Bütün kəndimiz kimi, hamı şıxlar kimi.

– Onda bizim üçün çay tədarükü görərsən?

– Nöş görmürəm?! Neçəsiniz?

– İki nəfərik. Yoldaşım dənizə tərəf düşdü. İndi gələr.

– Onda mən də babama xəbər eləyim?

– Elə!

Oğlan sahilə endi. Daha artıq dayana bilməyəcəkdi, yoxsa qız hürkə bilərdi. Ardınca səs eşitdi. Qanrılıb baxdı. Qız hasarın üstünə dırmanıb qonşu evdən kimi isə səsləyirdi:

– Xeyransa xala, ay Xeyransa xala!

– Nədi, Bibixanım?

«Demək, adı Bibixanımdı. Bibiheybətdən nəzir-niyazla alıblar, onun üçün? Yox, sənin adın Sultanım xanım olacaq. Sən mənim sultanım olacaqsan. Yoxsa bu gen dünya mənə dar gələr. Yoxsa mən bu gen dünyada yaşaya bilmərəm», – deyə şahzadə düşündü.

– Xeyransa xala, sən allah Ağadayını göndər pirə, qaçsın babamı tapsın. Desin ki, qonağımız gəlib.

– Yaxşı, qızım, olsun-olsun, təki həmişə qonaqlı olasuz.

Ədə Ağadayı, Ağadayı... hardasan ay ağbatıxeyir, gəlsənəm bu abadana...aaa...

Şahzadə sahilə endi. Burada nədim Saleh atları yan-çidar edib buraxmış, özü də dənizin dumduru suyunda əl-üzünü, ayaqlarını yumuş, tərtəmiz qumlara təkyə eləmiş, oturmuşdu. Şahzadəni gülər üzlə qarşıladı, dik qalxıb təzim etdi:

– Əziz şahzadəm nə tapdı, nə gördü?

– Dünyanın ən qiymətli incisini...Ömrümdə görmədiyim bir inci...

– Bu xarabaxanada?

– Deyirlər, ən qiymətli xəzinələr xərabələrdə gizlənir.

– Üstündə də bir ilan qıvrılıb yatır?

– Orasını bilmirəm. Amma bu xəzinə İrəm bağçasındakı bir hurn-pəridir ki, mislini ancaq nağıllarda eşitmək olar.

Saleh əvvəlcə şahzadənin kimi isə ələ saldığını zənn edib güldü, zarafat etməyə hazırlaşdı. Amma cavanın gözlərinə baxınca kəkələdi. Deyəsən, axı şahzadə gerçəkləyirdi.

– Doğrudanmı, şahzadə?

– Mən zarafat eləmirəm, Saleh, sən də özünü gözlə! O qız haqqında xəta eləsən, ağzından bircə kəlmə yersiz zarafat çıxarsan, özündən küs.

Saleh yenə də qorxdu. «İlahi, bu nə deyir belə? Saraydakılar azlıq eləyir? – düşündü. – Atası bilsə, dərimə saman təpər».

– Dur bir hazırlaş, mən də əl-ayağımı yuyum, möhlət olsun deyə. Sonra da onlara qonaq gedəcəyik.

– Hə, bu başqa məsələ...

– Dedim ki, özünü unutma! Biz zəvvarıq. Onlar da zəvvara xidmət edən şıx ailəsi. Vəssalam.

...Onlar həyətə yaxınlaşanda Şıx Kəbləli qapının önündə dayanıb intizarla gözləyirdi. Görünür, çoxdan zəvvarı olmamışdı. Kişi, cavan zəvvarları, əsl dindar zəvvara oxşamasalar da, səmimi qarşıladı.

– Ziyarətiniz qəbul, ağalar! Bibi mətləbinizi versin!

– Allah ağzından eşitsin.

Həyətdəki tut ağacının altına boz palaz döşənmişdi. Süfrə salınmışdı. Süfrənin başında çay dəsgahı düzəlmişdi.

Süfrəyə çaydan, nüskəndə, şirbədüşəndə, doşab, əncir riçalı, zəncilfərəc, tut qurusu, əncir qabığının qurusu, pendir, yağ, təndir çörəyi, duz, istiot, ləkdən dərilmiş təzə göyərti qoyulmuşdu. Bütün bunların hamısında təmizlik və səliqə var idi. Baba şıx Kəbləli çaydandan fincanlara çay süzməyə hazırlaşınca, Bibixanım tavada bişirdiyi qayğanağı ortaya gətirdi. Çaydanı babasından alıb özü süzdü və fincanları cavanlarla babasının qarşısına düzdü. O, çay verdikcə şahzadə düşünürdü: «Gətir, gətir ol abi-kövsəri, mələyim! Ömrümdə içmədiyim, içmək istəmədiyim darçın çayı, indi mənimçün saraydakı ən lətif şərabdan da dadlı olacaq».

Aralıda oturmuş qız dedi:

– Baba, mən qonaqlarımızçın dörd-beş rısa dolma bükürəm. Dinabını qoymuşam.

– Ay sağ ol, qızım. Dolmanın nükbarıdı. Onda toqqanın altını bərkitməyək, – deyə cavanlara eşitdirdi.

Qız, döyülmüş əti götürüb xırda tənək yarpaqlarına dördkünc boğça kimi bükür, iynə ilə sapa keçirir, düzüm dolanda sapın uclarını düyünləyirdi... Söhbətdə iştirak etmir,

işini görürdü. Az sonra qız onların hərəsinə bir kasa üzündə qızılı yağ üzən yaşılımtıl dolma suyu və nimçədə bir düzüm dolma gətirdi. Şahzadə ömründə belə ləzzətli dolma yeməmişdi.

***

1501-ci ilin baharında Şeyx oğlunun Arazdan bu yana keçməyinin xəbəri çıxdı. Deyirdilər ki, o, bir axşam yuxu görmüş və səhər yeddiminlik qoşununa elan etmişdi: «Məsum imamların pak ruhu tərəfindən bizə aydınlaşdı ki, cəlallı bayrağımızı Şirvana tərəf yönəltmək məsləhətdir». Xəbər çıxmışdı ki, Şeyx oğlu, babası Şeyx Cüneydlə atası Şeyx Heydərin qanını Şirvanşah Fərrux Yasar ibn İbrahim Xəlilullahdan almaq üçün gəlir. Bunu eşidən Fərrux Yasar: «O əgər o bu hüdudlara gəlib çıxarsa, ona da atasına çatan pay yetişəcək», – dedi və başladığı tikinti işlərindən ayrılmadı. Müdafiəni sərkərdələrinə tapşırdı. Az keçməmiş gah Mahmudabad, gah da Şirvanın Gülüstan, Fit tərəflərində döyüşlərin gücləndiyi sorağını alan Fərrux Yasar iş-gücünü

atıb Gülüstanda müdafiəyə çəkilmiş qoşununa köməyə getdi. Bakı qalasının müdafiəsini oğlu Qazi bəyə həvalə edib, Şamaxı tərəflərə yollandı. Hələ də Şeyx oğlunun qüvvəsindən bixəbər idi. Az müddətdə qələbə çalıb qayıdacağına inanırdı.

***

Xəzərim, ümid dənizim mənim! Sahilində baş vermiş o qanlı döyüşlərin təsvirindən əvvəl meydana təzəcə çıxmış bu Şeyx oğlunun kimliyini, bu xəbərlərin nə qədər doğru, nə qədər yalan olduğunu bilmək üçün bir neçə il əvvələ qayıtmaq lazımdır.

## ZƏNBİL İÇİNDƏ KEÇƏN BİR GÜN

Lahican bağları körpə İsmayılın çox xoşuna gəlmişdi. Burada bir qədər dinclik tapmışdı. Yeddiyaşlı uşaq olmasına

baxmayaraq, yaşlı insan ömrünün dözə biləcəyi bəlalara dözmüşdü. Odur ki, İsmayıl yaşıdlarına nisbətən çox inkişaf etmişdi. İndi Lahicanda Gilan hakimi Mirzəlinin sarayında özünü sərbəst hiss etməyə başlamışdı. Bu sərbəstliyin özü də nisbi idi. Hər dəfə saray ətrafında, ya darvazada naməlum adam görünən kimi onu gizlədirdilər. Xırdaca ürəyi döyünə-döyünə bu pənahgahlara gedir, dinməz-söyləməz nə zaman çölə çıxarılacağını gözləyə-gözləyə pənahgahında oturur, heç bir zaman ayrılmadığı kitablarını oxuyurdu. Bayıra çıxarılan kimi balaca qılıncını, nizəsini, ox və kamanını işə salır, Mirzəli hakimin və başqa xanzadələrin oğulları ilə birlikdə Məhəmməd bəy və ya onun qardaşı Əhməd bəyin nəzarəti altında hərbi təlim keçirdi. Bu təlimlər onun üçün yeddiyaşlı uşağın oyunlarını əvəz edirdi. Gah atlanır, gah da qılınc məşqi keçirdi.

Bütün «oyunlar» onun xoşuna gəlsə də, çəkdiyi kəşməkəşlərin acılarını unutdura bilmirdi. Atası Şeyx Heydər Dağıstanda – Şirvan sərhədlərində, haradasa öldürüləndən sonra, Ərdəbil sufiləri xeyli zəifləmişdi və buna görə də Uzun Həsənin oğlu Sultan Yəqub Ərdəbili

asanlıqla ələ keçirə bilmişdi. İsmayıl atasını xatırlamırdı. Üzünü, boy-buxununu heç olmasa aran-saran belə yadına sala bilmirdi. Amma anası Marta – Aləmşah bəyim yadında idi. İstəxr qalasında həbsdə qaldıqlarını lap yaxşı xatırlayırdı. Qardaşları Sultanəli və İbrahim də qalada həbsdə idi. Sonralar Aləmşah bəyim adı ilə tanınan anası Uzun Həsənin qızı idi. Marta – Trabzon imperatoru Hompenin qızı Katsrinq – Dispina xatından dünyaya gəlmişdi; Marta – Aləmşah bəyim öz anasının dilini, milli ədəbiyyatını gözəl bilirdi. Qadın hətta həbsxanada uşaqlarına anasının doğma dilini belə öyrətməyə təşəbbüs göstərmişdi. Tez-tez nağıl əvəzinə ana ədəbiyyatından onlara vəqələr danışırdı.

Sonra Sultan Yəqub öldü və qardaşları arasında hakimiyyət uğrunda ixtilaf düşdü. Şiələr bu çarpışmalardan İsmayılın xeyrinə istifadə etdilər. Şeyx Heydər öldürüldükdən sonra böyük oğlu Sultanəli onu əvəz edirdi. Uzun Həsən oğlanlarının onlara qarşı mübarizə meydanı açdığını gördükdə Sultanəli Səfəvi şeyxliyinə xırda qardaşı İsmayılı

təyin edib özü ortancıl qardaşı İbrahim və digər şiələrlə birlikdə döyüşə yollandı. Döyüşlərdə qardaşlar həlak olduqdan sonra, müridlər kiçik İsmayılı Ərdəbildən götürüb diyar-diyar, gizli yollarla salamat bir yerə – indi də Lahicana gətirmişdilər.

Lahicanda da İsmayılın əməlli dincliyi yox idi. Uzun Həsənin oğlu Rüstəm padşah tez-tez qasid göndərib Mirzəli hakimdən uşağı tələb edirdi. Mirzəli də müxtəlif bəhanələr gətirir, İsmayılı ələ vermirdi. Vəziyyət beləcə qalırdı.

Bir gecə Mirzəlinin adamlarından biri ona Rüstəm padşahın yenidən qasid və qoşun göndərəcəyini xəbər verdi. Həmin gecə Mirzəli çox narahat yatmışdı.

...Yuxuda gördü ki, onu qovurlar, atlılar ona çathaçatda yuxarıdan bir əl uzanıb Mirzəlini səhradakı yeganə ağacın başına çəkdi. Kişi qolunun ağrısından və hövlündən yerindən dik qalxdı. Yuxunun yarısı yalan, yarısı gerçək imiş: qolu altında qalıb ağrıyırmış. Gecəni sübhə kimi

yatmadı. Hələ axşam güdükçülərinin ona verdiyi xəbərlə bu yuxu arasında bir yaxınlıq, bir əlaqə görürdü. Düşündü, düşündü... Yerində çevrildi. Amanı kəsilmişdi, heç cür yata bilmirdi. Yerindən qalxdı, İsmayılın yatdığı otağa keçdi, burada sakitlik idi. Balaca Şeyx İsmayıl yatağında mışıl-mışıl uyuyurdu: «Dünyanın bu kəşməkəşli vaxtında qapımda sənə bəla toxunsa, atanın ruhu və dini-mübinin peyğəmbəri qulluğuna nə sifətdə gedərəm?» Mirzəli hakim yerinə qayıtdı. Səhər Rüstəm padşahın adamları gələrsə, bu dəfə nə bəhanə gətirəcəyini düşünə-düşünə yatağına uzandı.

Gün çırtan kimi darvaza şiddətlə döyüldü. Mirzəli hövlnak qalxdı. Nökər-nayib hələ oyanmamışdı. Kişi eyvana çıxdı, yarıyuxulu dərbanla eyni vaxtda özünü darvazaya yetirdi. Gələn onun dostlarından biri idi:

– Ağa, başına dolanım, Rüstəm padşahın adamlarından üç yüz atlı Lahicanın bir mənzilliyində durub. Nahar vaxtına burda olarlar.

Atlı bunu deyib qayıtdı. Mirzəlinin cavabı artıq hazır idi.

Sakitcə işlərini görməyə başladı. Birinci növbədə İsmayılı bu hadisəyə hazırlamaq lazım idi: «Şeyx mərtəbəsinə çox tez qalxsa da, hələ axı lap uşaqdı, – deyə Mirzəli hakim ata qəlbilə düşündü. – Düzdü, başına çox qəzavü qədər gəlib. Bu yaşında çox görüb götürüb. O ağıl, o fərasət iyirmi yaşında cavanda da az təsadüf olunan bir Allah vergisidir. Bir lütfixudadı. Bununla belə, yenə də körpədi, axı!» Bu düşüncələrlə də kişi İsmayılın otağına daxil oldu. İsmayıl artıq geyinmiş, sanki uzaq bir səfər hazırlığı görmüşdü. Kişi təəccüb içində baxdı. İsmayılın əynində uzun, qara zeyli yaşıl qəba var idi.  Qəbanın altından, boğazına kip yapışmış, əyindiriyi qara pərəmi ilə işlənmiş dümağ köynək geymişdi. Başına qoyduğu kiçicik əmmamənin təhatül-hənəyi boğazının altında idi. Arabir naməhrəm görəndə üzünə çəkirdi Darvazanın şiddətlə döyülməsi, görünür, onu da oyatmış və məsələdən hali olmuşdu.

Mirzəli hakim heyrət içində səsləndi:
 – Təsəddüqün olum, nə tez oyanmısan?
Oğlan nazik, körpə dodaqlarına yaraşmayan bir ciddiyyətlə,

acı-acı gülümsədi.

– Dedim, səfərə hazır olum.

– Hansı səfərə, qurbanın olum?

– Əgər səfər yoxsa, onda sənin qapın belə erkəndən niyə döyülsün və sən niyə belə narahatsan?

Mirzəli hakim uşağın fərasətinə könlündə bir də afərin dedi, onun kədərli taleyinə qəlbi parçalandı.

– Təsəddüqün olum, şeyxim, haqsan! Gələn bəla sənin üçün gəlib. Xəbər gətiriblər ki, dəfəatla göndərdiyi qasidlərə verdiyim cavablar padşahı qane etməyib. Üç yüz atlı Lahicanın bir ağaclığındadı. Buraya çatmaqlarına az qalıb. Görünür, saraya gələcəklər. Məni bərkə çəkib qəsəm tələb eləyə bilərlər.

İsmayıl yeddiyaşlı uşaqdan gözlənilməyən bir soyuqqanlıqla soruşdu:

– Məsləhətin nədi?

– Məsləhət səninlədi, şeyxim! Əgər razı olsan, izin versən, bir fikrim var. Onu düzəldərəm, bəlanı sovarıq.

– Sən nə məsləhət görsən, mən razıyam.

– Afərin, mənim balam, – deyə o özünü saxlaya bilmədi, hissini büruzə verdi. Amma tez də özünü ələ aldı. – Əfv et, şeyxim, dilim dolaşdı.

İsmayıl ömründə ata məhəbbətinin nə olduğunu görməmişdi, bilmirdi. Doğrudur, anası da, həbsxanada ikən qardaşları da onu sevər, oxşardılar. Lələ Hüseyn bəy, Məhəmməd bəy və Əhməd bəy, Türkman qardaşları da ona candan əziz adamları kimi baxardılar. Qaçqınlıq, gizlənmələr zamanı bu adamların hər biri canından keçib onu qoruyurdu. Müridlərdən qazı Əhməd, xətib Fərruxzad, Talış yolunda Tulunava hakimi, Rəştdə Əmir İshaq və başqalarından çox hörmət görmüşdü. Hər birisi də həyatını təhlükədə qoyaraq müəyyən müddətdə körpə şeyxi öz evində gizlətmişdi. Bu adamların içində o, xüsusilə iki qadını unutmurdu. Bunların biri evində onu bir ay müddətində gizlədən Xancan adlı bir qadın, digəri yaralarını müalicə edən Uban adlı türkəçarəçi arvad idi. Hamısını sevmişdi, unutmurdu, dualarında yad edirdi. Hamısı da onu

dinin rüknü bir şeyx kimi qorumuşdu. Amma indi Mirzəli hakimin bu «afərin, mənim balam» sözləri İsmayılın qəlbinin dərinliklərinə işlədi. Bir anlıq mənsəbini, rütbəsini, daima müridlər tərəfindən ona təlqin olunan şeyxliyini, böyüklüyünü unudub, Mirzəli hakimə yaxınlaşdı. Bir anlıq onu qucaqlamaq, bəlalı başını kişinin enli, qüvvətli sinəsinə sıxmaq istədi. Lakin Mirzəli hakimin son «Əfv et, şeyxim, dilim dolaşdı» sözləri mövqeyini onun yadına saldı. Yarı yolda dayandı:

– Məsləhətini söylə, – deyə əmr etdi.

– Şeyxim, mən qəsəm yad etməliyəm. Onlar bunu tələb etməsinlər, evi axtarmasınlar deyə onlardan əvvəl özüm Qurani-mübinə and içməliyəm. Gəl, izin ver, bir hiyleyi-şəriyyə işlədək. Onsuz da bu gecə yuxumda atan büzürgüvarı görmüşəm. Əlini uzadıb məni xilas eləyib. Bilirəm ki, bu gün Rüstəm padşahdan birdəfəlik xilas olacam.

– Nə izin?

– Mən and içib sənin bu torpaqlarda olmadığını deməliyəm.

– Axı onlar gələnəcən mən sənin torpaqlarından uzaqlaşa

bilmərəm. Lələm də burda yoxdu. Onsuz...

Kişi hər iki əlini göyə qaldırdı.
– Əstəğfurullah... Dilim kəlmeyi-şəhadətə gəlməsin, əgər mən sənin bu evdən çölə qədəm qoymağını düşünmüşəmsə. Sən burdan heç yana getməyəcəksən. Qoymaram da...
– Bəs onda...
Mirzəli hakim qapıya çöndü, kimi isə səslədi:
– Qulam, o zəmbili gəti...

Nökərlərdən biri otağa daxil oldu. Düyü küləşindən toxunmuş yumşaq və olduqca iri bir zənbil gətirdi, yerə qoyub çıxdı. İsmayıl heyrət içində zənbilə və Mirzəli hakimə baxırdı. Hakim izaha məcbur oldu:

– Qədəmlərinin qurbanı olum, – dedi, – oxuduğun kəlama sədəqə gedim, qəlbinə toxunmasın! Sən bir neçə saatlıq, mən and içənəcən, bu zəmbilin içində, rahatca özün üçün oturacaqsan. Zəmbil ağacdan asılmış olacaq. Mən də and içəcəm ki, sən bu torpaqda deyilsən. Bax, hiyleyi-şəriyyə

budu.

İsmayıl heyrət içində dayanmışdı, Çəkdiyi əziyyətləri xatırladı: gizli zirzəmilər, təndirlər, külbələr içində günlər, həftələrlə saxlanmışdı; bir saatlığa zənbil içində oturmaq nə şey idi ki? Uşaq oyuncağı idi! İsmayıl:

– Razıyam, – dedikdə Mirzəli rahat nəfəs aldı. Əlavə binaküzarlıq etmək üçün cəld otaqdan çıxdı. O hər şeyi özü etməli idi ki, nökərlər bu sirrə vaqif olmasınlar.

## B İ B İ X A N I M S U L T A N I M

Müəlliminin qırxı çıxsa da, şahzadə Qazi bəyin otaqlarından şənlik səsləri gəlmirdi. O, vaxtının çoxunu gəzintilərdə, nədimi Salehlə müsahibələrdə keçirirdi. Şahzadənin bütün sirlərindən agah olan Saleh, onun tez-tez bir qəzəli oxumasından şübhələnmişdi.

Canımı yandırdı şövqün, ey nigarım, qandasan?
Gözlərim nuru iki alamdə varım, qandasan?
Bağrımı qal eylədi acı fəraqın, gəl iriş!
Ey ləbi vəslət şərabi-xoşgüvarım, qandasan?
Firqətin xarı məni gör kim na məcruh eyləmiş,
Ey gözü nərgiz, həbibi-gülüzarım, qandasam?

Saleh bu nərgiz gözlü, gülüzlü sevgilinin kim olduğunu bilirdi. Bu müddət ərzində bir neçə dəfə Bibiheybətə getmiş, Şıx Kəbləliyə qonaq olmuşdular. Bir neçə dəfə qocaya nəzir adı ilə xeyli pul və hədiyyələr də aparmışdılar. Şıx Kəbləli cavanların kimliyini bilməsə də, varlı ailədən olduqlarını başa düşür, amma gümanı Bibixanıma getmir, gənclərin belə dindar zəvvar olmaqlarından fərəhlənirdi. Qazi bəyin şahzadə olduğunu ağlına gətirmirdi.
Şahzadə, qəlbində Bibixanımı «Sultanım xanım» adlandırır, gələcək haqqında arzularını getdikcə daha da dostlaşdığı Salehdən gizləmir, ona danışırdı.

...Saray bir-birinə dəymişdi. Şahzadədə gözü olan bütün

əyan və əşrəf qızları onun sadə bir «kəndçi qızına ac-yalavac şıx qızına vurulmasını» eşitmişdilər. Saleh uzun götür-qoydan və mələkənin təkidlərindən sonra məsələni ona açmağa məcbur olmuşdu. Oğlunun xəstə yatağına düşməkdə olduğu, bu eşqin cavan şahzadəni dəli-divana elədiyini görən mələkə məsələni ataya – Şirvanşah Fərrux Yasara bildirmişdi. Fərrux Yasar əvvəlcə hirslənmişdi, sonra da həkimlərin oğluna çarə edə bilmədiklərini, onun gündən-günə zəiflədiyini görüb razılaşmış, mələkəyə demişdi:

– Eybi yoxdur. Nə olsun ki! Saraya o qədər kətçi-kütçü evindən kəniz, cariyə gətirilir ki! Bu da onlardan biri. Cavanlıq həvəsi keçər, gözü-könlü doyar. Sonra istədiyimiz şahzadə, ya da xanzadə qızı alarıq. Cavandı, vaxtı keçmir...

Beləliklə də, Bibixanım istəyib-istəmədiyindən asılı olmayaraq, yurdundan ayrılıb, saraya gətirildi. Yalnız bu zaman qoca baba Şıx Kəbləli dindar zəvvarların kimliyini bildi, cavanların onun qapısına gəldiyi günə lənətlər yağdırıb xəzana düşmüş, bülbülü uçmuş həyatində tək qaldı.

Gəlin bargaha gətirilən günü mələkə bircə şərt kəsdi. Təzə gəlin onun saray dairəsində görünməyəcək, şahzadə üçün ayrılmış hərəm otaqlarında qalacaq. Ona tək bircə qulluqçu, bir də bir cariyə veriləcək. Bişmişini də dərbar mətbəxindən həmin cariyə alıb aparacaq. Kəndçi qızı saraya belə buraxılmışdı.

İlk günlər qəribə bir xumarlıq içində keçdi. Əvvəl də Bibixanım gənclərin gəlişlərində dünyagörmüş babası Şıx Kəbləlidən arif çıxmışdı. Cavan oğlanın məhz onun xətrinə buralara gəldiyini, onun zəvvarı olduğunu duymuşdu. Bəlkə də, oğlanın sevgiyə hazır olan qəlbinin çırpıntılarını öz körpə ürəyinin gözü ilə görmüşdü?! Qoca baba gənclik dövrünü çoxdan keçirmiş, belə hissləri çoxdan unutmuşdu. Ona görə də cavanların olduqca sadə kələklərinə aldanmışdı. Amma Bibixanım özü bu dövrə indicə qədəm qoyduğundan hissləri onu aldatmamışdı. Qızın qəlbi Qazi bəylə həmahəng çırpınmağa başlamışdı. Əlbəttə, o, işin belə bitəcəyini, saraya aparılacağını gözləmirdi. Lakin qədər onu gənc şahzadənin qızğın qoynuna atanda, qız bu hissi dəruni bir

sevinclə qarşıladı.
Doğma yurdundan, dost və rəfiqələrindən məhrum edilmiş Bibixanım «Sultanım xanıma» çevriləndən sonra bütün varlığı ilə gənc və gözəl ərinə bağlandı. Qazi bəy əvvəlcə anasının qoyduğu şərtə əhəmiyyət verməsə də, günlər keçdikcə bunun ağırlığını dərk etməyə başladı. Bütün ünsiyyətlərdən məhrum edilmiş Sultanım xanım, dörd divar arasında qapanıb qalmış, özünə heç bir iş tapa bilmir, darıxırdı.

Sarayda tək qaldığı bu günlərdə qız babasının əncir ağacları ilə əhatə olunmuş balaca həyətini xatırlayardı. Ata-anasını çox erkən itirmişdi. Heç aran-saranı belə xatirinə gətirə bilmirdi. Gözünü açandan özünü babasının dizi üstündə görmüşdü. Bir azacıq böyüyən kimi, qonşuları Xeyransa xalanın köməyilə evin evdarlığını əlinə almış, biş-düş eləməyə başlamışdı. Bundan sonra daha babası ev işlərinə qarışmırdı. Günləri şıxlarla pirin yanında keçir, zəvvar qəbul eləyib yola salırdı. Qız isə Xeyransa arvaddan əncir soyub möcalanda qurutmaqla nüskəndə, qaynadıb qurutmaqla

şirbədüşəndə düzəltmək öyrənir, əncir doşabında ədavalı zincilfərəc bişirir, üzüm və tut qurudur, əncir riçalı, ağ şanı mürəbbəsi hazırlayır, ağır, yavan qışa azuqə yığır, hazırlıq görürdü.

Yayın qızmar günlərində Xeyransa xalaya paltar-palaz yumaqda, yorğan-döşək salmaqda kömək edərdi. Xəzri onları əldən salanda arvad gülə-gülə səslənərdi:
– Qızım, sən ananın ilkisən, qaç bir əncir ağacını yellət.

Onda qız əncir ağacının dibinə qaçar, kövrək budaqları tərpədər və gülərək deyərdi:

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm,
Xəzri get, gilavar gəl.

Külək boğanaq salanda onu «qovardı»:

Ayran verməz öyünə,

Qonaq qoymaz öyünə.

İnanırdı ki, Xeyransa arvadın öyrətdiyi bu «ovsunu» oxuyan kimi xəzri kəsəcək, sərin gilavar gələcək, daha gözlərinə qum dolmayacaq, möcalanda yağtikan üstə gün qabağında sərdiyi kəhrəba kimi əncirləri qum vurub xarab etməyəcəkdi. Sonra da bu qurumuş əncirləri ağ torbaya töküb, qurd düşməsin deyə ağzını tikəcək, qış novxarışını, həşaratdan, tozdan qoruyacaqdı.

Əncir dəyəndə babası yuxudan tezdən durar, acqarına ağacdan dərdiyi şirin, sarı əncirləri yeyə-yeyə nəvəsini yuxudan oyatmaq üçün:

Əncir sabahi,
Doldur tabaği.
Aç qaşqabaği,
Ay sarı sabahi!..

– deyə oxuyar, qızı da şəfalı meyvələrdən yeməyə çağırardı.

Qız da gülə-gülə:

– Ənciri yemədün getdün. Dərdüvi demədün getdün, – deyib oxuya-oxuya babasına qoşulardı. Hərdən həyəti süpürməyə vaxtı çatmazdı, gecə əsən xəzri onun «işini görərdi». Səhər həyətin qumunu yayılmış, təmiz görəndə deyərdi:

– Hə, bax bir, baba, külək gör həyəti necə süpürüb?!

Pıçalların da üstünü örtüb.

Qoca gülərdi:

– Hə, qızım, xəzri tənbəl arvadların qolundan tutub bu gecə, zir-zibillərini ört-basdır eləyib.

Hərdən Xeyransa arvad ona «kişi səni oğlundan da çox istəyir, heç o vaxtlar oğluna belə mehr saldığını, belə qucağına aldığını görməmişdik», – deyərdi. Bir dəfə babasından soruşdu:

– Baba, ay baba, deyirlər məni ata-anamdan da çox istəyirsən, düzdü?

– Düzdü, – kişinin gözləri qıyıldı.

– Nöşün?

– Nəvə şirindi, şirin şeydi.

– Nöşün?

– Nöşünü yoxdu ki, qızım. Bax, ata-anan əkdiyim ağacdı, sən də onun meyvəsi heç görmüsən ağac yeyilə? Meyvəni yeyərlər, mənim balam, meyvəni. – Bu sözlərlə də qoca, nəvəsini bala həsrətli bağrına basır, saçlarını sığallayırdı.

İndi Qazi bəy olmayanda o gah babasının, gah da Xeyransa xalanın səsini eşidir, kövrəlir, şirin uşaqlıq, qızlıq xatirələri boğazını qəhərləndirirdi.

Qazi bəyi sevməyindən peşman deyildi. Amma doğma yurdu, həyəti, qoca babası və ona ananı, nənəni əvəz edən qonşuları Xeyransa xala üçün çox darıxırdı. Arabir Qazi bəylə qılınc məşqindən, ya ovdan qayıdanda qoca babaya uğrayırdılar. Qız o saat ayaqqabılarını atıb qızıl qumlar üstündə ayaqyalın gəzir, quyudan su çəkir, babasının pal-paltarından çirklisi vardırsa yuyub arıdır, qab-qacağını qumla sürtüb təmizləyir, ev-eşiyinə əl gəzdirirdi. Amma bununla belə, bu gəlişlər yad qonaq təsiri bağışlayırdı. Qapının o biri üzündə səbirsiz köhlən kişnəyib onları

çağırırdı. Qazi bəy onun iş görməsinə bir söz deməsə də, qızın qəfəsdən buraxılan təki nə edəcəyini lazımınca bilməyən, pərvaz etməyə qorxan quş kimi hərəkət etdiyini görür, dodaqlarında xəfif, istehzalı bir təbəssüm oynayırdı. Yəni «naxırçı qızı naxırçılığın arzular». Oğlan darıxır, tatarısını uzunboğaz məstlərinin boğazına döyə-döyə bağçanı dolaşırdı.

Xeyransa xala da qapının ağzında qorxa-qorxa görünür, yaşmanıb boylanır və ehtiyatla, qeyri-adi geyimdə ona yad görünən qıza yanaşır, bir gözü oğrun-oğrun şahzadəyə dikilirdi.

– Xoş gördük, xala! – deyə boynuna sarılan Sultanım xanımı, sevinclə olsa da, ehtiyatla bağrına basırdı. Hasarın o biri üzündən deşiklər arasından Xeyransa xalanın qız və nəvələrinin alnı, burnu, gözü görünüb yox olurdu. Bir dəfə arvad onu öpəndən sonra dedi:

– Allah göndərən Quran haqqı, qayınanan, görünür, səni çox istəyir, qızım! Sarımsaq-qatıqlı quru xingal üstünə gəlib çıxmısan. Axı sən onu çox xoşlardın, hər qabağıma qoyanda

sən yadıma düşmüsən, bağrım zədən-zədən olub. Az sonra arvad iri bir mis siniyə çəkib gətirdiyi xingalı qapıdan verib qeyb oldu. Amma Sultanım xanım bu xingalı ürəyincə yeyə bilmədi. Qazi bəyin sarımsaq iyini xoşlamadığını bilirdi. Arvadın «Qayınanan səni çox istəyir» sözlərinə isə hələ üzünü görmədiyi qayınanasının onu necə istəyə biləcəyini demədi. Bu sözə Qazi bəy də güldü.

Sarayda tək qalan kimi xırda-para iş-gücünü görür, sonra da mütəkkələrə dirsəklənib bu şirin xatirələri nəzərlərində canlandırmaqla yaşayır, əri gələnəcən «baba evində dolaşır, danışıb gülürdü». Əri bir iş dalınca saraya, gəzintiyə, məclislərə dəvət olunduqda yalqız qalırdı. Qazi bəy qayıdanda dirçəlirdi. Bu zaman gənc ər gəlininin Ceyran gözlərinin qızardığını görür, o evdə olmadıqda bəlkə də ağladığını, qüssələndiyini anlayırdı. Elə bu vaxtdan da oğlanın qəlbində mələkəyə qarşı qəribə bir kin oyandı. Qızı saray şənliklərindən məhrum edən anasının acığına Sultanım xanımdan özü düşündüyü əsl bir saray mələkəsi yetişdirmək arzusu gəncin qəlbinə hakim kəsildi. Yavaş-yavaş özü bildiklərindən qıza öyrətməyə, ona dərs deməyə başladı.

Sultanım xanım bilikləri elə təbii, təsviri mümkün olmayan ciddiyyət və fitri istedadla qavrayırdı ki, cavan müəllim işə daha böyük həvəslə girişdi. Az müddət sonra qız müstəqil oxuyub-yazmağa başladı. İndi də şahzadə onu qəbiləsinə xas olan tərzdə tərbiyələndirməyə girişdi. Tez-tez gənc döyüşçü paltarı geymiş Sultanım xanımla atlanır, saraydan yalnız özünə və atası Şirvanşaha məlum olan gizli yolla seyrə çıxır, gözlərdən iraq bir yerdə onunla ox atır, qılınc oynadır, at çapırdı.

Belə səfərlərdən birində haradasa tikintilərə baş çəkib atlı qayıdan Fərrux Yasar ilk dəfə gəlinini süvari geyimində, qılınc məşqi keçən gördü, uzaqdan xeyli seyr etdi və bəyəndi. Adətinə rəğmən, gəlini yanına çağırdı, alnından öpdü. Üzünü oğluna tutub: dedi:

– Halal olsun sənə, oğlum! Mən bunu gözləmirdim.

Şirvanşah Fərrux Yasar saraya qayıdınca mələkəni hüzuruna dəvət etdi.

– Sultanım xanımı saray xanımları cərgəsinə daxil etməyin vaxtı çatıb, – dedi, – qarşıdakı Mövludi-Nəbi bayramına onu

da dəvət elə!

– Bu Sultanım xanım kimdi?

– Gəlinin! Sən onu hələ görməmisən?

– Görməmişəm. Görmək də istəmirəm. Nə nire-şotor, nə didari-ərəb![3]

Şirvanşah gülümsündü:

– Əbəs yerə. Əvvəl mən də elə düşünmüşdüm. Amma görəndən sonra anladım ki, oğlumuz yanılmayıb. – Sonra da qaşları düyunləndi, əlavə etdi: – dediyim kimi elərsən. O qız bizim əyan və əşrəf qızlarından heç bir şeydə geri qalan deyil. Əksinə bəlkə, qat-qat üstündür. Çağırtdır. Özün görərsən.

Qazi bəyin fərəhdən uçmağa qanadı yox idi. Bununla belə, qonaqlıqdan əvvəlki bütün gecəni Sultanım xanıma təlim

[3]Nə dəvənin südünü istəyirəm, nə də ərəbin üzünü görmək istəyirəm

verməklə məşğul oldu. Saray adabını[4], anasının könlünü almaq üçün nə etməli olacağını gəlinə başa saldı.

Bütün bu nəsihətlər, demək olar ki, Sultanım xanıma heç lazım olmadı. Qız gözəllik aşiqi olan mələkəni öz təbii gözəlliyi ilə elə ilk baxışdan məftun etdi. Mələkə onun nəcibliyini, qabiliyyətini gördü, az müddətdə oxuyub-yazmaq və hərbi təlim öyrəndiyini biləndə fərəhləndi. Axı o da ana idi. Mələkə olsa da, ana idi. Oğul səadəti ilə köksü dolu bir ana!

Beləliklə, bütün əyan xanımlarının həsədinə səbəb olsa da, Sultanım xanım həm qayınana və qayınatasının məhəbbətini, həm də nökər və qulluqçuların hədsiz hörmətini qazandı.

---

[4]Təlim

Arabir atlanıb Bibiheybətə gedirdi. Hərdən qayınanasını da ziyarətə dəvət eləyirdi. Amma çox vaxt qoca babasının görüşünə tək yollanırdı. Şıx Kəbləli nəvəsinin sarayda kəniz deyil, şahzadə xanım olmasına sevinsə də, onun dəvətini qəbul edib saraya getmədi. Ömrünün sonunacan həyətində tənha yaşadı.

## ZƏNBİL İÇİNDƏ KEÇƏN BİR GÜN

(d a v a m ı)

Günəş bir cida boyu qalxmamışdı ki, darvaza önündə dayanmış dərban iri qapıları laybalay açıb, gələn qoşunun başçılarını içəri buraxdı. Bəhram qazi geniş, bağat həyətdə atdan endi. Təəccüb içində idi. Rüstəm padşah ona sufi şeyxi İsmayıl ibn Şeyx Heydərin burada gizləndiyini və bir neçə qasidə rədd cavabı verildiyini, cocuğun amanda saxlandığını demişdi. O, Mirzəli hakimi yaxşı tanıyırdı.

Cəngavər adam olduğunu bilirdi. Bilirdi ki, qanısından döyüşsüz bir at deyil, qatır da aparmaq olmaz. Əgər şeyx burda isə, bəs onda qapılar açıq, darvaza gələnlərin üzünə güşad nə üçün olsun?

Hakim Mirzəli gələnləri gülərüzlə, əziz qonaqlar kimi qarşıladı.
– Buyurun, buyurun, Bəhram qazi, siz bu diyara xoş gəlmisiz, səfa gətirmisiz.
Dərhal nökərlər atları tutub, təri soyusun deyə bir az gəzdirdilər və axurlarda yerbəyer elədilər. Bəhram qazi qoşununa binanı əhatə edib, özü çıxanacan atlardan düşməməyi əmr etdi. Mirzəli hakimin ardınca sarayın geniş otaqlarına daxil oldu. Səhər süfrəsi açıldı. Yemək-içmək gətirildi. Bəhram qazi başının adamları ilə bir qədər yeyib-içdikdən sonra üzünü Mirzəli hakimə tutub dedi:

– Padşahi-aləmpənaha çatan xəbərə görə Ərdəbil sufilərinin şeyxi İsmayıl ibn Şeyx Heydər ibn Cüneyd burda, sənin amanındadı. Mənim adamlarımı belə xoş xülqlə

qarşıladığına görə sənə minnətdaram, qardaşım! Amma rica edirəm, əgər iş belə isə, ağzımızı boza vermədən, şahın hökmünü icra et və İsmayılı təslim elə. Mən sənə sərkərdə sözü verirəm ki, o bizdə də amanda olacaq. Özü də şahın dost-doğma bibisi oğludu. Ona heç bir zaval toxunmaz.

«Elədi, guya Şeyx İsmayılın qardaşlarının həmin dayıoğlu şahın öz əlilə həlak olduqlarını sən də bilmirsən, mən də bilmirəm». Mirzəli düşüncələrinin gözlərindən oxuna biləcəyindən ehtiyatla cəld dilləndi:

– Mən padşahımızın qasidlərinə olanını demişəm. Şeyx İsmayıl adında adam mənim hökmümdə olan torpaqlarda yoxdur. İstəyirsən Kəlamüllahi-məcidə əl basım, qəsəm yad edim.

– Nə olar. Mən də bu qəsəmi qəbul edib şahın hüzuruna gedərəm, olanını deyərəm.

Mirzəli hakimin əmrilə qızıl suyu ilə işlənmiş, dədə-baba – qədim Quranı gətirdilər. Lahican qazısı ilə birlikdə qoşunun mollası da gəldi. Mirzəli yerindən durub saray hamamına keçdi. Başına üç qab su töküb qüsl elədi, pak oldu, dəstəmaz

alıb məclisə qayıtdı. Qaydaya görə sağ əlini Quranın üstünə qoydu. Həyətdə tutun sıx yarpaqları arasında budaqdan asılmış zənbilə tərəf baxmamağa çalışırdı. Qəlbində gecə yuxuda gördüyü «o əl sahibini» düşünərək deyirdi: «Ya şeyx, ey ruhların ruhu, ey dinimizin mübəlliği, ey sufilərin rəisi! Sənin övladını, sənin vəsini bu zalımlardan xilas etmək üçün qəsəm yad etməkdə, and içməkdə mənə qüvvət və iradə ver! Şəfaçım ol!» Sonra da üç dəfə salavat çevirib, əlini Quranın üstünə çəkdi. Sükunətlə, hər bir kəlməsi yaxın və uzaqda durmuş padşah adamlarının beyninə həkk olunsun deyə ucadan səsləndi:

– Quranı-məcidə and içirəm. İsmayıl ibn Şeyx Heydər ibn Şeyx Cüneyd mənim torpaqlarımda yoxdu. Onun ayağı mənim torpaqlarıma dəymir.

...Bəhram qazi igid sərkərdə idi. Özü kimi cəngavər və cavanmərd bir döyüşçünün adi sözüna inanmayıb, qəsəm almasından xeyli mütəəssir olmuşdu. «Qəribədi şahımız, vallah! Dost-doğma bibisi balalarının ikisini yox eləyib, ürəyi soyumayıb. İndi də düşüb bir xırda uşağın dalıycan.

Guya o sağ qalsa, ölkə viran olacaq. Mən boyda kişi ki, bu hörmətdə bir zatı sovsaqqal eləyib. Məni üzü qara, onu etibarsız eləyib». Bu düşüncələrlə də Bəhram qazi yerindən dikəldi və dilləndi:

– Məni xeyli mütəəssir etdib, cənab Mirzəli! And olsun indicə əl basdığın kəlama, nə qədər ki, mən Rüstəm padşahın xidmətindəyəm, sənin qapın amanda olacaq! Məni bağışla, əmr qulu olmaqdan betər şey yoxdu dünyada.

Mirzəlinin qəlbinə bir rahatlıq gəldi. Mehribanlıqla qonağına cavab verdi:

– Nə danışırsan, qardaşım?! Məgər mən sənin vəziyyətini başa düşmürəm? Biar adamların dili lal olsun, padşahı da yoldan çıxaran, qulağını dolduran onlardı. Mənim də bir əlim harayçıdı, bir əlim bəlkəçi.

Bəhram qazi artıq qala bilmədi, qalxdı, atlandı və ev sahibi ilə vidalaşıb çıxdı. Qoşununu da çəkib getdi. Onlar heç yarım ağac evdən uzaqlaşmamışdı ki, Mirzəli hakim İsmayılın havadan asılmış «həbsxanasına»yaxınlaşdı, öz əli ilə bağladığı ipləri açdı, yeri rahat olsa da, uşaq, zənbildə

oturub solğun sifətində indi çox iri görünən gözləri ilə kişiyə baxırdı. «Solğun!.. Olar daa!.. Gün işığını harda görüb? Külbədə! Göyü harda görüb? Bacada! Yazıq uşaq!»

Gülümsəməyə çalışdı.

– Şeyxim, daha heç nədən qorxmaya billik. Mən Bəhram qazinin sözlərinə ürəkdən inanıram. Nə qədər ki, o, şahın xidmətindədi, bizim ev də amandadı, sən də. Amma genə də ehtiyatlı olmalıyıq: Axı büdrəməyən ayaq, çanşayan dil olmaz.

İsmayıl zənbildən çıxdı, gizlətməyə çalışdığı həyəcanı hələ keçməmişdi. Bununla belə, hakimin sözlərini cavabsız qoymaq istəmədi. «Qoy bilsin ki, yolumda çəkdiyi zəhməti anlayıram». Dedi:

– Mən hamısını eşidirdim! Cəzayi-xeyrini Şahin-mardan Mürtəza Əli özü versin.

– Allah ağzından eşitsin, şeyxim!

Beləliklə da, İsmayıl, Mirzəlinin sarayında tam altı il qaldı.

***

Qabaqda Bayram bəy Qaramanlı gedirdi. Atlı qoşun onun ardınca düzü-dünyanı tutmuşdu. Süvarilər geniş meydan tapmış, dövran edən cıdırçılar kimi bir-birini qovaraq çapışırdılar. Bayram bəy çaya çatınca durdu. Bir atdöşü qədər ondan aralı gələn çarvadar-bələdçi Hüseynə döndü:

– Kür budu?

– Budu, bəy!

– Nə lal axır?

– Lallığına baxma, bəy, adı kimi özü də kürdü.

– Bu çayı keçmək çətin olacaq?

– Elədi qurban!

– Nə edək?

– Ayrı yol yoxdu. Ən dayaz, keçməli yer buradı.

– Bunun harası dayazdı? – deyə Bayram bəy, atının cilovunu çəkdi.

Qoşun onlara çatdı. Kimisi çayın lap qırağında atını sulayır,

kimisi yəhərdən enib özü də sudan sirab olurdu. Əl-üzünü yuyan da var idi. Bayram bəy tərəddüd içində yəhərdə oturub qalmışdı. «Keçin» əmrini verməyə dili gəlmirdi. Atı bu dilsiz axan qorxulu, nabələd suya salmağa cürəti çatmırdı.

Birdən arxasında dayanmış atlılar aralandı. Gənc padşah irəli gəldi. Üzü niqablı idi. Şeyx oğlunun üzünü natəmiz adamlar görməməli idi. Niqabı qaldırmadan Bayram bəy Qaramanlıya yaxınlaşdı:

– Piyə durmusuz? Niyə keçmirsiz?

– Hökmdarım, atları bu sulara salmaqdan ehtiyat eləyirəm. Deyirəm bəlkə axtaraq, keçməli irah bir yer tapaq.

– Çarvadar nə deyir?

– Buranı salah bilir, hökmdarım!

«Qibleyi-aləmin» on dörd yaşı vardı. Amma onu yəhər üstündə yaşını bilməyib görənlər iyirmisini haqlamış bir cavan zənn edərdilər. Uca qaməti, hərbi zirehli geyimdə mütənasib, qıvraq əndamı cavan pəhləvan qamətinə

bənzəyirdi.

İsmayıl qətiyyətlə başını qaldırdı. Niqabın gözlüklərindən Bayram bəy Qaramanlıya iti bir nəzər saldı: «Görünür, sənin qəlbində düşmənə qarşı kin və qəzəb odu qalanmayıb. Görünür, sən körpə ikən İstəxr qalasında nəm zirzəmilərdə anan və  qardaşlarımla  birgə sürgün olub yatmamısan. Balışın daşlar, yorğanın buludlar olmayıb. Görünür, səni hər xışıltıdan gizlətməyiblər. Zənbilə qoyub ağacdan asmayıblar. İki qardaşın və bütün nəslin, arvadlı-kişili, uşaqlı-böyüklü qırılmayıb. Yox!.. Onda sən tərəddüd etməzdin. Görünür, sənin dini-mübin yolunda canın qurban deyilməyib. Mənim isə bütün bu yollardan keçən cismim düşmənə nifrət hissilə doludur».

– Ardımca! – deyə gənc hökmdar qamçısını qaldırdı və atını birinci olaraq lal axan çaya vurdu. Bayram bəy, Çayansultan, Qayıtmaz bəy, Xüləfa bəy, Lələ Hüseyn bəy, Div Sultan və başqa sərkərdələr gənc hökmdarın qətiyyət və cürətinə heyrət və iftixar edərək ardınca düşdülər. Onlar

İsmayılın dalınca çayı keçdikcə gənc İsmayılın nə isə dediyini gördülər. Lələ Hüseyn bəy çayı keçə-keçə sükut işarəsi verdi və dinlədi. İsmayıl öz ordusunu ruhlandırmaq, ürəkləndirmək, yaxın adamlarını daha da cürətləndirmək üçün oxuyurdu.

Nə yerdə əksən bitərəm,
Xanada çağırsan yetərəm,
Sufilər əlin tutaram,
Qazilər, deyin şah mənəm.

Mənsur ilə darda qaldım,
Xəlil ilə narda qaldım,
Musa ilə Turda qaldım.
Qazilər, deyin, şah mənəm.

Onun sakit, sadə sözlərinin deyilişində bir çağırış, qəlblərə coşqunluq gətirən bir deyiş var idi. Bu səs adamlarının qəlbini ümidlə doldurur, onlara inam təlqin edirdi. Az sonra dostları, ərənlər, ozanlar bu sözləri dillərdə əzbər edən

musiqi parçalarında oxuyub az qala ibadət himninə çevirəcəkdi.

Qırmızı taclı, boz atlı,
Ağır leşkərə nisbətli.
Yusif peyğəmbər sifətli
Qazilər, deyin şah mənəm!

Xətaiyəm al atlıyam.
Sözü şəkərdən dadlıyam,
Mürtəza Əli zatlıyam,
Qazilər, deyin şah mənəm.

Ordu öz gənc hökmdarının ardınca çayı keçdi. Bir nəfər də tələfat vermədilər. Sonuncu qızılbaş, çayı keçdikcə Lələ Hüseyn bəyin qəlbindən onu titrədən «şir balası doğulan kimi şirdi» sözləri keçdi. Gözlərində yetirməsi və indi mürşidi olan bu zahirdə gözəl, batində pak gəncə qarşı fərəh

yandı. Lələ Hüseyn bəy Xülafa bəyin hər ikisinin ürəyindən onları riqqətə gətirən bir «Afərin!» nidası qopdu.

– Şeyximiz, mürşidimiz min yaşasın!

– Var olsun mürşidi-kamil!

– Yaşasın şahi-cavanbəxt!

Səslər, nidalar, afərinlər göyləri dəldi, ordunu titrətdi. İndi on dörd baharlı qəlbi intiqam hissilə coşsa da sonralar dağınıq xalqı bir hakimiyyət altında birləşdirməyə can atan cavan şair hökmdara elə indidən hamı səs verdi. Təriflər, yaşına uymayan ləqəblər, müraciətlərdən başı gicəllənmədi, özünə məğrur olmadı. Bütün bunların nüfuzunu möhkəmlətmək istəyən müqərrəbləri üçün zəruri olduğunu anlayırdı.

## BİR QƏBİLƏNİN SONU, YAXUD AYTƏKİNİN TALEYİ

Xəzərim, ürəyim, pənahım mənim, sahilindən xeyli uzaqlarda Ləngəbiz dağ silsiləsinin lap qurtaracağında bir qəbilə var idi.

Qəbilə karvan ayağından xeyli uzaq, şəhərlərdən aralı bir yerdə məskən salmışdı. Yüz illər idi ki, dünyada çox işlər baş verirdi. Bu torpaqlar gündə bir Cahangirin əlinə keçirdi. Gah monqollar, gah teymurilər, gah ağqoyunlu və daha bilmirəm kimlər gəlib gedirdi. Amma qəbilənin bu kəşməkəşlərdən, demək olar ki, xəbəri yox idi. Doğrudur, bir zaman hansı bir islam mübəlliri isə bu yerlərə də gəlib çıxmış, onları islama dəvət etmiş, uzun müddət kənddə yaşamışdı. Şəriət adabını özü bildiyi şəkildə onlara təlim etmiş və burada da ölmüşdü. Qəbilə ağsaqqalları onu qəbiristanda dəfn etmişdi və məzar müqəddəs bir yerə çevrilmişdi. Amma qoca öləndən sonra qəbilənin bir çox köhnə adətləri yerinə qayıtmışdı.
Adətlərin çoxunu da qarılar qoruyub saxlayır, onlara təzə don geydirə-geydirə əsl kökünü mühafizə edirdilər.

Görürdün ki, təzə gəlin gələn günün ertəsi, günəş çıxan kimi, qarılardan biri gəlini yerindən qaldırıb onu günəşi salamlamağa apardı. Andlar da başqalarının yanında dini olurdu, ailə içində isə yenə də «O gün haqqı, bu ocaq haqqı şamçıraq haqqı» və s. deyərdilər.

Bu yerdə hələ uşaqlara «Quran»dan çıxarılan ad qoyan az idi. Qocanın vaxtında doğulan uşaqlara molla «Qurandan ad çıxarıb» verirdi. Beləliklə də, bu yerlərdə xeyli Məhəmməd, Bəkir, Əhəd, Əhməd kimi adlar meydana gəlmişdi. Qəbilənin qoca nənələri bu adları qəlbən qəbul eləməz, öz aralarında uşağa qəbilə adətincə doğma ana dilində ad verərdilər. Uşaqların iki adı olurdu. Biri rəsmi-dini biri isə evdə, ata-ananın çağırdığı. Bu yerlərdə adı uşağa təbiətin özü qoyardı. Uşaq doğulanda təbiət necə idisə, körpəyə ona bənzər ad verər, çağanın gələcək xasiyyət və taleyini də bu adla əlaqələndirərdilər. Qəbilədə belə adlar çox idi: Boran, Yağmur, Bulud, Toran, Səhər, Güney, Quzey, Gündoğdu, Aydoğdu, Aydoğmuş, Ayaz, Duman, Çovğun, Günəş, Aytəkin, Ayxanım, Güntəkin, Tuğay, Aysel, Aysu... Əgər

doğuş günü təbiətlə əlaqəli ad mümkün olmurdusa, onda uşağın ilk baxışda təsiri – saçı, gözü, rəngi ilə düşərli ad qoyardılar: Qaraçığa, Qaratel, Altıntel, Altınsaç, Altıncığa, Gülümsər, Ağçiçək, Alçiçək, Çəmən, Qaysı. Gələcəyə hansı bir arzu iləsə: Quşluxan, Oğulbikə, Xanoğul...

İldə bir dəfə biçin vaxtı böyük şəhərdən amil gələr, vergiləri yığıb aparar, qəbilə başçısının evində qaldığı bir-iki gündə qəbilələlilərin həyatına maraq və bir qədər də qorxu ilə baxar, hiddətlə deyərdi:

– Əşi, siz necə müsəlmansız? Vallah, ayırd eləyə bilmirəm. Govur da sizdən yaxşıdı...

Vaxtilə qoca əfəndi qəbilənin «Odlu» adını dəyişib «Məhəmmədli» qoymuşdu. Rəsmi amil kitablarında indi qəbilə beləcə də qeyd olunmuşdu. Amma amillərin dilində kənd «Govurlar» olub qalmışdı. «A balam, amil, haradı səfərin?» sualına mütləq ağızlarını əyib «Govurlara» cavabını verərdilər.

Hekayətimizin baş verdiyi illərdə qəbilə yarımköçəri həyat keçirirdi. Əslində, köçərilikdən yalnız iz qalmışdı. Belə ki, qəbiləlilər həm heyvandarlıq, həm əkinçiliklə məşğul olurdular. Kişilər Günəşli çayın hər iki sahilindəki çəmləri əkir, Günəşlinin suyu ilə suvarırdılar. Bu il sağ sahildə taxıl əkəndə, gələn il həmin yerdə bostan becərirdilər. Çox da uca olmayan vadini əhatə edən dağların hamar döşlərini də becərirdilər. «Dəmyə yeri» adlandırdıqları bu yerlərin çoxunu çəmlərin azlığından meşələri qıraraq əldə etmişdilər. Qalan dikdirlərdə mal və qoyunlarını otarırdılar. Yazın axırına yaxın arvad-uşaq bir neçə çobanın müşayiəti ilə dağa köçürdü. Kişilər və qarılar aranda qalır, taxılı, bostan məhsulunu yığıb yerbəyer eləyirdilər. Biçib-sovurmağa adətən, yayın lap axırında – payızın əvvəllərində başlayırdılar. Çünki yalnız bu zaman sovruq atmaq üçün münasib külək olurdu. Ela bu zaman da kəndə yadların ayağı açılırdı. Amil gəlirdi. Onun dalınca da xırmanın qırağını dərvişlər, gəzəri seyidlər, mollalar, əfəndilər və daha bilmirəm kimlər kəsdirir, çuvalının ağzını açıb, biri

şahın, biri əmirin, bir çoxu da cəddinin din payını istəyirdi. Öz qədim dədə-baba dinindən ayrılmış, lakin hələ də yeni dinin təriqət fərqlərini dərk etməyən qəbilələlilər, din adından qorxur, kim nə istəyirdisə verirdilər.

Qalan buğdadan bir qədər payızın əvvəli üçün kəndin qənşərindəki su dəyirmanında un çəkdirər, qış azuqəsini də evlərin böyründə, damların dibində qazılmış quyularda basdırardılar.

Qəbilələlilər bazar-dükan tanımaz, şəhərin yolunu bilməzdilər. Kəndə arabir «məmələsatan» gəlirdi. Bu səyyar satıcılar özləri ilə buraya meyvə, həmin kənddə olmayan başqa matah gətirir, buğda-arpa ilə birə-bir, ikili və s. yol ilə çəkib dəyişərdilər... Arabir buralara çərçi, xırdavatçı yolu da düşərdi. Qız-gəlinlər çərçini, xırdavatçını əhatə edib, güzgüdən, daraqdan, əlvan sap, qaytan, hərəmi, bafta, saçaq, müxtəlif parça və s. alardılar. Əksər geyim evlərdə, yer hanalarında toxunan parçalardan olardı. Xüsusilə kişilərin geyimi yer hanasında toxunan şal, çuxalıq, patavalıq idi.

Ayaqları çarıqdan başqa, ayaqqabı tanımazdı. Daimi çərçi, xırdavatçı, «məmələsatan» qonağı olan qəbilələr qohum və yaxınlarından sifariş götürər, gedib-gələn olanda «bəkili qonağına», «şəkili qonağına» ismarış göndərər, istənilən maldan gətirməsini tapşırardıq. Amma bu alverçilər özləri əsasən yağmurlar başlanmamış, xırman üstünə gələr, əkinçinin əli dolu, könlü xoş olan vaxtında gətirdiyi matahı satıb gedərdilər.

Elə qəbilə ağsaqqalları da dünyada baş verən hadisələri həmin kəlmələrdən öyrənərdilər. Bir ay, bəlkə də beş ay sonra bilərdilər ki, dünyada qan su yerinə gedirmiş. Çünki üç ay qışı, üç ay da yazı bu yerlərə çərçi ayağı dəyməzdi. İlin demək olar ki, altı-yeddi ayını qəbiləlilər özlərindən başqa heç kimin üzünü görməzdilər. Qəbilənin tutma çobanı, naxırçısı, biçinçisi olmazdı. Bütün bunlar ev başına növbətilə görülür, «nobat» kimə düşsə, həmin ailənin bir üzvü naxıra gedərdi. Başıpapaqlısı olmayan evlərdə arvad naxıra getməz, onu qonşu başıpapaqlı əvəz edərdi. Qəbilədə elə gözədəyimli bir dövlətli olmasa da, yoxsul var idi. Kişisi

olmayan evlərdən birinin xırda oğlu quzu, buzov otarardı. «Süd günü» hesab olunan həftə günlərinin birinda qəbilənin bütün evləri südü buzovçuya verərdi. Mal-heyvanı olmayan bu evin arvadı «süd gününün» südünü yığıb nehrə çalxardı. Ruzuları da buna bağlı olardı. Qəbiləyə şənbə-çərşənbə kimi gün adlarını həmin dindar qoca öyrətmişdisə də, bu çətin adlar qarıların yadında qalmırdı. Bəlkə də, qəsdən yadda saxlamaq istəmir, günləri öz qədim adətlərinə xas günü, duz günü, tək günü, süd günü, ayna günü adlandırardılar.
Ayların da adını qoyunçuluqla bağlamışdılar: güzdük, döl, dölardı, qarbasan, boza, körpə, dıbara, əmlik...

Hekayətimizin baş verdiyi günlər yaza təsadüf etmişdi. Qış quraqlıq keçdiyindən qəbilə əhlinin günü o qədər da yaxşı deyildi. Yaz gecikmiş, ot gec göyərmiş, heyvanlar qışdan arıq çıxmışdı. Süd az idi.
Çiçək arvad yaradanın qarasınca deyinirdi:
– Qurbanı olduğum, göydən bir damcı damızdırmır, ot-ələf hardan olsun?

Arvad deyinə-deyinə qəbilənin ağsaqqalı Məhəmməd-Buludun evinə tərəf yönəldi. Sərnicin dibində azacıq süd vardı. İndicə qonşusu Aysu qız sağdığı südü ona vermişdi. Demişdi:

– İşıq haqqı, Çiçək nənə, olanı budu ki, sağmışam.
– Bilirəm, ay bala, bilirəm, and niyə içirsən? Hamınınkı belədi, bir siz deyilsiz. Qurbanı olduğum yağdırmır, neynəmək olar.

Məhəmməd-Buludun qapısına çatanda çərçi Öməroğlunu orada gördü. Kişi atdan təzəcə düşmüşdü, noxtanı tövlənin qənşərindəki yay axurunun deşikli daşına bağlayırdı. Qarını görcək köhnə tanış təkin salamlaşdı:
– Xoş gördük, ay Çiçək qarı!
– Xoş günün olsun, qardaş, xoş gəlmisən. Nə əcəb bu gün tək gəlmisən?
– Əcəb camalın, ay Çiçək, zamanadı da... Olanda olur...
– Zamanadan demə, qardaş, yer-göy yanır. Külfət böyüyəndə dərd-səri artar. Qurbanı olduğumun da biziynən

qəsdi-qərəzi var...

– Elə demə, Allaha xoş getməz! Özü bilən məsləhətdi...

– Hə... nə deyirəm ki!.. Budu, süd günüdü, süd yığıram, uşaq yeddi gün yanın yerə qoymayıb... Elin dana-buzovun otarıb, yazıqların sağıb mənə verdiyinə bax... Oxşayıb ağlayanda, gözümdən bundan çox yaş gedir...

Səsə Məhəmməd-Buludun arvadı Gümüşbikə çıxdı. Öməroğluya xoşgəldin elədi:

– Xoş gəlmisən, qardaş! Kişi də evdə yoxdu. Ağ arxaca gediblər. Uşaqlar səhər üzü xəbər gətirmişdi ki, gecə bir bölük qoyun canavardan təzib, baş götürüb harasa gedib... – Bu sözləri deyə-deyə Gümüşbikə damın kölgəsinə qoyduğu sərinci aldı, içində başı azacıq aşağı süd vardı. Çiçək arvadın sərnicinə süd boşaltdı.

– Hər süd günü iki sərnic süd verirdim, ay Çiçək, zamananın üzü qara olsun.

– Bilirəm başuva dönüm. Neynəmək olar? «Elnən gələn qara gün bayramdı», deyərlər. Tanrı buna da bərəkət versin, verməsə neyləyərik? Nə fəddəsən, Gümüş?

– Qayınxatınıma çörək apardım, dəyişdim yaymeynan, neynəyim, ay başuva dönüm, kişi təndir əppəyi istəyir, bişirirəm. Amma özüm tərəkəmə qızıyam, təndir əppəyinə öyrəşməmişəm, yeyə bilmirəm.

Çiçək qarı həhətdən çıxmamış Məhəmməd-Bulud, oğlu Əhməd-Güntəkin ilə birlikdə qapıya yetişdi. Atlardan enib Öməroğlu ilə görüşdülər.

– Xoş gəlmisən.

– Xoş günün olsun.

– Salamatlıqdımı? Evdəkilər necədi?

– Hamısının salamı var. Yaxşıdılar.

– Dünyada nə var, nə yox?

– Köhnə dünyadı, xəbərləri təzə...

– Yaxşı xəbər olsun, nə olar.

– Yaxşısın görmədim, yamanına dilim varmır.

– Genə də olsun?

– Qanlı-qadalı dünya genə qan-qan deyir. – İndi kim-kimi basır?

– Deyir o Ərdəbil şəhəri var ha, orda bir padşah peyda olub, Şıx oğlu şahdı. Deyir, təzə din gətirib...

– Müsəlman deyillər?

– Deyir, müsəlman olmağına müsəlmandı, amma bizim kimi müsəlmanları qırır.

Çiçək arvad sərnicini yerə qoyub qulaq kəsdi. Dinləməyə başladı. Məhəmməd-Bulud və Əhməd-Güntəkinlə Gümüşbikə heyrət içində Öməroğlunun sözlərinə qulaq asır, baş çıxara bilmirdilər.

– Hə, deyir bunlar da müsəlmandı,  amma başqa cüründəndir.

– Deyir batman Qurana, on iki imama and içdirir. İman gətirdir.

– Batman. Quranı görmüşəm. On iki imam kimdi?

– Mən də sənin kimi, nə bilim.

– Yaxşı, bəs bizim kimlərnən nə işi var? Hərə öz dinində, öz yolunda qalsın, dayna.

– Yox! – Deyir bu bizim tərəflərdə Şirvanşahın dədə-babasıynan onun dədə-babasının qannılığı var. Qanın alır. Özü də müsəlmanlığın ayrı cürünnəndi, bizi də o dinə çəkmək istəyir. Dönməyəni də, deyir, qılıncdan keçirir.

Çiçak qarı və Gümüşbikə hər ikisi birdən səsləndi:

– Allah, sən saxla!

– Ha balam, elə «Allah, sən saxladan» başqa çarəmiz yoxdu. Yaxşı, sənin bu xəbərlərinin kökü düzdü, görəsən, ya elə ağzın avara qoyanların qayırmasıdı?

– Nə danışırsan, qardaş? Elə bu xəbərləri düz-tamam bilməsəydim, ilin bu çağında bura gəlib at bağrı çatladardım? Dedim, mən sənə xəbər eləyim, sərvaxt olasan, həm də buralarda bir az nisyəm-alacağım var, onu yığım...

– Çox yaxşı eləmisən, xəbər eləmisən. Amma alacağın barədə zəhmət çəkmisən. Öməroğlu, indi camaatda hax verməyə güc hanı?

– Orası elədi, amma Tanrı haqqı biz də siz gündəyik. Evlərdən qulağa kəfkir səsi gəlmir. Quraqlıq biz tərəflərin da amanını kəsib. Dedim, bəlkə, azdan-küçdən bir şey əlimə

düşdü.

– Heyvan bəlkə də oldu, amma dən söz verə bilmərəm...

– Bu qırğının, davanın içində mən heyvanı neynirəm, qardaş?

– Nə deyim, özün bil, alacaqlarına dəyərsən. Hələ keç çörəkdən-zaddan bir şey ye! Ağa durub, ağacan durub.

Gümüşbikə yemək tədarükü üçün evə keçdi. Öməroğlunun sözündən alınmış Çiçək qarı satılını götürüb, öz-özünə danışa-danışa evinə tərəf yollandı.

A gözəgörünməz tarı, elə bircə bu qalmışdı fağır-fuğaranın başına gəlməmiş? Bu nə işdi düşdük, tarı? Bu dava salanı milçək olsun divara yapışsın, it olsun öz qapısında hürsün. Biznən nə işi?

Öməroğlu çörəyini yeyib qurtarmamış dava xəbəri ayaq alıb kəndi gəzdi.

Bütün dünyası bircə öz qəbiləsindən – kəndindən ibarət olan Çiçək qarı müharibə haqqında yalnız nağıllarda

eşitmişdi. Cavanlığında bir neçə dəfə təbəh davası görmüşdü. O zaman kənddə iki cavan, bir gözəl qızı sevib istəmiş, qız bunlardan birinə meyil etdiyi üçün, cavanların arasına küdurət düşmüş, qohum-əqrəbaları ikiyə bölünmüş və sapand davası başlamışdı. Hər iki tərəf sapandlara qoyduqları daşları bir-birinə tullamış və xeyli yaralanan olmuşdu. Kənd ağsaqqalları araya düşüb, mərəkəni yatırtmışdı. Bir dəfə də hansı bir köçəri tayfa isə onların yerlərinə gəlib çıxmış, otlaqları otartmış və qəbilə əhli bütünlükdə köçəriləri qovub öz yerlərindən çıxarmışdı. Onda da kişilər çuxalarını qollarına dolayıb çomaqlarını işə salmışdılar. Yenə xeyli yaralanan, başı-gözü əzilən olmuşdu. Amma ölən olmamışdı. Çiçək qarı ölümü yalnız xəstəlikdən və qocalıqdan bilərdi. Ağlına da gəlmirdi ki, nağıllardakı kimi, azğın bir hökmdar onunla işi-gücü olmayan adamları qarının anlamadığı naməlum səbəblərə göra qıra bilər. Odur ki, Öməroğlundan eşitdiyi xəbərə həm inanmış, dəhşətə gəlmiş, həm də ürəyinin dərin bir guşəsində bu xəbərin bəlkə də bir nağıl olduğuna şübhə oyanmışdı. Bununla belə, süd üçün getdiyi bütün qapılarda təzə xəbəri söyləyib,

hamının həyəcanına səbəb olmuşdu.

Hər nə idisə, Məhəmməd-Bulud ilə Öməroğlu çörəklərini yeyib qapıya çıxanda burada xeyli adam gördülər. Hamı gözünü qəbilə ağsaqqalının ağzına dikib dayanmış, onun nə edəcəyini gözləyirdi.

Məhəmməd-Bulud kəndin başbilənlərindən bir neçə kişini otağına dəvət etdi, qalanlara hələ ki, bir təhlükə olmadığını söyləyib, iş-güclərinə getmələrini tapşırdı.

Camaat dağılışdı. Ağsaqqallar evə girib məşvərətə başladılar. Kənd camaatı bu davanın da keçənlərdə gördükləri çomaq və sapand vuruşmalarından olacağını zənn edib hazırlıq gördülər, iri çomaqlar, qolçaq üçün çuxalar, böyük ayalı sapandlar hazırladılar, uşaqlara çoxlu daş yığdırdılar. Bununla da hazırlıq bitdi. Hərə öz adəti iş-gücünə daldı.

Məhəmməd-Bulud qonağı yola salandan sonra qəlbində

anlaşılmaz bir təşviş duyurdu. Odur ki, Öməroğlunun dava gedən səmti göstərdiyi yerə adam göndərib, doğru xəbər öyrənmək istədi. Bunun üçün də oğlu Əhməd-Güntəkindən münasib adam bilmirdi. Səhəri gün dan yeri qızaranda Güntəkinə lazımi göstərişlər verib, onu qəbilə torpaqlarının şərqində Öməroğlunun dediyi yerlərə göndərdi. Güntəkin həmin gün evə qayıtmadı. Ertəsi gün şam namazı qayıtdı. Atasını evin kəlləsinə çəkib gördüklərini xəbər verdi:

– Qoşun düzü-dünyanı tutub, dədə! Hamısı da qılınclı, qalxanlı, oxlu, nizəli. Hələ arabalarda bilə-bilmədiyim, görmədiyim dava sursatı, mancanaqlar var idi. O qoşunla bizim vuruşmağımız çətin olacaq, dədə! Bizim çomaqla, sapandla heç bir gün də onların qabağında duruş gətirə bilmərik.

– Bəs nə tədbir görək, bala?

– Bilmirəm, dədə! Mən biləni ən yaxşısı bu yerlərdən baş götürüb getməkdi.

– Hara? Camaatı necə inandırım? Əkinəcəklərini, biçənəklərini, mal-qaralarını hara töküb getsinlər? Ev-

eşiklərindən necə ayrılsınlar?

– Onu da bilmirəm, dədə! Amma bir gün at çapışı boyu neçə kənd gördüm – hamısı xaraba qalıb. Camaatı qırıblar. Ələ keçənləri də əsir tutub aparıblar qul bazarında satmağa... El qan ağlayır, dədə!

Kişi xeyli fikirləşdi. Düşündü və nəhayət, dilləndi:

– Bilirsən, bala, qoy mən ağsaqqallarla məsləhətləşim. Deyirəm qalxaq. Bax, o Güngörməz dağın döşündəki düz yerdə ala-babat qazmalar, komalar quraq, arvad-uşağı köçürək ora. Özümüz də silahlanıb düzdə əkin-biçinimizə, heyvanatımıza yiyəlik eləyək. O yer ki, mən deyirəm, oraya bircə yol var. Onu da bir neçə adam qoruya bilər. Ayrı nabələd adam ora çıxa bilməz.

Bu sözlərlə də, kişi düzənliyin axırını, çayın hər iki tərəfdən sıldırımlı dağlarla əhatə olunduğu səmti göstərdi. Doğrudan da, Güngörməz dağı təbii qala misallı yer idi.

– Bəs su? – deyə oğlan şübhə və ümidlə soruşdu.

– Nə qədər ki, düşmən yaxınlaşmayıb, suyu qızlar-gəlinlər kükümlə, sənəklə düşüb çaydan gətirərlər.

– Bəs birdən mühasirə olunduq?

– Əlacı var. Güngörməzin quzeyində qayaların bir yeri batıqdı, çaya ordan ensiz cığır çaparıq. Qiblədən düşmən görməz, dalı da çayın ensiz dərəsidi, heç nə güman gələr, nə göz görər. Cığırın ayaq hissəsini lağımla çaya birləşdirərik.

Dədə-baba bu haqda xeyli düşünüb məsləhətləşdilər, – Dədə, onda Cığırı və lağımı elə indidən hazırlamaq lazımdı.
– Hə, köç başlanan kimi.

Sübh namazı qılınmamış qəbilənin köməyi haqqında söhbət hamıya məlum oldu. Heç kim bir söz deyə, etiraz edə bilmədi. Çünki evini-alaçığını qalaya bənzər qaya üstünə qaldıran birinci elə Məhəmməd-Bulud özü oldu. O, təcili surətdə gənc qəbilədaşlarını ikiyə böldü: birinci dəstə Əhməd-Güntəkinin başçılığı ilə Buludun nişan verdiyi yerdə yarğan-cığır qazmağa, ikinci dəstə Güntəkinin dostu, igid Ayazın rəhbərliyi ilə təzə kənd yerində tələsik alaçıqlar, daxmalar qurmağa başladı.
Əli dəyənək tutan Buludun yanına cumdu, «bizə münasib qulluq ver – buyur», – dedi. Amma dava söhbətinə

inanmayan ən çox arvadlar idi. Onlar yurd-yuvalarından heç yana getmək istəmirdilər. Bulud kişi qadınları sakitləşdirmək və yola gətirmək üçün dedi:

– Mənim əziz bacılarım və analarım, «Ər qarağan kolunun dibində otursa, arvad da gərək gedib onun yanındakı yovşan kolunun dibində əyləşə», – deyib dədələr. İndi biz hələlik oranı məsləhət bilirik. Düşmən ötər, ütü keçər, balalarımız salamat qalar, yad ellərə əsir getməz. Sizin – ana-bacılarımızın, qızlarımızın, gəlinlərimizin namusu ayaqlar tapdağı olmaz. Bizim o qoşuna, Əhməd özü görüb, gücümüz çatmaz. Güngörməzdə gözdən iraq olluq. O atası rəhmətlik Öməroğlu bizi vaxtında ayıldıb. Söz verirəm ki, ütü keçən kimi, öz əlimnən sizi köhnə yurdumuza qaytarım. A dəli qarılar, ömür billah quş deyilik ki, qaya üstündə oturaq!

O bu sözlərlə də arvadları yola gətirdi. Odur ki, indi arvadlar və uşaqlar ev əşyasını dallarına çatıb yuxarı qaldırır, tikintidən azad olan kişilər də mal-qaraya gözətçilik edirdi. Çobanlarda təkbir xəncər, bir də haradansa Buludun

tapıb verdiyi qılınc var idi.

Çiçək arvad üzünü göylərə tutub duanı nifrinə qatırdı.

– Xıdır Nəbi, Xıdır İlyas, bəndəni bəndədən xilas!

Keflər duru olmasa da, ona sataşan tapılırdı:

– Ay arvad, onu hamilə zənən doğanda deyərlər.

– Başıma xeyir, elə bu bəndəsindən can qurtarsaq, təzədən dünyaya gəllik!

İkindi vaxtı camaat namazını həmin qaya üstündəki əl boyda yerdə qıldı. Düzənlikdən baxanda nə qazma, nə də alaçıqlar görünürdü. Qəbilənin əski, indicə sahibləri tərəfindən tərk edilmiş evləri isə qəribə bir sükuta dalmışdı. Elə bil adamlar yatmış, ya da harasa qonaq getmişlər. Bir az sonra qayıdacaqlar, soyumamış ocaqlar tüstülənəcək, boş qalmış axurlara mal-qara bağlanacaq, kəndin içi hay-küylə dolacaqdı. Amma bu, zahirdə belə idi. Sanki özlərin hamısına qəsdli-qərəzli bir oğru gəlmiş, otaqları silib-süpürüb aparmışdı.

* * *

... Qazıların ön dəstəsi kəndə çatanda burada çox qəribə bir hal gördülər. Boş evlər, ölüsüz tabut, açıq məzar təki ağızlarını açıb baxır, qara bir kaha kimi nəzərə gəlirdi. Zağalarda bir qotur keçi də yox idi. Hinlərdə bir axsaq cücə də qalmamışdı... Qazıları heyrət götürdü. Kəndə davanın əli dəyməmişdisə də, nəfəsi toxunmuşdu. Qazılar boş evlərdə yerləşib, əsas qüvvələrin gəlib yetişməsini gözlədilər. Onlar burada birləşəcəkdilər. Bir neçə gün qoşuna dinclik verəndən sonra Şirvanşahların yaz-yay iqamətgahı olan Fit dağına yollanacaqdılar. Qarşı dağları keçmək üçün istirahət zəruri idi. Yol bundan o yana da Günəşli çayın dərəsi boyunca gedirdi ki, bu da qoşunu özü ilə su ehtiyatı daşımaq zəhmətindən xilas edirdi. Qazılar ilk əvvəl Günəşli çayda çimib, sonra da yemək-içmək hazırlamağa başladılar. Axşam düşməsinə baxmayaraq ətrafda hələ də kənd

əhlindən kimsə görünmürdü.

DƏRVİŞLƏR

Xəzərim, ümidim, ümmanım mənim!

Elə bu vaxtlarda dünyanın başqa bir səmtində bizim Sultanım xanımı, Aytəkini və şeyx oğlu şah olacaq balaca İsmayılı tanımayan, onlarla heç bir əlaqəsi olmayan bir tacir ailəsində, demək olar ki, onlarla yaşıd əkiz oğlan uşağı böyüyürdü. Əsilləri neçə illər əvvəl hürufilər pərən-pərən düşəndə şirvanşahlığı tərk edib Koniyada yurd salmış bir dəstə azərbaycanlı tacirlərdən birinə mənsub idi. Hacı Bəşirin türk qızı Ləmandan doğulan əkiztay oğulları ayağı düşərgəli olmuşdu. Kişinin ticarətdə əli gətirmiş, ummadığı yerdən xeyli qazanc yiyəsi olmuşdu. Oğlanlar gözündə birə-beş böyüdüyündən, onlardan dayəni, mollanı əsirgəməmiş, savad yiyəsi olmalarına, sağlam böyümələrinə çalışmış, bir

vivo www.vivo-book.com

ata kimi əlindən gələni də, gəlməyəni də eləmişdi. Amma illər keçdikcə Hacı Bəşir qəribə şəkildə uşaqlardan pisikmişdi. Əkiztaylardan İsrafil əvvəlcə qatı dindarlığı ilə seçilmiş, şəhər qazısının müridinə çevrilmiş, cavan olmasına baxmayaraq qazının on inanılmış bazar əmələcatından biri olmuşdu. Atasının sənətinə, yəni ticarətə heç meyil göstərməmişdi. Əksinə, qazının sağ əli kimi bazarda tacirlərin qənimi kəsilmiş, ən natəmiz bir güdükçü olmuşdu. Tacirlər, baqqal, əllaf, əttar kimi mötəbər şəxslər, eləcə də dostu sarbanlar, bəzirganlar yanında atasının dilini gödək eləmişdi.

Əkizlərin ikincisi – İbrahim belə deyildi. O, İsrafil kimi zahirdə atasına, batində qəddar bir Cəllada bənzəmirdi. Uca boyu, zərif əndamı, işıqlı siması ilə İbrahim, daha çox anası Ləman xanımı xatırladırdı. Hərəkətləri aram, danışığı təmkinli idi. Ələvi, Bəktaşi dərvişlərinə qoşulduğundan o da, atasını xeyli məyus etmişdi. Bir dəfə kişi onunla ciddi danışdı:

– Oğul, o bitli-sirkəli, təkcə bığ-saqqalını deyil, qaşlarını,

kirpiklərini belə qırxan dərvişlərdə nə görmüsən?

İbrahim qızardı, qızğınlıqla etiraz etdi:
– Heç nə, dədə, mən onların zahirini yox, ərkanını qəbul edirəm. Mən dünyamızı görmək istəyirəm. Bilmək istəyirəm, görüm dünyada daha necə insanlar, hansı dillər, nə cür adətlər var.

Hacı Bəşir səsini ucaltdı:
– Əzizim, sən tacir kimi də dünyanı gəzə bilərsən, istədiyin yerləri, insanları görə bilərsən. Halal-minallah ticarət işlərimi al əlinə. Mən daha qocalmışam. Qoşul karvanlara, sən gətir, mən ötürüm. Ata-bala əl-ələ verək, həm mal-qaramızı artıraq, həm də sənin arzun əmələ gəlsin.
İbrahim xəfifcə gülümsədi:

– Bağışla, dədə, mənim dünya malında gözüm yoxdu. Onu artırmaq da xəyalımdan keçmir.

Bu yerdə bayaqdan diqqətlə atasını və əkiztayını dinləyən

İsrafil sözə qarışdı. Qaba gülüşlə güldü:

– Yaxşı... Bəs yemək istəməzsən? Geymək istəməzsən? Ev-eşik, arvad-uşaq istəməzsən? – Sonra səsini yalnız qardaşı eşidə biləcək qədər alçaldıb əlavə soruşdu: – Bəs Nəsrini nəynən dolandıracaqsan? Əyninə tuman almalısan, yox? Onu da dədən alacaq?

İbrahim qəzəbindən titrədi. Xısıntıyla "sənə qalmayıb", pıçıldadı, iradəsini toplayıb ucadan təmkinlə dedi:

– Dədə, sən məndən incimə. Sən bu işlərini böyük qardaşımız Həmdullaya tapşır. Mənim bu dünya ilə heç bir əlaqəm yoxdu və olmayacaq da! Mənim yatağım yaradanımın xəlq elədiyi çöllər, yeməyim xaliqimin bəxş etdiyi ot-ələf olacaq. Halal ticarət qardaşlarımın boyuna biçilib. Mən xaliqimə bir an daha tez qovuşmaq eşqilə yanıram. Məgər sən bunu duymursan, dədə? Sən dünyagörmüş, əqidəsi üçün tərki-vətən olmuş Cahandidəsən ... Mən isə, bel atam, sənə ağ olmadan, rica edirəm, halal elə əməyini. Yol atamın yolunu tutub getməyimə mane olma...

Yan otaqda ata ilə oğulların söhbətini dinləyən Ləman xanım ağlayırdı. O bilmirdi ki, bu sözlərdə həqiqət var. İbrahim onun sağ döşünü əməndə İsrafil solu əmmişdi. Bəs neyçün əkiz qardaşlar adətə rəğmən nə zahirdə, nə də batində bir-birinə zərrəcə bənzəmirdi? İsrafil körpəlikdən nə qədər sərt idisə, İbrahim ana qoynundan bir o qədər həlim, mehriban çıxmışdı. Anasının nağıllarını, ninninlərini, tapmacalarını bir layla kimi məftunluqla dinləyirdi. Əvvəllər dili dolaşa-dolaşa, sonralar yuxusunda belə şeir deyərdi. Bu şeirlər ananın ona oxuduğu Yunis İmrə qoşmalarına çox bənzərdi. Sonralar İbrahim böyüyüb, anadan gizlədə bilməsə də, hamıdan gizlətməyə çalışaraq şeir qoşmağa başlayanda şeirinin məzmunu da, hədəfi də dəyişdi. İndi bir şeyx oğlu Xətainin, görəsən, kimdi, nəçiydi, adı və nəfəsi dilindən düşmür. Ləman xanım bir ana gözü və qəlbilə cocuğun qonşu qız Nəsrinə münasibətini də görüb duymuşdu. Lakin son vaxtlar deyəsən Nəsrin qız da unudulmuşdu. İbrahimin qəlbində bircə şeyx oğlu Xətainin adı və əqidəsi qalmışdı. Ləman xanım görürdü ki, oğlunu itirir. Oğlu gündən günə onlardan uzaqlaşır. İstəyirdi ki, içəri keçsin əri Hacı Bəşirin

ayaqlarına döşənsin, onları göz yaşları ilə yusun, yalvarsın, desin: «Ay Hacı, sənə qurban olum, axı sən atasan, öz ata hökmündən istifadə elə! Əmr elə, qoyma İbrahim əlimdən getsin. O sənin ata hökmündən çıxmaz, çıxmağa cürət eləməz».

Lakin Ləman xanım bilmirdi ki, İbrahim indi yalnız və yalnız dərvişlik aləmində yaşayır, ərənlər əreni özü ona yol atası olmaq xəyalındadır. Ona Xətai əqidəsini təlim edir. Onu öz düşündüyü böyük bir gələcəyə hazırlayır və bu gələcəyə həm özü, həm də Cavan İbrahim sidq-ürəklə qapanırlar. Ermiş ərənlərin hökmü işləyən ürəyə Hacı Bəşirin hökmü işləyə bilməz. Qadir deyil!

* * *

Əziz oxucu, bu böyük mübarizə meydanında sən Bibixanım-Sultanım, Aytəkin, İbrahim və o vaxtlar şeyx

oğlu şah kimi tanınan Şah İsmayıl Xətai ilə görüşürsən. Bu görüşdə Bibixanım-Sultanım, Aytəkin və İbrahim hərəsi öz anlayışınca, şiəlik təriqətinin başçısı, on dörd ildə on dörd əyalət fəth etmiş sərkərdə, hökmdar və ən incə məhəbbət qəzəlləri qoşmuş, «Dəhnamə» müəllifi şair Xətaini dərk etməyə çalışacaq.

* * *

Xəzərim, ümmanım, qədərim mənim! Oğullarının, qızlarının taleyi sənin taleyindir. Ürək döyüntülərini əks etdirən ləpələrin titrəməsin! Bu qədər – tale tariximin bircə pilləsidir. O, biri pillələrdə nə kəşməkəşlər baş verdiyini sən özün yaxşı bilirsən. Arxam ol, ürək verənim ol, övladlarının çəkdiyi əzabları bircə-bircə gənc nəslə söylərkən dayağım ol, nəğmələrin – pıçıltılarım, sözlərim olsun. Kükrəyən, şahə qalxan dalğaların gücündən, qüdrətindən mənə bəxş eylə, Xəzərim, gözəlim mənim!

## QUZĞUN

Ağuçqun dağının boz köynəyini qara bir qaya deşib göyə baş almışdı. Qayanın ən çılpaq, dik tınağında bir quzğun oturmuşdu. Üzərində əyləşdiyi qaya kimi elə bil o da daşdan yonulmuş heykəl idi. Bircə kərə də başını çevirmədən ətrafını iti gözləri ilə seyr edir, əlvan muncuq düzümünə bənzəyən qoşun səflərini nəzərdən keçirirdi. Bu dağlar qədər ömür sürmüşdü. Qoca quzğun əsgər düşərgəsini iyindən tanıyırdı. Qoşunu qarabaqara izləyirdi. Bilirdi ki, harda belə insan yığnağı olsa, az sonra orada təzə qan töküləcək, çoxlu leş olacaq: təzəcə laxtalanmış ətirli, ılıq qan. Həvəsindən qoca quzğunun nəfəsi tıxanırdı. Az qala qanad çalıb uçmaq, bu ləzzət anını yaxınlaşdırmaq istəyirdi. Amma təcrübəsindən bilirdi ki, tələsmək əbəsdir. Gərək bellərdəki o qılınclar şimşək kimi çaxa, zərblə qalxanlara dəyə,

küræklərdən asılmış o əlvan sadaqlardakı oxlar havada uçuşa. Bax, əsl ləzzətli qan onda axır. Az qalırsan, adam yerə yıxılmamış üstünü alasan...

Qoşun yeriyir, quzğun izləyirdi. İllərin müdrikləşdirdiyi qoca qartalın başında yeni-yeni hisslər doğurdu. Bir az sonra bu məxluqat onun yemi olacaq. Qəribədir. O, belələrini iyindən tanıyır. O qədər belə covğalar-qovğalar görüb ki! Və... İnsanlar yalnız quzğunlara yem olmağa hazırlaşanda bir yerə belə çox yığışırlar. Həm də onları qartallara yem olmağa başqası məcbur eləmir. Qartallar özləri də onları ovlayıb yemir. İlan deyillər, çayan deyillər ki, göyün yeddi qatından yerə çırpıb didələr. Bunu insanlar özləri edirlər. Özləri! Anlamır, niyə? Odu bax, ondan aşağıda göz-beyin həvəsli qarğalar da hərlənir... Güdürlər... Dadlı göz-beyin! Məxluqatın əşrəfi insan budumu? Budurmu şüuru ilə quşlardan qat-qat yüksəkdə duran insan? Bəs beyin adlandırılan, insana ən çox verilən o ağ, yumşaq, o dadlı maddə nə üçün indi onlara hökm edib, əcəldən – qılınc və dimdiklərdən qoruya bilmir?

Ey İnsan, bax, qaya başına bax! Əcəl quzğun timsalında başın üzərində dayanıb. O sənin hələ tökülməmiş qanının iyini duyur. Nəfəsini də gizləyib... Elə o aşağıda uçan, beyinə həris qarğalar da onun kimi...
Cavan bir qazi qoca quzğunu çoxdan görmüşdü. Bir neçə gün idi ki, bu quş onları izləyirdi. İndi irəlilədikcə gəncə elə gəlirdi ki, quzğunun hərəkətsiz gözləri məhz ona dikilib, onu qaralayıb. Bu, görmədiyi, lakin duyduğu baxışlar onun gənc qəlbini yaxıb-yandırırdı. Elə bil ürəyinə nə isə dammışdı. Sağ əlini sol çiyninin üstünə aparıb sadaqdan bir ox çıxardı, kamanın çilləsinə qoydu, yayı çəkdi, quzğunu nişan alıb atdı. Lakin ox kamandan çıxaçıxda quzğun havalanıb qalxdı və harada isə qara qayanın arxasında gözdən itdi. Cavan qazi ilə yanaşı irəliləyən qızılbaş güldü:

– Qanadı olmasaydı, dəymişdi. O, sənin-mənim işim deyil, bala, çox bic quzğundu. Kim bilir, dünyada üzü nə üzlər görüb, nə qədər yaşı var. Oxu hayıf eləmə.

Cavan qazi qəlbində quzğunun da, yoldaşının da qarasına

deyindi. Quzğunu vura bilmədiyindən yaman pərt idi. Qoşun irəliləyir, qızılbaş qaziləri irəlidə, ağ at üstündə, üzü niqablı gedən mürşidlərinin şeirini oxuyurdular.

Bu gün ğəm təkyəgahında fəda bir canımız vardır,
Könül abdali-eşq olmuş gələn qurbanımız vardır.
Əzəl birdir, axır birdir, zahir birdir, batin birdir.
Çu bildik, birligə irdik, şükür, ürfanımız vardır.
Səfiullah, Xəlilullah, Əsədullah demiş billah,
Bihəmdillah ki, bunlardan qədim ərkanımız vardır.

Nəzmin ritmi qazilərin hərəkətinə həmahəng idi. Elə bil könüllərdə görünməyən bir hərb təbil çalınır, bir cəng gərənayı səslənir, müridləri mürşid yolunda, Cavan şeyx oğlu şahın yolunda, din-əqidə yolunda, dünyada həqiqəti bərpa etmək, sünni-yezid hesab etdikləri Şirvanşahlardan şiə və şəhid Şeyx Heydərin qanını almaq uğrunda qurban getməyə səsləyirdi. Hicazi dəvələr hökküldəyir, ərəb atları kişnəşir, yeddi boyun öküz qoşulmuş yük və azuqə arabaları cırıldayırdı...

Qoşun irəliləyirdi...

* * *

Qaya üstünə köçdüklərinin üçüncü günü idi. Hələ dünənəcən ətrafda yad adam görünməmişdi. Odur ki, ilk qorxu, həyəcan keçmişdi. Adamlar ehtiyatı unutmuşdular. Qızlar, gəlinlər güyümlərini çiyinlərinə alıb Günəşli çaya suya gedir, hələ bir zəhmətə qatlaşıb qayanın başına su çıxarmalı olduqlarından deyinirdilər də!..

Üçüncü gün səhər Aytəkin tezdən oyandı. İşli-güclü qız idi. Anası Gümüşbikədən tez durur, həyət-bacanı süpürür, mal-heyvanı farağatlayırdı. İndi həyət olmadığından, malları da qardaşı Güntəkin el malı ilə harayasa uzaqlara çəkib apardığından, ayrı görməli iş yox idi. Atası da görünmürdü. Harasa getmişdi. Odur ki, onun öhdəsində təkcə su qalmışdı. Güyümü götürüb cığırla çaya yollandı. Yol xeyli uzun idi. Qız, dağ keçisi kimi, qayadan-qayaya, daşdan-daşa atılaraq,

düşərgədən Günəşli çaya tərəf endi. İri qara daşların arasında cır əncir, qızılgül kolları, təkəsaqqalı, şüyütgən yemlikləri boy vermişdi. Qız arabir ayılır, bu yemliklərdən qoparıb ağzına atır, bəzisinin nazik gövdəciklərində görünən südə bənzər maye ilə yanağına, çənəsinə «xal» qoyurdu.

O, Günəşli çaya çatanda günəş üfüqdən təzəcə boylanmışdı. Qız sahilə çatdı, çayın dumduru suyundan həvəsə gəldi, əllərini, üzünü yudu. Sahildəki iri bir daşın üstündə oturub ayaqlarını suya saldı, uşaq vaxtlarında olduğu kimi bir az nazlı, bir az şıltaq hərəkətlə zərif ayaqları ilə suyu çalxaladı. Öz hərəkətinə özü də gülümsədi. Qalxıb güyümünü doldurmaq istədi. Birdən qıza elə gəldi ki, kim isə ona baxır. Hənirti duymasa da, gözünü baxış duyduğu tərəfə çevirdi və yerindəcə donub qaldı.

On qədəm ondan aralıda tanımadığı bir oğlan dayanmışdı. İndiyəcən görmədiyi əlvan qızılbaş qazisi paltarında idi. Görünür, zəngin ailənin oğlu idi. Ayağında abı məxmərdən şalvar, qatlama burunlu uzunboğaz süvari çəkməsi, əynində

qızılı baftalı mavi çuxa, ağ yaxalıqlı atlas köynək vardı. Belinə vurduğu gümüş kəmər və gümüş xəncər əlvan daşlar və qara mina ilə bəzədilmişdi. Yedəyindəki atın yəhər-əsbabı da gümüş işləməli qayışlardan idi. Yəhərin üstünə xalça salınmış, əlvan qotazlar xüsusi zövqlə bəzədilmişdi.

Görünür, o da bu yerdə gözlənilmədən qıza rast gəldiyindən təəccüblənib, heyranlıqla baxırdı. Qızın zərif, çılpaq ayaqlarını, əllərini, qu gərdənini, gərdəninin hər iki yanından sallanmış ağır hörüklərini, mavi sulardan şəfəq alıb, günəşin ilk şüalarından qızarmış yanaqlarını ac əsgər gözləri ilə seyr edirdi.

Aytəkinin ürəyi uçundu. Sıçrayıb yerindən qalxdıqda daş ayağının altında dingildədi. Qız səntirlədi, əl-qol atıb suya yıxılmamağa çalışdı. Bu hal gənc süvarini güldürdü. Qız güyümünü də qoyub qaçmağa başladı. Həyəcan içində idi. Qorxudan az qala ödü partlayacaqdı. Arxadan çağıran gəncin səsini eşidir, sözlərin mənasını dərk edə bilmirdi,

– Dayan, ay qız, səninlə işim yoxdu, qorxma... aa....a...

İndi Aytəkin bircə şey düşünürdü: necə qaçsın, hansı səmtdə daldalansın ki, düşmən süvarisi onun getdiyi səmti görüb yolu bələdləyə bilməsin. Qayaların dalına çatdı, arxasınca ayaq səsləri gəlmədiyini görüncə dayandı. Ən hündür bir daşın dalında daldalandı. Qorxudan, üzüyuxarı qaçdığından ürəyi çırpınır, sanki köks qəfəsindən çıxmaq istəyirdi. Qız durdu, daşın dalından boylandı. Süvari atını suladı, yəhərə sıçrayıb uzaqlaşdı, yalnız bundan sonra Aytəkin təqib edilmədiyinə əmin oldu və pənah apardığı daşın altında əyləşdi. Azacıq yorğunluğunu alıb qalxdı, güyümün dalınca qayıtmağa ürək eləmədi. Yalnız özünə və qəbilə daşlarına məlum olan cığırla düşərgəyə qayıtdı. Təkcə bir piyadanın keçə biləcəyi bu cığırda atası Məhəmməd-Bulud dayanmışdı. Görünür, kimi isə gözləyirdi. Qızını görüncə heyrətləndi:

– Hardan gəlirsən, Aytəkin?

– Çaydan, dədə.

Qızın əlində sənək, güyüm görməyən ata soruşdu.

– Çayda nə qayırırdın qızım?

– Suya getmişdim.

– Bəs suyun hanı?

– Dədə... güyüm... çayda qaldı...

Bulud yalnız indi qızının rəng-rufunu müşahidə etdi. Bayaqdan töyşüməyini dikdir çıxdığına yozmuşdu. İndi kişi də narahat oldu.

– Sənə nə olub, Aytəkin? Rəngin niyə qaçıb, bala?

Qız atasına qısılıb hönkürdü:

– Çay qırağında yad adam gördüm, dədə! Atlı idi, silahlı idi.

– O da səni gördü?

– Gördü dədə, amma bir şey demədi. Qorxub qaçdım. O da atını minib uzaqlaşdı, getdi.

– Sənin hara, hansı tərəfə getməyini görmədi ki?

– Yox, qaçıb yekə bir daşın dalında gizləndim. Görünür, hara yox olmağımı başa düşmədi.

– Yaxşı, qızım, qayıt evə! Güntəkinə de ki, naharını eləyibsə, yanıma gəlsin.

Sonra da qızının alnını sığalladı, çənəsindən yapışıb düz

gözlərinin içinə baxdı. O, süvaridən qızına bir sədəmə toxunub-toxunmadığını, yalnız atalara məxsus bir qorxu-qəzəb hissilə bilmək istəyirdi. Yox, bu gözlərdə təhqir olunmuş bəkarət izi görmədi, yalnız qorxu vardı bu baxışlarda. Atanın ürəyi bir az sakitləşdi. Qız bayaqkı düşmən cavanı düşünüb qardaşı üçün əsim-əsim əsdi:

– Dədə, Güntəkingil mallarımızı harda daldalayıb?

– Qanlı qışlaqda... Qorxma, oranın yolunu fələk də tapa bilməz.

– Qardaşım gəlib, bə malların yanında kim qalıb?

– Çiçək arvadın oğluynan Səməndər dayın.

Qız bir anlıq Qanlı qışlaq sözündən də qorxdu:

– Bəs oraya niyə Qanlı qışlaq deyirlər, dədə?

– Sonra danışaram, qızım, ayrı ecgahan vaxtda. Uzundu. Bircə bunu bil ki, bir vaxt bizim ulu babalarımızdan birinin qızı qəbilənin yerini düşmənə göstəribmiş. Demə, qız, düşmən qəbilənin oğluna bənd olubmuş, ona inanıbmış. Atasının hökmüylə qızı həmin qışlaqda öz qardaşı qanına

qəltan eləyib. Ona görə adı da Qanlı qışlaq qalıb. İndi vaxtı deyil, qoy ayrı ecgahan vaxta qalsın qalanı.

Kişinin qısa hekayəti bir az əvvəlki düşüncələri ilə bağlı idi. Amma yenə də ata qəlbi şübhələrə qalib gəldi, ürəyi balası üçün uçundu. Qızına ürək-dirək verməyə başladı:
– Qorxma, inşallah bu ütüdən salamat qurtaracağıq. Anana de ki, kəndin qız-gəlinləri bir də bu yolnan suya getməsinlər. Hamınız Güntəkingilin qazıdığı o yarğandan keçəcəksiniz. Bir az ağır olacaq, amma neyləmək olar? Ürəyini möhkəm elə, mənim ağıllı balam! Zamana elə olub ki, gərək siz qızlar da ər ürəkli igidlər kimi düşmənin gözünün içinə baxa biləsiz. Bir qaşıq qanınızdan qorxmayasınız. Təkcə namusunuzu düşünəsiz. Get bala, Güntəkinə de ki, yanıma gəlsin.

Qız hıçqırığını kəsib, gözlərini kəlağayısının ucu ilə silmiş, atasının çiyninə söykənib dayanmışdı. Diqqətlə onun sözlərini dinləyirdi. Hər biri də bir sırğa olub qulağından asılır, qəlbinin dərinliklərinə işləyirdi.

– Bura, dədə?

– Yox, Urfulla əmingilə. Mən onların komasının yanında olacam.

Aytəkin nisbətən sakitləşmişdi. Getmək istədikdə atası onu saxladı:

– Düşmən gördüyünü anana demə, ürəyi qısılar.

– Baş üstə, dədə.

Qız dar cığırla üzüyuxarı düşərgəyə qalxdı. Tələsirdi. Yüyürəppə gedirdi. Evə çatınca qardaşı Güntəkini nahar edib qurtarmış və naxıra getmək üçün hazırlaşan gördü.

– Dədəm səni çağırır, Güntəkin. Deyirdi ki, Urfulla əmigilin komasının yanına gəlsin, tez olsun.

– Yaxşı.

İgid qapıdan aralandı. Aytəkin də atasının tapşırıqlarını qızlara və anasına çatdırmaq üçün yollandı.

* **

Gənc süvari bir gün irəli qartala ox atan qazi Rəhim bəy idi.

Cavan olsa da, orduda xeyli hörməti vardı. Gənc idi, gözəl idi, təmiz əxlaqlı idi. Və Şeyx oğlunun ən yaxın, sədaqətli müridlərindən idi. İbadətində möhkəm, həm də Bayram bəy Qaramanlı kimi bir şəxsin bacısı oğlu, şahın xəlvəti dairəsinə yaxın, zəngin bir ailəyə mənsub idi. Dəliqanlı, dayısı Bayram bəyin himayəsində yaxşı hərbi hazırlıq görmüşdü. Bayram bəy həmişə təəssüflənirdi ki, əgər Rəhim bəy qılınc oynatmağa verdiyi fikrin bircə parçası qədər elmə, oxuyub-yazmağa həvəslənsəydi, gələcəkdə şaha yaxın ən möhtərəm saray adamlarından biri ola bilərdi. İndi onun gələcəyi yalnız qılıncla, hərbi şücaətlə bağlı idi.

Böyük bir sərkərdə olacağı gözlənirdi. «Xas igid dayısına çəkər», deyib dədələr. O da Bayram bəy Qaramanlıya çəkmişdi.

Rəhim bəy çay kənarından, əsrarəngiz gözəl qızdan ayrılıb atına sıçradı, düşərgəyə yollandı. Düşərgə qəbilənin tərk etdiyi kəndin ətrafında salınmışdı. Hökmdarın, əmirlərin, sərkərdələrin çadırları, xeymələri də burada, qarşıdakı yamacda qurulmuşdu. Oğlan irəlilədikcə ətrafına baxınır, bir

nəfər də insan görünməyən bu dərədə rastına çıxmış o qızı bir xəyal zənn edirdi: «Bəlkə də, yuxulamışam, mürgüləmişəm, yuxuda görmüşəm», – deyə düşündü. Onun bahar yuxuları indi belə gözəl xəyallarla dolu idi. Yuxuda tez-tez uçardı, quş kimi qanad çalardı. Bəzən də döyüşlər görər, qalalar fəth edər və axırında mütləq gözəl bir qızı əsir alardı. Bu əsir qızın hil-mixək ətirli nəfəsini dodaqlarında hiss edər, onu tər basar və qan-tər içində yuxudan ayılardı. Bəlkə, bu qız da o yuxulardan biri, laha əsrarəngizi idi? Amma yox...

Qız canlı-qanlı bir insan idi. Zərif ayaqları ilə uşaqcasına çayın büllur sularını çalxalandırır, suyu şappıldadırdı. Rəhim bəyi görənəcən o necə də bəxtiyar idi... Görənəcən! Amma görən kimi necə də qorxdu... Ley görmüş cücə kimi büzüşdü... Qaçdı... hara? Kim idi? Bəlkə də, amilin-bələdçinin «govurlar» adlandırdığı, onlar gəlməmişdən yurd-yuvalarını tərk edib qaçmış bu kənd sakinlərindən idi? Hər halda çay qırağında adam göründüyünü dayısına bildirməli idi, bəlkə gərək oldu. Amma desə də, o gözəl qıza

zaval toxunmasını istəmirdi.

Qəribə, uşaqcasına gülməli, heyrətamiz gözəl qıza zaval toxunsaydı, Rəhimə elə gəlirdi ki, buna dözməz. O hürkək ceyranın baxışlarında qorxu, həyəcan görmək istəmirdi.

Rəhim bəy düşərgəyə çatdı. Dayısı Bayram bəy çadırın önündə dayanıb amil-bələdçi ilə söhbət edirdi.

– Sabahın xeyir, dayı!

– Aqibətin xeyir, Rəhim bəy. Hardan belə səhər-səhər?

– Bir az çay qırağında gəzmək istədim.

Bayram bəy atından düşüb cilovu qula verən Rəhim bəyin boy-buxununu fərəhlə gözdən keçirirdi: eynilə özününkünə bənzəyən bir şiş ucları yuxarı burulmuş bığlarına, günəşdən yansa da, cavanlıq lətafətilə parlayan, nazikxətt gəlmiş üzünə, qələmi qaşlar altında yanan zil qara gözlərinə baxdı: «Xas igid dayısına, xanım qız xalasına çəkər», məsəlini xatırladı. Oğlan, dayısının adətincə, bu sığallı bığların ucunu tez-tez burub dimdik qalmasına xüsusi fikir verirdi. Təkcə simaca deyil, xasiyyətcə də dayısına çəkmişdi. Bayram bəy

onu öz gəncliyi, oğlu kimi sevirdi.

– Səhər gəzintisinin xeyri çoxdu, oğul! – dedi.

Rəhim bəy dayısına yaxınlaşdı.

– Dayı, çay qırağında adam gördüm.

O, «qız gördüm» demədi. Bayram bəy də, amil-bələdçi də elə bil bu xəbərin intizarında idilər. Hər ikisi diqqətlə gəncə baxdı. Bayram bəy soruşdu:

– Harda?

Rəhim bəy sağ əlindəki tatarını qaldırdı, çayın axarı ilə yuxarı tərəfi göstərib izahat verməyə başladı: Odu, bax orada... bir az yuxarıda.

– Bəs hara getdi?

– Bilmədim. Məni görcəyin qayaların arasında yox oldu.

Bayram bəy şübhə ilə amil-bələdçiyə baxdı:

– Kim olar? Bəlkə Şirvanşahın adamlarından – güdükçülərindəndi?

Amil şübhə ilə başını salladı.

– Ağlım kəsmir. Şirvanşah Fərrux Yasar Qəbələ tərəflərdə

qoşun yığmaqdadı. Şamaxı boşdu. Oğlu Qazi bəy də Bakı iqamətgahındadı. Bunu yəqin bilirəm. Bu, olsa-olsa, həmin sizə dediyim govurlar olacaq. Yəqin gəlməyimizdən xəbər tutub qaçıblar, haradasa o dağlarda-zadda gizləniblər, zağalara təpiliblər. Bax, başına dönüm ağa, əsl qılınc gücünə dinə gətirməli elə bunlardı. Yolüstü. Həm Allaha xoş gedər, həm də bəndəyə. Çünki kafirdən də pisdi.

Amilin qəbiləlilərlə çoxdan idi ki, arası yox idi. Bu aralıq Rəhim bəy iki nökərin sürüyə-sürüyə gətirdiyi əmudunu yüngüllükcə yerdən qaldırıb bir neçə dəfə çiyninə qoydu. Başı üstünə qaldırdı, gah sağ, gah da sol əlində buladı. Bu onun adəti səhər hərəkətləri idi. Bayram bəyin ağzı amillə danışır, gözləri gəncin cazibədar hərəkətlərini izləyirdi.
Amil sözünü qurtaranda gözü hələ də Rəhimdə ikən dedi:
– Yaxşı, onda sən Rəhim bəylə get, göstərdiyi yeri yoxla. Mən də məsələni qibleyi-aləmə xəbər verim.
Rəhim bəy əmudu sağ əlində fırladıb kiminsə başına endirirmiş kimi bir hərəkət etdi və sərrastlıqla, durub ona tamaşa edən iki nökərin düz arasına atdı. Nökərlər

diksindilər. Bayram bəy təhsinlə, iftixarla, amil yaltaqlıqla gülümsədi. Rəhim bəy isə yenidən atlandı. Qəlbində anlaşılmaz bir həvəs doğmuşdu. Ona elə gəlirdi ki, həmin yerə qayıtsa, hürkütdüyü xəyalı bir də görəcək. Amil də atlandı. Bayram bəy şahın xeyməsinə, onlar isə çay boyu yuxarı tərəfə yollandılar.

Yavaş-yavaş, qədəm-qədəm at sürən süvarilər bir az əvvəl Rəhim bəyin xoş xəyal gördüyü yerə çatanda, gəncin nədənsə qəlbi titrədi, iri bir güyüm ağzı suya tərəf, böyrü üstə yerə yıxılıb qalmışdı. Elə bildi gördüyü qızdır. Öz əvvəlki arzusuna rəğmən o qızın burada olmasını istəmirdi. Amilin onu görməyini arzu etmirdi. Hənirti duyub dala baxanda, dabanbasma atlarını onlara çatdıran Bayram bəylə hökmdarı gördülər. Hökmdar üzü niqablı idi. Amil və Rəhim bəy atlarını saxlayıb aralandılar. Cilovu sol əllərinə verib sağ əllərini döşlərinə qoydular, baş endirdilər. Rəhim bəy dərhal qızı da, xəyallarını da unudub gözlərini cavan şaha dikdi. Elə baxırdı ki... Müridlərin öz aralarında indidən, tacqoyma mərasimi keçirilmədən şah, padşah adlandırdıqları

bu cavanın bircə kiçik işarəsi ilə onun yolunda canından keçməyə, özünü qurban verməyə hazır idi.

İsmayıl soruşdu:

– Adamı burda görmüsən, Rəhim?

– Bəli, hökmdarım, burda.

– Haçan?

– Elə indicə, qurbanın olum.

– Hara qeyb olduğunu görmədin?

– Çox baxdım, qibleyi-aləm, daşların arasında itdi. Elə bil yerə batdı. Deyirəm, bəlkə gizlənib. Mən gedəndən sonra çıxıb ora, – deyə cavan süvari əli ilə sıldırımların üstünü göstərdi.

Burada azman qayalar sərt qara divar yaratmışdı. Amil nə isə demək istədi, lakin şahın hüzurunda danışmağa cürət etmədi. Bir də ondan söz soruşan da yox idi, rəyini bilmək istəyən də. Ondakı hərəkəti duyan hökmdar çiyni üstündən amilə baxıb Bayram bəydən soruşdu:

– Bəs çarvadar-bələdçinin fikri nədi?

Dolayısı ilə olsa da, sual ona verilmişdi. Bələdçi baş endirdi və üzünü Bayram bəyə tutub kəkələyərək dilləndi:

– Ora quşqonmaz qayalardı, ora insan ayağı dəyməz. Çıxmalı yol da yoxdu.

– Bəlkə o biri üzündən...

– O tərəf də dağlardı, uca, özü də yol-irizsiz.

İsmayıl yenə də Bayram bəyi qaralayıb dedi:

– Onda adam bura göydən düşməyib ki. Keçək o biri taya. Çayın o biri tayından bəlkə bir şey seçə bildik.

Bu sözlərlə də o atını Günəşli çaya saldı. Çayın ortasında su burulur, gicov getdikcə dərinləşirdi. İndi artıq su atın qarnının altına vururdu. Bayram bəy cavan şahın öz atını Kürə vurmasını görmüşdü, şücaətinə bələd idi. Bununla belə, dar çay boğazında qəfil sel gələ bilərdi. Dar çayların ilin bu fəslində gözlənilməzlikləri çox olur. Əvvəli səssiz başlayır, az sonra güclənir, kükrəyir, uğultusu aləmi götürür. Beş dəqiqənin içində qabağına dəvə də çıxsa, süpürləyib aparır və tez də su azalır, sakitləşir, çay nərmin bulağa, susqun quzuya dönür. Yalnız sahillərdəki lil, selinti, nəhəng

daşlar, bir az əvvəl burada baş vermiş faciənin nişanəsi kimi qalır.

Bayram bəy bir an içində bütün bunları düşünüb həyəcana gəldi, nə isə demək, şahı xəbərdar etmək istəyirdi ki, İsmayıl özü atın qarnının altına vuran suyun getdikcə dərinləşdiyini duyub, heyvanı sola, axara doğru döndərdi. Axar boyu cəld atı səyridib, su zərrələrini fəvvarə kimi göyə qaldırdı və bir qızğın gənc nadincliyi ilə o biri sahilə sıçradı. Bayram bəy, amil-bələdçi və Rəhim bəy də onu müşayiət etdilər.

Qarşı sahildən azman qayanın üstündə heç bir canlı görünmürdü. Evdən, alaçıq və ya başqa bir tikilidən əsər-əlamət yox idi.
Atlılar başlarını yuxarı qaldırıb xeyli baxdılar. Onlar atlarını bir qədər sürüb, Günəşli çayın hər iki sahildən sıldırım və uca qayalarla əhatə olunduğu ən dar boğazına qədər getdilər. Yenə də elə bir şey görmədilər.

Geri qayıtdılar, yenə də gözlərini qara divara bənzəyən

qayalığa dikib irəliləyirdilər. Birdən hökmdarın nəzərini çayın suyu ilə bərabər, qayanın dibindəki iri köhül cəlb etdi. Sumu deşib açmışdı bu mağaranı? Yox, insan əlinin işinə bənzəyirdi.

İsmayıl atın cilovunu çəkdi, qədəm-qədəm sürməyə başladı. Diqqətlə bu mağara ağzına baxırdı. Hələ müşayiətçilərinə bir söz deyib nəzərlərini onu maraqlandıran yerə cəlb etməmişdi ki, birdən dəlmədən iki əl uzandı, güyümü suya batırıb doldurdu və çəkildi.

İndi izahata ehtiyac yox idi. Yanındakılar da bu əlləri və güyümü görmüşdülər. Amil-bələdçi özünə müraciət olunmasını gözləyə bilmədi, heyrət qarışıq bir səslə dilləndi:

– Govurlar ordadı, qibleyi-aləm! Onlar, görünür, yuxarıdan lağım atıblar, qayanı yarıblar, su üçün.

– Məlum oldu, məlum oldu...

Bayram bəy tənə ilə bələdçiyə dedi:

– Demək, qayalığın üstünə dağ tərəfdən yol var, amil!

– Belə görünür, təsaddüqün olum, şahım!

– Bayram bəy, binagüzarlıq gör, qayalığı mühasirə edin.

– Baş üstə, qibleyi-aləm!

Rəhim bəy atını hökmdarın atına yaxın sürüb, xahişkar səslə dilləndi:

– Mənim dəstəmə izin ver, qibleyi-aləm! Hökmdar niqabının altından özündən cəmi bir-iki yaş böyük olan gəncin sədaqət və vəfa, itaət və xahiş yazılmış simasına baxdı, Rəhim bəyin sol qaşının üstündəki çapıq yeri hələ də qızarırdı. O, bu çapığın tarixçəsini yaxşı xatırlayırdı.

Hadisənin üstündən hələ heç bir il də keçməmişdi. Yaxşı yadındaydı, o zaman Lahicanda keçirdiyi altı ildən sonra Mirzəli hakimin qonaqpərvər sarayını tərk edib, başının adamları ilə Ərdəbilə getdi. Lakin Ərdəbil hakimi Cəyirli Sultanəli bəy Əlvənd Mirzənin adı ilə onu Ərdəbilə buraxmadı. Gənc İsmayıl hələ şahlıq adını üstünə götürməmişdi. Başındakı 1500 qızılbaş atlısı içində ən yaxın müqərrəblərindən Lələ Hüseyn bəy, Abdulla bəy, Lələ Xülafa bəy, Rüstəm və Bayram bəy Qaramanlı qardaşları, Xınıslı İlyas bəy, Ayqut oğlu, Qara Piri bəy Qacar var idi. Deyiləmdən keçib Talış hakiminin razılığı ilə Astaraya

gəldilər. Qışı Ərçüvanda keçirdilər. Elə həmin hadisə də burada baş verdi. Sən demə, Əlvənd Mirzənin razılığı ilə Cəyirli Sultanəli bəy İsmayıla sui-qəsd hazırlayıbmış. O gecə İsmayılın çadırı
qarşısında Bayram bəyin adamları, qapının ağzında isə onun bacısı oğlu Rəhim bəy keşik çəkirdi. Rəhim bəy o qədər sayıq olmuşdu ki, həmin gecə sui-qəsdin üstünü açmış, İsmayılı xilas etmiş, özü isə başından yara almışdı. Elə bu vaxt Şirvanşah Fərrux Yasarın Talış hakiminə min tümən göndərib, İsmayılı tələb etməyini eşitdilər. Yaralı Rəhim bəyi də özlərilə götürüb Ərcüvanı tərk etəməyə məcbur oldular. Səfər zamanı onu at üstündə, kəcavədə daşımalı oldular. Səfər isə xeyli çəkdi, bir ilə yaxın.

Demək olar ki, həmişə yolda oldular. Hər iki xəyanət qızılbaş əmirlərindən Bayram və Rüstəm Qaramanlının əlilə açılıb, Rəhim bəyin əlilə dəf edildiyindən, onların dərəcəsi və hörməti İsmayılın və başqa müqərrəb müridlərin yanında daha da uca oldu. Ərcüvandan çıxaçıxda Türkiyə, Şam və başqa yerlərə carçılar göndərib, onları din uğrunda, şeyx

Cüneyd və şeyx Heydərin qatili şirvanşahlara qarşı mübarizədə birliyə dəvət etdilər. Özləri isə Qarabağa, Göycəyə gəldilər. Göycədə qaraqoyunlu əmirlərindən Sultan Hüseyn də İsmayıla qarşı xəyanət və qətl məclisi təşkil etdi. Lakin qızılbaş əmirləri onun yağlı dillərinə aldanmayıb, İsmayılı Çuxur Sədə ötürdülər. Məclisə özləri getdilər. Beləliklə, əmirlər öz mürşidlərini bir sui-qəsddən də xilas etdilər. Ərzincanda bütün qızılbaş əmirlərinin yığıncağı çağırıldı. İsmayıl yığıncağa hamıdan əvvəl yollandı. Səfərlərin ağır olmasına baxmayaraq Rəhim bəyin səhhəti sürətlə yaxşılaşırdı. Odur ki, Çuxur Səddən İsmayılı Ərzincana məhz o – inanılmış Qaramanlı nəslinin nümayəndəsi müşayiət etdi. Ərzincanda iki mühüm qərar qəbul olundu:

1. Səfəvilərə qarşı qatı düşmən mövqeyi tutan Şirvanşah Fərrux Yasar əleyhinə təxirəsalınmaz müharibə başlansın.
2. Bunun üçün də irəlicədən maddi vəsait və hərbi sursat toplansın.

Beləliklə də, qəsb yolu ilə vəsait toplamaq üçün Xınıslı İlyas

bəy Mantaş qalasına, Xülafa bəy isə Axalsıxa gedib sursat hazırlığı gördülər. Buradaca Şirvanşah Fərrux Yasar din düşməni elan olundu. Qazilər qazavat davasına başlayıb Ərzincandan Şirvana yollandılar. İndi artıq İsmayılın dəstəsində yeddi mindən ziyadə atlı, bir o qədər piyada qazi var idi. Ərzincandan buraya qədər onun xeyməsinin dəyişməz gözətçisi şahın xas alayının sərkərdəsi Bayram bəy Qaramanlının qaziləri və onların içində də bacıoğlusu Rəhim bəy var idi. İsmayıl bax, indicə gözünə daha da qırmızı görünən həmin yaranı qaşı üstündə gəzdirən bu cavan qazinin qeyrəti sayəsində sağ-salamat Şirvana gəlib çıxa bilmiş, üç böyük təhlükədən xilas olmuş, müzəffər sərkərdə və hökmdar kimi qədim Şirvan torpağını fəthə başlamışdı. Bütün bu qırğınlar – bu qardaş qırğınları onun qəlbindəki şair guşəsinə toxunanda qeyri-ixtiyari yadına çox uzaq bir səhnə düşürdü.

«Uşağın yaddaşı kəskin olar», deyiblər. İndi hökmdar o xırdaca yaşında gördüklərinin hamısını böyük bir güzgüdə seyr edirmiş kimi xatırlayırdı. Atası Sultan Heydərin xahişi

ilə Aləmşah bəyin qardaşı Sultan Yəqub ibn Uzun Həsənin iqamətgahına yollanmışdı. Gedəndə anası körpə İsmayılı da özüylə aparmışdı. Onsuz dura bilmir, həm də uşağı dayısına göstərmək istəyirdi. Sultan Yəqub o vaxtlar Təbrizdəydi. İsmayıl hər şeyə böyük maraq və yetikliklə baxan, yaşına görə olduqca aydın fikirli əllamə uşaqdı. Orada qaldıqları bir neçə gün ərzində bacıyla qardaş arasında sünni-şiə məzhəbləri üstündə qızğın mübahisə gedirdi. Axırda Sultan Yəqub dayısının dediyi bir söz uşağın xəyalına qızmar dəmirlə damğa yeri qoymuşdu: «Əziz bacım, sən ərinə qahmar çıxmaqnan bizi məhv edəcəksən. Öz doğma ata ocağına, öz doğma qardaşına düşmən kəsiləcəksən. Aləm bilir ki, Şirvan başdan-başa sünnidi, sənin istəkli ərin onları qıracaq, biz də sizi onlarla birgə. Başın dövlət işlərindən, səyasətdən çıxırsa, nənəmiz Sara Xatın yerişi yerimək, onun yolunu getmək istəyirsənsə, yaxşı-yaxşı fikirləş. Gör kimə daha çox təsir etmək, kimin üçün ağbirçək olmaq daha doğrudur. Gör qardaş qırğını kimin zərərinə, kimin xeyrinədir. Hər halda bilirəm ki, ərinin arzularını qoyub, bizə yar olmayacaqsan. Çünki onun zəfəri – sənin zəfərindi.

Amma nə etsən, düşün».

Bütün bu düşüncələrlə də, İsmayıl, hələ gəncə cavab vermir, «Sən məni təhlükədən qorudun, mən də səni qorumalıyam, – deyə fikirləşirdi. – Lakin burda elə bir təhlükə də yoxdur. Kiçik bir tayfa, qəbilə xırdaca bir qayanın başına yığışıb. Govur da olsalar, bu amil demişkən, görünür, çox inadlıdır. İnsan gör bir nə qədər zəhmət çəkib dağ yarıb, «govur yaran Yolla» su aparır, özünü qoruyur. Bu döyüş təhlükəli də ola bilər. Bəzən bir qoşundan, cana doymuş dəli bir dəstə qorxulu olur. Bunu mənə Xülafa bəy də, Lələ bəy də dönə-dönə deyib. Ən tədbirsiz sərkərdə o sərkərdədir ki, düşməni özündən aciz bilə. Onu saymaya. Sayılmayan yara simlər».

İsmayıl sağ əlini ondan bir qədər aralı gedən Rəhim bəyə tərəf uzatdı.

– Olsun, amma ehtiyatlı ol, Rəhim bəy! Sənin bir kəsinti dırnağın bizim yanımızda min govur başından qiymətlidir.

Rəhim bəy əyildi və böyük bir məhəbbətlə, ehtiramla hökmdarının ağ, zərif dərili, lakin qılınc oynatmaqdan xeyli bərkiyib iriləşmiş əlini öpdü.
Cavanın belə bir həvəs, sədaqət və səylə əmri qəbul etməsi şair qəlbində xəfif bir təəssüf oyatdı. Xatirində başqa bir mənzərə canlandı.

Gözünün önündə ilk gördüyü ölüm səhnəsi canlandı. Əslində hələ uşaq ikən çox ölümlər görmüşdü. Asılan da, oxla, xəncərlə, lap zəhərlə də öldürülən görmüşdü. Amma bütün o ölümlər özgə əlilə, muzdlu nökərin, xəyanətkarın, çoxu isə cəlladın əlilə olmuşdu. Bu isə... birinci dəfəydi ki, o öz əlilə – qılıncının zərbəsilə başı bədənindən ayırmışdı. Şair ruhlu gənc üçün bu ilk an bir qədər dəhşət, heyrət qarışıq qəribə bir təəssüf hissi oyatmışdı. Bu an, təkcə bir an donmuşdu, O, öz əli ilə bir həyata son qoymuşdu! Özündən xeyli yaşlı, özündən xeyli cüssəli, özündən çox dünyagörmüş, bəlkə də, bir neçə uşağın – ailənin yiyəsi, bir şəxs! «Xaliqi-ləmyəzəlin lütfilə bəxş etdiyi canı məxluqun əlindən zorla almaq ha!» Lakin elə həmin düşüncə beynində

oyanan anda, lələsi Hüseyn bəy Bəydilinin, Bayram bəy Qaramanlının hər iki cinahdan «Afərin, hökmdarım! Mərhaba, zərbən həmişə belə kəsərli olsun, şeyxim!» nidalarını eşitmiş və Rəhim bəyin qibtə və fərəh saçan parlaq qığılcımlar oynayan gözlərini görmüş, hər şeyi unutmuşdu. Dostları onu arxadan, sağ və soldan qoruyurdu. O da gəncliyə, cürəti təriflənən cavana məxsus dəli bir coşqunluqla sağı-solu biçməyə başlamışdı. İlk qan gözlərini tutmuş, ilk qan beynini bir nöqtədə saxlayıb dumanlatmış və gənc şair qəlbində doğan təəssüf qarışıq heyrət hissini silib atmışdı. Sonralar ara-sıra həmin hiss şeir və musiqi, elm və ədəbi məclislərdə qəlbində oyansa, onu narahat etsə də, hərb meydanında beynindən o hiss və həyəcan birdəfəlik silinmiş. Həmişəlik onu tərk etmişdi.

İlk ölümdən bir gün sonra onun lələsi ilə hərbi qılınc təlimçisi arasında qəribə bir mükalimə baş vermişdi. Təlimçi mürşidə demişdi: «Bəlkə, hakimiyyətə özün hazırlaşasan. Bu uşağın meyli, məncə, qılıncdan çox kitabadır. Qorxuram, ondan bir şey çıxmasın».

Lələ mürşid cavab vermişdi: «Qorxma, çıxacaq! Onda elə bir zalım ürək tərbiyə etmişəm ki, cəllad da həsrətin çəkər. Rüzgarın gözü hələ beləsini görməmiş ola gərək. Şair olmağından özü utanacaq. Mənim hakimiyyətimə qalanda – yox! Şeyx Səfiyəddin nəslinə avamların etiqadı, böyük inamı var. Dalınca kor-koranə gedəcəklər. Bizə də bu lazımdı».

Bu mükalimədən İsmayıl xəbər tutmadısa da, sonralar döyüş meydanlarında təlimçisini belə heyran qoydu. Sən demə, müəllim də səhv edərmiş...

## BİR QƏBİLƏNİN SONU

(d a v a m ı)

Mühasirə gözlənildiyindən artıq çəkdi...

Hökmdar və adlı-sanlı sərkərdələr qoşunun əsas hissələrinə

hərəkət əmri verdi və onlar başda olmaqla qazilər Şamaxıya doğru yollandılar. Sahildə təkcə Rəhim bəyin adamları qaldı. Onlar bir gün ərzində qaya üstündəki düşərgəyə – sonralar «Govurqazan» adlandırılan yerə dönə-dönə hücum etdilər. Lakin təkcə bir adamın keçə biləcəyi cığırda, neçə qurban verib, çəkilməyə məcbur oldular. Rəhim bəyin səbri tükənirdi. Şah onun gəlməsinə müntəzir idi. O, govurları qayadan endirib şiəliyə dəvət etməliydi. Qəbul eləməyənlər qırılmalı idi. İşin uzandığını görən sərkərdə çarə axtarırdı. Elə bu vaxt cığırın başına yol tapmış qazilərdən biri kəmənd atıb cavan bir oğlanı əsir aldı və Rəhim bəyin yanına gətirdi.

Rəhim bəy təxminən özü yaşda olan bu oğlanın sifətində tanış cizgilər görəndə heyrətdən özünü ala bilmədi. O, ömründə bu yerlərdə olmamış, oğlanı görməmişdi, tanımırdı. Bəs bu tanışlıq nə ilə izah olunmalı idi? O gəncin bir gün əvvəl çay qırağında gördüyü qızın qardaşı Güntəkin olduğunu bilmir, onun üzündə məhz qızın gözlərini, qaşlarını gördüyünün fərqinə varmırdı.

– Səni dini-mübinimizin müqəddəs qanunlarına dəvət edirəm. Qəbul elə və qəbilədaşlarını da bu dinə çağır. Qoy təslim olsunlar, nahaq qan da tökülməsin.

– Biz, şükür Allaha, müsəlmanıq. Qəbilədaşlarım da, mən də.

– Mən səni müqəddəs şiəliyə çağırıram. – O nə olan şeydi, anlamadım, ağa? – Kəlmeyi-şəhadətini de.

– Əşhədü ənna ilahə illəllah, Əşhədü ənna Məhəmmədən rəsulallah.

– Əlavə et. Əşhədü ənna Əliyyən vəliyyullah.

– Axı nə üçün?

– Peyğəmbərin yerində vəsi olan Əliyyul-Mürtəza, şahi mərdan eşqinə!

– Allahı bir, peyğəmbəri bir, Quranı bir olan dində bu qolu tanımıram.

– Qəbilənizin ağsaqqallarını çağır...

– Qəbul eləməzlər!..

Sual-cavab xeyli uzun çəkdi. Oğlan nə özü şiəliyi qəbul edir, nə də qəbilədaşlarının təslimi üçün aman diləyirdi.

Onda Rəhim bəyin səbri tamamilə tükəndi. Axtardığı çarəni tapmış kimi oldu. Rəhim bəyin əmri ilə qaya üstündəki düşərgədən yaxşı görünən açıqlığa çəkildilər. Bir zaman qəbilənin ulu babalarını islama dəvət etmiş qocanın məzarı – pir üstünə gəldilər. Burda məzarın düz damlı türbəsi ən hündür yer idi və qəbilələlilər hökmün icrasını görüb qorxar və tez təslim olardılar. Rəhim bəyin əmrilə xas alayın qazilərindən ən uca səsli bir nəfər türbənin üstünə çıxdı. Üzərində tək bir «Allah» sözü yazılmış tağ qapının üstündə dayandı və üzünü qaya düşərgəyə tutub uca səslə bağırdı:

– Ey govurlar, eşidin və sonra deməyin ki, eşitmədik. Baxın, bu cavanı sizin gözünüzün qabağında fəxri-kainatın vəsisi Şahi-Mərdanı və şiəliyi qəbul etmədiyi, yezid şirvanşahlara, şeyx Cüneydin, şeyx Heydərin qatilinə lənət oxumadığı üçün din yolunda qətlə yetiririk. Sizə söz veririk ki, qətldən bir hor keçənəcən təslim olmasanız, hamınızı beləcə qılıncdan keçirəcəyik.

Qəbilələlilər nəfəslərini də gizləyib baxır, hələ ki özlərini büruzə vermir, pirin üstündə baş verən hadisələri yaxşı

görürdülər.

Birdən onların inana bilmədikləri bir hadisə oldu. İki qazi cəlladın köməyi ilə qolu möhkəm bağlanmış Güntəkini pirin üstünə qaldırdı. Onun başını, qazilərdən birinin qolundan aşırıb yerə qoyduğu qalxanın üstünə əydilər. Cəllad, Rəhim bəyin işarəsi ilə oğlanın boynunu vurdu. Nə bir ahı, nə bir fəryadı eşidildi. Son dəqiqəsində də aman istəmədi. Oğlanın qanı qalxanın qabarıq səthindən süzülüb üzərində tək bir «Allah» sözü yazılmış pir qapısına tərəf axdı.

Qaya üstündəki düşərgədən acı fəryad, ağlaşma, oxşama səsi ucaldı. Heç yarım dəqiqə keçməmiş, kişilərin zorla belə saxlaya bilmədiyi Gümüşbikə ilə Aytəkin üzlərini cırıb qanlarına qəltan olduqları halda başıaçıq, ayaqyalın özlərini dar cığırla aşağı atdılar. Ana da, bacı da özünü qanına bulaşmış Güntəkinin cənazəsinə çatdırmağa qoşurdu. Onların ardınca canına lərzə düşmüş digər qarılar yüyürüb gəlirdi. Özünü unutmuş kişilər də onların dalınca düşəndə, Rəhim bəyin adamları hamını mühasirə edib məqsədlərinə

belə tez çatdıqlarından – bir nəfər də itki vermədən mühasirəni qurtarıb, şahın əmrini yerinə yetirdiklərindən sevinirdilər.

O günün axşamına doğru qəbilənin köhnə və təzə düşərgəsində bir nəfər də qalmadı. Şiəliyi qəbul etməyənlərin çoxu qılıncdan keçirildi, qalanı əsir düşdü. Əsirlər içində qız-gəlin də var idi. Hamısının qoluna zəncir vurulmuşdu. Onları bir neçə nəzarətçi sürüb aparırdı. Şirvanşah Fərrux Yasara qələbə çalandan sonra Şamaxıda qul bazarı təşkil ediləcəkdi. Sərkərdələr alınan əsirləri bu bazara çəkəcəkdilər. Qul tacirləri bazarda onlara qiymət qoyacaq, alacaqdılar. Ticarət başlamazdan əvvəl, hökmdarın hacibi bazara gələcək, cavan padşahın əhdi-nəzir etdiyi sayda qul alacaqdı. Sonra da qələbə naminə, peyğəmbərin «qul azad etmək» haqqında hökmü mövcibincə aldığı qulları, şahi-cavanbəxt adından azad edəcəkdi. Qalan əsirlər isə hərrac yolu ilə satılacaq, dünyanın müxtəlif şəhərlərinə, xüsusilə Ərəbistana, Türkiyəyə, İrana aparılacaq, saraylara, əmir və sərkərdələrin imarətlərinə yenidən, daha baha qiymətə satılacaqdı. Bu müddət ərzində qul tacirləri əsir

qızlar içindən ən gözəllərini hərəmxanalar üçün seçəcək, onlardan rəqqasə, xanəndə, nəvazəndə hazırlayacaq və xüsusi məktəblərdə təlim verildikdən sonra qızların qiyməti birə-beş bahalanacaqdı. Belə qul bazarları hər qələbədən sonra böyük şəhərlərin iri meydanlarında, bazarlarında düzəldilirdi. Həmin ba-zarlara təkcə müharibədə alınmış əsirlər deyil, həmçinin Şimali Qafqazdan və qonşu məmləkətlərdən borc müqabilində, daxili və xarici vuruşmalar nəticəsində ələ keçirilmiş uşaqlar, cavanlar da gətirilirdi.

Rəhim bəy nə qədər göz gəzdirdisə, əsir karvanı içində bir gün əvvəl şıltaq uşaq sevinciynən zərif ayaqları ilə Günəşli çayın suyunu çalxaladan, suyu nadinckliklə şappıldadan o qızı görüb tanıya bilmədi. Əsir qızlar indi nə görkəmdə idi ki! Yas, kədər pərakəndə geyim və dağınıq saçlar onları tanınmaz hala salmışdı. Qul bazarına satlıq getdiklərini bilirdilər.

Əvvəlcə Rəhim bəyin xas alayı, ardınca da əsir və qəsb

edilmiş mal-qara karvanı (bunların da yerini kim isə ölüm qorxusu ilə göstərmişdi) Kamaladın və İncəbel dikinə qalxıb Şamaxıya doğru yol aldı. Bir gün əvvəl getmiş şah qoşununun izinə düşdülər. Rəhim bəyin keçib getdiyi yerdə iki xərabə qaldı. Biri qəbilənin əsrlər boyu yaşayıb dövran sürdüyü kənd, biri də təzə düşərgə. Sonralar qonşu kəndlərin «Qala-qalaq» adlandırdığı bu düşərgədə indi də əhalinin «Govurqazan» – dediyi o su yolu durur: həyat eşqi, azadlıq rəmzi kimi!

Qoşun keçib-getdi; cənazələrin üstündə qoca quzğun dövrə vururdu.

Qoşun keçdikcə, İsmayılın Fərrux Yasar ilə Cabanıdakı məşhur vuruşuna qədər. Şamaxıya gedən yol boyu «Əliyyən vəliyyullah» deməyən bütün kəndlərin Yandırıldığı yerdə qalaq-qalaq kül qaldı...

***

Xəzərim, dərya məhəbbətim! İllər, əsrlər keçəndən sonra bu yerlərdə tədqiqat aparan arxeoloqlar qazıntı apardığı əski kənd yerlərində 25 santimetr qalınlığında kül laylarına rast

gələcəklər.

«Güngörməz»də Hacı Sataz döşündə, Çuxannı qışlağında, Cənkən çəmində, haramıda, Bərkdərə üstündə, həmyədaşquyu yurdunda, qanlı lağım üstündə, Qanlı qışlaqda, Qanlıçay boğazında, Qanlıtəpə yurdda, (nə qədər qanlı yer adı!) Tava yerində babaların qədim məskənini axtarıb tapacaq, qırıq kuzə, sınıq boşqabları pincləyib muzeylərə düzəcəklər. Vətəndaş müharibələrini – qardaş qırğınlarını lənətləyən dəlil, sübut kimi gəncliyə nişan verəcəklər.

Eh, daha nələr olacaq, dərdin alım, Xəzərim, nə deyim, nə danışım; mən xatırladıqca dünya başıma aylanır. Hər vərəqində tariximizin bircə xəttini gördüyüm əlyazmaları, hər naxışında keçmişimizin bircə nişanəsi qalan pincli qablar... Nə isə... Gəlin qoca quzğunun izlədiyi qoşunun dalınca getməyək. Qanlı vuruş Cabanıda gedir, biz isə Bakıya qayıdaq. Axı Şirvanı fəth etməyə gələn şeyx oğlu şah qüvvəsinin bir hissəsini Bayram bəy Qaramanlının başçılığı ilə ayırıb Bakıya – Qazi bəyin öhdəsində qalmış

Şirvanşahın qış sarayını fəthə göndərib. Sənin sahilinə enək, Xəzərim! Görək orada nə qədər qardaş, qardaş qanı axıdıb sənin pak sularına?

Dalğaların nə qədər vətən övladının qanına boyanıb? Xırdaca, oynaq, dəcəl ləpələrin sahilin qanlı qumlarını yuyub arıdıb. Sən göz yaşlarındanmı belə duzlusan, ahlardan, əninlərdənmi belə həzinsən, qəzəblərdənmi belə çoşqunsan, Xəzərim mənim?

## SƏNƏTKAR MƏHƏLLƏSİNDƏ

Bu şəhərdə hasarlı həyətlər yox idi. Evlər sımsıx, divar-divara tikilmişdi, bir-birinə yol dar dalandan keçirdi. Elə bil ki, əhali ya başı alovlu, qanlı-qadalı yağıdan qorxub bir birinə sığınmışdı (canavar görmüş quzu sürüsü kimi), ya da

üstü göy qübbəli, altı gen dünyamızda torpağımıza qənaət eləmiş, yeri-yurdu əkin-biçin üçün saxlamışdı. Demişdilər ki, qoy tayfanın əkəri çox, biçəri-çörəyi bol olsun. Şəhərdə demək olar ki, evlərin böyründə də qəbirlər var idi. Bu şəhərdə hər şeydən əvvəl zərgərlik və dulusçuluq inkişaf etmişdi. Dulusçuluq məmulatı ikimərtəbəli kürələrdə bişirilirdi. Aşağıda odluqda, uzunsov çalada təzəklər, kərmələr qalanıb yandırılır, içərisi palçıqla suvanmış üst gözə qab-qacaq yığılır, yanan odun təsirilə qıpqırmızı qızarırdı. Dulusçular qışda təzək və kərmədən, yayda küləş və qaramığdan istifadə edirdilər.

Otaqlar ev sahibinin hazırladığı məmulatla bəzədilirdi. Rəflərə, dəhmərdələrə kasa, gildən bişmiş şirli qablar, kuzə, küpə, bardaq və dəbbələr düzülürdü. Üzərinə qara, qırmızı, mixəyi cizgilər çəkilmiş həndəsi fiqurlar hər biri bu qaba gözəllik verdiyi kimi, eyni zamanda, bunlar sirli-sehrli yazılar, cadular, yasaqlar və inamlarla bağlı idi.
Həyətdə püstə ağacının budağına keçirilmiş dəryaz, oraq ev sahibinin əkin-biçinlə də əlaqədar olduğunu göstərirdi.

Dulusçuların həyəti bir az geniş olurdu. Hazır məmulatı eşşəyə yükləyib bazara çıxarırdılar. Kəndlərdən gələnlərə sovça, sənək, nehrə, küpə və başqa məmulat satırdılar. Əvəzində buğda, arpa alırdılar. Şəhər əhli tək bir inək, qoyun da saxlayırdı. Şəhər kənarında əkin yeri olanlar taxıl da əkirdi. Əhalinin əksəriyyətinin dənizkənarı bağlarda xırdaca bir evi, azacıq üzüm, əncir bağları vardı. Yayı külfətlərini götürüb bu bağlara köçür, qızıl qumlar üstündə, qızmar günəşdən şirə çəkmiş kəhrəba kimi ağşanı, ağadayı, qızıl üzüm, kişmişi, qara şanı yetişdirirdilər. Arvadlar bu üzüm və əncirdən qış ruzusu üçün püskəndə, şirbədüşəndə, mövüc qurudur, dərdlərə dərman, xəşil və halvalara dad verən doşab, uşaqların novxarışı olan zincilfərəc bişirirdilər.

Zərgərlərin həyəti çox yığcam idi. Adətən, iki otağın birində külfətin yatacağı yerləşir, bir növ əndərun yerini görür, digərində ev sahibi zərgər işləyirdi ki, bu otaq həm də sifarişçi qonağın qəbulu üçün idi. Zərgər burada öz xırdaca dəzgahı dalında işləyir, balaca, dəqiq tərəzisində qızıl-

gümüş çəkir, sonra onları əridir və istədiyi şəklə salırdı. Təsvir etdiyimiz ikiotaqlı balaca həyət belə zərgərlərdən birinin mənzili idi. Burada uca qol-budağı qonşu həyətlərinə belə boylanmış bir püstə ağacı var idi.

Püstə ağacının altında salınmış nimdaş palaz üstündə iki arvad və bir də 5-6 yaşlarında bir qız uşağı oturmuşdu. Onlardan biri dolğun bədənli, girdəsifət, uzun hörükləri az qala topuğuna çatan qadın idi. Başına dingə vurmuşdu. Qırx yaşlarını haqlamışdı. Gen, ikibalaq tuman geymişdi. Bardaş qurub oturmuş, əlindəki mis qalıba al məxmərdən araqçınlıq keçirib, güləbətin düzürdü. Araqçının naxışlarını mis qalıbın dairəsinə baxa-baxa tikirdi. Yanındakı qurama boğça açıq idi. Burada güləbətin, ipək, keçi saplar topu, qızılı iynə dəsti vardı. Arabir gərəyi olan saplardan münasib iynəyə keçirib işləyirdi. Qadın ev sahibi zərgər Dərgahqulunun külfəti Xırdaxanım idi. Xırdaxanım ərinin səyyar sənət sərgisinə bənzəyirdi – Qulaqlarında əsl usta əlilə, məhəbbətlə işlənmiş əlvan minalı, zərif şəbəkəli qırxdüymə sırğalar, boynunda «balıqşəlpəli» gəlbənd, barmağında xatəm üzük, qollarında

həsiri qolbaqlar var idi. Mina kəmər darayı köynək üstündən belini kip bağlamışdı. Sanki qadınlara ərinin sənətini nümayiş etdirirdi. Şəhərin bütün başqa qadınları kimi, o da olan bəzəklərini heç vaxt üstündən çıxarmırdı. Evdə də, hamamda da, toy-bayramda da.

Xırdaxanımın müsahibi də ikibalaq tuman və arxalıq geymişdi. O, diz üstündə oturub qarşısına qoyduğu daraqda yun darayırdı. Yanındakı kisədən əlçimləri götürüb darağa keçirir, qabdan bir çimdik yağ alıb əllərinə sürtür və daranmış əlçimləri yenidən darayır, daha doğrusu onları «süzürdü». Görünür, yun çox zərif bir şey üçün: şalvarlıq, çuxalıq və ya da bahalı xalça üçün daranırdı, Yaxın qonşusu – Xırdaxanımla birlikdə həvəsəhəvəs işləməyə gəlmiş bu qadın dulusçu Vəliyullanın külfəti Balaxanım idi. 35-36 yaşlarında olardı. Qənşərindəki balaca qız qızlığı Səkinə idi. Qıçlarını yığıb bükmüş və dizinə kələf keçirmişdi. Bir-bir yanındakı dükçələrdən götürüb əvvəlcə kələfləyir, sonra da analığının göstərdiyi qaydada yumaq sarıyırdı.

Balaxanım Vəliyullaya təzə ərə gəlmişdi. Yeddi yetim üstünə. Ona görə hələ məhəllədə qapıbir qonşusu Xırdaxanımın taleyinə dərindən bələd deyildi. Xırdaxanım isə həm bu boşluğu doldurmaq, qonşusunu olub-keçənlərdən hali etmək, həm də ürəyini boşaltmaq üçün uzun bir hekayət başlamışdı.

– Hə, elə ki dava başlandı, qoşun yığdı düşdü ortaya, qaçan qaçdı, mənimki başıbəlalı keçdi girə. Axı bizim şahlıq üstə davaynan nə işimiz vardı? Hə... Təzə gəlin idim. Bir üzüm qız, bir üzüm gəlin. Özü də o günlərdə təzəcə uşaq ziyan eləmişdim. Sabah tezdən yazıq kişi həftə bazarına getmişdi. Tez də qayıtdı gəldi. Sən demə, qapıya yaraqlı qoşunyığan böyük durubmuş, onun içəridən çıxmağını gözləyirmiş. Girdi içəri. Dedi ki, gedirəm Güləli qızı, can sənin, pənah Allahın. Şükür kəraminə, verən Tanrı balanı da aldı. Yoxsa nigaran gedərdim səndən. İki baş qalacaqdın, bir baş qalırsan. İki əlin bir başını saxlar. Gəldim – mənimsən, gəlmədim – yamana getmə! Axtar, sonala, yaxşıya get. Dedim, bəri bax, mənim sirkəm belə suları götürməz, sınsın iki əl ki, bir başı saxlamaya. Yaradan Tanrı yaratdığı canı

çörəksiz qoymaz. Arın-arxayın get, Allah amanatı! Gəldün – səninəm, gəlmədün – qara torpağın. Sən məni nə saymısan? Ağca ətim bir ər görüb, bir də qəbir görər! Yeddi il aşıq kimi əlimə saz aldım. Daşa dönmüş canım, yeddi kənd-oba gəzdim, yeddi dünya dolandım. Gördüm, yaxşıları yaxşılar alıb, pis xəbərə mən qayıl deyiləm. Arada bir öldü xəbərini çıxardılar. «Gördüm» deyəni görmədim. Odu ki, öldüsünə inanmayıb, elçi gələnləri qapıdan qaytardım. Elə bu güləbətin düzməyi də o vaxtdan adət elədim. Qızlar üçün cehizlik daraqqabı, Quranqabı, möhürqabı, başmaqüzü, sürmədan araqçın tikib satırdım. Çörəyimi çıxarırdım. Sidqimi Allaha bağladım. Gözümü yeddi yol ayrıcından üzmədim, yolunu gözlədim. Yeddi ildən sonra gəldi çıxdı. «A Güləli qızı, əcəb getməmisən. Halal olsun sənə ananın südü» – dedi.

Xırdaxanım elə danışırdı ki, elə bil nəğmə oxuyurdu. Səsində, sözlərinin bir-birinin ardınca düzüşündə məhz nəğmə ahəngi vardı. Balaxanım bu ahəngə uyub, böyük məhəbbətin sadə hekayətini, özünə qismət olmayan bir şirin nağıl təki dinləyirdi. Arabir kirpiklərinin dibini nəmləndirən

yaşı ucuzbəsər, nimdaş Basqalı kəlağayısının ucu ilə silir, yun qılpınlarının alindən gözünə düşməməsilə alışırdı.

– Maşallah-namxuda, istəməyən gözlərə şiş batsın, nə bəxtəvərsən Dərgahqulu qədeşnən...

Xırdaxanım bəxtiyarlıqla gülümsədi.

– Həri ya... həlbət ki, bircə uşaq sarıdan kişini yarıtmadım. Gec oldu, uşaqciyəzim. İndi kişinin saç-saqqalına dən düşən vaxtında, oğlu boyda nəvəsi oleydi gərək.

Balaxanım təzə rəfiqəsinə ürək-dirək verdi.

– Day ona sən neynəyəsən? Allahın Yazısıdı də.

– Həri, elə mən də hərdən onu fikirləşəndə deyirəm ki, ilkim qaleydi. Ziyan eləməsəydim saxlardım özü gələnəcən. Amma sonra da deyirəm ki, Allah bilən məsləhətdi. Neyçün ki, birdən Allah eləməmişkən, o sağ qalsaydı, kişinin özünə bir zaval toxunardı. Ağzımı açan kimi, kişi də mən deyəni deyir. Deyir, bütün bunlar Allahın yazısıdı... İndiki bəsimizdi... Qismətdəndi...

Qapı açılmadan səs gəldi. Xırdaxanım ərini öskürəyindən tanıdı. Öz evinə girsə də adəti idi: əvvəlcə öskürüb gəldiyini xəbər verərdi. Bəlkə, evdə qonşu arvadlarından var, başı-gözü açıq olar. Doğrudan da, səsi eşidən kimi Balaxanım kəlağayısının ucunu yuxarı, burnunun üstünə çəkib yaşmaqlandı. Səkinə də analığına baxıb cəld kələfi ayaqlarından çıxardı, yumağın üstünə doladı və yerindən qalxdı. Balaxanım dedi:

– Dərgahqulu qədeş gəldi, mən getdim.

– Ağəz görəsən nöşün tez gəlib? Yəqin bir şey götürüb gedəcək. Keç evə, gedər, genə işimizdə olluq.

Balaxanım həya içində tələsdi.

– Yox, yox, bəlkəm, çörəkdən-zaddan istədi. Sən işində ol, tez getsə səslərsən, gəlləm genə.

– Yaxşı, yaxşı.

Balaxanım dükcələri həyətdə, palazın üstündə qoyub, Səkinə ilə birlikdə, içəri girən Dərgahqulunun böyründən yavaşca sürüşüb getdi.

– Xeyir ola, kişi, nə əcəb tez qayıtdın? Deyirdin, gec

gələcəyəm.

Kişi un almaq üçün götürdüyü yarıboş torbaları püstə ağacının böyrünə atıb, bir az əvvəl arvadların oturduqları palazın üstündə çökdü. Həyəcanlı idi, amma bu həyəcanı gizlətməyə çalışırdı. Dimdik qarşısında dayanmış Güləli qızının nigarançılığına son qoydu:

– Lənət şərə! Amma bir elə xeyir də yoxdur, bu köpək oğlunun zamanasında. Osmanlı gedir, iranlı gəlir. İranlı gedir, şirvanlı gəlir. İndi də deyirlər Şirvanşahın qoparağını götürürlər.

– Nə olub bəgəm?

Kişi arvadından ömründə bir şey gizlətməmişdi. Nə dərdi olsa, mərdanə arvad hesab etdiyi Xırdaxanımla bölüşərdi.

– Bilirsən, Güləli qızı, deyirlər Ərdəbil tərəflərdə bir şah peyda olub, peyğəmbər nəslindəndi. Deyir, bu Şirvanşahların dədəsidi bilmirəm, babasıdı bilmirəm, nəyidisə, onun dədə-babasını öldürüb. İndi qanını almağa gəlir. Özü də guya bu Şirvanşahlar peyğəmbər salavatullahın dinində nəyisə pozub – onu düzəldir.

– Hə... nə yaman xəbərdi...

– Yaman dedin qoydun. Beş-on il idi, qulaqlarımız dincəlmişdi. Yaman-yaxşı Şirvanşahlar əmin-amanlıq binası qoymuşdu. Özləri camaatın ətini yesələr də, sümüyünü atmırdılar. Yığıb tikintiyə, qalaqurduya aparırdılar bizi. Amma heç olmasa dava-qırğın yox idi. İndi dava başlasa...

– Həri, dava başlasa camaat gedəcək güdaza.

– Gedəcək dedin qoydun. El-oba quru yurdda qalacaq. Kimin nəyinə gərəkdi. Öküz paşanın, çubuğ meşənin. Qırdırırlar camaatı bir-birinə. Axı dili dilimdən, qanı qanımdan qardaşımı nöş qıram, hə? Məsəlçün də... Nə var, nə var mının babası, onın babasını nə vaxtsa öldürüb... Get tut onun özün öldür də... Camaatı nöş qırğına verirsən?

– Lap yəqinin eşitmisən?

– Yəqindən də yəqindi. Saray meydanında bir mərəkə var idi, gəl görəsən. Qala qapılarını bərkidiblər. Heç kimi çölə-bayıra buraxmırlar. Elə mən də ona görə un dalıycan gedə bilmədim. Getdim meydana. Gördüm aləm qarışıb bir-birinə. Qasid gəlib. Şirvanşah Fərrux Yasar Şamaxı tərəflərdə davadadı. Deyirlər, ya yaralanıb, ya da öldürülüb

Cabanıda. Qalada oğlu şahzadə Qazi bəy onun yerini dolandırırmış. Deyirlər, iki gün irəli nə xəbər alıbsa, o da atasına köməyə gedib.

– Vuy Allah, sən saxla. Bəs onda qalanı...

– Hələ onu de də!.. Qala qalıb başdı-başına. Amma, deyirlər, Qazi bəyin arvadı Sultanım xanım deyib ki, qalanı özü qoruyacaq, heç kimi də əri gəlincən içəri buraxmayacaq.

Xırdaxanım fikirli idi. Sultanım xanım sözünə əhəmiyyət vermədi.

– Kim? Arvad xeylağı?

– Həri də. Bizim rəhmətlik Şıx Kəbləlinin nəvəsi. Bibixanım vardı ya!.. Onu şahzadə Qazi bəy almışdı axı... Eşitmiş olarsan.

– Eşitmişəm, – arvad yenə dərdli-dərdli dilləndi.

– Həri, bax o özü. İndi, deyirlər, carçı car çəkəcək. Qoşunyığdı olacaq.

– Allah sən saxla! Kişi, şağım da mollaxanadan gəlmiyib.

Arvadın uşaq üçün bu yersiz həyəcanı kişinin

gülümsəməsinə səbəb oldu.

– Ağəz, day hələm düşman gəlib qapının ağzını kəsdirməyib ki! Mollaxanadan gəlincən Bibiquluya heç nə olmaz. Nə özünü yeyib tökürsən?!

– Sən Allah bəsdü, sən arın-arxayın otur gözlə ki, şağım haçan özü gələcək?

– Bəs neynim, ay dindilovun qızı?

– Dur get gəti şağımı mollaxanadan. Bibiqulu gözümün qabağında olmasa, bağrım çatlar. Barını nəm yıxar, ananı qəm.

Tək övladlı ana, tək çörəkli tabağa bənzər. Tək övladlı ana hər şeydən qorxar, qorxar ki, balasına sədəmə toxuna bilər. Gözünün yaşı qurumaz, ürəyinin əsməsi. Nigarançılığının sonu olmaz. Neynəyəsən anadı.

** *

Dərgahqulu kişinin sözləri həqiqət idi, doğrudan da

Sultanım xanım sarayda tək qalmışdı. İki gün irəli saraya gələn qasid Ərdəbil şeyxlərinin son yadigarı İsmayılın Şirvana hücumu haqqında məlumat gətirmişdi: «Yezid Fərrux Yasardan Şeyx Heydərin qanını almağa gələn qızılbaş qoşunlarının sel kimi axmaqda olduğunu» xəbər vermişdi. Bunu eşidən Qazi bəy gizlicə sarayı tərk edib getmişdi. O, yaxın kəndlərdən qoşun toplayıb atasına yardıma getmək istəyirdi. Ayrılarkən Sultanım xanımın əllərindən tutub demişdi:

– Sultanım xanım, əzizim, mənim saraydan getdiyimi hələlik heç kəs bilməsin. Müxtəlif bəhanələrlə otağıma kimsəni buraxma, xəstədir de! Nə istəyirsən elə, amma şəhərin sahibsiz qaldığını bilməsinlər. – Sonra da barmağından Şirvanşahın davaya gedərkən ona verdiyi möhürlü hökm üzüyünü çıxarıb Sultanım xanımın barmağına keçirmiş və əlavə etmişdi: – Bir gərəkli, vacib iş olsa, məndən xəbər çıxanacan özün əncam çək. Mən bir-iki günə sənə məlum olan yolla özüm qayıdaram, gecikməli olsam, mütləq qasid göndərərəm.

Sultanım xanım dolmuş gözlərini ərindən gizlətmək üçün onun köksünə yaslanmış, qəlbində:

Eləmi sinə-sinə,
Yar gəlir sinə-sinə,
Dünyaya sığmaz başım
Sığıbdı sinəsinə, –

deyə pıçıldamış, ucadan isə soruşmuşdu:
– Birdən mələkə özü sənin xəstə olduğunu eşidib gəlsə?
– Bacarsan, sakitləşdir, bacarmasan, otağına al, həqiqəti özün bildiyin kimi ehtiyatla ona xəbər ver. Amma tapşır ki, mən özüm səndən belə tələb etmişəm. De ki, sirri heç kimə açmasın, mən gəlincən. Bir-iki günəcən özümü sənə çatdırram.

Qadın qəlbi! Falçımıdır? Rəhmdarmıdır? Nədir, ilahi? Amma nə üçünsə mənə elə gəlir ki, bu son görüşümüzdür. Bu vidanın vüsalı olmayacaq. Mən səndən ayrıla bilmirəm, qollarından ayrılıb getmək istəyirəm. Sadaq olub oxlarını

dərunuma almaq, çiynindən asılıb səninlə getmək istəyirəm. Səni bu kandardan kənara buraxmaq istəmirəm. Heç vaxt belə olmamışdım. Heç vaxt dalınca ağlamamışdım. Amma indi göz yaşlarımı güclə saxlayıram. Mənə nə olub? Neyçün beləyəm, əzizim, taleyim mənim?! Sultanım xanım əri ova gedəndə, hərbi məşqlərə çıxanda, dələyə-nökərə etibar etməz. Qazi bəyin sadağına oxları özü doldurar, qılıncını özü itilər, yəhərqaşı heybəçiyə yeməyi özü yığardı. Sultanım xanım saraydakı birinci qadın idi ki, şahzadə arvadı ola-ola nökər-qulluqçu xidmətindən imtina etmişdi. Ərinə də özü xidmət etməkdən zövq alır, onunla birgə yeyir, at minir, onunla birlikdə hərbi məşqlərə gedirdi. Yayı Gülüstanda, Fit dağında, Lahıcda keçirdikləri vaxt onunla bahəm ova çıxırdı. Bu, zəmanəsində qəribə görünən ünsiyyət, iki gəncin birgə inkişafına səbəb olmuşdu. Özlərini iki bədəndə bir can bilirdilər.

Qazi bəy tələssə də Sultanım xanımın qollarını gərdənindən zorla ayıra bilmədi, özünün çəkilməsini gözlədi. Əslində o özü də bu nəvazişkar qolların boynundan açılmasını

istəmirdi.

Əlini qaldırıb qadının zər-zibanə örpək altından görünən cığa və birçəklərini sığalladı, barmaqlarını nəm kirpikli gözlərində gəzdirdi. Nəmliyi duyunca qəlbi sıxıldı.

– Sən də? Sultanım, sən da arvadlara dönürsən nədi? Bu nəm neyçündür? Mən səni ər ürəkli, mərdanə qəlbli vətən igidlərindən seçmirəm. Onların birisən, göyərçinim, qumrum mənim!

Sultanım xanımın yaş kirpikləri səyrişdi, gözlərində birər ulduz sayrışdı.

– Bu «mərdanə» ilə «göyərçin» sözləri tutmadı.

– Səndə hər şey tutaşdı. Al da, şal da yaraşır sənə, Sultanım mənim!

– Di get, dilim «get» deməyə gəlməsə də get! Səni atan çağırır, vətən çağırır. Oğulluq borcu çağırır səni. Məndən də, saraydan da, tapşırıqların sarıdan da narahat olma.

– Olmaya bilsəydim... Qəlbini köyrəltmək istəmirəm.

Amma başqa səfərlərimdə ürəklə gedirdim. Qəlbim – sən

burda qalsan da, nigaran deyildim. İndi nədənsə nigaranam.
– Mən də...
– Salamat qal, Sultanım, – Salamat qayıt, sevdiyim. – Allah amanında. – Tanrım sənə yar olsun.

Ayrıla bilmirdilər. Qazi bəy bir də əyildi, Sultanım xanımın hələ də qızlıq təravətini saxlayan yuvarlaq çənəsindən yapışdı, ikicə barmağı ilə bu çənəni yuxarı qaldırdı. Gəlinin boğazından, gərdənindən dönəm-dönəm öpdü. Döşləri arasından qalxan mixək və gülab iyini ciyərlərinə çəkdi. Könlündə har baxışda onu bir daha ovsunlayan Sultanıma qovuşmaq arzusu baş qaldırdı. Gəlini qolları arasında ürəyindən qopub gələn bir ehtirasla, bütün vücudunu alışdıran bir arzuyla sıxdı və bu ayrılığı törədən səbəblərə acıqlanaraq ayrıldı.
– Salamat qal, Sultanım!
– Salamat qayıt, əzizim! – Gəlin cəld alçaq mizin üstündən gümüş piyaləni aldı, ərinin ardınca su səpdi. – Gəlişinə mən qurban, gedişin nə yamandı, heyyy – deyə inlədi. Bu hal xeyli sürdü. Bir saata qədər o hələ də istəklisinin hərarəti və

ətri duyulan yataqda üzüqoylu qaldı. Ağır, dərinliyi hələ ona o qədər də aydın olmayan bir qorxu qəlbini bürümüşdü. Yerindən qalxıb xırdaca-xırdaca əlvan şüşələr taxılmış pəncərəyə yanaşdı. Buradan qalanın diş-diş divarları, onların altından şüy çəkmiş mazğallar görünürdü. Qaladan o yana tozlu bir yol uzanıb gedir. Onu Sultanım adlandıran bir igidə özü ilə haralarasa, hansı qorxu və təhlükələrə isə çəkib aparırdı. Həsrətli gözlərini bu yollara dikib xeyli baxdı və yalnız indi birdən-birə özünə yad olan bu sarayda tək-tənha qaldığını duydu. Qəribə idi ki, bu təklik onu sıxmırdı, əksinə bu tənhalığı duyduqca vücuduna bir mətinlik, bir cürət axıb gəlirdi.

Sultanım xanım gecəni tək yatdı. Yanına saray xanımlarından, qulluqçularından kimsə gəlmədi, gələ də bilməzdilər. Çünki ertə getmiş Qazi bəyin sarayda olmadığından, deyəsən, nədim Salehdən başqa kimsə xəbər tutmamışdı.

# QOŞUN GƏLİR

Sərkərdə dayandı. Qoşun atın qənşərindən əsgəri addımlarla irəliləyirdi. Qabaqda ələmlər, aypara altında at quyruğu vurulmuş tuğ, baş barmağını cüt tutmuş pəncə başlıqdı yaşıl bayraq aparırdılar. 40 boyun öküz qoşulmuş mancanaq-top arabaları arxada gəlirdi. Əsgərlər hələ o qədər də yorulmamışdılar. Amma xeyli yol gəlmişdilər. Sərkərdənin son hökmünə görə bu gün onlar olduqca erkən qalxmışdılar. Gecə az qala yarı idi ki, çapar hökmü ona yetirmişdi. Çadırın qənşərində atdan enmədən əmri verib getmişdi. Cavan sərkərdə qələbə eşqilə dan ulduzu doğmamışdan qoşuna qalxmaq əmri vermişdi. Döyüş yerinə hamıdan əvvəl çatmağa tələsib, tez çıxmışdı, elə buna görə də indi əsgərlərin üzündə yorğunluq əlamətləri görünməyə başlamışdı. Sərkərdə düşünürdü: «Hələ xeyli yol var. Çox yorulsalar, döyüşdə lazımi çeviklik göstərə bilməzlər. Nə isə etmək lazımdı».

Günəş dırnaq boyda qalxmışdı. Hələ şüaları göz qamaşdırmırdı, aralıdakı dənizin üstündə qızılı bir yol salmışdı. Dəyirmi kürrə kömür kimi közərib yüksəlirdi. Ətraf xeyli işıqlandığından sərkərdə tozlu-torpaqlı, yuxudan doymamış gənclərin simasında açıq-aydın üzüntü hiss edirdi. Halbuki qarşıdakı ağır döyüş üçün ona gümrah döyüşçülər lazım idi. Möhkəm Bakı qalasını – Şirvanşahların qüdrətli qış iqamətgahı olan şəhər qalasını almaq o qədər də asan olmayacaqdı. Sərkərdə qoşunu seyr etdikcə müntəzəm addım səslərinə qarışmış nizə, qalxan, yəmən qılıncı cingiltilərini dinləyir və çarə axtarırdı. Dəniz isə mis piyalədəki ərimiş qızıl kimi parıldayır, insana sanki gəl-gəl eləyirdi. Birdən sərkərdə nə isə düşünüb, əlini yuxarı qaldırdı və dayanmaq işarəsi verdi. Yüzbaşıları yanına çağırdı:

– Qoşunu dayandırın. Təbilçini yanıma çağırın!

Səslər ucaldı:

– Dayanın, durun!

Təbilçi sərkərdəyə yanaşdı. Əmrə müntəzir durdu. Sərkərdə dilləndi:

– Təbilini işə sal! Mən işarə verən kimi min beş yüz zərbə vurmaqla saya başla! – Sonra köməkçilərinə döndü. – Qoşuna çimmək icazəsi verilir.Qoy çimsinlər, sayçı min beş yüz işarəsi verənəcən. Yorğunluqları çıxar.

Qızılbaşlar əmr alan kimi sevincək içində hay-küy ilə cəld soyunmağa başladılar. Soyunan-soyunan özünü yay gecəsinin ılıq-ilmanqı etdiyi suya vururdu. Yalnız gənclərə məxsus bir qayğısızlıqla çimişirdilər. Sahildə təbilə vurulan toxmağın qopardığı yeknəsəq səs eşidilirdi. Bir... iki... üç... Qumluqda bir sərkərdə qalmışdı, bir də təbilçi. Təbilçi sayır, sərkərdə isə bu aram say sədaları altında düşünürdü: «Bakı qalasını çox möhkəm deyirlər. Kim bilir, sabahkı döyüş zəfərmi, məğlubiyyətmi gətirəcək? Kim bilir, sabah axşam əzanına bunlardan hansı sağ qalacaq? Bəlkə də, bu çimmək kimisi üçün sol ölüm qüslü olacaq. Şəhidə qüsl verilməz. Qoy çimsinlər. Qoy təmizlənsinlər yolların, susuz səhraların tozundan. Qoy dincəlsinlər. Mərdəkan qalasını, şahın bağ evini alandan buraya gəlincən onlara dinclik verməmişəm. İntəhası bir az sonra Xüləfa bəy gəlib yetişəcək, məni danlayacaq. Qoy olsun! Bu danlayışdan da bir həzz

duyacağam. Sabah gözünün önündə din yolunda, cavan şeyx-şahın yolunda, bəlkə, mən də qətlə yetdim. Kim bilir? Onda mənim də sədaqətimə inanar, bugünkü danlaq üçün peşman olar mənim adlı-sanlı sərkərdəm».
O, bu sözləri düşünə-düşünə təbilin aram sayını dinləyirdi.

Say bitdi. Ortalığa sükut çökdü, indi əmri unudub suyu şappıldadanların səsindən başqa heç nə eşidilmirdi. «Atla-an-an!» əmri gurladı. Sərinləşmiş, toz-torpaqdan yığanmış qızılbaş qaziləri tələsik geyimlərini geyib atlandılar, heç yarım saat çəkmədi ki, qızılbaşlar mətin cərgə ilə öz cavan sərkərdələrinin ardınca Bakı qalasına doğru yönəlməyə hazır vəziyyətdə durmuşdular.
– İrəli, ardımca...aaa...
Sərkərdə Dəməşq poladından tökülmüş, mina qəbzəli qılıncını qınından çıxarıb havada oynatdı. Günəş altında gümüş kimi bərq vuran qılıncı bütün qazilər gördülər. Bu parıltı onları «müqəddəs din yolunda» rəşadət göstərməyə çağırırdı. Qızılbaşlar sərkərdənin ardınca atlarını hərəkətə gətirirdilər. Sərkərdə qılıncını qınına qoyub irəlilədi...

Onlar Xəzərin sahili ilə gedirdilər. Sahil boyu mənzərə tez-tez dəyişir, gah Xəzərin dəvə boynu kimi əyri ləpədöyəni mavi, indi isə qızılı görünən sularına tərəf əyilir, gah da aralanırdı. Xırdaca-xırdaca qum təpələri böyüyür, sahillə dəniz arasında qızılı qum zolağı əmələ gətirirdi. Belə yerlərdə heybətli qayalar suların mavi köynəyini yırtıb çıxırdı. Dalğalar bu qara qayalara dəydikcə onların rəngi dəyişir, ağappaq qağayı qanadları kimi bəyaz köpüyə çevrilirdi. Elə bil ki, qayalar sabunlanıb yuyunur. Bu ağ köpüklərdə öz yosunlu libasını yuyub ağartmaq istəyirdi. Belə yerlərdə suların səsi də qorxunc, ağır, xırıltılı, heybətli olurdu. Bayaqkı göz oxşayan mavilikdən, qulaq oxşayan həzinlikdən əsər qalmırdı.

Qayalıqlarda qoşun səpələnib getmir, çarpışmır, cəngavərlik göstərmir, dar yolu üç-bir, dörd-bir keçib irəliləyirdi. Şəhərə xeyli qalmış uzaqdan gözlərinə qızılı zəmi göründü. Cavan sərkərdə diksindi, bunu bir sərab, bir xəyal, ilğım zənn etdi:

– Sübhanallah, bu qumluqlarda hələ bir taxıl da əkirlər!

Yoxsa bu da sərabın başqa bir növüdü?
Amma sərkərdə qoşunkeşdiliyi görüb zəmidən qaçan biçinçilərin qara arxalıqda kölgəyə, xəyala bənzər vücudlarını görüncə, bunun heç də sərab olmadığını anladı.

Orada, zəmidə hələ də qoşunun yaxınlaşmağından xəbərsiz olan cavan bir biçinçi ucadan oxuyurdu!

Çəmlərində bitər arpa,
Atlar gələr qırpa-qırpa,
Gözəl yar qoynunda körpə –
Gələ, bülbülüm, gələ,
Gülə, bülbülüm, gülə!

Bağlarında bitər üzüm,
Qaş-gözündə qaldı gözüm,
Mənim yarım – körpə quzum –
Gələ, bülbülüm, gələ,
Gülə, bülbülüm, gülə!

Bunu eşidən qızılbaş qazilərindən biri o birinə dedi:

– Sən öləsən, düşmən də olsa, nə gözəl oxuyur! Özü də lap bizim kimi...

– Bizim kimi olmayanda necə oxuyacaq? Dili dilimizdən, qanı qanımızdandı. Bircə boyunlarına düşüb. «Əliyyən vəliyyullah» demirlər.

– Necə? Şahi-Mərdan Mürtəza Əlini?

– Hə də... Bəs bu dava neyçündü? Məzhəb məsələsidi də...

Birinci qəlbində düşündü: «Nəüzubillah, yaxşı, axı bəs bundan mənə nə?» Nə əkərsən, onu biçərsən, deyiblər. Bü dünyada nə savab qazansan, o dünyada nameyi-əmalında rəsulun qulluğuna aparacaqsan. Özün də özünə cavab verəcəksən əməlinçün. Bəs mən niyə qırım bunları? – düşündü. Lakin bu sözlərin birini də qorxudan dilinə gətirə bilmədi, «Lənət şeytana» deyib qəlbindən qovdu.

Biçinçilər bir-birini səsləyib yaxınlaşan qoşunu göstərməyə və əlinə gələn şəltəsini götürüb qaçmağa başlayırdı Mahnı yarımçıq kəsildi. Oxuyan biçinçi də qızılbaşları görmüşdü.

Cavan sərkərdə yolunu dəyişə bilməyəcəkdi. Yol bu zəminin içindən keçirdi və o, yolundan dönə bilməzdi. Bir az əvvəl biçinçilərin bafa tutub dərz bağladığı, dərzlərdən xaralar düzəltdiyi bu heyat qaynağı, – neçə ayların əziyyəti nəticəsində meydana gəlmiş zəmi məhv olmalı idi. Çarə yox idi! O belə zəmiləri tapdaqdan az keçirməmişdi. Qəlbində təəssüf hissi doğmadı da. Adətkərdə idi. Ardınca gələn qoşun Şeyx oğlu şahın bir qəzəlindən alınmış bu beyti təkbir kimi deyə-deyə irəliləyirdi:

Biz əzəldən ta əbəd meydana gəlmişlərdənüz,
Şahi-Mərdan eşqinə, mərdanə gəlmişlərdənüz.

Səslər göyə ucalırdı. «Şahi-Mərdan eşqinə» deyə zəmilərə girən qoşun ayaq altına deyil, göyə baxırdı. Xaralar dağılır, dərzlər çözülür, bafalar dırnaqlar altında əzilirdi. Xaraların kölgəsinə qoyulmuş Vəliyulla işi sovçaları, sənəkləri xıncım-xıncım olurdu. Gül hənalı əllərin quyulardan çəkdiyi buz su bürkülü zəmiyə tökülürdü. Qazilərdən bəzisi nə etdiyinin fərqinə varmadan at üstündən əyilir, dərzlərin

ucundan bir neçə sünbül alıb ovcunun içində ovuşdurur və sütül dəni ovxalayır, qoxlayıb ağzına atırdı.

Qoşun keçdi. Zəmi yarı döyülüb, gözər halına salınmış xırmana çevrildi... İndi qızılbaş qaziləri Bakı qalasını haqlamışdılar.

Xüləfa bəy gəlib çatanda cavan sərkərdə mövqe seçib dayanmış və əmirinin əmrini gözləyərək əsgərlərinə dinclik vermişdi. Qala ətrafında qoşundan başqa bir canlı gözə dəymirdi. Müdafiəçilər qalanın içinə çəkilib darvazaları möhkəm bağlamış və indi, yəqin ki, mazğallardan düşmənin tutduğu mövqeyi və hərəkətini izləyirdilər.

Qala çox möhtəşəm və uca idi. Möhkəm idi. Qalın divarları, dairə dişlikli uzun mazğallı qüllələri var idi. Qənşərdə Qoşa qala qapısının üstündə bir cüt üz-üzə gəlmiş şir və aralıqda öküz başı həkk olunmuşdu. Xüləfa bəy şirləri və öküzü görüncə qəlbində bir nifrət doğdu: «Hələ də bir olan Allahı düşünmürlər. Bu kafirlər, müsəlman olsalar da,

bütpərəstlik dövrünü unutmayıblar» deyə fikirləşdi.
O, cavan sərkərdənin seçdiyi mövqeyi bəyəndi. Səhər üçün lazımi binagüzarlıqla məşğul oldu. Qoşuna bu gün dinclik verməyi əmr etdi. Səhər erkənə hücum mövqeləri seçmək üçün, Bayram bəy Qaramanlı ilə birlikdə atlanıb qalanın ətrafını gözdən keçirməyə getdi.

Bələdçi də onları müşayiət edirdi. Qalanın dənizə baxan səmtində möhtəşəm bir tikili görüb maraq və heyrətlə dayandılar. Xüləfa bəy bələdçidən soruşdu:
– Başı buluddan, ayağı dəryadan nəm çəkən bu bina nədi?
– Bu yerlərdə məşhur «Qız qalası»dı, qurbanın olum! Deyirlər, qız bəkarətli alınmaz olduğundan «Qız qalası» qoyublar adını.

Xüləfa bəyin qalın dodaqları xəfif bir istehza ila qımışdı.
– Sübh namazından sonra onun alınmazlığını bu bidinlərə sübut edərik. Sən də görərsən.

Xüləfa bəylə Bayram bəy qızılbaş əsgərlərinin dayandığı

bayaqkı yerə qayıdanda, bura artıq düşərgəyə dönmüşdü. Sərkərdə üçün ağ çadır qurulmuşdu. Qalan bəylərdən ötrü münasib xeymələr tikilmiş qazilər, çərxəçilər, təbilçilər atlarını yançidar edib, başlarına torba keçirmişdilər. Yerdə qazılmış ocaqlarda iri qazanlar asılmışdı. Sursat arabaları da gəlib çıxmış, aşpazlar yemək hazırlamağa başlamışdılar.

Əsgər ocaqlarının başında aşıqlara həmişəki qayda üzrə ayrıca yer verilmişdi. Axı onlar düşərgədən düşərgəyə yürüş zamanı, xüsusən döyüş başlananda hamıdan öndə gedir, əsgəri təşviq edən mahnılar oxuyur, yeni qələbə vaxtı qəhrəmanlar haqqında şərqilər qoşur, gənc müridləri döyüşə həvəsləndirirdilər.
Qalanın divarlarını yarmaq üçün mancanaqlar, çıxıb aşmaq üçün nərdivanlar hazırlayırdılar. Xüləfa bəy və Bayram bəy Qaramanlı, gənc sərkərdənin hazırlığını məqbul sayıb çadırlarına keçdilər.

Axşam namazının vaxtına az qalmışdı. Əzançı yüksək bir daşın üstünə qalxıb azan verməyə başladı. Bakı torpağında

ilk dəfə əzanda Əli adı çəkildi. Qazilər dəstəmaz alıb namaza hazırlaşdılar...

## BİBİXANIM-SULTANIM

(d a v a m ı)

Bakı qalasına bir ay əvvəl elçi gəlmişdi. Bu, Şah İsmayılın xərac verməyi tələb edən elçisi idi. O zaman hələ Fərrux Yasar sarayda idi. Elçiyə rədd cavabı verib, xərac verməkdən imtina etmişdi. O, cavan şahın qüvvət və qüdrətinə, qızılbaşların böyük bir ərazidə qələbəsinə inanmır, eşitdiklərinə etibar etmirdi.

İsmayılın Şirvan və Bakı üzərinə hücumu da elə bununla izah edilirdi. Sultanım xanım indi hadisələrdən xeyli keçdikdən, qayınatası və əri Bakıdakı Şirvanşahlar sarayını tərk edib qoşun yığmağa getdikdən sonra bütün bunları

düşünür, şəhərin müdafiəsi üçün tədbirlər görürdü. Saraya gündə xəbər xəbər dalınca gəlirdi. Gah Şirvanşahın qələbə xəbəri, gah da Cabanı kəndi yaxınlığında məğlubiyyətə uğrayıb həlak olmaq sorağı çatırdı. Bir də xəbər çıxdı ki, gecə Ramana və Mərdəkan qalalarının üstündə xəbərdarlıq işığı – atəş görünüb. Bu axırıncı xəbər mələkənin də qulağına yetişdi. Səhər erkən Qazi bəyi hüzuruna istədi. Lakin «onun xəstə olduğunu, bir neçə gündən bəri kimsəni qəbul etmədiyini» söylədilər. Mələkə narahat olub, andını unutdu və öz ayağı ilə oğlunun hərəm otağına gəldi. Qapıda onu Sultanım xanımın xırda-bayır əmrlərini yerinə yetirən yeganə qulluqçusu qarşıladı və mələkənin məiyyəti ilə birlikdə gəlmək xəbərini xanıma çatdırmağa yüyürdü. Sultanım xanım qayınanasının qarşısına çıxdı. Qadının əlindən öpdü, sinəsindən öpdü, qolundan yapışıb otağına apardı. Artıq həqiqəti ondan gizlətməyin mümkün olmadığını dərk edirdi. Odur ki, təkləşib bir neçə cümlə ilə işin əslini arvada xəbər verib məsləhət istədi.

Bu zaman qasid gəldiyini söylədilər. Əvvəlcə bunun əri tərəfindən göndərildiyini zənn edən Sultanım xanımın ürəyi

çırpındı. Qaydanı unudub qayınanasından əvvəl:
– Gəlsin! – əmrini verdi. Lakin ona dedilər ki, qasid təzə şah tərəfindən göndərilib, mütləq Qazi bəylə görüşmək istəyir. Sultanım xanımla mələkə bir-birinin üzünə baxıb durdular. Nəhayət, Sultanım xanım dedi:
– Onu Qazi bəyin otağına aparın.
Özü də yataq otağına çəkilib əri ilə birlikdə məşqlər, ovlar zamanı geydiyi süvari paltarını geyindi. Və bu şəkildə də qasidlə görüşmək üçün ərinin qəbul otağına keçdi.

Qasid ortaboylu, arığaz adam idi. Otuz-otuz beş yaşlarında olardı. Ortadan qırxılıb, yanlardan birçək saxlanmış başına on iki künclü qırmızı təskülah qoymuşdu. Qızılbaşların birinci nişanəsi olan bu təskülah altında o, süvari döyüşçüdən çox, sarayda oyunları ilə qayınatası Fərrux Yasarı əyləndirən təlxək Əbiye bənzəyirdi. Qurşağında əyri qəmə, belində Dəməşq qılıncı vardı. Boz rəngli səfər libasında idi.

Bakı darğası Əbülfəttah bəy də onun yanında dayanmışdı.

www.vivo-book.com

Onlardan azacıq kənarda, sağ əldə şəhərin əyan və əşrəfi, sərkərdələrdən isə, ikincidərəcəli bir neçə cavan durmuşdu. Cavan sərkərdələrin çoxu Qazi bəyin dostları idi və Sultanım xanımı tanıyırdı. Onlar dönəm-dönəm şahzadə Qazi bəyi və arvadı Sultanım xanımı həmin bu geyimdə hərbi məşğələlərdə, at çapışmalarında görmüşdülər. Qazi bəyin əvəzinə Sultanım xanımın, özü də tək daxil olması hamısının heyrətinə səbəb oldu. Amma heç kim qasid yanında bunu büruzə vermədi.

Sultanım xanım keçib ərinin müzəyyən taxtında əyləşdi. Əli ilə qasidə danışmaq işarəsi verdi. Saray əhli şirvanşah Fərrux Yasarın üzüyünü onun barmağında görüb, yenidən baş endirdilər.

Qasid yaranan vəziyyəti çox tez dərk etdi, burada nə isə bir qəribəlik olduğunu duydu. Amma o, cavan şahzadəni tanımırdı. İndi taxt üstündə əyləşən gənci doğruçu Qazi bəy hesab edirdi. Müzəffər bir yürüşlə irəliləyən cavanbəxt padşahın və şiəlik təriqətini müvəffəqiyyətlə yaymaqda olan

sərkərdə şeyxin ən sadiq nökərlərindən, pərəstişkarlarından idi. Qürurla irəli gəldi, döşünü bir az da irəli verib sözə başladı:

– Həzrəti-vala! Dini-mübinimizin naşisi, padşahi-cavanbəxt, qibleyi-aləm Şah İsmayıl həzrətləri tərəfindən huzurunuza təslim tələbilə göndərilmişəm.

Onun belə tələbkar danışmasına səbəb bir də yanında duran darğa Əbülfəttah idi. Kişi, görüşən kimi ona hər şeyin hazır olduğunu, şahın çoxdan sarayı tərk etdiyini, sarayda təkcə bir «məcnunsifət şahzadənin» – vaçalının birinin qaldığını xəbər vermişdi. Demişdi ki, əyanın əksəri şahi-cavanbəxtin tərəfinə keçəcək.
Sultanım xanım qasidin sözlərindəki tələbkarlıq və cürətə bərk acıqlanmışdı. O da əri və qayınatası kimi təzə culus edən bu şeyx-şahın zəfərlərindən xəbərsiz idi. Odur ki, «qibleyi-aləm» kəlmələri Sultanım xanımın dodaqlarında xəfif bir kinayənin doğmasına səbəb oldu və o istehza ilə soruşdu:

– Elçi, namaz üstündə üzünüzü hara tutursunuz?
Elçi bu sualdan çaşdı, heyrətə gəldi və əsgər sadəliyi ilə kəkələyərək:
– Əlbəttə, Məkkeyi-mükərrəməyə, həzrəti-vala.

Sultanım xanımın ətrafındakı əyan da sualın səbəbini başa düşmədiyindən heyrət içində dayanmışdı. Birdən onlar Sultanım xanımın səsini eşitdilər. O, elçini öz şahının «qibleyi-aləm» adlandırılmasına işarə ilə deyirdi:
– Onda qibləniz var ikən «aləmin qibləsinə» səcdə edin, daha namaz üstündə Məkkeyi-mükərrəməyə neyçün üz tutursunuz?

Saray adamları ixtiyarsız gülümsündülər. Qasid isə...

Sual, gözəl qılınc zərbəsi vursa da, o qədər dərin dini biliyə malik olmayan əsgər-qasidi çaşdırdı, ona bir küfr kimi göründü. Özünü itirib bir anlığa darğa Əbülfəttaha baxdı. Bir də danışan «şahzadənin» səsində o nə isə başqa bir ahəng duymağa başladı. Bu nədi, yoxsa onu araya qoyub,

ələ salırlar? Onsuz da teztov adam idi, özünü ələ ala bilməyib kükrədi:

– Məni ələ salmaq neyçün, həzrəti-vala? Mən hökmü Ərdəbildən Ərzincana, Şirvanşahlıqdan Şama işləyən bir hökmdarın adından sizə təslim olmaq tələbi ilə gəlmişəm. Yoxsa iki gün keçməyəcək, qala alt-üst olacaq. Hamınız da əsir ediləcəksiz!

Qasidin dövtələb danışığı, elçiyə yaraşmayan hirsi Sultanım xanımın qəlbinə işlədi. Qasidin Əbülfəttaha baxması da Bibixanımın gözündən yayınmamışdı. Ətrafındakıların üzünə baxdı. Darğa Əbülfəttahdan başqa bütün sərkərdələr, əyan cavanlar qəzəblənmişdilər. Kimisi bığını çeynəyir, kimisi dırnağını gəmirirdi. Bir neçəsinin əli qurşağına taxılmış dəşnəi və qəmənin dəstəsinə qoyulmuşdu. Bircə işarə bəs idi ki...

Sultanım xanım özünü yenməyə, təmkinlə danışmağa çalışdı.

– Sən nə cürətlə yeddi yüz illik Şirvanşahlar xanədanına

meydan oxuyursan, bu sarayda təslimdən danışırsan?!
– O xanədanın çırağı sönüb, şahzadə. Başınız sağ olsun! Keçən ay Gülüstanda gizlənməyə çalışan möhtərəm atanızı şahi-cavanbəxtimiz Cabanı kəndinin yovuqluğunda qarşıladı. Padşahımız cümlətanı yeddi min qazisi ilə atanızın 20 min piyada, 6 min atlı qoşununa qalib gəldi. Özü də Buğurd qalasına qaçmaq istəyəndə adi bir qızılbaş qazisinin əlində həlak oldu, şirvanlılar Fərrux Yasarın atını və silahını tanıyıb nişan verdilər...

Bu yerə çatanda elçi kəkələyib susdu. O, bu zərif şahzadənin atasının nə şəkildə öldürüldüyünü öz gözlərilə görmüşdü. Deyə bilmirdi ki, qızılbaşlar Fərrux Yasarın meyitini tapandan sonra mürşidi-kamilin razılığı ilə onun kəsik başını bədəninə birləşdirmiş, həsirə büküb od vurmuş, «Yezid... Y-e-z-i-d», «Sultan Heydərin qatili yezid» deyə bağırışaraq yandırmışdılar. Bütün bunları düşmən arasında söyləyib «Mürşidin intiqamını aldıq» deyə fəxr edə bilmirdi. Amma bununla belə elçi çox ürəklə danışırdı. Qalanın o biri üzündə döyüşə hazırlıq gedirdi.

Arxasında Xüləfa bəylə Bayram bəy Qaramanlı kimi nər igidlər dururdu. Bir də «elçiyə zaval yoxdu». Qoy bu uşaqsifət, arvadsifət şahzadənin bağır-öfkəsi partlasın, daha Yaxşı! Tez təslim olar. Təslim xəbərini aparıb ənam allam. Bir gün sonra şahi-cavanbəxtin ağ atının cilovdarı olub, onu zəfərlə Bakı qəlәsinə varid etmək şərəfi mənə nəsib olar».

– Bəs xaliq, bəs camaat? Onların təslim olmaq istəyib-istəmədiyinin əhəmiyyəti yoxdu? – sualı gözlərindən yaşı qəlbinə axıdıb, baxışlarında ildırım çaxan Sultanım xanım verdi. Qasid həyasızlığında o dərəcəyə çatdı ki, «şahzadənin» sözünü qaytarmağa cürət etdi:

– Camaat... Camaat nədi, kimdi? Çoban dalınca gedən bir sürü qoyundu o camaat...

O danışdıqca Sultanım xanım düşünürdü: «Deyəsən, canına doymusan. Deyəsən, əcəl səni bərk girləyib. Babam deyərdi ki, keçinin əcəli çatanda buynuzunu çobanın çomağına sürtər»...

Qazi bəyin dostlarından iki cavan sərkərdə əlini qəmənin qəbzəsinə aparmaqla cılxa polad tiyənin parıldaması bir oldu. Amma Sultanım xanım özüyçün də gözlənilməz bir hökmlə əlini qaldırdı:

– Aparın, meydanda asın! Qoy qoyun hesab elədiyi camaat öz gözü ilə onu görsün. Günahını carçılara da deyin!

İki nəfər cavan, elçinin qollarını arxasında çataqladı. O, hələ elçiyə zaval ola biləcəyinə inanmırdı, odur ki, qolu burulsa da, çırpınmırdı.

Əbülfəttah bir addım irəli gəlib əllərini döşünə qoydu:

– Əfv edin, axı elçi amanda olar! Elçiyə zaval yoxdu.

Şirvanşahlar xanədanını «elçi öldürdülər» şayiəsi ilə rüsvay etməyin!

O da xahişdən çox nəsihət yolu ilə danışırdı, axı darğa taxtda oturanın Qazi bəy olmadığını bilirdi. Əbülfəttah bəy «gədə-güdə» qızından dönüb şahzadə xanım olmuş Sultanım

xanımı tanıyırdı. Qalanın o biri üzündə Xüləfa bəyin hazırlığından xəbərdar idi.

Sultanım xanım «aparın», deyə bir də əlini qaldıranda Əbülfəttah onun barmağında Fərrux Yasarın «möhür üzüyünü» yenidən gördü. Hökmün qətiliyinə və yerinə yetəriləcəyinə inandı. Bununla belə, son bir ümidlə Sultanım xanımı dilə tutmaq üçün söz axtarmağa başladı. Əbülfəttahın hökm qarşısında susduğunu, özünün bayıra sürükləndiyini görüncə, elçi işin ciddi şəkil aldığına əmin oldu. Birdən-birə bir az əvvəlki qürur onu tərk etdi. Bütün lovğa adamlar kimi, ilk müvəffəqiyyətsizlikdən özünü itirdi. «Mən onu cavan, qorxaq bir uşaq hesab etmişdim. Amma o quzu cildindəki pələng imiş! İlahi, mən axı düşmən içindəyəm, Xüləfa bəy köməyimə gəlincə məhv ollam», fikri ildırım sürətilə xəyalından keçdi. Dartındı, cavanların əlindən çıxıb «şahzadənin» önündə ağzı üstə yerə yıxıldı və inildədi:
– Bağışla, bağışla, şahzadə!.. Həzrəti-vala, qələt elədim...

Sultanım xanım nifrətlə qaşlarını çatdı. – Sən hələ

qorxaqmışsan da?!. Bir  qaşıq qanından ötrü... sürünmə! Danışdığın kimi mərdanə ölməyi də bacar, O bir də üzüklü əlini qaldırdı.  – Aparın!..

– Əfv... aman...

Elçini sürükləyib apardılar. Saray meydanında dar ağacı quruldu. Buraya həyəcanlı xəbərlər eşidib toplaşmış şəhərlilərin önündə elçinin günahını üzünə oxuyub dara çəkdilər.

Qazi bəyin qəbul otağında isə mərəkə hələ qurtarmamışdı. Elçi aparılandan sonra Əbülfəttah bəy deyəcəyi sözləri tapmışdı. O, bir aydan çox idi ki, Xüləfa bəyin adamları tərəfindən ələ alınmışdı. Bir sıra işlər görmüş, qalanı təslimə hazırlamışdı. O, Qazi bəyin harada olduğunu bilmirdisə də, hər halda sarayda ağır xəstə yatdığına, bəlkə də, öldüyünə və bu məsələnin müəyyən vaxtadək xalqdan gizlədildiyinə məhz bu gün əmin olmuş, indi isə inamı bir qədər də artmışdı.

– Xanım, heç yaxşı iş görmədiz.

– Neyçün? – deyə Sultanım xanım maraqla soruşdu. – Şirvanşahları alçaldan, camaatımızı qoyun hesab edən bir qasidə aman verəydik? Öpüb göz üstünə qoyaydıq?

– Axı bir nəzərə alın ki, bu kələk şah İsmayıldı. Onun qəzəbindən qorxun! Şirvanşah Fərrux Yasar, sizin hörmətli qayınatanız, bizim padşahımız Cabanıda həlak olub. Yerində şahzadə Qazi bəy olmalı idi. O da meydanda yoxdu. Biz hansı qüvvəylə qibleyi-aləmin qənşərinə çıxacağıq?

– Sənin üçün də o qibleyi-aləm olub, bəy?

Sual ela bir qəzəblə verildi ki, Əbülfəttah bəy əvvəlcə özünü itirdi. Tosqun bədənini tər basdı, qara şəvə saqqalı titrədi, əlini saqqalına çəkdi, hənalı barmaqları da titrəyirdi. Amma yenə də aldığı ənamlar, verdiyi sözlər, eşitdiyi vədlər kişinin öz canı ilə oynamağına bais oldu:

– Axı anam-bacım, dava-şava kişi işidi. Sən, zənən xeylağı, onun qibleyi-aləm olub-olmadığını nə bilirsən? Yaxşısı budu, qorx onun qəzəbindən! Şəhəri təslim elə! Ya da şahzadənin yerini de!

Sultanım xanım üzüklü sağ əlini qaldırıb qeyzlə dedi:

– Mənim şahzadə adından danışmağa səlahiyyətim var.

Bunu sən də bilirsən. Amma qoy sənə bir misal çəkim. Deyirlər, qədimlərdə məğlub olmuş bir padşah qalibin yanında çox ürəkli danışırmış. Şah vəzirləri ilə məsləhətləşir. Ağılbənd bir qoca deyir: baxın görün o məğlub şah ürəkli danışanda harda dayanır və həmin yeri qazın. Növbəti müsahibə zamanı şahın durduğu yeri qazıb bir neçə küp qızıl, ləl-cəvahirat tapırlar. Məlum olur ki, məğlub şahı ürəkli danışdıran üstündə dayandığı xəzinə imiş. İndi mən də əmin oldum ki, səni danışdıran düşməndən aldığın ənamlardır. Sən xəyanət yolu tutmuşsan, Əbülfəttah bəy!

Gözləmədiyi halda Sultanım xanımın onun sirrinə vaqif olması bəyi sarsıtdı. «Haradan bilir? Bəlkə, şah iqamətgahında adamları var?» – deyə düşündü. Elçinin aqibətini indicə görmüşdü. Dəhşətdən damarlarında qanı dondu. İnkarın lüzumsuzluğunu anladı, taxtın önündə Sultanım xanımın ayaqlarına döşəndi:

– Aman, aldadıblar məni, şahzadə xanım. Möhtərəm qayınatanın ruhuna bağışla məni... Ən çətin iş tapşır, canımı

qurban verim.

Sultanım xanım:

– Mən qarasına demişdim, bəy, – qışqırdı. – Xəyanətini özü iqrar edəndən sonra casusun, doğma yurduna məğlubiyyət arzu edən xainin cəzası ölümdür. Aparın!

Gözlənilməz iqrar hökmdən özünü itirmiş saray əyanı Əbülfəttahı sürüyüb cəllada təslim etdi. Sultanım xanım dedi:

– Carçılar darğanın xəyanətini xalqa elan etsin. İndi isə, ağalar, buyurun məşvərətə. Görək şəhərimizi necə müdafiə etməliyik.

Sərkərdə və əyanlar məşvərət otağına keçib əyləşdilər, onları özlərinin də dərk etmədiyi mənəvi bir qüvvət Bibixanıma – Sultanıma tabe və təslim etmişdi. İndi Sultanım xanım qərargahın başçısı olan bir sərkərdə idi va yığılanlar onun hər bir hökmünü Şirvanşahın əmri kimi qəbul və icra edirdilər.

***

Dədələr belə qızlarımız haqqında: «Vətən çağıranda igid bəllənər; aslanın erkəyi, dişisi olmaz» – deyiblər. Elə mən də, Xəzərim! Sənin sahillərindəki qıvıl qumların, dünyanın qəndili Günəşin, xırdaca mavi ləpələrin yetirməsiydi Bibixanım – Sultanım, doğma dənizim mənim.

Düz iki gün Xüləfa bəy va Bayram bəyin sarkərdəliyi ilə Bakı qalası mühasirədə saxlandı. Arasıkəsilməz hücumlar heç bir nəticə vermədi. Bakılılar təslim olmağı düşünmür, mətanətlə, inadla şəhəri müdafiə edirdilər. İkinci günün axşamı şam namazına bir az qalmış Şah İsmayıl, Lələ Hüseyn bəy və başının adamları ilə birlikdə Şamaxıdan gəlib müharibə meydanına yetişdi. Qalanın hələ də alınmadığını görüncə, mühasirəyə rəhbərlik işini öz əlinə aldı. Əvvəlcə məiyyətindən iki gənclə birlikdə Xüləfa bəyi də özü ilə götürüb qalanın ətrafını dörd dolandı. Mazqallardan birindən atılan oxa hədəf olmamaq üçün ox çatmayan məsafədən

atları cövlana gətirdilər.

Sonra şah təzəcə qurulmuş qızıl qübbəli, güləbətin qotazlı yaşıl çadırın yanına gəldi. Atdan yerə atıldı, içəri girdi, niqabını qaldırıb ən yaxın mürid və sərkərdələrini yanına çağırtdırdı. Çadırın girəcəyi ilə üzbəüzdə qoyulmuş taxtında əyləşdi. Xüləfa bəy, Lələ Hüseyn bəy Bəydili, Bayram bəy, Məhəmməd bəy məiyyətə yaxın olan bir neçə mürid, sərkərdə çadıra daxil olduqda şah onları səbirsizliklə gözləyirdi. Ustaclı, şamluv əfşar, zülqədər, qacar, rumlu sərkərdələri artıq burada idi.
– Buyurun, əyləşin, – deyə onlara yer göstərdi.

Sərkərdələr şahın sağ və sol tərəfində çadırın dairəsi boyu düzülmüş səfər döşəkcələrinin üstündə diz çökərək, qalxanlara təkyə edib əyləşdilər.
Şah sözə başladı:
– Mühasirə uzana bilər. Bu yolla getsək, Bakı qalasını fəth etməyimiz xeyli çəkəcək. Əbəs qurbanlar verəcəyik. Məsləhət bilirəm ki, qala qapılarından birinin altına lağım

ataq və qülləni partladaq.

Lələ Hüseyn bəy cavan şahın vəziyyəti tez qavramasına və təcili nəticəyə gəlməsinə heyran olmuşdu: «Bəxtin sənə yar olsa, bu ağılla uzaq gedəcəksən», – deyə düşündü və dilləndi:

– Qibleyi-aləm, məsləhət bilsəniz, elə durduğumuz Qoşa qala qapısının yanındakı qüllələrin birinə lağım atdıraq.
Şah azacıq düşünüb cavab verdi:
– Yox, mən biləni yuxarıda Qoşa qala qapısının üst tərəfində, bir yüz-yüz əlli qədəm aralıda şimal qapının yanındakı qülləni partladaq. Çünki mühasirə olunanların əsas diqqəti Qoşa qala qapısındadı. Yuxarı qapı dardı, nəzəri o qədər də cəlb eləməz.
Bayram bəy Qaramanlı da Lələ Hüseyn bəyin düşündüyünü bəyənir və cavan şahın hərbi istedadını təqdis edirdi. Dedi:
– Qibleyi-aləm haqlıdı. Elə orada lağım atılsa, məsləhətdi.

Şah yığıncağa xitam vermək üçün sözü tamamladı: – Çox

gözəl! İndi ki belədi, onda Bayram bəyin dəstəsi elə bu gecədən lağım atmaqla məşğul olsun. Sabah səhər mühasirədəkilərə Lələ bəy qara verər... Təkbir hücumlarla baş aldadarıq, əsas məqsədimizə nail olanacan. İndi hərə öz xeyməsinə gedib istirahətə məşğul ola bilər. Amma diqqətli olmaq lazımdı. Yüzbaşılara tapşırın ki, qaravulu birə-iki artırsınlar. Şəbxundan özlərini qorusunlar. Çünki Bakı müdafiəçilərinin şəbxundan ayrı əlacları oxdu, əgər qaçmaq istəsələr. Amma ehtiyatlı olun, elə eləyin ki, başınıza İstanbul qəziyyəsi gəlməsin.

– O nə olan işdir, hökmdar?

– Sultan Mehmet Fateh İstanbulu alanda bir neçə yerdən qala altına lağım atdırır. Bizans hökmdarı da bunu bilib üzbəüz lağım atdırır. Bir neçə lağım uçur, hər iki qoşun nəfərləri altda qalır; bir neçə lağımda isə iki düşmən qarşılaşır, müharibələr tarixində birinci, bəlkə də axırıncı dəfə yeraltı döyüş olur. Tarixçilər yazır ki, lağım qanlı bədənlərlə dolub, torpaq əvəzinə yeri tıxayır, bərkidir.[5]

---

[5]Həmin hadisə 28 may 1463-cü ildə, türklərin Mehmet Fateh

Hamı gənc sərkərdə-hökmdarın tapşırığına diqqətlə qulaq asdı.
Sərkərdələr xudafizləşib çıxdılar. İsmayıl bəy xeymədə tək qaldı. Hələ axşam namazına xeyli vardı...

* * *

...Lağım ertəsi gün axşama qurtarmalı, axşam üstü qüllə partladılmalı, açılan yerdən sübh namazından sonra şiddətli hücumla qala fəth olunmalı idi. Şah belə qərarlaşdırmışdı, işlər öz qaydasında gedirdi. Bu gün sübh namazına qalmış o, yerindən qalxdı. Sahib adlı hicazlı kölənin yardımı ilə tez geyindi, atlandı. Qoşun dayanıb namaza qalxanacan qala ətrafını bir də təklikdə gəzmək istəyirdi.

---

başdaolmaqla İstanbulu fətһ etdiklərindən bir gün əvvəl baş vermişdir.

Ona xəbər vermişdilər ki, arabir tək-tək şəhərlilərdən gözə dəyir və haradasa qala divarı dibində yoxa çıxır. İsmayıl qaladan gizli yol olduğuna əmin idi. İndi əlinə münasib vaxt düşmüşdü. Bəlkə də, bu gizli yolu tapmaq ona müyəssər oldu. O zaman əziyyətli lağım qazmaq işini yarıda dayandırar, gizli yolla qoşunu şəhərin içərisinə yeridə bilərdi. Şəhər müdafiəçilərinin oxuna hədəf olmamaq üçün hasardan bir ox boyu məsafədə yavaş-yavaş atını sürüb ətrafı seyr edirdi. Yolunu Qız qalası səmtindən saldı.

Bura tamamilə sakitlik idi. Qala divarları bu yerdə yüksək qayalıqlı təpələr üzərində qurulduğundan daha uca görünürdü. Qüllələr arasında məsafə çox idi. Mazğallar hündürdə idi. Müdafiəçilərin onu görüb izlədiklərini bilirdi. Özü isə ətrafda bir ins-cinsə rast gəlməkdən gedirdi. Birdən qarşısında cavan bir süvari peyda oldu. Əvvəlcə onu üzdən tanımadığı qızılbaş qazilərdən biri zənn etdi. Lakin diqqətlə baxdıqda bunun kim isə yad bir cavan olduğunu anladı.

Kim idi qala ətrafında nə gəzirdi? Müdafiəçilərdən biri idimi, ya da bəlkə, mühasirədən bixəbər qalaya gəlmiş Şirvanşah adamlarından idi? Şah bütün bunları vəra-vürd edə-edə gəncə yaxınlaşdı. Əslində onların başqa yolu da yox idi. Qız qalasının ətəklərini döyən Xəzər dalğaları, bu yerdən qalanın o biri üzünə keçmək üçün yol qoymurdu. Bir az əvvəl o, Xəzər sularını seyrə dalan gənc şair idi. Təzəcə çırtmağa başlayan qızılı günəş tellərinin altında minbir rəngə çalan Xəzərin şairanə görkəmi onun xəyalını çəkib uzaq ənginliklərə aparmışdı. Qəlbində fərəhli, gülgün misralar doğmağa başlamışdı. Xırdaca ləpələrinə sanki çırtım-çırtım qan çilənmiş Xəzər elə gözəl idi ki...

İndi isə yad nəfəri görəndə onun qəlbində şair susdu, sərkərdə duyğusu baş qaldırdı:

– Kimsən cavan? Hansı bölükdənsən? – deyə cavan süvariyə müraciət etdi.

Cavan süvari onu diqqətlə, böyük bir maraqla gözdən keçirirdi. Əvvəlcə o, şahı tanımamışdı. Çünki eşitmişdi ki,

bir din başçısı olan şah, həmişə üzü niqablı gəzir. Yad, napak gözlərə görünmür. Özü isə müsahiblərini niqabın gözcüklərindən müşahidə edir. Beləysə qarşısında duran cavan geyimindən bəlkə də çox böyük, yüksək mövqe tutan sərkərdə idi. «Amma yox, odur bax, niqabı on iki guşəli dəbilqəsinin üstünə qaldırmışdır. Hə, özüdü, bu odu. Din adı ilə, insana – əşər bayrağı altında dünyaya meydan oxumağa başlayan cavan Şeyx oğlu şah! Qibleyi-aləm! Hələ bığ yerləri təzəcə tərləməyə başlamış uşaq sifətli, amma hərbi məşqlərdən olduqca inkişaf etmiş igid Şeyx oğlu şah! Sənə qiblə dediyi üçün iki nəfər artıq canını təslim etmişdir. Bundan xəbərin var şübhəsiz». Bu sözləri düşündükcə Sultanım xanım doymaq bilməyən bir maraqla gənc padşahı süzürdü. Bəli, bu doğrudan da Sultanım xanım idi. O da bu gün sübh namazından əvvəl qaladan bayıra çıxmışdı. Bibiheybətlilərdən Xeyransa xalanın oğlu Ağadayı ona xəbər vermişdi ki, qoca babası – Şıx Kəbləli bu gecə vəfat edib. Səhər üzü dəfn ediləcək. Sultanım xanım onun üçün atanı-ananı əvəz etmiş qoca babasını son axirət evinə yola salmaq – övladlıq borcunu vermək uçün canından da

keçərdi. Sirrini Qazi bəyin nədimi və indi sarayda ona ən yaxın sirdaş olan Salehə açdı. Hər iki gənc yaraqlanıb atlandı, yalnız onlara məlum olan gizli yolla arxa-sıra kiçik fasilələrlə qaladan çıxdılar. Hərb əməliyyatının başlanmasına qədər sahil boyu kəndə çatıb qayıtmaq xəyalında idilər. Qız qalasının alt səmtində yalnız ona bəlli olan bu yolu, vaxtilə saray ərkanının gözlərinə görünmədən azad məşqlər aparmaq üçün onu qaladan çıxaran Qazi bəy göstərmiş, Şirvanşahların yalnız on ali üzvlərinə – şaha və vəliəhdə bəlli olan bu yolu ona nişan vermişdi. İndi o, düşmən qoşunu namazı qılıb qurtarana və mühasirə döyüşlərini başlayanacan Şıxlara dəyib qayıtmaq istəyirdi. Bibixanım – Sultanım atını xeyli irəli sürmüş, Salehi arxada qoymuşdu, tək irəliləyir və düşünürdü. Dünəndən bəri daha qalaya heç kim girib-çıxmırdı. Artıq ərindən kömək ümidi kəsilmişdi. Qazi bəyin başı əlində deyildi. Başı əlində olsaydı özünü mütləq qalaya yetirərdi. Axı burada o qədər də şöhrəti olmayan bir-iki sərkərdə qalmışdı. Bunlar ötəndə, qalada yerli camaatdan başqa, heç bir döyüş qabiliyyəti olmayan saray əşrafının, hərəmxananın Bakıda qaldığını,

yararlı qoşun hissələrinin atası ilə birlikdə Şirvanda döyüşdüyünü bilirdi. Elə özü də qoşun yığıb atasına köməyə getmişdi. Gələrdi... Görünür, başı əlində deyil...
Bütün bu düşüncələrlə də Sultanım xanım çox da inanmadığı saray adamlarının verdiyi məlumata etibar etməmişdi.

Hələ axşamüstü qüllələri gəzib mövqeləri və azurğu əsgərlə şəhərin müdafiəsinə qalxmış şəhərlilərin vəziyyətini yoxlamışdı. Qoşa qala qapısının üst tərəfində, tök darvazanın yanındakı qüllə üstündə keşik çəkən bir kişi ona yaxınlaşmışdı. Sultanım xanım əvvəlcə saç-saqqalı ağarmağa başlamış bu şəhərli döyüşçünü tanımamışdı. Kişi ona lap yaxınlaşıb:
– Qızım, sənə bir xəlvət sözüm var, – dedikdə kişini səsindən tanımışdı. Bu lap çoxdanın işi idi. O zaman Bibixanım balaca bir qız idi. Ata və anası ovmadan təzəcə ölmüşdülər. O, babası Şıx Kəbləli ilə birlikdə yaşayırdı. Babasının dostu zərgər Dərgahqulu o vaxtlar hansı bir davadansa sağ-salamat qayıtdığı üçün arvadı Xırdaxanım ilə

birlikdə Bibiheybət ziyarətinə gəlmiş və onlara düşmüşdü. Arvad ərinin qayıtması münasibətilə imamzadəyə nəzir gətirmişdi. Sonralar hər dəfə Bibiheybətə gələndə mütləq onlara düşərdilər. Dərgahqulu kişi yetim qızı dizlərinin üstünə alar, oxşardı. Xırdaxanım ona təzə pal-paltar gətirər, geyindirib-kecindirər, övlad həsrətilə qızın uzun hörüklərini açıb yuyardı. Qonşuları Vəliyulla kişinin düzəltdiyi dulusçuluq məmulatından da nəzir adı ilə onlara pay gətirərdilər. Onlar Dərgahqulu kişinin külfəti ilə lap bir evli kimi olmuşdular. Bir il keçəndən sonra Xırdaxanım xala balaca bir oğlan uşağı ilə gəldi və Dərgahqulu əmi ilə Şıx Kəbləli uşağın adını Bibiheybətə hörmət üçün Bibiqulu qoydular.

Bu münasibətlə Xırdaxanım Bibixanımın qulağına bir cüt balaca, minalı qırxdüymə sırğa taxdı:

– Əmin səninçün düzəldib, – deyə Dərgahqulunu göstərdi. – O gün olsun, gəlinlik sırğanı taxasan. Özü də əmin kəssin sənin üçün yaxşılarından.

Ərə gedəndən, saraya düşəndən sonra Bibixanım

Dərgahqulu əmini görməmiş və sifətini demək olar ki, unutmuşdu. Amma səsini eşidincə tanıdı:

– Xoş gördük, Dərgahqulu əmi, Xırdaxanım xala necədi?

– Xoş günün olsun, bala, əmini tanıdın?! Hamı necə, xalan da elə.

– Mənə nə sözün vardı?

Kişi ona lap yaxınlaşmış, məxfi surətdə demişdi:

– Bilirsən bala, mən bu qüllənin qənşərində dünən gecədən bəri xeyli yığınaq görürəm. Düşmən burada nəsə hazırlayır.

Qız qülləyə qalxmış, Dərgahqulu kişinin göstərdiyi səmtə baxmışdı. Orada neftə bulaşmış lopa, təzək və kərmələrin işığında, doğrudan da, düşmən qazilərinin nə iləsə məşğul olduğunu müşahidə etmişdi.

– Dərgahqulu əmi, gözdə-qulaqda olun, görək nədi, – deyib tapşırmış və bu gecə sübhəcən düşünmüş, indi də təzəcə yeraltı yoldan çıxmışdı ki, yolüstü görsün, qalanın bu səmtində düşmən neyləyir.

Qəfil İsmayılla qarşılaşanda gizli qapıdan aralandığı beş dəqiqə də olmamışdı. Əvvəlcə düşmən sərkədəsinin qapının yerini görüb-görmədiyindən şübhələndi. Sonra yadına düşdü ki, sərkərdə bir az bundan əvvəl üzü Xəzərə dayanıb düşüncələrə dalmışdı. Atın cilovunu yəhərin qaşına keçirmişdi. Əynində ağ zər yaxalı al zərbaftadan cübbə vardı. Qolçaqlarına xəz qoyulmuşdu. Başında on iki guşəli qırmızı papaq vardı. Cübbənin altından zireh geymişdi. Sultanım xanım özü onu daha əvvəl görüb diksinmişdi. Bu yadına düşəndən sonra Sultanım xanım arxayınlaşdı. Sərkərdəni diqqətlə gözdən keçirdi, onun şah özü olduğuna yəqinlik hasil etdi. Sualına cavab verdi:

– Mən sizin bölüklərdən deyiləm.

– Bəs kimsən?

– Düşmən niyyətlə gəlib xarabazara çevirmək istədiyin bu məmləkətin əsgərlərindən biriyəm. – O, başı ilə qalaya tərəf işarə etdi.

– Bəs buralarda nə gəzirsən? Axı qala mühasirədədir.

– Sən nə üçün gəzirsənsə, mən də onun üçün...

– Demək, onda sən Qazi bəysən?!

– Elədi ki, var.

– Bəs Qazi bəyin sarayda olmadığını deyirlər?

– Çox söz deyə bilərlər. Mənə də sənin niqablı gəzdiyini deyiblər.

İsmayılın yadına düşdü ki, üzü açıqdır, yadla söhbət edir, həm də bu yad adam onu tanımışdır.

– Sən nə cürətlə mənim elçimi asdırmısan?! Məgər elçiyə zaval olmadığı Şirvanşahlar sarayında eşidilməmiş bir məfhumdur?

– Qəzəbini yen! Elçi özünü elçi kimi aparsaydı, onunla elçi müamiləsi edilərdi. Halbuki, sənin elçilərin harada, hansı mövqedə danışdıqlarını bilməyən adamlardır. İncə insanın elçisi də özünə oxşar.

– Məni kobudluqda təqsirləndirmə! Dünyadan nə müamilə görmüşəmsə, elə də cavab verməyə alışmışam. Mən babamın, atamın Şirvan məmləkətində qətl edildiklərini və Fərrux Yasar adlı bir yezid tərəfindən qətl edildiklərini unutmamışam.

– Onlar Ərdəbildən buraya nəyə gəlmişdilər ki, burada da qətl olunaydılar?

– Onlar bir olan Allahın peyğəmbəri, rasuli-xudanın vəsisi Əliyyəl-Mürtəzanın amallarını yaymaq uğrunda şəhid olmuşlar. Mənim də yolum Əli yoludur. Əlinin Qəmbərinin Qəmbəriyəm.

– Əfv et! Qəmbər bizlərdə bax bu ayaqlarımız altındakı qara bülöv daşlarına deyərlər. Sən ürəyi bərklikdə qəmbərsən, ya nədə?

Sultanım xanımın sözləri İsmayılın qəlbinə qılınc yarasından da acı bir yara vurdu. Əlini qılıncının qəbzəsinə atdı. Özünə, qüvvəsinə əmin olan cavanlara məxsus bir ötkəmlik və qızğınlıqla səsləndi:

– Qalxanını başına çək! Mən səninlə ərəbi dava edəcəyəm. Haqq olan Allah kimin tərəfindədirsə, bu günəş boylananacan o qalib gələcək, – deyə qılıncı ilə Günəşin çıxacağı al-qızılı üfüqü göstərdi.

– İgid, qalxanım yoxdu. Ərəbi davaya mən də varam. Gəl

qardaşı qardaşa qırdırmayaq. Axı sən də yaxşı bilirsən ki, bu dava iki düşmən xalq arasında getmir. Qıran da, qırılan da bir elin, bir xalqın övladlarıdı. Qardaş, qardaş qanı tökür. Şirvanda da, burda da. Müharibə apardığın hər yerdə. İndisə qoy sən deyən olsun, vuruşaq. Kim məğlub olsa, qoşunu da təslim olur. Qalib gələnə beyət edir. Görək kimə verir Allah...

– Ya Allah...

– Ya Allah...

– Bu dünyada hamişə qaçan da Allah deyib, qovan da. Dilinə söz yoxdu, baxaq görək qılınc vurmağın necədi?

– Elə mən də onu görmək istəyirəm.

Onlar qılınca əl elədilər. Üfüqün qızardığı yerdə bircə barmaq naziklikdə baş vermiş günəşin hələ zəif, qırmızımtıl şüaları altında qılınclar şəfəq çaldı. Onlar həvəslə, gənclik atəşilə vuruşurdular, hələ qəzəbdən alışıb yanmır elə bil sadəcə məşq aparırdılar.

Saleh xeyli aralıda qaya dalında daldalanıb onları seyr edir,

çətin anda köməyə hazır vəziyyətdə dururdu.
Meydan dolanıb vuruşmaq üçün mövqe münasib deyildi.

Darısqallıq idi. Odur ki, tez bir zamanda onlar, at üstündə qılınclaşmaqdan bir mətləb hasil olmayacağını anladılar.

– İgid, piyadalanmalıyıq.

– Piyadalanmalıyıq.

Hər ikisi sıçrayıb yəhərdən endi. Qılınc vuruşması yenidən qızışdı. Elə bu zaman qüllənin üstündən bir ox vıyıldadı; çovudu, cuşa gəlmiş cavanların yanından ötüb daşa dəydi. Qala üstündən səslər eşidildi:

– Oxlayaceyəm köpək oğlu yağını...

– Ay sarsaq, birdən oxun ova dəymədi... Dönəndə Sultanın xanıma dəydi? Onda canuvu hara qoyaceysən? Qədeş canı, özüm sənin başını it qibləsinə kəsərəm onda.

– Bəs bu kişilikdəndi? Bizim gözümüz baxa-baxa... Onda qoy örkəni atım, kəmsigləyim onu.

– Onlar ərəbi dava eləyirlər. İşin olmasın. Sultanım hər igidə can verən deyil.

Günəş bir az da boylanıb, möhkəm zirehə qütəvvər olmuş igidlərin qılıncını zirehini al və gümüşü şəfəqlərlə atəşləndirirdi. Gah bunun, gah da onun üzü Günəşə çevrilir, ilk şüalardan qamaşan gözlərini qıyırdılar. İndi günəş onların hər birinin birinci düşməni, qatili ola bilər, xəyanətlə hansınınsa gözlərinə sancılar, qamaşdırar və düşmən qılıncı kiminsə qəlbinə saplana bilərdi.

Döyüşün sürəti artdıqca bədənlər ilan kimi qıvrılıb açılır, günəşdən od tutub yanırdı. Qala üstündəkilər sanki yalvarırdı: «Aman günəş, aman Xəzər, parıldama Sultanım xanıma, sizdən ziya alan gözlərini qoruyun. Onun gözlərinə sancılma, Günəş! Düşmənə kam etmə onu»...

Gözlərinə günəş ziyasımı sancılıb qamaşdırdı, sahil qumları ayağının altından çəkilib boşluqmu yaratdı, nədənsə İsmayıl büdrədi və sağ dizinin üstünə çökdü.

Sultanım xanım fürsəti fövtə vermədi. Cəld qılıncını atdı,

kiçik qızıl qəməsini kəmərindən çəkib çıxardı. Bu qəmə, onun ilk hərbi məşqlərini görən qayınatası Şirvanşah Fərrux Yasarın şahanə hədiyyəsi idi. Dağıstanda çılxa poladdan düzəlmiş tiyə, qızıl qəbzəyə nəsib olmuşdu. Sultanım xanım qəməsini cavan oğlanın çənəsinin altına dayadı. Birdən onun gözləri oğlanın gözlərinə zillənib durdu, döşlərinin ucu gizildədi. Bu gözlərdə elə qəribə bir ifadə var idi ki, bunu yalnız təbiətin Ana yaratdığı qadın duya bilərdi! İxtiyarsız olaraq qadın cəngavərin qolu boşaldı, əzələləri sustaldı. Yalnız ana gözü bu gözlərdəki nakamlığı hiss etdi: «İlahi, bu ki, lap uşaqdı! Bığ yeri heç, tərləməyib də. O adlı sərkərdə budurmu? Bəlkə, səhv eləmişəm. Yox, yox, səhv nədi, İsmayılın özüdü!

Dizinin büküyünü açıb, oğlanın sinəsi üstündən durdu, qəməni geri çəkib belindəki kəmərin ilgəyinə bənd edilmiş qına qoydu. Artıq həyatla vidalaşmış cavan oğlan özündə qəribə bir hal duydu: «Öldürmədi, öldürməyə hazır idi, yoxsa qorxduğumu duydu? Bu ölümdən betər olardı. Bəlkə kimliyimi dürüst bilmir?»

Qala üstündən «afərin», «maşallah» səsləri ucaldı. Lakin birdən mühasirədə olanlar gördü ki, onların sərkərdəsi əlini məğlub olmuş düşmənə uzadıb qaldırdı, bir addım geri çəkilib nəsə dedi. Sultanım xanım deyirdi:

– Qalx bir də tutaşaq, igid! Bizim yerlərdə birinci dəfə basanda kəsmirlər.

İsmayıl qalxdı, dəli bir nərə çəkib rəqibinə cumdu. Boşalmış əzələləri lazımınca gərilməmiş Sultanım xanım elə ilk təkandan səntirlədi və dəbilqəsi başından düşdü. Başına sarınmış bir cüt hörük cezələnib zirehi qütəvvər olan mütənasib əndamının ətrafına töküldü. Heyrətdən cavan İsmayılın gözləri alacalandı:

– Sübhanallah, bu ki, zənən imiş!..

Qadın cəld əyilib dəbilqəsini başına keçirdi, pərt halda atına sıçrayıb uzaqlaşdı. Heyrətdən donub dayanmış İsmayılı ağzı açıla qoyub getdi.

«Zənən imiş! Elə qalanın mühafizi haqqında nahaq danışmırlarmış... Dedikləri həqiqət imiş... Bu mənə ölümdən də betər oldu... Yaxşı, bəs o özünü nə üçün Qazi bəy adlandırırdı? Yox, o adlandırmadı! Mən soruşdum «Qazi bəysənmi?» O da təsdiq etdi. Görəsən, o Fərrux Yasarın nəyidi? Qızı, ya gəlini?»

Bu düşüncələrlə də gənc İsmayıl rəqibinin kiminlə hansı səmtdə qeyb olduğunun fərqinə varmadan düşərgəsinə tərəf qayıtdı. Qala üstündə mazğallardan onların döyüşünü müşahidə edən döyüşçü və şəhərlilər də heyrət içində idilər.

– Sən ölmiyəsən, qədəş canı, Canbaxış, lap xəncəli boğazına dayamışdı, görəsən, nöşün vurmadı?

– Allah bilər bu arvad xeylağlarının işini. Onlarınkı nağıldı, vallah!

– Adə, Allahun olsun! Elə vuruşan igidə arvad deyərlər? Lap ərəbi davanın allahıdı. – Canbaxışın səsində elə bir iftixar duyulurdu ki...

Kim bilir, bəlkə də, «Şah İsmayıl və Ərəbzənki» haqqında dastanın bünövrəsi elə həmin gün, qala müşahidləri bu

vuruşmanın təfsilatını bir az da süsləndirərək başqalarına evdə isə arvad-uşaqlarına nağıl edən günü qoyuldu? Elə həmin gün dastanın özülü yarandı?!

***

İsmayıl niqabını endirib düşərgəyə, xeyməsinə qayıdanda artıq qazilər sübh namazını qılıb qurtarmışdılar...
Kimisi hücuma hazırlaşır, kimisi gecə torpağı daşınmış lağımda qazıntı işləri aparmaq üçün dərin çalaya enir, bir parası qılıncını itiləyir, atını yemləyirdi. Hamısı da işlərini gördükcə Şeyx oğlu şahın bu misralarını ibadət duası kimi söyləyirdi:

Yəqin bil əbcədü bürhan Əlidir...
Bəyanı-tohidü Quran Əlidir...
Bu biçarə Xətainin pənahı
Davasız dərdlərə dərman Əlidir.

İsmayıl xeyməsinə keçib sübh yeməyinə əyləşdi. Cəld

başının üstünü, səfiri Qulu bəyin ona Şamdan göndərdiyi 7-8 yaşlı zənci kölə kəsdirdi. Ağ gen şalvar, ağ köynək geymişdi, başına üstü güləbətin cıqqalı iri əmmamə qoymuşdu. Əlindəki tovuz lələklərindən düzəlmiş yelpazə ilə hökmdarın üzünü yelləyir, xeymələr ətrafında kəsilən qoyunların, malların qanına yığılmış milçəklərdən buraya uçub gələnlərini qovurdu.

Şahın nədimi özü yaşında cavan bir sərkərdə idi. Birlikdə nahara əyləşdilər. Xidmətçilər çini aftafa-ləyənlərdə əl suyu gətirdi. Hərəsi bir dənə cücə qızartması yeyib durdu. İsmayılın səhərki macərasından bixəbər olan nədim hökmdarın nə üçün fikirli olduğunu bilmir, onu xəyallardan ayırıb əyləndirmək yollarını düşünürdü. İsmayıl isə döyüşdə ona aman verən qadının gözlərində anasının baxışlarını duyur və xəcalət təri onu basırdı: «Deyəsən, o məni cavanlığıma bağışladı... Mən isə onun qadın olduğunu anladım. Necə dedi: Sən də yaxşı bilirsən ki, bu dava iki düşmən xalq arasında getmir. Qıran da, qırılan da bir elin, bir xalqın övladlarıdır». Qadın ağlı! Gör nə dedi! Mən isə... Anlamadım! Kişiyə bax, şairə bax! Yox, mən bütün

hisslərini keşməkeşlər, döyüşlər kütləşdirmiş kobud bir əsgər olmağa başlayıram. Mən ona, o mənə aman vermədən duymalı idim», – deyə öz-özünü danlayır və hələ bilmirdi ki, bir neçə il keçəcək, Çaldıran döyüşlərində onun özünün də iki qadını – Taclı xanım, Bəhruzə xanım və onlarla başqa qadın çarpışmalarda kişi libasında iştirak edəcəklər. Taclı xanım vuruşa-vuruşa məğlubiyyətdən xilas olub, qızılbaş qaziləri tərəfindən meydandan çıxarılacaq. Bəhruzə xanım isə Sultan Səlimə əsir düşəcək. Şah İsmayılın dəfələrlə elçi göndərib xahiş etməsinə baxmayaraq, Sultan Səlim onun qəlbinə ağır təhqir yarası vurmaq üçün Bəhruzəni aparıb İstanbulda saray müqərrəbi şairlərdən birinə ərə verəcək. İsmayıl, əlbəttə, hələ bütün bunları bilmirdi. Bilə də bilməzdi və yeməyini yedikcə düşünür, nədim isə məzmununu bilmədiyi bu düşüncələrdən sıxılırdı. İsmayıl yerindən qalxıb çadırın qənşərinə çıxanda artıq hücum üçün hər şey hazır idi. Baş ruhani əllərini yuxarı qaldırıb duaya başladı:

– Xudaya xudavənda sənin düşmənlərinlə, şeyx Cüneydin, şeyx Heydər cənnətməkanın qatili yezid Yasarın alçaq

tərəfdarları ilə döyüşdə padşahımızın qılıncını kəsərli elə. O düşmənlər ki sənin qoyduğun yolla getməyiblər, göndərdiyin rəsulun xələflərinə inanmayıblar, onların qatili olublar, qanları halaldır! Qoy hökmdarın tökmədiyi düşmən qanı qalmasın! Tutmadığı qala, məhv edib yerlə yeksan etmədiyi qala qalmasın! Ucaları alçaltsın, alçaqları uçaltsın! Pərvərdigara! Bugünkü gündə hökmdara zəfər nəsib eylə, qoy düşmən zəlil olsun! Sənin buyurduğun yola gəlsin! Onlar qul tanası taxıb şahımıza qul olsunlar, xidmətində dursunlar! Ey dinin qaziləri, hamınız eşidin, Allah və onun rəsulunun yolunda şahi-Mərdan, Əliyyəl-Mürtəza nəvəsi – padşahımız yolunda qanınızı əsirgəməyin! İgidlik rütbəsi, sədaqət rütbəsi qazanın! Müharibə, müharibə – ey qorxmaz, cəngavər qazilər! Qələbə, qələbə. Ey dəyanətli, sədaqətli oğullar! Behişt, behişt, ey şəhidlər! Cəhənnəm, cəhənnəm, ey meydandan qaçanlar! Cihad, cihad dinimizin möhkəm əsasıdır. Qoy bu gün Allaha inananlara iki müqəddəsdən biri nəsib olsun: ya bu dünyada qələbə – zəfər, ya o dünyada əzabsız behişt! Sizə zəfər yar olsun, övladlarım! Amin, ya rəbbül-aləmin!

Dua bitdi. Hamı «amin» deyən kimi birdən döyüşün başlandığını xəbər verən kərənay səsi aləmi başına götürdü. İsmayıl kərənay sədalarını ömründə ilk dəfə eşidirmiş təki diksindi. Aşıqlar taziyanəni saza vurub qoşunun qənşərinə keçmiş, qanları çuşə gətirən cəngi çalmağa başlamışdılar. Şah elə bil uzaq bir aləmdən qayıtdı...

Qoşa qala qapısının qabağında, qədim Bakının rəmzi olan öküz və şir həkk olunmuş tağlı darvazanın yan qüllələri altında mühasirəçilərin haylı-huylu hücumu başlandı. Qala müdafiəçiləri oxu leysan kimi yağdırır, bir nəfərin də qala divarına söykənən nərdivanlarla qüllə üstünə qalxmasına imkan vermirdilər. Yerləri olduqca münasib idi. Düşmən onlardan aşağıda, açıq meydanda, sini üstünə səpilmiş düyü kimi aydın görünürdü. Mazğallardan yağan oxların, demək olar ki, heç biri boşa getmirdi. Yer altında aparılan lağım əməliyyatından bixəbər olan bakılılar qala üstündə şir kimi vuruşurdular.

Gənc qızılbaşlar da Şeyx Heydər ibn Cüneyd Sufinin müridləri kimi cavan İsmayıla heyrət, pərəstişkarlıq dolu bir nəzərlə baxırdılar. Bu baxışlarda bir ibadət, mürşidə dərin etimad, inam və etiqaddan doğan heyranlıq var idi. Qəlbləri Xətainin bir beytini ürək çırpıntısına, nəbzə hamahəng bir döyüntü və ixlasla söyləyirdi:

Ya Məhəmməd Mehdiyi-sahib-zaman,eylə zühur, Nəslini qət eylə müşriklər ilən kafirlərin.

Onlar indi İsmayıla tapınırdılar: «Mehdi-sahib əzzamanın zühurunu tələb edirsən əşarında; amma vahdi-mütləq pərvərdigar bizə ilham edir ki, bəlkə də, elə həmin sahib-zaman sən özünsən».

Doğrudan da, müridlərin bəzisi onun simasında gələcəkdə zühuru vəd olunan 12-ci imamı – Mehdi-sahib əzzamanı görürdülər. Elə buna görə də nərdivanları divara söykəyib

qalanın üstünə mətin ürəklə qalxır, yağış kimi yağan oxlara əhəmiyyət vermir, nərdivanlardan yıxılır, yenə də qalxıb hücuma keçirdilər.
Qala üstünə ilk əvvəl tək bircə Div Sultanın oğlu çıxa bildi. O, bölüyün ələmdarı idi. Çıxdı, yaşıl ələmi bürcün üstünə taxdı, möhkəmlətdi və zəfər işarəsilə ələmi yuxarı qaldıranda şəhərin içərisindən atılan ox kürəyinə sancıldı. Üzü üstə qalanın bəri üzünə, nərdivanın dibinə yuvarlandı.

## LAĞIM ƏMƏLİYYATI

Dərgahqulu kişi axşamçağı evə qayıtdı, bir tikə çörək yeyib yenidən növbədə olduğu qülləyə qayıtmalı idi. Ürəyi səksəkəli gedirdi, çünki qüllədən xeyli aralı aparılan əməliyyatdan nigaran idi. Düşmən orada nə isə bir işlə məşğul idi. Dərgahqulu və yoldaşları nə qədər çalışmışdılar, bir sudur anlaya bilmirdilər.

O, həyətə girəndə Bibiqulunu qapının ağzında, Xırdaxanımı da həyətdə intizarda gördü. İkisi də kişini görəndə sevindilər.

– Şükür Allaha sağ-salamat gəlib çıxdın, kişi.

– Nəyin var, Güləli qızı, tez ol, acından ürəyim axır qayıdasıyam.

Xırdaxanım arvad əl-ayağa düşdü:

– Ürəyin axar dəə... Səhər tezdən gedənsən.

O, tez həyətdəki püstənin altına palaz sərdi, döşəkcə qoydu. Qurama süfrəni döşəyib, üstünə sirkə tökülmüş soğan, çörək, duz, istiot, kal vaxtında qurutduğu və ovxaladığı xartutu «sumağı» qoydu. Əlvan şirli kasalara küftə-bozbaş çəkib gətirdi. Küftə-bozbaşa vurulmuş zəfəranın ətri kişinin burnuna dəyəndə yadına düşdü ki, Xırdaxanım bişirən küftənin ətri yeddi qonşunu yuxudan oyadar. İştahası daha da artdı. Bir anlıq düşməni də, səngəri də, qüllənin qənşərində aparılan işi də unutdu. Süfrənin başında əyləşdi və həvəslə çörəyi küftə-bozbaşın suyuna doğrayıb yeməyə

başladı.

– Allah atova, anova rəhmət eləsin, Güləli qızı, əcəb Küftə bişirmisən. Ağzım əməlli-başlı dada gəldi.

– Səninkilər də behiştlik olsun, kişi, işlər necədü orda?

– Necə olacaq, arvad? Davadı də! Vuruşuruq özümüzçün. Görək, Allah kərimdi. Şirvanşah Fərrux Yasar özünü çatdıranacan, deyəsən, duruş gətirib dayanacayıq.

Arvad fikirli-fikirli gah kişinin üzünə, gah da narahatlıqla balasına baxırdı. Bibiqulu böyüklərin yanında, süfrə üstündə danışmağı lazım bilməyib, xörəyini yeyir və qulaq asırdı. Arvad intizarını gizləyə bilmədi:

– Bəs söz gəzir ki, Fərrux Yasarı Şirvanda öldürüblər. Oğlu da qalada yoxdu?

– Uzaq yerin sözünü bilmək olmaz. Mənim də qulağım çalıb. Bilirsən bu gün kimi görmüşəm?

– Kimi?

– Şıx Kəbləli yadındadı? Onun nəvəsini. Bibixanımı.

– Sən Allah?! Rəhmətlik kişinin nəvəsi şahzadə Qazi bəyə gedəndən sonra üzünü görməmişəm qızın.

– Mən də elə getməmişdən görən idim. Qalanı özü qoruyur, axı.

– Nə danışırsan, kişi?

– Vallah sözümün sağıdı. Demişdim eyrəli sənə axı! Yadından çıxıb? Kişi paltarında gəlmişdi bizim yanımıza. Qulağım çalmışdı ki, şahzadə şəhərdə yoxdu, arvadı sərkərdələrə başçılıq eləyir. Day bilmirdim, şahın arvadını deyirlər, ya gəlinini. Amma görən kimi tanıdım onu.

– O da səni tanıdı?

– Deyəsən, əvvəl tanımadı. Amma sonra danışdım, tanıdı. Səni də soruşdu, Bibiqulu balamı da.

– Allah qada-baladan saxlasın! Qılıncın kəsərli eləsin xudam. Necədü?

– Lap yaxşı. Amma başı davaya qarışıqdı bərk.

– Olar dəəə... Dava arvad işi deyil axı, ay balam. Allah düşmənin amanını kəssin. Ev-eşiyimizdə dinc-farağat oturduğumuz yerdə işə saldılar bizi.

– Day demə.

Yemək qurtardı. Dərgahqulu yerindən qalxıb qılıncını götürəndə Xırdaxanım doluxsundu:

– Gedirsən, kişi?

– Getməliyəm, Güləli qızı! Elin gəlini-qızı da qılınca qurşananda başıpapaqlıların evdə oturmağı ayıbdı.
– Bizdən sarı nigaran olma, kişi! Sən öz canından muğayat ol.
– Sən də uşaqdan göz-qulaq ol. Bayıra-baçağa çox buraxma. Dünyanın işini bilmək olmaz, Güləli qızı...
– Allah amanatı. Nigaran getmə, kişi, heç yana qoymaram.

Kişi arvadının belə yanında həya elədi. Əyilib illər tamarzısı bircə balasının başından da öpə bilmədi. Əli ilə oğlanın alnını sığalladı.
– Sən mənim ağıllı balamsan, anadan muğayat ol. Sözündən çıxma! At doğulan günü atdı, oğul doğulan günü – oğul bax, yaxşı oğul ol.

Üçünün də qəlbi kövrəlmişdi. Üçü də göz yaşlarını bir-birindən gizlədirdi. Qəhər arvadın da, kişinin də boğazını tıxamışdı. Dərgahqulu qəribə, anlaşılmaz bir duyğunun təsiri

ilə tələsik qapıdan çıxdı. Xırdaxanım arvadın mis piyaladan atdığı su Dərgahqulunun dabanını islatdı...

Dərgahqulu qülləyə çatanda artıq qaş qaralmışdı. Gözətçilərdən bəzisi namaz qılır, bəzisi də başını mazğala söykəyib qaladan kənarda düşmənin hərəkətini izləyirdi. Qarşı meydançada qazilər ucuna neftə bulaşmış təzək bağladıqları payalardan məşəl düzəldib yandırmış və işığında nə isə edirdilər.

Müdafiəçilərdən biri, Dərgahqulunu görüncə əl edib onu yanına çağırdı. Bu onun qonşusu dulusçu Vəliyulla idi.

– Dərgahqulu, bir ora diqqətnən bax. Elə bil quyu qazırlar axı. Mənə elə gəldi ki, xərəknən torpaq daşıyırlar. Sən axı davada çox olmusan. Gör bir.

– Orda quyunu neynirlər, balam? Yox, vallah ürəyimə damıb, deyəsən, onlar lağım atırlar, axı... Suyu Suqayıtı çayından dəvəynən gətirirdilər. Quyu deyil. Lağım olacaq... Gərək Bibixanım Sultanıma yetirək lağım məsələsini.

Elə bu zaman qorxunc bir gurultu eşidildi. Dərgahqulunun sözü ağzında qaldı. Qüllə qorxunc bir zəlzələdən şahə qalxan attəki yerindən oynadı. Daşlar bir-birindən aralanıb səpələndi. Toz duman kimi ətrafı bürüməkdə olan qaranlığı daha da kəsifləşdirdi. Hadisə yerində göz gözü görmədi, inilti, qışqırtı aləmi başına götürdü. Aralıda divar dibində namaz qılanlardan bir çoxuna daş dəyib əzilmiş, yaralanmışdı. Qüllə üstündə onlardan biri də salamat çıxmamışdı. Zərgər Dərgahqulu kişi ilə dulusçu Vəliyullanın da meyiti daşların arasında qalmışdı. Sağ qalanlardan, azacıq əzilənlərdən kim yerindan qalxa bilmişdisə durub yoldaşlarını daş-torpaq altından çıxarmağa başladı.

Lov xəbərini alan Sultanım xanım at üstündə özünü hadisə yerinə çatdıranda artıq cənazələr bir yerə toplanmışdı. Gəlin, Dərgahqulu kişinin cənazəsini meyitlər arasında görəndə özünü saxlaya bilmədi, gözləri yaşardı:

– Yazıq əmi, – deyə pıçıldadı.
Ölənlər haqqında lazımi göstəriş verəndən sonra, qüllə

yerində açılmış böyük yarığa baxıb fikirləşməyə başladı. Nə isə etmək lazım idi, yoxsa düşmən gecə ikən buradan şəbxun vuracaq, qalaya soxulacaqdı. Burası Şirvanşahlar sarayına ən yaxın qüllələrdən biri olduğundan, saray üçün böyük qorxu törədirdi. Sultanım xanım azacıq düşündükdən sonra hacibini yanına çağırdı.

– Hacib, əmr elə evlərdə nə qədər keçə varsa, tez toplasınlar. Bura gətirsinlər. Gözləyirəm.

Bir neçə nəfər atlara minib məhəllələrə üz tutdu. Heç bir saat keçməmişdi ki, arvadlı-kişili Bakı camaatı evlərində olan bütün keçələri, olmayanlar da köhnə-külə palaz və xəlçələri qüllənin yanına daşımağa başladılar, Sultanım xanımın əmrilə düşmənin xəbəri oluncaya qədər qüllənin yerində açılmış yarığı keçələrlə basdırıb bərkitməyə başladılar.

... Səhər tezdən Bayram bəy Qaramanlı partladılmış qüllənin qənşərinə gələndə gözlərinə inanmadı. Bir gecənin içində açılmış yarıq bərkidilmiş, divar bərpa olunmuşdu,

ciddiyyətlə də qorunurdu.

Bayram bəy Qaramanlı özünü şahın hüzuruna yetirdi:

– Qibleyi-aləm, tədbirimiz baş tutmadı. Şimal darvazasından hücumu dayandırmalı olacağıq.

– Nə üçün?

– Qalanın müdafiəsinə başçılıq edən kimdisə, qurd ürəkli, həm də olduqca tədbirli adamdı. Görünür, təcrübəli sərkərdədi. Partladılmış yeri gecə ilə elə bərkidiblər ki, hələ xeyli zəhmət çəkmək lazımdır.

Bayram bəy sərkərdənin mərdliyindən, tədbirindən danışdıqca İsmayıl bir gün irəli şəhərin Qız qalası mövqeyində qılınc davasına girişdiyi Sultanım xanımın simasını xatırlayırdı.

Qulağında ərəbi davaya girdiyi gəlinin səsi eşidildi: «Qıran da, qırılan da bir elin övladlarıdır». Sanki hələ də «Nə üçün qardaşı qardaşa qırdırırsan, hökmdar?» deyirdi. Lakin şah İsmayıl ata-baba qatilindən intiqam almaq, inandığı əqidəni yaymaq eşqilə bu ağır xəyalları şair Xətainin qəlbindən,

beynindən qovmağa çalışırdı. O, hökmdar idi. Sərkərdə idi. İntiqamçı idi.

Vəssalam! Şərait ona «əssinni-bissinni, vəleynə-bileynə»[6] öyrətmişdi. Bu intiqam hissini sanki ana südü ilə, oxuduğu ilk nəzm ilə, yazdığı birinci cümləylə, fəhm etmişdi. Bu qədər!!!

... Müharibə yenidən, hər iki darvaza qarşısında – həm Qoşa qala qapısı, həm də şimal darvazası önündə yeni qüvvət kəsb edərək canlandı.

Ozanlar döyüşçüləri ruhlandırmaq üçün türkü-varsağı söyləməyə başladılar. Onlar döyüşçülərin önündə gedirdilər. Az sonra ozan varsağlarını cəngi əvəz elədi. Gərənayda çalınan cəngi aləmi başına götürüb döyüşkən, igidliyə çağıran ahəngi ilə qaziləri coşdururdu. Varsağı və cəngi

[6]Diş əvəzinə diş, köz əvəzinə köz.

əsgərlərin döyüş əzmini gücləndirirdi. Onlar qala üzərinə sel kimi axır, özlərini «Cahanarayi-şah İsmayıl» müəllifinin dediyi kimi, «savaş dəryasına vururdular».
Bakılılar daha üç gün müdafiəni davam etdirdilər. Şəhərin bütün qüllə və darvazaları önündə qanlı vuruşmalar gedirdi... Mühasirənin yeddinci günü qızılbaşlar şəhərə daxil ola bildilər. Lakin hələ də bakılılar aman istəmir, təslimdən söhbət getmirdi. Şəhərin əyri-üyrü, yalnız bir adamın sərbəst keçə bildiyi dar küçələrində, dalanlarında, döngələrində qanlı çarpışmalar baş verir, hər bir ev vuruşurdu. Hər bir ev qalaya çevrilmişdi.
Mühasirənin yeddinci günü şahın hökmü ilə, Bayram bəy belə car çəkdirdi:
«Könüllü təslim olmayan, Əliyyəl-Mürtəza deməyən, Yezid Fərrux Yasara lənət oxumayan heç kimə aman verilməsin, uşaq da, böyük də, qadın da, kişi də qılıncdan keçirilsin».

...Axşam qızılbaşlar qazilərin meyitlərini yığıb şəhid qəbirlərində dəfn etmək istədilər. Onları düşmən cəsədlərindən ayırarkən, meyitlər içində bir neçə bakılı

qadın cənazəsi gördülər. Bakının qadın müdafiəçiləri kişi libasında olsalar da, dərhal cənazələr içində gipgirdə, bəyaz sifətlərindən, çözülüb açılmış saçlarından, uzun qarğı hörüklərindən tanınırdılar. Xüləfa bəy qəribə bir qibtə hissi ilə əhvalatı şah İsmayıla xəbər verdikdə cavan padşah dedi:

– Zənən meyitlərini toplasınlar. Kişilərlə işiniz olmasın. Zənən cənazələrini də şəhid qəbirləri ilə yan-yana, bütün hərbi şərəf və ehtiram qanunları icra olunmaqla dəfn etsinlər.

* * *

Tarixdə elə hadisələr var ki, eynilə təkrar olunur. Xüsusilə eyni bir xalqın tarixində – taleyində. Zaman keçəcək, İsmayılın bugünkü əmrini Çaldıran məğlubiyyətindən sonra, döyüş meydanında Təbriz qadınlarının cənazəsini görən Sultan Səlim verəcəkdi...

* * *

Sultanım xanım Bakının müdafiəsinin yeddinci günü artıq qayınatası Fərrux Yasarın öldüyünə inandı, əri Qazi bəyin də haradasa başı döyüşlərə qarışdığına yəqinlik hasil etdi və xaricdən kömək ümidini təmamilə üzdü. Bununla belə, saray ərkanının təslim haqqında fasiləsiz xahişlərini rədd etdi. Mələkənin də tələbləri cavabsız qaldı. O, qəribə bir inadla mübarizəni davam etdirir, şəhəri təslim verməyi ağlına belə gətirmirdi. İndi onu sarayda görmək olmurdu. Başı küçə vuruşmalarına qarışmışdı. Sultanım xanımın sarayda olmadığından istifadə edən əyan artıq şəhərə daxil olmuş şahın qulluğuna elçi göndərib, aman istəmək qərarına gəldi...

* * *

Qala meydanında xeyli adam toplanmışdı. Əlində açıq Quran tutmuş 70 kişi irəliləyirdi. Tələsirdilər. Hər addımda

«hökmdar, aman, hökmdar, əfv!» deyirdilər. Boynuna kəfən taxıb «əl-əfv» deyə-deyə ləhləyən, dizin-dizin sürünən bu şişman adamlar, Kəbə təvafına gedən hacılar karvanına oxşayırdı. Cavan İsmayıl adəti üzrə niqablı olsa da, qıl niqabın gözcükləri altından gələnlərin vəziyyətini görür, qəlbinə qürur, qələbə həzzi dolur, fəxrdən başı hərlənirdi.

Yanında dövlət ərkanından ən yaxın adamları dayanmışdı.

Lələsi Hüseyn Baydili, Məhəmməd bəy Ustaclı, Bayram bəy, Şirvanşahlığın qış iqamətgahı – möhtəşəm Bakı qalasını ilk öncə fəthə göndərdiyi sərkərdə Xüləfa bəy də burada idi. Hamı zəfər sevinci içindəydi. Yetmiş əyan yaxınlaşdı, əllərindəki Quranları başları üzərinə qaldırdılar, dizin-dizin sürünərək şahın durduğu mövqeyə çatdılar. Önündə üzüqoylu yerə sərildilər və bir ağızdan!

– Aman, hökmdarım, aman! – deyə fəryad etdilər.

Qala divarları üzərində, evlər arasında hələ də qılınc cingiltiləri eşidilirdi. Təslim olmaq istəməyən bakılılar

qılıncdan keçirilirdi.

Bu səslər altında müzəffər İsmayıl sağ əlini başı üzərinə qaldırdı:

– Aman verrəm, bir şərtlə: min əşrəfi qızıl qanbahası verin, saray xəzinəsini təslim edin və babam şeyx Cüneydin qatili Yezid İbrahim Xəlilullahın qəbrini göstərin!

– Canü dildən, qibleyi-aləm, canü dildən.

– İzin verin təslim edək...

– İzindi!..

...Qəzavətxanın qənşərində qoşun qazısı ayaq üstə durmuşdu. Təslim edilmiş şəhərlilər növbə ilə onun qənşərindən keçirdi. Qazı onlara kəlmeyi-şəhadəti deditdirir, “La ilahə illəllah, Məhəmmədən rəsulallah»dan sonra hərəyə bir dəfə «Əliəyyən vəliyullah, vəsiyyə-rəsulallah» əlavə elətdirir, dili topuq çalanlara təkrar-təkrar söylədirdi. Söyləmək istəməyənləri ayrıca dəstəyə yığırdılar və heç kəs bilmirdi ki, bir-iki gün sonra bütün Abşeronda «əliyyən vəliyullah» deməк istəməyənləri Suqayıtı çayının Xəzərə

töküldüyü yerdən bir az aralı qılıncdan keçirəcək, iri qəbirdə – qardaşlıq məzarında dəfn edəcəklər. Sonralar şiə yerlilər həmin yerə «Qaratəpə» deyəcəklər. Bu sonra olacaq... İndi isə...

Şiəliyə keçmək mərasimi, təslimə gələn əyanların İsmayılla söhbəti eyni vaxtda cərəyan edirdi, kəlmeyi-şəhadət deyənlərin arxası kəsilməmişdi. Şiəliyi qəbul edənlər dönməyə macal tapmamışdılar ki, kim isə səsindəki qəribə bir çılğınlıqla hayqırdı:

– Ora baxın, ora baxın! – və əlilə Qız qalasının üstünü nişan verdi.

Hamı, İsmayıl belə, vəziyyətin tələb etdiyi təmkini unudub başını qala üstünə tərəf çevirdi.

Qız qalasının üstündə boylu-boyuna, zərif zireh geyimdə, olduqca mütənasib görünən bir cəngavər dayanmışdı. Səsi, əks-səda kimi, birdən çökmüş sükut içində qulaqlarda cingildədi:

– Aman diləyirsiz, xainlər, kimdən aman diləyirsiz?! Na üçün mən sizin hamınızı vaxtında qılıncdan keçirmədim, dilinizi kəsmədim ki, «aman» sözü deyə bilməyəsiz!

Və birdən «Əlvida, doğma diyar», deyə özünü qalanın üstündən atdı. Əvvəlcə dəbilqə başından qopdu. Heyrətdən böyümüş gözlər önündə bir cüt hörük çözələndi, aşağı sallandı, incə vücuddan irəli yelləndi, bədən bir neçə dönəmlə fırlandı və Sultanım xanım Qız qalasının o biri üzündə qeyb oldu. Sinələrdən ah qopdu. Dodaqlar qeyri-ixtiyari səsləndi:

– Bibixanım-Sultanım...

– Sultanım xanım...

İsmayıl bu hörükləri ikinci dəfə görürdü. İkinci dəfə! Bu birinci onun özünə «aman» vermiş, ikincidə onun verdiyi «amana» nifrətlər yağdıraraq həyata vida etmiş Bibixanım-Sultanım xanım idimi: İsmayıl ömründə çox az qadına rast gəlmişdi; bu gördüyü qadınlar ya onu düşmənlərdən gizləmiş, ya da xörəyini, çörəyini vermişdi.

Anasından başqa qəlbindən övladlıq məhəbbətinə bənzər bir

hissi təkcə lələsinin arvadında duymuşdu. Bu gözəl qadın onu afətlərdən qoruyan lələnin lap özü kimi İsmayıla qulluq edirdi. Sonralar nisbi azadlıq əldə edəndə, artıq 13-14 yaşında ikən, gəncliyinə baxmayaraq, bir sərkərdə kimi tanınanda da qadın, qız görmürdü. Ona evləndirmək üçün seçilib saraya gətirilmiş qızlar hesabdan deyildi. Üzü niqablı gəzdiyindən çadırına yol tapa bilən cariyələr də ondan çəkinərdi. Yanında cilvələnməyə cürətləri çatmazdı. Lələ və müəllimlər tərəfindən körpəlikdən bir hökmdar, bir şeyx kimi tərbiyələndirilir, incə hissləri qəlbinə yol tapmağa qoymurdu. Əlində ya kitab, ya qılınc olurdu. Ya elm öyrənir, ya da qılınc məşqi edirdi. Təbiət isə sanki uşaqlıq dövrü olmayan bu insana acımış, ona şeir istedadı, şairlik qabiliyyəti vermişdi, elə bil çiskinli dağlardakı quru daşlar göyərmiş, yosun bağlamışdı. Bu istedadi-şeiriyyə onun ürəyinə tərbiyəçilərinin istəmədiyi, arzu etmədiyi bir hiss gətirmişdi. İndi bu hiss baş qaldırdı. Və İsmayıl zəfərin zirvəsindən öpdü, qüruru heyrətlə, təkəbbürü qibtəylə əvəz olundu: «Sultanım xanım!» deyə qəlbinin dərinliklərində pıçıldadı. Onun bu cəngavər qadınla ilk görüşündən heç kəs

xəbər tutmamışdı. Zaman gələcək, o bu adı istəkli qızına qoyacaq. İndi qəlbi bir şair qəlbi kimi titrədi: «Dünya özünün nə qəribə, nə gözəl bir möcüzəsini itirdi! Təəssüf!» Amma bakılılar Sultanım xanımın öldüyünə inanmırdılar. El arasında söz gəzirdi ki, qalanın üstündən atılıb özünə qəsd edən Bibixanım Sultanım deyil, düşmən əsgərlərinin təqib etdiyi başqa bir qız imiş. Başqaları da deyirdi ki, yox atılan elə özü idi. Amma qalanın dibində şəhərlilər onu havada tutub xilas eləyiblər. Bakılılardan ona yaxın olan bir neçə nəfər Sultanım xanımı, təslim anında şəhərdən çıxarıb aparıb, haradasa, deyəsən, Şirvanşahın Nardaran bağlarında gizlətmişdilər. Onu gələcək döyüşlər gözləyir, – belə də deyənlər vardı…

* * *

Bakı işğalçı ərəb sərkərdəsi Əşəs ibn Qeys tərəfindən alınandan sonra keçən bir neçə əsr boyu belə qırğın və talan görməmişdi.

Səhər oldu. Şahi-cavanbəxtin əmrilə hacib Şirvanşahlar türbəsini nişan verdi. Cavan qızılbaşlardan bir neçəsi əllərinə bel və külüng alıb türbəni uçurdular, Sultan İbrahim Xəlilullahın qabrini açdılar, sümüklərini çıxarıb bir yerə topladılar. Sonra da həsirə büküb od vurdular. Bütün bu mənzərəni novruz şamı kimi əlvan qələbə libasına bürünmüş şah və əyanı, müridlər seyr edirdi. Aralıda qılınc gücünə saray türbəsi ətrafına toplanmış Bakı və Şirvan nücəbası dayanmışdı. Şiəlik – din bayrağı altında hərbə başlamış qızılbaşlar əhaliyə göz dağı vermək üçün cəhənnəmi bərqərar eləmişdilər. Carçı hamıya Fərrux Yasarın da beləcə «cəhənnəmə vasil edildiyini» söyləyir və oxuyurdu: «Üsyana cürət edən hər bir dinsizin cəzası budur».

Şah buyuruğu oxunub qurtardıqdan sonra, yığılanlar içərisindən yaşı yüzü çoxdan keçmiş bir qoca irəli çıxdı. Bu, Bakının tanınmış alimlərindən İmaməddin Bakuvi idi. O, üzünü İsmayıla tutsa da, sözlərini taxtı əhatə edən yaşlı müridlərə eşitdirmək üçün titrək, lakin uca səslə dedi:

– Günahkarı cəhənnəmdə yandırmaq bir Allahın işidir, İslam dininə, töhvidə, Qurana qail olan şəxs, xudavəndi-

aləmin bəndəsini odda yandırmaz. Nəinki onun sümüklərini... Qoca alimin sözü ağzında qaldı... «Sünni, Yezid şirvanşahların qulu...» deyə onun boynuna tənab saldılar, sürütmə eləyib boğdular.

Qələbədən, atasının qatili hesab etdiyi şirvanşahlar nəslindən intiqam aldığına görə fərəhlənən cavan şah, ətrafına yığılanları seyr edərkən gözü, saray ərkanı və sərkərdələr içində qara ələmə bənzəyən Şeyx Məhəmməd Siyahpuşa sataşdı. Ötkəm səslə soruşdu:

– Ya Şeyx, sən bu böyük qələbə, bu coşqun təntənə günündə də qara libasdasan?

Gülümsər üzlər əllərini sinəsində çarpazlayıb qara daşdan yonulmuş heykəl kimi dayanmış Şeyx Məhəmməd Siyahpuşa çevrildi. Şeyx hərəkətsiz idi, qara əmmaməli başını azacıq sinəsinə tərəf əyib dilləndi:

– Hökmdarım, mən mərhum atanız, mənim əziz mürşidim, şeyxim Sultan Heydər vəfat edəndən sonra qara geyinmişəm. Ayrı rəng tanımıram. Mənim dəsmalım da,

rəxtxabım da libasım kimi qaradır.

İsmayıl, həsir içində yanmaqda olan Sultan İbrahim Xəlilullahın atəşlərə tutulmuş sümüklərini göstərib, gülümsədi:

– Müjdə olsun sənə, ya Şeyx! Sultan Heydərin intiqamı alındı. Bu gün onun oğlu səni qaradan çıxardır, – deyə o, əlini əlinə çaldı, əmr etdi: – Şeyxə ağ xələt gətirilsin!
Şeyx Məhəmməd Siyahpuş özünü itirən kimi oldu. Yenidən yüngülcə baş əyib dedi:

– Hökmdarım, mürşüdüm darül-fənandan darül-bəqaya köçəndə mənim bir əhdim də olub: həmin gün mən öz nəfsimi öldürmüşəm. Odur ki, qara libas...

– Ya Şeyx, bu daha gözəl! Sən elə bir odu söndürmüsən ki, onu yeddi dəyirmanın suyu söndürməzdi! Elə bir ac əjdahanı öldürmüsən ki, onu bütün dünyanın varidatı doyurmazdı.
Elə bir düşməni məhv etmisən ki, bəşərin qanını içsə

təskinlik tapmazdı. Sən nəfsə qalib gəlmisən! Belə bir düşmənə yas saxlamazlar. Sən qəhrəmansan! Qəhrəmana qırmızı xalaq yaraşar! – O yenidən əlini əlinə çaldı və heç bir etiraza yer qoymayan səslə əmr etdi: – Şeyxə qırmızı xələt gətirilsin!

Bu gün Siyahpuş – Sultan Heydərin qara libaslı müridi qırmızı geyindi.

* * *

İsmayıl Atəşgahın sorağını çoxdan almışdı. Bakıda fürsət əlinə düşən kimi arzusunu yerinə yetirib uzaq Hindistandan buraya – atəşpərəstlərin qibləsi – məkkəsi olan Suraxanıya tələsirdi. Hələ dünən dostlarına demişdi:

– Onsuz da əslən müsəlman olan sünniləri şiəliyə keçirmək asandır. 7-8 əsr boyu islamiyyətdən qaçıb atəşpərəstliyi mühafizə edən kəbrləri müsəlmanlığa döndərmək daha

böyük şərəfdi. Bu savab bizim hamımızın yeddi arxadan dönəninə də kifayət elər. Təsəvvür edin, cəddim Rəsuli-xuda xristianlığı, musəviliyi Allahdan nazil olmuş din hesab etmiş və onlardan dini vergi olan cizyə almaqla kifayətlənmişdi. Lakin bütpərəstliyi, atəşpərəstliyi, çoxallahlığı əqldən xaric hesab edib, islamiyyəti qəbul etməyənlər haqqında «Müşrikləri qırın» hökmünü alıb qılıncdan keçirmişdir.

Onlar Suraxanıdakı bütün atəşpərəst kəbrləri islamiyyətə döndərmək qətiyyətilə də Suraxanıya yollandılar. Yolda İsmayıla yaxın olan bir nəfər dedi:

– Təsəddüqün olum, sahib-qran, suraxanılıların çoxu elə ürəyində atəşpərəstdi, dini gözdən pərdə asmaq üçün qəbul eləyiblər. Hamısı kəbrdi köpək uşağının. Çoxu da elə Hindistandan gəlib qalıb yerləşib. Yalanpışdan dini «qəbul eləyib» evlənəni, oğul-uşaq yiyəsi olanı da var. Atəşgaha xeyli qalmış binanın orta gümbəzi və dörd kənar-hasar qüllələrindən qalxan, göylərə doğru zəbanə çəkən alov onların nəzərlərini cəlb elədi.

Müsəlmanların «bəst» haqqında anlayışına bələd olan hindlilərin çoxu atəşgaha, bir qismi də yerli sünni müsəlmanlara qoşulub kənd məscidinə dolmuşdu. Kəndə təzə təyin olunmuş molla məsciddə, carçı meydanda hamıya elan edirdi ki, Şeyx oğlu dünəndən bura gəlib bu gün beyət alacaq, hamını qılıncının gücünə şiəliyə keçirəcək. Keçməyənləri Xəzərin sahilində seçdiyi yerə göndərəcək; orada gələcək nəsillərin «Qaratəpə» adlandıracağı, əldən-ayaqdan, kənd-kəsəkdən uzaq bir yerdə cəllad qılıncından keçirtdirib, artıq çoxlarının məzarına çevrilmiş – lənətlənmiş yerdə torpağa quyulatdıracaq. On iki guşəli qırmızı külahlar Atəşgaha doluşanda, çoxları zaviyə-hücrələrin dərinliyində gizlənmişdi. Yalnız olduqca qoca bir atəşpərəst ortada – hücrə dairəsinin mərkəzində tikilmiş ibadətgahın önündə əllərini köksündə çarpazlayıb dayanmışdı. Dərin fikrə dalmışdı. Dodaqları duaları pıçıldayırdısa da səsi eşidilmirdi. Qımıldanmadan duran bir pirani qoca hansı bir ehramınsa dərinliyindən qalxıb ayağa durmuş mumiyaya bənzəyirdi. Qarşısındakı ibadətgahdan zəbanə çəkən atəşin alovları sarı mumiya sifətə qəribə bir qızartı saçırdı.

İsmayıl maraqla baxırdı. Birdən onunmu, ya məiyyətdəkilərdən kiminsə işarəsilə iki qızılbaş nəfəri irəli atılıb zəbanə çəkən oda – yəni islami anlayışınca cəhənnəmə tapınan ziyarətçini qollarından tutmaq istədilər. Qoca ondan gözlənilməyən bir cəldlik göstərdi. Gənc nəfərlərin əlindən dartınıb çıxdı. Sürətlə bir-iki addım irəli yeriyib ibadətgahın pillələrinə qalxdı. Dözülməz alov dxoti-fitəsini qarsmağa başladı. İsmayılın anlamadığı bir dildə nə isə bağırıb özünü odun içinə atdı. Bütün zaviyələrdən acı bir fəryad qopdu. Şairin də qəlbi bir anlıq inildədi. Düha, həqiqət qarşısında dondu, İsmayıl heyrət qarışıq qəribə bir fərəh hissilə donmuşdu.

«İlahi, əqidə yolunda qurban vermək, özünü diri gözlü atəşə atmaq nə müdhiş, nə böyük qəhrəmanlıqdır! Amma qurban adsız olmamalıdır. Adsız qurban (bunun kimi) əməl uğrunda çarpışmada bayrağa çevrilə bilər. Bir də kim bilir, bəlkə indi haradasa onu izləyən, görən gözlər var. Onun dinindən dönməmək üçün özünü fəda etdiyini görürlər. Bəlkə, onun

mənə məlum olmayan adı onlar üçün bayrağa çevriləcək?»

Bu sözləri o, ata minib geriyə dönəndə düşünürdü. Qurban verilən vaxt o, soyumuş, buza dönmüş dodaqlarından bir səs belə çıxarda bilmədi. Yalnız əlinin işarəsilə ətrafında, arxasında səssiz-səmirsiz dayanmış, təəccüb və heyrətdən uyuşmuş adamlara çıxıb getmək, atlanıb geri dönmək buyruğu verdi. Böyük qurban onu məğlub etmişdi.

Suraxanıda dayanmadı. Bir nəfərə də şəxsən «Əliyyən-vəliyyullah» dedirtmədi. Kəndin taleyini təzə molla və möhtəsibə həvalə edib Atəşgahı tərk etdi. Dağıtmaq, yerlə yeksan etmək əmri dilinə gəlmədi.

# QANLI QADALI DÜNYA

## İLLƏR KEÇDİ

Hökmdar bu dəfə Tabasarana və oradan da Şirvan torpaqlarına qayıdanda artıq dünyada tanınmış padşah idi. Orta Asiyada, İraq-ərəbdə, Kiçik Asiyada bir-birinin ardınca fəthlər etmiş cahangir bir padşah, şiə-ələvi təriqətinin qibləgahı, gənc olmasına baxmayaraq, həqiqətə irmiş ərənlər pir kimi şöhrət qazanmışdı. İndi onun nəfəsləri İstanbuldan Bəlxə, Dərbənddən Bəndərə qədər böyük bir ərazidə dillər əzbəri olmuşdu. Tabasaran və Şirvana da indi o fəthlər məqsədilə gəlməmişdi. Məqsəd daha böyük və ali idi. O, Ərdəbildə şiələrin ikinci Kəbə-Kərbalasını yaratmaq, türk əsillilərə ərəb səcdəgahı əvəzinə öz səcdəgahlarını vermək istəyirdi. Ərəb istilaçıları öz babalarını müqəddəsləşdirdiyi kimi, İsmayıl da öz ata-babasının cənazələrini «şəhid olduqları» qürbətdən doğma Ərdəbilə gətirmək, buranın şöhrətini Səmərqənd Teymurunun məzarından da uca, Kərbala-Nəcəf mənzələsinə qaldırmaq istəyirdi. O özü ilə bir alay əsgər götürmüş, əvvəlcə Tabasarandan atası Şeyx

www.vivo-book.com

Heydərin cənazəsini müvəqqəti türbəsindən tabuta köçürmüş və Həzrə kəndinə gəlib buradan da babası Şeyx Cüneydin cənazəsini köçürmək üçün hazırlığa başlamışdı. O, gələnəcən Div Sultanın nəzarəti altında da Ərdəbildə Şirvan, Bakı, Gəncə, Buxara, Səmərqənd, Təbriz ustaları məqbərələri tamamlamalı idilər.

İki gün idi ki, hökmdar tələm-tələsik babası Şeyx Cüneydin qəbri üstündə qaldırılmış kiçik soməədən çıxmırdı. İki gün idi ki, hökmdar cillədəki dərvişlər kimi inzivaya çəkilmiş, bir parça çörək, bir balaca sovça su qəbul etmiş, iki gündə madarı bu olmuşdu.

Samur çayının vadisində ağaclar yarpaq açmış, çayın hər iki yamacı yamyaşıl çəmənliklərə bürünmüşdü. Dağlardan, haralardansa bulaqları əmib gələn Samurun suyu artmış, çay ötkəm bir uğultuyla köpüklənə-köpüklənə dərələrə sığmadan axıb gəlir, qayaları gəmirir, yarğanları oyum-oyum oyurdu. Çəmənliklərdə bağrı qara, aldonlu lalələr mehin həzin

öpüşlərilə titrəşir, utancaq gəlin kimi başlarını bu öpüşlərdən gah bu, gah o tərəfə əyirdilər. Meh pıçıldayırdı: «Nə dilbilməzsiz, nə kövrəksiz, nə həyalısız, lalələr! Lalələr, əlimin aldonlu qızları!..»

Yamaclarda xeyli əsgər müvəqqəti qərargah ətrafında çalışırdı. Sənətsizlər həzrə meşələrindən odun qırıb gətirir, satırlar sacı ocağa çevirir, aşpazlar bütün qoyun, dana cəmdəklərini nəhəng millərə keçirib iri tonqal gözünün üstündə bağara kimi fırlandıra-fırlandıra qızardırdılar. Bir neçə cavan əsgər çayın seldən əvvəlki yolamında kiçik bənd atıb gölməçə-nohur yaradaraq suyu burada duruldub paltar yuyurdu.

Sərkərdələr, əsilzadə cavanlardan bəzisi çadırlarda əyləşib nərd, şətrənk (şahmat) oynayır, bəzilərdi də bekarçılıqdan ətraf meşələrdə ova, seyrə çıxmışdılar. Hərə başını bir cür girləyir, vaxt öldürürdü.
Qəbiristandan xeyli aralı Lələ Hüseyn bəyin nəzarəti altında xarratlar tabut hazırlayırdılar. Sabah sübh namazından sonra

dəstə yola çıxmalı, bir neçə günlük səfərdən sonra Mahmudabadda istirahətdə olan orduya qovuşmalı və Ərdəbilə yollanmalı idi. Lələ Hüseyn bəy artıq qocalmışdı, saqqalı dümağ idi. Qəbiristanlar, köçürüləcək cənazələr həyat və məmət haqqında döyüşlərdə çoxdan unutduğu fikirləri onun yadına salırdı. «Bu göy çadır altında əbədi heç nə yoxdur. Bunu hamımız bilirik. Amma yenə də hamımız ölümü, o əbədi səfəri yadımıza salmırıq, didirik, didişirik... Qəribədi. Məncə, insan yalnız və yalnız bu dünyadakından daha gözəl bir həyata qovuşacağına əmin olduğundandır ki, ölümdən qorxmur. Mən də elə, hamı kimi. Amma qorxulu yoldur. Doğrudanmı, dünən qəbirdən çıxardığımız və təzədən kəfənə tutduğumuz o gəmiklər yenidən canlanacaq, diriləcək, cənnətin rizvan bağında hurilər, qılmanlarla həmnişin olacaq? Düşündükcə şübhələrim artır. İmanımın zəifliyindəndir, nədir? Sübhanallah Əlinin üstündə əl olmayan böyük pərvərdigar! Sənə pənah aparıram qəlbimi yeyən şübhələrdən». Dağınıq fikirlər iş görməkdə ona mane olmurdu. Hazırlıq öz qaydasında gedirdi.

Hökmdarın isə bütün bunlardan xəbəri yox idi. İki gün əvvəl Hafizi-Quranların oxuduğu kəlamullahi-məcidin sədaları altında qəbir açılmışdı. Şeyx Cüneydin cənazəsi çıxarılıb kəfənə tutulmuş, oğlu Şeyx Heydərin yanına, budur, qarşısında tirmələrə, sonra da, qara örtüyə bükülüb üzü qibləyə qoyulmuşdu. Atası Şeyx Heydərin cənazəsi Tabasarandan gətirilmiş, ata-balanın müqəddəs vücudunun qalıqları indi cavan nəvə – oğul Şeyxin qarşısına qoyulmuşdu.

Hökmdar yerə salınmış kiçik səccadəvari xalının üstündə diz üstə əyləşib gah Quran oxuyur, gah vaxt namazını qılır, gah da ibadət arası dualarını eləyir, gündə yalnız iki dəfə sübh və zöhr namazından sonra bir parça bayat çörək yeyib, sovçadakı sudan içirdi. Rəngi solmuşdu, soməənin alaqaranlığında tük basmış üzündə bir cüt iri badamı göz, dərinə çökmüş göz parıldayırdı. İki günün çilləsi, günlərlə aclıq, sonu – axırı görünməyən səfərlərə, təqiblərə məruz qalmış öyrəncəli bədən üçün bir şey deyildi. İbadət onun əsas peşəsi olmuşdu. Yalnız ovda, bir də ki, döyüşlərdə bu

bədən gənclik hərarəti ilə qızışır, hər şeyi – bu dünyanı da, o biri dünyanı da ona unutdururdu. Son on il ərzində döyüşmək, müharibə aparmaq onun əsas peşəsi olmuşdu. İbadət kimi. Onu da lələsini düşündürən fikirlər əldən salmışdı. İncə şair qəlbi, mətin filosof ürəyi ilə cəngavər-sərkərdə-padşah dərunundа çarpışma gedirdi: «Baba, doğma Ərdəbildən səni buraya nə gətirmişdi? Yalçın qayalarında qartal, zümrüd kolluqlarında bildirçin, bülbül, meşələrində maral səslənən bu yerlərin gözəlliyini hardan duymuşdun? Dinini, əqidəni o qədər də aydın dərk etməyən bu bir ovuc həzrəlini və ya onlara simsar adamları öz  itaətinəmi, isnaəşərin həqqaniyyətliyinə iman, etiqadmı gətirib çıxarmışdı səni o uzaqlardan buralara? Axı sən cahangir bir hökmdar deyildin, nə Çingiz idin, nə Topal Teymur. Sən Şeyx idin, Sultan Heydər atası Şeyx Cüneyd! Şeyx Səfi yadigarı Şeyx Cüneyd! Dindən, etiqaddan başqa daha hansı bir istək səni buralara çəkib gətirmişdi, baba! Babacan, üzünü görməsəm də imanını, əqidəsini ana südü kimi içdiyim, damarlarımdakı qanım kimi məni coşduran baba! Nə olsun, hansı dini-əqidənin həqqaniyyətliyindən asılı

olmayaraq qırılan bizim xalayiqdir, axı, baba! Bizim xalayiq. Biri sünni, biri şiə olan bizim xalayiq. O bakılı qız düz demişdi, baba, düz demişdi o! Qırılan da, qırdıran da bizim xalayiqdir. Qardaş qardaş qanı tökür, baba! Ulu, qüdrətli, əzəli va əbədi xaliqin yaratdığı məxluğu hər hansı bir həqiqət naminə olsa da qırmağa, qırdırmağa haqqım varmı? İlham et bunu, böyük xaliq! İlham et bunu mənə, babacan! Sən indi dini-mübinimizin rəhbəri Peyğəmbər əleyhissəlamın hüzurundasan. Sual et, yuxuma gir, inandır, anlat bunu mənə, baba! Dünyada xristian müsəlmandan çoxdu. Onların hamısını şiəliyə dəlalət edə bilmərəm, bir deyil, beş ömür belə çatmaz bu işə, baba! Dünyanı lərzəyə salan Çingiz də, Teymur da bütün kürreyi-ərzi fəth edib bitirə bilmədi. Mən edə biləcəyəmmi? Əgər yalnız sənin, yalnız bizim əqidəmiz Allah yanında dürüst və həqsə, nə üçün pərvərdigar öz vəhdaniyyətiylə onları qəhr eləmir? Sənin, atam şeyx Heydərin keçdiyi yol, keçdiyimiz yollar mənə təlqin edir ki, mən həqqəm, həqq də mənimlədir. Amma yenə də qəlbimin dərinliklərində bir üsyan qalxır. Allah adı deyə-deyə, vuruş-savaş meydanına cumanda bu

sualların heç biri ağlıma gəlmir, qəlbimə yol tapmır. Cəngi-məğlubə sovuşunca, düşmən meyitlərinə qarışmış şəhidlərimizin də cənazələrini görəndə ağlım başımdan uçur.

Necə, nə ixtiyarla xaliqin adilə, onun xəlq etdiklərini qırmış və qırmağa təşviq etmişəm? Məni dəhşət alır, baba! Dərdimi, qəlbimə cuman üsyanı badələrlə boğmağa çalışıram. İlham et həqqi, həqiqəti mənə, baba! Sübh namazından sonra dini-mübin yolunda həlak olmuş müqəddəs cənazəni, istəkli balan, üzünü güclə xatırladığım atam Şeyx Heydərin müqəddəs cismini doğma yurduna aparacağam. Sənin məsum cəddinə, əqidənə and içir, qəsəm yad edirəm, babacan, nə sənin, nə də atam cənnətlik Sultan Heydərin qanını yerdə qoymadığım, intiqamınızı aldığım, kimi, son nəfəsiməcən, inamla yolunda həyatımızı qurban verib həlak olduğumuz məzhəbi yayacağam. Əlim qılınc tutmağa qadir olduğu qədər, qılıncın qəbzəsini buraxmayacağam, haqq yolunda zərbəzən olacaq, qılıncı qınına, oxu sadağa qoymayacağam. And içirəm bu qərib, bu müqəddəs məzarına, bu qərib, bu müqəddəs  cənazənə. Sənin də, atamın da. Sənin qanlın İbrahim Xəlilullahın

sümüklərini qəbirdən çıxartdırıb yandırmağım, gözlərim önündə qaladan atılan Sultanım xanım mənə çox şey öyrədib, baba! Mən dərbədər vətəni bacardıqca birləşdirəcəyəm, dilimizə, ədəbiyyatımıza, şeirimizə, musiqi sənətimizə rövnəq verəcəyəm. Dilimizi dünyaya tanıdacağam, aşıqlarımıza saraylarda yol verəcəyəm. İnan, bunu sən də, atam da istəyirdiniz, ya yox bilmirəm. Amma vətənin Sultanım xanım kimi övladları istəyir. Mən onların səsinə səs verəcək, arzularını yerinə yetirəcəyəm. Yalnız onda, təkcə onda yəqin edə bilərəm ki, axıtdığım qanlar, tökdürdüyüm göz yaşları, verdiyim qurbanlar hədər getməyib. Ruhunuz şad olsun baba, ata! Ruhunuz rizvanda şad olsun. Mənə də pak əməlləri həyata keçirmək üçün duaçı olsunlar. Qoy yerlər, göylər, vətən torpağının hər qarışı, vətən sularının hər zərrəsi amin desin mənimlə birlikdə». Bu uzun, ardı-arası kəsilməyən fikirlər dua va ibadət zamanı onun qəlbini tərk etmirdi, dili dua oxuyur, Quran ayələrini vird edir, qəlbi isə zidd düşüncələrinin hökmündə olurdu.

Şeyx Sədrəddin sübh azanını özü verdi. Azandan sonra cənazələr üçün qaldırım münacatı çəkdi. Bütün əsgər salavat

çevirdi. Salavat səsləri Samurun uğultularına qarışıb vadinin qayalarına, dağlarına əks-səda saldı. Hava təzəcə açılırdı. Əsgər nizama durmuşdu. Beş cüt öküz qoşulmuş banlı arabanın içinə xalılar salınmışdı. Əlvan xalıların üstündə tirməyə tutulmuş, üzərinə yaşıl və qara örtüklər çəkilmiş tabutlar qoyulmuşdu. Tabutların qənşərində arabanın sol cınağında bana yaşıl ipək ələm bənd edilmişdi, ələm taxtasının ucuna gümüşdən kəsilmiş pəncə bərkidilmişdi.

Arabanın hər iki tərəfində qara geyimli on cavan əsgər at sürürdü. Qara atlara minmiş əsgərlər matəm heykəlinə bənzəyirdilər.

Arabanın ardınca hökmdar özü və yanınca da Bayram bəy Qaramanlı, Rəhim bəy, Məhəmməd bəy Ustaclı, Lələ Hüseyn bəy Bəydilli və başqa əyan, sərkərdə at sürürdü. Arabanın önündə gedən yeganə atlı isə yenə də başdan-başa qaralara bürünmüş və qara ata süvar olmuş Hafizi-Quran Şeyx Sədrəddin özü idi. Şeyx ilk salavatdan sonra qəbiristana yenicə ölmüş cənazə aparırmış kimi Qurandan

Ərrəhman surəsini oxumağa başladı. O oxuduqca ardınca gələnlər də Ərrəhmanın nəqaratını dinşəyir, ayələrin uğultusu Samurun əbədi, əzəli nəğməsini bir anlıq susdururdu.

Həzrəlilər və indi artıq boş qalmış qəbirin yerində Şeyx Cüneyd məscidini tikməyə məmur edilmiş iyirmi nəfər sənətkar gözlərini getdikcə uzaqlaşan cənazə alayına dikib baxırdılar. Onlar məscidi tikməli, baş memardan başqa qalanları Həzrə ətrafında yerləşməliydilər. Onları hökmdar özü qoşundan seçib, qəbirin, məscidin xadimləri kimi burda qalmaq üçün ayırmışdı. Yer, torpaq vermişdi. Onlar buradaca evlənib qalmalı, oğul-uşaq sahibi olmalı, şiəliyi yaymalı və gələcək nəsillərə cənazənin aparılmadığına, həzrəlilərin xahişi ilə burada məzarda qaldığına, müqəddəs, dərdlərə şəfa verən pir olduğuna inandırmalı idilər.

Şah belə düşünürdü: «Qoy elə bir abidə olsun ki, nəslimizin ucalığını, dinimizin əbədiliyini təlqin etsin, ürəyində şübhə qalanlara, qılınc gücünə müqəddəs şiəliyi

qəbul edənlərə».

Yalçın qayalarda sərçələr, qaranquşlar yuva bağlamışdı. Əngin göylərdə qartallar uçuşurdu. Samur vadisi burada getdikcə daralır, çayın uğultusu artırdı. Döşlərdə, sıldırımlar boyu yal-yamaclarda qoz, alma, əzgil, armud ağacları bitmişdi. Qızılgül kollarında bülbüllər ötürdü. Matəm alayı artıq çoxdan uzaqlaşıb gözdən itmişdi. Ərrəhman, hələta, yasin səsləri kəsilmişdi. Təbiət öz əski ahənginə qayıtmışdı. Əbədi, əzəli gözəlliyi ilə əbədi, əzəli zümzüməsi ilə.

* * *

Cənazə alayı matəm yürüşüylə irəliləyirdi. Hava gözəldi. Xəyal hökmdarı yalçın Samur dərəsinin gözəllikləri, Samurun əzəli mahnısının layla kimi şirin nəğmələri ilə oxşayır, uzaqlara, qısa ömrünün kəşməkəşlərdən qurtarıb ilk qələbə, ilk zəfər, ilk səadət daddığı illərə aparmışdı. İndi o Taclı xanımın yanındaydı...

...Gözəl bahar aram-aram, gözəllərə məxsus nazlı-nazlı gəlirdi. Bahar yavaş-yavaş, sakit-sağlam bir nəbz kimi döyünür, gah-gah aşiq və məşuqların qulağına «gəldim-gəlirəm, gəldim-gəlirəm», pıçıldayırdı.

Şahabad kəndində hicri 919-cu ilin 26 zilhiccəsi[7] çox mübah bir gün olan caharşənbəyə düşmüşdü. Cahan padşahı birinci dəfə evlənir, sarayına baş hərəm gətirirdi. Bu əski türk qəbilələrindən Bəydili-Şamlunun ən mötəbər, nüfuzlu şəxslərindən sayılan Sultan Yaqubun nəvəsi Abdin bəyin qızı Taclı xanım idi. İsmayıl Taclı xanımı lap kiçik vaxtlarından at minib çapanda, həmyaşları ilə qılınc oynadanda görmüşdü. İndi bir neçə il idi ki, Taclı xanım «ev qızı; ev gəlini» adıyla çox gənc ikən saraya gətirilmiş, qəbilədaşı olan qızlar:

Taxtın bərəkallah, gəlin.

---

[7]Bərabərdir: 22 fevral 1514-cü il

Bəxtin bərəkallah!
Ağ əllərə əlvan həna
Yaxdın bərəkallah, gəlin,
Yaxdın bərəkallah!

– deyərək onu ağ üstündə sarayacan müşayiət edib oxumuşdular. Qız saray adabını öyrəndikdən və həddi-büluğa çatdıqdan sonra baş hərəm vəzifəsini ifa edəcəkdi. Hələlik Mövlana Axund Əhməd Ərdəbilinin kəbin kəsməsinə baxmayaraq, cavanlar sıx-sıx görüşmürdü. Amma hərbi yürüşlərdən, ox atmaq, gürz oynatmaq, qılınc çalmaq məşqlərindən, ovdan azad olub evə qayıdanda İsmayıl, Taclının dəyirmi çadrada sərvə bənzəyən qamətini, arabir də üzünü görürdü: «Qərənfilim, sərvim, sənubərim, bircəm mənim», deyə düşünürdü. Qızın gözəl simasına vurğun-vurğun, heyran-heyran baxdıqca düşünürdü: «Ehtiyacım var sənə. Gərək hər gün görəm səni. Gərək hər gün əllərinə toxunam – qüvvət alam, ətrini duyam – dimağım ləzzət aparsın. Gərək hər gün səsini dinləyəm, dodaqlarının qımıldanmasını görəm – heyran olam. O

gözlərdən axan səadət işığını içəm, içəm gərək – içməsəm ölləm».

Taclı xanım ana təbiətin möcüzəsiydi. Gözəl idi, kamallı idi, cəngavər idi. Elə bil doğuluşunda bilmişdilər ki, o, bir hökmdarın arvadı, başqa bir hökmdarın anası, bir sülalənin başlanğıcı olacaq. Elə bil doğulanda bilmişdilər ki, böyük Bəydili qəbiləsinin gözəli qılınc çalmaqla sevgili ərinin taxtını, doğma yurdunun və özünün namusunu qorumalı olacaq, min kişinin bacarıb çıxa bilmədiyi əsarətdən çıxa biləcək. Elə buna görə də ana təbiət ona hər şeyi bol-bol vermişdi: şair arvadı kimi gözəllik, hökmdar arvadı kimi ağıl və tədbirlilik, vətən üçün, namus üçün qəhrəman ürəyi, qılınc vuranda ər biləyi. Bir dam altında yaşasalar da, siğeyi-şəriyyə ilə ər-arvad olsalar da, hələ cismani yaxınlıqları yox idi. İsmayılın vaxtının çoxu çöllərdə keçirdi. «Çal quşu – sapand daşı» idi. «Ayran obadan, gicitkan dərədən», dərib gətirdiyi gəlinlə hər dəfəki görüşü şüurunda həkk olunurdu. Amma tez-tez dəyişə bildiyi üçün də özünü gah taxt üstündə padşah, gah minbərdə mürşid, gah döyüşdə sərkərdə

görürdü. Evə gəldimi, şair-aşiqə çevrilirdi! Döyüşlərdə şüurundan, qəlbindən qovub çıxardığı hisslər cuşa gəlir, gözləri Taclı xanımın dəyirmi çadrada sərvə bənzəyən qamətini, qulaqları sarı tənbur sədası verən səsini axtarırdı. «Sərvim, sənubərim, süsənim, sünbülüm, bircəm mənim», – deyə ilhama gəlir, məhəbbətə dəm tutan qəzəllərini yazırdı. Belə görüşlərdən bir neçəsi xatirində xüsusilə qalmışdı.

– Sərvim, sənubərim, süsənim, bircəm mənim, – deyib qızın, heç on beşi tamam olmamış Taclının xırdaca, lakin qılınc qəbzəsilə qüvvət almış əllərini ər gücüylə sıxdı.

– Hökmdarım, əgər doğrudan da dediyiniz həqiqətsə, sənə lazımamsa, ya özünüzü qoruyun – döyüşlərə getməyin, ya da əski qəbilə adətincə, məni də özünüzlə aparın.

– Aralım, Aralım, dağlar maralım! Səni çox izlərəm, nazlım maralım! Neynim ki, səni o döyüşlərə aparmaq imkanım xaricindədi. Şəxsi intiqamımı almışam: babamın, atamın qatillərini yer üzündən silmişəm. Amma cümlə-camaatın intiqamını hələ alıb qurtara bilməmişəm. Bir bayraq altında bütün pərakəndə qəbilələrimizi birləşdirmək, sərhədlərimizi

genişləndirmək babalarımızdan qalan vəsiyyətdir. Mən bu yolda səfərimi hələ lazımınca bitirməmişəm. Yazılarımdan, nitqlərimdən dini ayrı-seçkiliyi məhv edə bilmək – birləşmək üçün istifadə edirəm. Amma bircə ikanım var – o da məhəbbətdir! Həqqə irişmək üçün yolum məhəbbətdən keçir.

Qız onun ziddiyyət, inam dolu söhbətlərini bəzən dərk etməsə də, gözlərini geniş açıb heyrət və inancla dinləyirdi.

Ağır səfərlər qarşısında İsmayıl qızla görüşəndə səfərin çətinliyini, müdhişliyini həssas qadın qəlbiylə, qabaqcadan duyma qabiliyyətilə hiss edən Taclı tab gətirə bilmirdi. Süzgün, ala gözləri kirpiklərinin ucunacan şəfəqlə dolur, sanki xırdaca bulaqların gözü açılırdı: Aman, – deyirdi, getmə, – deyirdi, eləmə, – deyirdi, sonra da özünü ələ alıb padşahın əlindən öpürdü. Get, – deyirdi, – zəfərlə qayıt, – deyirdi, mövlam sənə yar olsun – deyirdi, qırxlar piri, ermiş ərənlər duaçın olsun, – deyirdi. Qızıl camı doldurur, kirpiklərindən süzülən yaşları çeşmənin duru suyuna qatıb

ardınca atırdı. Sonra da:

Su içdim qurtum-qurtum,
Əl ver əlindən tutum.
İki dünya bir olsa
Sənsən mənim umudum.

– deyirdi. Səfəri uzun çəkəndə pəncərə tüllərinin ardından yazda yamyaşıl göyərən, yayda bozaran, payızda qızaran, qışda ağaran yollara göz bəbəkləri ağrıyanacan, kirpikləri islananacan baxırdı.

Ay doğar aşmaq istər,
Gül-dodaq yaşmaq istər,
Mənim bu dəli könlüm.
Yara qovuşmaq istər,

– deyirdi. Sonra saraydakı yaşıdı qız-gəlinləri, əyan və əşrəfin xanımlarını başına toplayıb şeir məclisi qururdu. «Şairimin, padşahımın, mürşüdümün nəfəslərindən oxu» –

deyə əmr edirdi. İndidən mələkə adıyla çağırılan Taclı xanımın arzusu dərhal yerinə yetirilirdi. Xətainin nəfəsləri oxunurdu. Qızlar rəqs edirdi. Məclis uzandıqca uzanırdı. Taclı xanım bu nəfəslərdən doymurdu. Sonra xanəndə qız mütləq təzə çıxmış «Bülbül» mahnısını oxuyurdu.

Səhərdən ağlayan bülbül,
Sən ağlama, mən ağlaram.
Ciyərim dağlayan bülbül,
Sən ağlama, mən ağlaram.

Bülbülüm, geydin yaşılı,
Süsən sünbülə dolaşı.
Ağlamaq mənə yaraşı,
Sən ağlama, mən ağlaram

Bülbülüm, geydiyi sarı,
Mən ağlaram zarı-zarı,
İtirmişəm nazlı yarı,
Sən ağlama, mən ağlaram.

Taclı dönə-dönə təkrarlardı: «İtirmişəm nazlı yarı, itirmişəm nazlı yarı...», «Ağla bülbül, bağlar sənin, yar mənim». Bu həsrətləri, ayrılıq dərdini, hicran zamanı nələr çəkdiyini istəkli şairə söyləyəndə, o deyirdi: «Sərvim, sənubərim, süsənim, bircəm mənim, mən də sənin kimiyəm. Yollarda, düşərgələrdə eşqinlə qoşduğum məsnəvimi, «Dəhnamə»mi bitirim, görərsən ki, hər kəlməsi məhəbbətinlə yoğrulub. Eşqinlə sapa düzülmüş o 10 məktubu məhz sən mənə ilham etmisən. Mənim mələkəm! Bircəm, sərvim, süsənim mənim!» Onlar tez-tez şeirdən, şeiriyyətdən danışırdılar. Əlbəttə, vaxt olanda, bəzən Taclı xanım ilk təhsil gördüyü fars dilində əzbərdən şeir, qəzəl söylərdi.

– Bizim böyük şairlərin hamısı farsca yazıb. Nizami də, Xaqani də, – deyərdi. – Fars dili şer dilidi, bir bax, Hafiz nə incə deyib:

Həmə xoş dələnd ke motrib bezənd be tar cəngi.
Mən əzin xoşəm ke cəngi bezənəm be tar-muyi.

Həmə mövseme-təfərroc be cəmən rəvəndo səhra
Qo qədəm be-çeşme-mən neh benişin kənari-cuyi.[8]

Şair dinlərdi və deyərdi:

– Gözəldir, doğrudur. Amma Taclım mənim, süsənim, sərvim mənim! Mənim vaxtımda belə olmayacaq. Sən bir Nəsiminin də məhəbbət, eşqi-ilahi, eşqi-ruhani tərənnüm edən qəzəllərini oxu! Onda dilimizdə onun necə incə səsləndiyini görüb valeh olarsan. Bizim ana dilimiz gözəldir, Taclım! Musiqilidir, ahəngdardır. Burada hər bir sadə cümlə şeirdir. İki hecalıdan tutmuş on altı hecaya qədər, lətif, rəvan şeir qurmaq olar bu dildə. Təkcə adi deyilişdəki bir-iki sözün yerini dəyişdinsə – şeirdir. Lap əruznan da desən elədir. Həvəs, eşq lazımdır; ilhamla qüdrət lazımdır.

---

[8]Hamı bununla xoş olur ki, mütrib tarı əlilə (cəngəsiylə) dilləndirsin. Mən isə əlimi sənin tellərinə toxundurmaqla xoşhalam. Hamı bahar fəslində çəmənə səhraya gəzməyə çıxır, sən gözümün üstə qədəm bas, su kənarında əyləş.

Ərənlər mənzili haq mənzilidir,
Ərənlər sahibi-ürfanə gəlsin.
Günahkarın günahından keçərlər
Üz üstə sürülüb sultanə gəlsin.
Xətai xəstədür kani-səxavət,
Xəbər ver dərdlilər dərmana gəlsin.

Hər biri «Gəlsin» rədifli qəzəlin bir misrası olan bu cümlələr adi danışıq dili – doğmaca anamızın dili deyilmi? Nə haqla biz ondan imtina edib ərəbi, farsi yazaq? Niyə bizim saraylarda dövlət, siyasət dili anamız söyləyən dil olmasın, Taclı? Bax mən buna nail olmaq istəyirəm, sərvim, süsənim mənim!

Getdikcə qız da onunla həmfikir olurdu. Taclının da köksündə onunku kimi bir ürək döyünürdü. Axı onsuz da bayatıyla göz açmışdı bu dünyaya. Gəraylıyla dil açmışdı,

qoşmayla istəyini bəyan etmişdi. Qız onun «nəfəslərini» nəfəs kimi xəfif-xəfif, həzin-həzin söylərdi. Söyləyişində şairin bəlkə heç özünə də bəlli olmayan məna çalarları, məhəbbət rübabı səslənərdi. Taclı xanım belə anlarda onunla birlikdə Zorxananı təkləyib qılınc məşqi aparan cəngavər qıza bənzəməzdi. Həzin olardı, nazlı olardı. İsmayıl daima ondakı bu dəyişmələrə heyran qalardı. Neçə dəfə ovdan qayıdanda yolunu bir cəngavər qəfil kəsib qənimətini «tələb etmişdi». Hər dəfə də ilk anda niqablı «həramı»nın Taclı olduğunu bilməyib, vuruşmağa hazırlaşanda qızın qəşş edən gülüşlərini eşitmiş, at sürməsinə, qılınc çalıb, qalxan başa çəkməsinə heyran olmuşdu. İndi isə Taclı onun qoşduğu qoşma «nəfəsləri» oxuyur, onların mənasını daha da dərinləşdirir, sonra da sevgilisinin boynuna sarılıb. «Şairim, sərkərdəm, çinarım, istəkli yarım», deyir, oxşayırdı...

Cavan şair-hökmdar cənazə alayını müşayiət etdiyini unutdu. Taclının doğma, qıcıqlandıran, oyandıran ətri Samur vadisində bitən güllərə, nar çiçəklərinə qarışıb şairi bihuş elədi. Vücudunda xoş bir gizilti duydu. Nəfəsi daraldı,

gözləri qaranlıq gətirdi. Qeyri-ixtiyari əlini qancırqa bağından asılmış heybəciyə atdı. Samur çiçəkləri kimi əlvan, parlaq, bəzəkli qələmdanı çıxartdı, bayazını açdı, qədim yol və Taclının məhəbbətindən yoğrulmuş varsağını misra-misra kağıza köçürməyə başladı. Beş bənddən ibarət şeir belə bəndlə bitirdi:

Ey divanə, ey divanə,
Aşiq olan qıyar canə,
Xətai der: Taclı xanə
Qalsın könül, yol qalmasın!

O, öz yolunu, ərkanını heç kəsə, Taclıya belə verməzdi. Könlünü verir, yolunu yox! Şair xəbər tutmadı ki, o, atın cilovunu çəkdiyi üçün cənazə alayı da Rəhim bəyin işarəsilə ayaq saxlayıb. Dərin sükut içində alay şairin qəzəlini bitirməsini, sonra da onun hökmdara çevrilib hərəkət əmri verməsini gözləyirdi.

* * *

Yolüstü Qaraçı ribatı karvansarasında qaldılar. Şeyx oğlu şahın çadırı karvansaranın yaxınlığında quruldu. Quran oxuyan molla tabutların baş tərəfində, çadırda əyləşdi. Sərkərdələrin çoxu çadır qurdurmağa ərindiyindən karvansara hücrələrində yerləşdilər.

Yay gecəsi düşdü. Axşamın sərinliyində karvansaranın geniş həyəti və qənşəri tamaşa meydanına çevrildi. Bir dəstədə qaraçılar meymun, ayı, it oynadır, sonra da papağını meymunun əlinə verib pul yığdırırdılar. Meymunun məzəli sir-sifətinə, insan gözünə bənzəyən fəhmli gözlərinə baxıb bəziləri gülümsəyərək papağa pul atır, bəziləri «həmzaddı, cin-şəyatindi», deyə qorxu içində pulu yerə tullayıb dal-dalı çəkilirdi. Meymun isə yerə düşən pulu götürüb papağının içinə qoyurdu.

– Baho gör nə ağıllıdı!

– Sən ölmə səndən ağıllıdı.

– Pulun qədrini bilir. Yaxşı baqqal çıxar bundan.

– Bəlkəm arşınmalçı, bəzzaz eliyəsən?

Hərə öz işində idi. Qoca bir kişi yaxındakını dümsükləyib dişsiz ağzına, çal saç-saqqalına yaraşmayan bir ədabaz açıq-saçıqlığı ilə deyirdi:

– Arvad gorbagorun qızı getdi Allah rəhmətinə. Gördüm, təklik mənə əl vermir. Oğulları-gəlinlər, qızlar-kürəkənlər hərəsi öz evində, öz kefində. Çarəm nəydi? Budu təzədən evlənmişəm. Üç-dörd xırda-para oğul qayırmışam. Ölənəcən kişiyə beçə gərəkdi.

Onlardan aralıdakı ikinci dəstədə əvvəl küştigərlər küştü tutub güləşdilər. Sonra meydana bir pəhləvan girdi. Uzun bir payanı qurşağına dayayıb durdu. İkinci nisbətən cavan oğlan payanın ucuna dırmaşıb başaşağı sallandı. Müxtəlif hərəkətlər etməyə başladı. Payanı tutan pəhləvanın qol və qıç əzələləri gərilmiş, üzünə qızartı çökmüşdü. Onları da arvad paltarı geymiş mütrüb əvəz elədi. Zurnaçılar zərif

səlami havasını çalmağa başladılar. Qadın paltarı geymiş mütrüb çəm-xəm eləyə-eləyə meydana çıxdı. Onun əl barmaqlarının hər birinə yanar şam yapışdırılmışdı. Qəribə mənzərə idi. Mütrüb fırlandıqca zər butalı al bənarə örpək yellənir, şamlardan od almaq qorxusu tamaşaçıları narahat edirdi. Lakin rəqqas elə bir məharətlə şamları başı üzərində, qoltuqları altından hərlədib hərəkət etdirirdi ki, bu təhlükə baş vermirdi.

Rəhim bəyin xahişi ilə hökmdar da əmmaməsinin təhtəlhənəyini üzünə niqab kimi hayil edib dostlarıyla birlikdə tamaşaçılara qarışmışdı. Pəhləvanın igidliyi onu bir sərkərdə kimi maraqlandırmışdısa, indi ortada rəqs edən mütrübün cazibədar, xəyal kimi qəşəng hərəkətləri şair könlünü oxşayırdı. O, rəqqasa baxdıqca başqa bir aləmə düşdüyünü zənn etdi. Ona elə gəldi ki, saraydadır. Zər-bənarə örpək Taclının dodaqlarını örtsə da qızın al qızılgül ləçəyinə bənzəyən yumru-yuvarlaq dodaqları zərif inəyin altından daha gözəl, daha cazibəli göründü. Şair bir-birinin üstünə düşmüş bu al ləçəkləri dişlərilə, ufultu çıxarmadan

qoparmaq istədi. Bütün vücudu gərildi, qızdırmalı kimi titrədi...

Və qəfil qəhqəhədən özünə gəldi. Mütrüb artıq kələğayısını atmış, oxuyur, mayallaq aşır, gündəlik hadisələrə aid sözlər deyir, gah Yavuz Sultan Səlimi, gah qızılbaş qatili Şirvanşahları lağa qoyurdu. Deyəsən, hökmdarın da bu zəngin geyimli gənclər arasında olduğunu duymuşdu. Ona yarınmaq istəyirdi.

Tamaşaçılar danışırdılar:

– Bəh... bəh... Bu da kişidi? Kül bunun başına, arvad paltarı niyə geyib?

– Sənətidi də... Mütrüfdü...

– Sənət başına qahət olsun onun. Ölüb yerə girmir. Yambızını oynadıb pul qazanır. Burada deyiblər ki: «Bu dərdnən pul qazan, apar ver Nurcahan yesin». Sən ölmə, meymun bundan ağıllıdı, hələ ayı...

İsmayılın dəstəsinə yaxın dayanmış bir dərviş dilləndi:

– Heyvan olanda nə olar. Şair gözəl deyib:

Cubi-zaifra əgrəş tərbiyət dəhi
Cayi rəsəd ke busəkəhe-xosroval şəvəd[9].

Dərviş bu beyti qəribə bir ahənglə söylədi. İsmayılın dərvişlərlə, xüsusilə başını, saqqal və bığını, hətta qaş və kirpiklərini də qırxdırıb özünü qəribə şəklə salan ələvi dərvişlərlə, fırlanan, tullanan, bədheybət səslə adamları qorxudan, cadu-pitiklə arpanı divara yeridən, fağır əkinçidən «cəddinin malını» tələb eləyən avara, tüfeyli dərvişlərlə arası yox idi. Lakin onun dərvişlər içində elə dost və tanışları var idi ki, biliyinin genişliyinə, ağlının dərinliyinə heyran qalardı. Bu dərvişlərdən vətənə haqsız-muzdsuz xidmət edən, özünü oda-közə soxub əxi-qardaşlıq hərəkatına xidmət göstərənlər var idi. Onun öz casuslarının da çoxu belə dərvişlərdi. Xalq arasında onlar «pay yığan deyil, pay

---

[9]Əgər nazik çubuq parçasına da tərbiyə versən elə bir mövqeyə yüksələr ki, Xosrovların busə yeri olar (tütək nəzərdə tutulur).

verən» dərvişlər kimi dastan va nağıllara da daxil olmuşdular. Fağır-füqəranın ən çətin günündə dadına çatırdılar. Bütün bu fikirləri bir beş əsr sonra tədqiqatçılar tapıb üzə çıxardacaq. İndilik İsmayıl öz qarşısında məhz filosof, insansevər adam gördüyünə inandı və nədənsə bu gecə onunla həmsöhbət olmaq istədi. İstəyini Rəhim bəyə bildirib çadırına çəkildi...

...Söhbətləri qəribə başlanmışdı. Deməsə də, qoca nurani dərviş onu tanıdı. İsmayıl baba görməmişdi. Heç atasını da yaxşı xatırlamırdı. Bütün oğlan uşaqları kimi həmişə müdrik qoca babalara, cəngavər atalara can atmışdı. İndi də elə...

– Hökmdarım, insanları zəmanənin üç afətindən xilas etmək zəruridir: aclıqdan, arası kəsilməyən müharibələrdən, bir də sənin öz təxtü tacına da xəyanət edən yerlərdəki hakimlərin və amillərin zülmündən. Sənə qiymətli hədiyyə gətirən hakim səndə şübhə doğurmurmu? O, bunları haradan, hansı yolla əldə edib?.. Muzdu məlum, gəliri-çıxarı məlum, ədalətli ol, hökmdar! Bil ki, zindanla çəkic arasında əzilən

dəmirdir: nə zindan inciyir, nə çəkic. Səninlə amil-hakim arasında doğma camaatın, atası olduğun rəiyyətin, təbəən var, onun qaydına qal.

Gecədən xeyli keçənə, ilk xoruz banınacan söhbət etdilər. İbadullah kişinin gözəl gəlini bişirən boyanalı, daşma, pərqudan da yumşaq, xaşxaşlı, küncütlü çörək, qaraçörək otu qatılmış şor-pendir sadə süfrəni bəzədi. O gecə İsmayıl ömründə bircə dəfə özünü, üzünü görmədiyi babası Şeyx Cüneydin və atası Şeyx Heydərin qulluğunda saydı. Sanki Şeyx Heydəri Tabasarandakı, Şeyx Cüneydi həzrədəki müvəqqəti məzarından məhz bu gecə üçün götürüb gətirmişdi. Bu müdrik dərvişin dililə sağlıqlarında edə bilmədikləri öyüdü ona versinlər, ata-baba borcunu ödəsinlər.

Dərviş deyirdi:

– Hökmdarım, əsgərinə bildir ki, onların qalü bəladan götürdükləri ələm onları yalnız yaxşılığa dəvət edir. İnsanı sevməyən adam əsl qazi ola bilməz. Əsl insan, özünün insan

övladı olduğunu dərindən dərk etsə, heç vaxt alçalmaz, kimsəyə basılmaz. Sən onlara de, təlqin elə ki, ata-anamız, yaradanımız olan kainat insanlara göz verib. Gözlər onunçündür ki, pis şey, bəd əməl görməsinlər, yaxşı görsünlər. Qulaqlar onunçündür ki, qiybət və böhtan eşitməsinlər. Dil onunçündür ki, heç kəsin haqqında yaman deməsin, yalnız yaxşıya açılsın. Ayaqlar onunçündür ki, yaman yola, lovhüləəbə getməsinlər. Əllər onunçündür ki, halala açılsın. Onları haram üçün uzatmayasan gərək! Yaradanın sizə bəxş etdiyi bu üzvləri, kainatın möcüzəli gözəlliklərini görməyə, eşitməyə, deməyə xidmət etdirin. Siz onlara deyin ki, təvəkkülə mürid bağlasalar, elə sən özün də hökmdarım, təvəkkülə ümid bağlasan sənə ümid bağlayan insanları zəif salarsan. Yaza həsrət güllərindən ibrət götür. Bu zərif çiçəklər yaza həsrət qalacaqlarını bilsələr də, qarlı torpağın altından həyat eşqilə baş qaldırırlar. Əgər səndə bir çayır gücü, inadı yoxdursa, qoy bir yaza həsrət qüdrəti olsun. Yaşamaq, dəvami-həyat etmək üçün.

Dərviş davam etdi:

– Əşarın, xüsusən «nəfəslərin» çox yayılıb, hökmdarım! Dillər əzbəri olub. Anan verən dilə hörmətlə, məhəbbətlə düzmüsən onları. O əşarınla elimizi, günümüzü istədiyin vaxt cihada çağıra bilərsən və həmişə də ətrafın dolu olar. Amma nəzərə al ki, əşarında islami əqidələr bir-birinə çox qovuşub. Bir cavan dərvişə ürcah olmuşdum, hələ Ərzurumda. Deyirdi ki, Konyadan gəlir, sənə iltica edir. Vətənin hər tərəfindən dərdini götürüb hüzuruna, «aman», ədalət istəməyə gələnləri görmüşdüm. Qaçan da sənə pənah gətirir, qovan da. O cavan dərvişdən dərdini soruşdum. «Neyçün gedirsən İsgəndərşənin dərgahına?» «həqiqət dalınca», dedi. Soruşdum: «Nədi həqiqətin? Nişanlınımı zorla aparıblar? Qılınc alıb din uğrunda cihad edənlərəmi qoşulmaq istəyirsən?» Axı sənin hüzuruna gələnlər içində kimi din yolunda şəhid olmaq, kimi ad-san, şöhrət qazanmaq, kimi var-dövlət əldə etmək üçün gəlir.

«Yox, – dedi, bunların heç biri deyil. Mən bir gerçəyə

varmaq istəyirəm.[10] Qılı qırx parə etmək istəyirəm[11]. Xatainin əşarını çox mütaliə etdim. Dərk etmədim kimdi o. Hansı gerçəyə etiqad edir? Sufimi, bəktaşimi, hürufimi, nəqş-bəndimi, batinimi, şiəmi, nədir o? Ya hamısı bir yerdə hamısını yeni bir imanda birləşdirən sahibəzzamandır? Çünki bütün dediklərimin mövcudiyyətini gördüm aşarında». Tapacaq, hüzuruna gələcək. Naümid qoyma dövrəndəkiləri. Bir də içi mən qarışıq, əməlindən razı olmadığın adamın nəsihətini qəbul etmə, hökmdarım!

Qoca dərviş dərvişlər məskəni Konyanı onun yadına salmışdı. Bu onun Türkiyəyə ilk səfəri zamanı baş vermişdi.

Konyanın on iki qala qapısı hər gecə bərk-bərk bağlanırdı. Quş quşluğuyla bu darvazalardan nə çölə çıxa, nə də içəri girə bilərdi. Doğu qapısı, Batı qapısı, Həl qəbəquş qapısı... İsmayıl məiyyəti ilə birlikdə şəhərin görməli yerlərini:

---

[10] Doğru qəriqət saнibini tapmaq.

[11] Ərənlərin ən incə, düz yolunu tapmaq

karvansara, mədrəsə və məscidləri gəzdi. Pirinccilər hanı[12], Şəkərfuruş məscidi, Altun əba mədrəsəsi, oyma minbərli, çini kərpicli Sırcalı məscidi, mərmər daşı zərgər işinə bənzəyən İncəminarə cameini, çini kərpiclərdən yapılmış, üzərində Əli sözlərindən ornamentlər olan sahib Ata camesi, Narlı bağça, Məryam bağı, Üçlər məzarlığı, Deyri-Əflatun[13], Qumrulu hamam çox xoşuna gəlmişdi. Ərənlər ona demişdilər ki, «Konyada on iki sultan yatır». Demişdilər ki, mövləvilərin Piri Cəlaləddindən soruşdular: «Eşq nədir?» Cavab verdi: «Mən ol da, bil! Əsl Kəbə daş və torpaqdan tikilən bina deyildir. Allahın evi onun yaratdığı əsl insanın qəlbidir, Onu tap, onu ziyarət elə».

Onu Mövlana mövləvilərə, onların neyzən[14], dəffal[15],

---

[12]Karvansara.

[13]Monastır.

[14]Tütək çalan.

[15]Dəf çalan

qəvval[16] ilə «ibadətləri» qəzəbləndirsə də, Konyanın gözəl binaları valeh etmiş, heyran qoymuşdu.

Bunlar xəyalına gəldikcə, dərvişi dinlədikcə düşünürdü: «Mütləq ata-baba yurdumda, doğma Ərdəbildə mən də əzizlərim üçün belə məzarlıq, belə türbələr tikdirməliyəm. Buradan da sənətkar aparmışıq. Amma oradakı, vətəndəki sənətkarların üstü yoxdur. Tarixçilər nağıl eləyirlər ki, Buxara, Səmərqənd kimi şəhərlərin gözəl abidələri Təbriz ustalarının əliylə yaradılıb. Təkcə elə Tümən ağa məqbərəsini bəzəyən Şeyx Məhəmməd ibn Xacə bəy Təbrizi idi. Səmərqənddən, Buxaradan da təbrizli, ərdəbilli ustalara köməkçi çağırmışıq. Bakıda, Abşuranda zəlzələdən qorxmayan tağlı evləri yaradan ustalar daş işində möhkəmdir. Onları da apartdırmışam. Qərəzim o olub ki, Ərdəbildə tikdirdiyim ata-babamın məqbərəsi Səmərqənd-Buxara-Konya-Nəcəf-Kərbala abidələrini – türbələri kölgədə qoysun. Onda ata-babamın qulluğuna – o dünyaya

---

[16]Qaval çalan

arxayın gedərəm».

Yollar, bu yollarda çəkdiyi əziyyətlər onun zehnində daha başqa fikirlər də oyatdı. Yolları, körpüləri abadlaşdırmağı, susuz ərazilərdə hər iki fərsəxdən bir su dolu küp qoydurmağı, qəriblər üçün kəndlərdə şirazsayağı «şəbistanlar» tikdirməyi, qərib qonaqlara xidmət üçün kəndlərdə cəzir seçməyi, qarda-boranda yolçular azmasın deyə yollara sütun, daş qalığı və ya nə iləsə nişan qoymağı, hər 2-3 fərsəxdən bir ovdanlar, iri şəhərlərdə məscid, karvansara və hamam tikdirməyi qərara aldı.

Cənazə alayı ilə ağır-ağır irəliləyən bu səfər, hökmdar şah İsmayılın gələcək şöhrəti üçün xeyirli olmuşdu.

***

Oxucum, hekayətimizin başlanğıcında dörd ad çəkmişdik, bu səfərimizdə, bu çarpışma dünyasında dörd nəfərlə əsl yol yoldaşı olmalıydıq. Bibixanım-Sultanım, Aytəkin, Şeyx oğlu

şah İsmayıl və dərviş İbrahim. Üçüylə yol gedirik bir müddətdir, dördüncü yoldaşımızın bizə qoşulmaq zamanı çatıb. Şair ürəkli dərviş, dərviş könüllü şair İbrahim biçarə vətənin dərbədər oğlu hacı Bəşirlə türk gözəli Ləman xanımın dünyaya – xalqına bəxş etdiyi əkiz oğuldan biri. Ana duası ilə ata nifri kəsərsiz olar. Qoy övlad üstündə ata nifrini əskik, ana duası daimi olsun! Elə mənim də!

## AYRILIQ YAMAN OLUR

Nəsrin İbrahimdən aldığı məktubu əzbər bilirdi. Bu məktubu əzbərləmək heç cür mümkün deyildi. İndi qız irəlilədikcə qəlbində həmin qorxunc olduğu qədər də əziz sətirlər tamburun nalələri kimi səslənirdi:

Qərib qürbət elə yolum tuş oldu,
Qəribin halına yanarsan, sonam!
Seyr edib camalın san bihuş oldum,

Gedərəm ellərdə qalarsan, sonam!

«İlahi, ellərdə qalaram, düz deyir. Məgər yeniçərilərin təchizatına başı qarışıb, var-yoxundan bixəbər, cəllad atadan, onun əlində əsir qalıb, hər dediyinə «bəli-bəli» deməkdən başqa bir şey bilməyən, gücünü kor qoyduğu gözlərinə verən xəstə anadan mənə qahmar olar? Dərdim çox böyükdü, ey böyük yaradan!»

Nəfəs – qoşma isə qəlbindən səsinə səs verirdi:

Mən səni sevmişəm başdan, binadan,
Seçilməzsən yaşıl başlı sonadan,
Allahım qurtarsa zülmətxanadan,
Sən də sevinib gülərsən, sonam!

«Ulu tanrım, bu zülmətxana haradı? Mən İbrahimin işlərindən baş açmadım. Ya rəbbim, onun ağzından eşit, nəfəsi fal olsun, bilmədiyim zülmətxanadan qurtulsun, məni sevindirib güldürsün!»

Bundan sonra gələn bənd Nəsrinin ürəyini uçum-uçum uçundururdu.

Fələyin yazdığı bilinməz imiş,
Yar, sədan qulaqdan silinməz imiş,
Dərd başdan aşanda gülünməz imiş,
Sorağım yellərdən alarsan, sonam!

«Xudaya bu nə dəhşətdi? Ona nə olub? Niyə mən onun sorağını yellərdən almalıyam? Hə də, əvvəlində «yolum qürbətə düşdü», dedi axı! Mən bu dərdə dözməyəcəyəm, dərvişim! Neyçün mən səni o nazənin uşaqlıq illərində olduğu kimi İbrahim – İbiş adlandırmayım? Niyə hamı sənə anan qoyan, atan qoyan adı demir? Dərviş deyir hamı sənə?» Dərviş İbrahim isə deyirdi:

Mən səni sevmişəm candan, ürəkdən,
Əzizsən yanımda hər bir diləkdən,
Zalımın zəncirin qırıb biləkdən

Qayıtsam, sən mənim olarsan, sonam!

«Allah ağzından eşitsin, ağzın fal olsun, dərvişim! Ey yeri-göyü yoxdan xəlq eləyən, ulu pərvərdigar! Görəsən, mən onu yenə də orada, cındırından cin hürkən dərvişlərin içində tapa biləcəyəmmi? Görəsən, gecikməmişəm ki?» Qız bu sözlərlə də dərvişlər üçün sədəqə qoyduğu bəhanəni – balaca boğçanı köksünə sıxıb addımlarını yeyinlətdi. «Deyəcəm, dərviş, ölümlü dünyadı, halal eylə məni! Deyəcəm, neştərlidir yaram, sağalmaz mənim! Deyəcəm, dərdim mənim bir deyil, beş deyil, on beş deyil. Deyəcəm sözü bir, ürəyi bir olmayanlara münafiq deyirsiniz. Məgər sən özün də müvafiq deyilsən? Dilin məni candan-ürəkdən sevdiyini deyir, qəlbin isə əllərdə – iradəsiz-zəif ana ilə, zalım cəllad ata əlində qoyub getməyə razılıq verir».

Meydanın qırağında oturmuş bir dərviş, görünür ki, nə isə bir şey satmağa, ya almağa gəlmiş həmkəndlisi ilə söhbət edirdi. Fağır kəndli dərvişin dilindən, məzhəbindən baş aça

bilmirdi. Yerlisini sorğu-suala tutmuşdu ki, kəndə qayıdanda onun ata-anasına bir xəbər apara bilsin, sual-cavab qırıq, məzəli gedirdi;

– Həcc-əkbər eləmisən, qadan alım? Deyirlər, gəzəntəsən, qara daşa üz sürtmüsən?

– Xeyr, mən Ərdəbildə şeyx Səfi məqbərəsinin ziyarətini əqidəmcə əfzəl bilirəm.

– Hansı zümrədənsən?

– Səfi, ələvi.

– Boy, başıma xeyir, kişi deyinən qızılbaşam da! Yaxşı, pirin kimdi?

– Üçlərin ağası, yeddilərin əvvəli, qırxların saqqiyi-kövsəri, əsədullahi-qalib, Əlliyul-Mürtəza, Heydəri-kərrar.

– Rum abdallarının hamısını elə belə gördüm. Kişi, bu uzatmaq, fağırı dolaşmağa salmaq neyçün, birkərəmlik de ki, Əli da!

Bunu yaxınlıqdan keçən bir ziyalı deyirdi.

Nəsrin irəlilədikcə İbrahimin, eləcə də, özünün uşaqlıq

illərini gözlərinin önündə canlandırırdı. Xəyal onu elə qanadlandırmışdı ki, qız həmin hadisələrdən on ildən də çox keçməsinə baxmayaraq elə bil indicə İbrahimi də özünü də qonşu həyətlərin dalındakı ot-ələf basmış, xəndəkli, çala-çuxurlu boş yerdə görürdü. Onlar bu çökəklərdən, çalalardan tullanmağı sevərdilər. İbrahim arabir onun uzun hörüklərinin ucunu cilov kimi əlinə dolayar: «Hə, Qaragöz, gözünə dönüm ha!» deyə ardınca çalar, qız da Səfi əminin səmənd atını yamsılayaraq kişnəyə-kişnəyə qaçardı. «At-at» oynamağı çox sevərdilər. Bu zaman onların ürəkləri həmahəng vurardı. Hərəkətləri də, addımları da bir-birilə elə həmahəng olardı ki, sanki İbrahim, indi Yəzdanı ilə vəhdət təşkil etdiyi kimi, onda da Nəsrinlə vəhdət təşkil edərdi. Bu hörüklər, bu eyni ahənglə çırpınan ürəklər, bu eyni addımlarla qaçan ayaqlar bağlamışdı onları bir-birinə. Həm də elə bağlamışdı ki, Nəsrin də, İbrahim də qopub ayrıla bilmirdilər. Bu əzəli yanmış çıraq sönmürdü. Hacı tacir bir söz deməsə də, analarının heç birinin etirazı olmasa da, tək bircə Məcid cəlladın sözü kifayət edərdi ki, onları dərilərini soya-soya, qanları axa-axa bir-birindən ayırıb yoxa

çıxarsınlar. Və bu, elə bu ayrılıq özü yoxa çıxmaq demək idi. Nəsrin atasının nəhs simasını görən kimi oldu və dəhşətdən qəlbi sızlaya-sızlaya uşaqlıq illərinin cazibədar oyunlarından, xəndək dibində gözləri çıxa-çıxa çör-çöp tüstüsündə İbrahim üçün «ləzzətli xörəklər bişirdiyi» günlərdən bu günə qayıtdı. Elə indi də o, gözlərinin yaşını axıda-axıda hər macal, imkan tapdığı saatda dərvişlərin yığıldığı bazar başına gedirdi. Buraya dilək diləmiş, diləyi hasil olmuş xanımlar qulların müşayiəti ilə gəlir, dərvişlərə ehsan gətirirdilər. Nəsrin də bu ehsan gətirənlərə, dilək diləyən xanımlara qoşulur, çadrasına sıx bürünürdü ki, təsadüfən bazardan qoşun üçün sursat, ot-ələf tədarükünə çıxan atasına, bir də bazar möhtəsibi İsmayıla – İbrahimin əkiztay qardaşına tuş olmasın.

Hər dəfə o, bu məkana gələndə bazar hay-küyündən qismən kənarda yerləşən bu dərvişlər dəstəsinə qəribə bir maraqla baxırdı. Atası nə üçünsə bu dərvişlərdən yaman acıqlı idi. «Hamısı xəsarət dünyadır, – deyirdi, dini-mübinə, sultana asidirlər. Hamısı Əli qullarıdır, Xüləfayi-rəşidindən uzaq

düşüblər, birindən başqa. Yönlərini Məkkeyi-Mükərrəməyə yox, Ərdəbilə çeviriblər».

Səlim adlı gənc bir dərviş İbrahimə yaxınlaşan kimi astadan dodaqları tərpəndi:

– Şah! – Bu şərti işarə idi. Əqidədaşlar bir-birini bu yolla tanıyırdılar.

– Şah! – cavabını alınca Səlim, bazar möhtəsibinə tərəf nəzər fırlatdı. Deyəsən, möhtəsibin başı söhbətə qarışıq idi. Heç dərvişlərə məhəl qoymurdu. Səlim İbrahimə xəfif səslə dedi:

– Səni pirin axtarır. Ərkana yetmək müjdəsilə.

İbrahimin gözlərində sevinc parladı. Səlim yenə də möhtəsibə tərəf baxıb pıçıltıyla təəccüb duyulan səslə dedi:

– Yaman sənə bənzəyir, ərən! Tək görsəydim, sənin möhtəsib rütbəsinə çatdığını güman edərdim.

İbrahimin gözlərində nəsə yanıb söndü. Elə bil şəfqət bir an parladı və həmin andaca nifrətə çevrildi.

– Səhv etməmisən. Bu mənim əkiz qardaşımdı.

– Sübhanallah!

– Bəli, taleyin belə gülməli oyunu da olur. Bir beşikdə yatmışıq. Bir mehribanın döşlərindən həyat dadmışıq, mən bu tayda – o, orada... Beşikdə duyuq düşsəydim, bilsəydim bələyimdə boğulardım.

Dərvişlər qəribə idilər. Bəziləri, məsələn, Ələvi dərvişlər hətta bığlarını, saqqallarını qırxmaqla kifayətlənməyib, qaş və kirpiklərini də qırxmışdılar. Qəribə geyimləri, qəribə hərəkətləri var idi. Kimi qəlyan xoruldadır, kimi durduğu yerdəcə hərlənir və ürəyi keçib yerə dəyənəcən, ağzından köpük daşlayanacan fırfıra kimi fırlanırdı. İbrahimin daxil olduğu dəstə isə öz təmiz, ağ geyimi, sakit bir yerdə əyləşərək dizlərini qucaqlayıb oturması ilə hamıdan seçilirdi. Bunlar acgöz də deyildilər. Dilənmirdilər, verilən ehsanlara cummurdular. Alanda da ədəblə, ehtiramla alırdılar. Çoxu, geyimi nəzərə alınmasa, heç bambılı dərvişlərə, bağıra-bağıra oxuyan, tullanan, fırlanan qardaşlarına bənzəmirdi.

Bir dəfə Nəsrin İbrahimgilin dəstəsinə yanaşanda oğlan onu görmürdü, qız yandan gəlirdi, İbrahimin sağ tərəfində bir

şəhərli oturmuşdu. İbrahimin müsahibəyə başı elə qarışmışdı ki, gəlib onun arxasında dayanan – «sədəqə, ehsan gətirən bacıdan» xəbəri yox idi. Onların arasında maraqlı mükalimə gedirdi. İbrahimin o biri dərviş qardaşları zikr deyir, yəni Allahın adlarını sadalayırdılar. Bu da onlarçın namazı əvəz edirdi. Amma şəhərli ilə İbrahim arasındakı mükalimə qəribə idi, çox...

– Dərviş, nə sorursan?

– Qüdrətin loğmasın yeyirəm.

– Niyə rəngin sarıdı, bəs ərən?

– Qüdrətin qorxusun çəkirəm.

– Gözlərin niyə qanla dolub, dərviş?

– Münafiq[17] görürəm.

– Evin, eşiyin hardadı, ağam?

– Kahalar, mağaralar, yağış tutmayan, gün şığımayan qayaların daldası.

– Yorğan-döşəyin varmı, ərən?

---

[17]Nifaq salan

– Döşəyim – anam, yorğanım – firuzəyi göylər.

– Dilinin əzbəri-zikri nədi, dərviş?

– Haqq kəlamından özgə əzbərim, haqqın adından başqa zikrim yoxdu.

– Etiqadın nəyədi, ərən?

– Haqdan böyük nəyə etiqad?

Nəsrin daxili bir qüvvənin yardımı ilə anladı ki, sual-cavab İbrahimi üzüb, qəzəbləndirib, əks halda o suala sualla cavab verməzdi. Nəsrin qeyri-ixtiyari

əlini çadranın altından hörüyünə toxundurdu. Elə bil hörüklərinin ucu İbrahimin qəlbinin tellərinə bənd edilmişdi. İxtiyarsız, səksəkəli bir tərzdə geri qanrıldı, arxasında qara çadraya bürünmüş ağ heykəli – nəsrin gülünü gördü. Daxilini sarsıdan bir titrəyişlə qalxındı. Lakin həmin anda da səhvini anladı. Qızı tanıdığını büruzə verməməli idi. Yenidən dizlərini qucaqlayıb başını əydi, çənəsini bu dizlərə söykəyib zikrə daldı:

– Hu...ya Rəhim... hu...ya Rəhman...hu... ya Cabbar... hu...ya Qəhhar...

Nəsrinin də dizləri saxlamadı, qız nadinc uşaq əlilə bəndəmi kəsilmiş nəsrin çiçəyi kimi vuruldu, diz çökdü:

– Ağam, diləklə gəlmişəm...

– Haqq diləklər ağası diləyinə yetirsin...

Bu gün Nəsrin bazar başındakı məlum yerə çatanda ələvi dərvişləri – İbrahimin qardaşlarını yerində görmədi. Diləyi bitmiş, buna görə də nəzir-niyaz, sədəqə və ehsanla dərvişlər məskəninə gəlmiş olan xanımlara qoşuldu. Xeyli gözlədi, düyünçəsini açıb kimsəyə bir loğma ehsan təklif etməyə taqəti olmadı. Dizləri əsənə kimi durdu. Nəhayət, sanki nə üçün gəldiyini belə unudaraq, ehsan düyünçəsini İbrahimdən qalan bir yadigar kimi çırpınan köksünə basıb bazar başını tərk etdi, evə doğru üz qoydu. Qızın gözləri dolub-boşalır, xırdaca, amma böyük bir məhəbbət yerləşən ürəyi qəfəsinə sığmırdı. Elə çırpınırdı ki, elə bil uşaqlıq illərində İbrahim onun uzun hörüklərini əllərinə dolayıb «at-at» oynayırdı, Nəsrinin də çapmaqdan ürəyi ağzına gəlirdi.

Nəsrin sonuncu dərvişlərin yanından ötəndə eşitməkdən çox

səsi, doğma səsi duydu:

– Əsədullah, Yədullah, Şirullah...[18]

Bu İbrahim idi, onun səsi idi, İbrahim ələvi dərvişlərin özünəməxsus zikrini eləyir. – Əlinin adlarını sayırdı... Nəsrinin gözləri dörd oldu: ətrafına boylandı. Haradaydı İbrahim? Sən demə eləcə onun ayaqları altında, sağında, bazar başındakı sonuncu dərvişlərin iki qədəmliyində o, yerə çöküb zikrini eləyir, bəlkə də, səsini Nəsrinə çatdırmaq istəyirdi. «Bəs necə olub ki, mən onu bayaqdan görməmişəm? Necə olub ki, qəlbim İbrahimin burada, bu qədər yaxında olduğunu mənə xəbər verməyib? İlahi!
Axı mən onu görmədən çıxıb evə gedə bilərdim! Deməli, getməyib! Bəlkə getmək xəyalından daşınıb? Bəlkə? Yox, İbrahim elə cavan deyil! O həmin məktubun məni nə hala salacağını bilməmiş olmaz. Görünür, özü də bir ümidlə gəlib bura. İnanmayıb, inanmaq istəməyib ki, mən gəlmərəm.

[18] Allahın şiri, allahın əli, allahın aslanı – hamısı şiəliyin birinci imamı Əliyə verilən adlar, ləqəblərdir.

Məni görməmiş getmək istəməyib! Ərənlər köməyin olsun, İbrahim, ərənlər mənim də köməyim olsun!»
Deyəsən, Nəsrin bu sözləri bərkdən dedi. Deyəsən... Bəlkə də.. Yoxsa, İbrahimin qəlbi ona qızın könlündən keçənləri xəbər verdi?

İbrahimin əynində qar kimi ağ mələsdən köynək var idi, bu köynək onun dizlərinəcən uzanırdı. Üstündən də yəl geymişdi. Diz üstündə əyləşib zikr edərək, təkcə Nəsrin üçün deyirdi:
– Eşq oduna yanan ciyəri kabablar bizik, hicran aləmindən didəsi giryanlar da bizik. Evsiz-eşiksiz abdallar da bizik, könül xanəmizin abad olub-olmamasının təfavütü yoxdur bizimçün.

Sözlərdə, dərviş ifadələrində o qədər rəmz vardı ki, bu sözlərin ibadətmi, yaxud çadra altında gizlənib dərvişlərə ehsan gətirən bir qız üçünmü deyildiyini duymaq mümkün deyildi. Anlamaq çətin idi.
Nəsrin də dərvişin önündə diz çökdü, başını aşağı dikib

düyünçəsini açmağa, yalnız İbrahimin eşidə biləcəyi bir səslə pıçıldamağa başladı. Tələsirdi, dərvişin önündə çox əyləşə bilməzdi, görən-duyan olardı. Dedi:

– İbrahim, cahangəştliyəmi gedirsən, dünyanı seyrəmi çıxırsan, hansı xətərli səfərə gedirsən, bilmirəm, getmə deməyə ixtiyarım yoxdur. Amma haranı gəzsən, əşini[19] gəzmə, özünə əş axtarma. «Sən ölmədən mən ölləm» deyəni arama! O mənəm! Cansız ata mindiriləncən,[20] döşəyim torpaq bir gün məni udanacan səni gözləyəcəyəm. Elə bilmə ki, sənsiz al geyinib, şal bəzənəcəm, ipək yorğan-döşəkdə yatacam. Yox, üstdən nə geysəm, bədənimə sənin cismini örtən mələsdən[21] köynək geyəcəyəm. Gecələr döşəyimdən düşüb sənin kimi torpaq üstə yatacam. Yolunu belə

---

[19]Tay

[20]Tabut

[21]Bez, pambıq parça yerinə kətan köynək

gözləyəcəm! Gəlməsən, qarxların qəzəbinə düçar olarsan, gəlsən, özün yazdığın kimi, «qayıtsam sən mənim olarsan, sonam!»

Son sözləri hıçqırıqlar içində dedi. O danışdıqca İbrahimin qəlbində amansız bir fəryad səslənirdi: «Sən bir quzu, mən bir qurdam, səni özümə də qısqanıram, indi yad əllərdə qoyub gedəcəm, əfv et, əfv!»

Nəsrinin çiyinləri çadra altında tez-tez qalxıb enirdi. İbrahim dözə bilmirdi.

– Biz ərənlərin gerçəyiyiz, hacı Bəktaş bağının çiçəkləriyiz. Yol da, ərkan da bizimdir. Yolumuz həqiqət càminə doğrudur. Üzümüzü görcək ərənlərin əllərinə, haqqa qovuşan vəlilərin məzarına sürtüncə qayıdacayıq. İqrarımız iqrardır. Sən də bir gerçəyə varmısan. Qırxlar piri yar olsun sənə.

Nəsrin bu sözlərin bəzisini anlamasa da, dərviş İbrahimin rəmzlərə qarışmış məhəbbət əhd-peymanını duyur, dərk edirdi. Bunun üçün dərvişin gözlərini də görə bilməsə, əllərini görürdü. Başıaşağı oturduğu halda cavan dərvişin yalnız əllərini seyr edə bilirdi. Kim əllərin necə danışa bildiyini görüb? Bunun üçün o əllərə toxunmaq və ya onların təmasını duymaq lazım da deyil. Bunun üçün bu əllərə baxmaq, həm də ürəyin gözü ilə baxmaq, onlardakı titrəyişi, ehtirası, arzunu, həsrəti... görmək lazımdır! İbrahim bu əllərlə Nəsrinin gətirdiyi düyükçəni aldı. Kəşkülünün içərisinə yerləşdirdi. Qəsdən qalxmırdı ki, vaxt uzansın. Nəsrin çadrası altından həmayilini çıxartdı. Üzərinə incə, ağ hərflərlə «hu» və bir ayə yazılmış açıq-qəhvəyi rəngə çalan, çəhrayı əqiqdən düzəlmiş həmayili İbrahimə verdi. Gümüş zəncir zərifdi, hələ də Nəsrinin boynunun hərarətini saxlayırdı. Bu hərarətdən gəncin qəlbi alışıb yandı. Güclə özünü ələ aldı. Nəsrin dedi:

– Həmayilə yazılmışlar səni bütün xəta-baladan, göylərin

qəzəbindən, yerlərin afətindən qorusun, ərən!

– Yeddilər piri ağzından çıxanları fal etsin.

Dərviş qalxdı, Nəsrin də qalxdı. İki cavan pöhrə bir-birinə sarılıb, bu ayrılıq dəmlərində biri digərinin vücudundakı tufanı duymaq, kam almaq həsrətilə çırpınırdı.

Qız, eşitməkdən ziyyadə xəfif nəsimə bənzər pıçıltı duydu:

– Səni görməmiş gedə bilməzdim, Nəsrin, qardaşlarım dünən bu yurdu tərk etdi. Cəm məclisinə getməkçün. Mənsə səni görmədən gedə bilmədim.

– Bilmirdin ki, məktubunu alan kimi bura cumacam?

– Bilirdim!

– Bilmirdin ki, səni görməsəm, gündə ziyarətçi, ehsançı qadınlarla bura gələcəm?

– Bilirdim!

– Bilmirdin ki, səni görməmiş, səndən soraq tutmamış zindəganlıq mənə haram olacaq, bu dərvişlər içində canım çürüyəcək?

– Bilirdim!

– Bildiyin üçün də sağ ol, qaldığın üçün də.

– Sən sağ ol, mənim dəyanətli Nəsrinim!

– Dəyanət hələ sonra bilinəcək. Kimdədir dəyanət... sonra bilinəcək.

– Özünü bu qədər üzmə, Nəsrin...

– Sən yoxsansa, bu «özüm» nəyə gərəkdir?

Bu mükalimə deyildimi? Yoxsa bu mükalimə biri bazardan şəhərə ayrılan yolla, digəri bazardan dağlara – Cəm məclisinin qurulacağı məkana doğru irəliləyən yolla gedən iki cavanın qəlbində cərəyan edirdi? Kim bilir...

## ÖLÜM VƏ YENİDƏN DOĞULMA MƏRASİMİ

İbrahimə çillə buyrulmuşdu. Hələ Təbrizə, sonra da Ərdəbilə çatmazdan əvvəl bu çilləni keçib çıxarmaq, əsl imtahanı indi vermək fikrində idi. Piri də bu fikri bəyənmişdi. Onu zaviyənin ağzına gətirənlər içində qoca ərənlər, cavan dost və həmfikirləri, eləcə də dindaşı olan

qadınlardan da nəzərə çarpırdı.

Mağaranın içərisi dar, qaranlıq və rütubətli idi. İbrahimə elə gəldi ki, «Əshabük-əlbin» girdiyi mağaradır və indicə o mağaraya girən kimi nəhəng hörümçəklər zahir olacaq, mağaranın ağzını hörümçək toru ilə suvayacaq, onu bir neçə yüz il, bəlkə də əbədilik bu dünyadan ayırıb, tanrıya qovuşduracaq. O bir daha bu gülümsər insanların üzünü görməyəcək. Bu gülümsər günəşin şüaları altında isinməyəcək. Bu xoş nəsim onun alnını oxşayıb, nəsrin çiçəklərinin zərif ətrini burnuna gətirməyəcək. Gözlərindən öpməyəcək bu nəsrin qoxulu nəsim! İbrahim daxilən üşünən kimi oldu. Amma bunu büruzə vermədi. Artıq əcəl şərbətini içmiş, dünyaya vida etmişlərə bənzəyirdi.

İntisabından[22] əvvəlki Cəmi ayini-eyni-cəmməhəbbət mərasimi orada çalınan tambur, ney, qaval səsləri hələ də qulaqlarında səslənirdi.

Kim isə üzünə gülümsəyə-gülümsəyə indicə qırxgünlük

[22]Burada – qovuşma

qapanacağı mağaraya girdi. Əlindəki sənəyi və nəsrin çiçəyinə bənzəyən dəsmala bükülmüş çörəyi mağaraya qoyub çıxdı. Bunlar onun cirəsi idi. Bu qırx gün ərzində o yalnız sənəkdəki su və nəsrinli dəsmala bükülmüş çörəklə kifayətlənməli idi. Yol atası ona demişdi ki, əsl mənada intisab edənlər, hətta bu cirədən də qırx gündə bir az qoruyub quşlar üçün saxlaya bilirlər və möminliklərini daha artıq büruzə verirlər.

İbrahim tələsdi. Qoca ərənlərin əlindən öpdü. Sonra həmyaşları ilə öpüşdü. Həmməzhəbi olan qadın analar gülümsər sima ilə vida etdi. Dayanmadan, cəld mağaraya daxil oldu. Ardınca kiminsə «Əlaman, imdada yet, ya şahi-Mərdan», – dediyini eşitdi. Bu son söz idi.

Dörd addım eni, altı addım uzunu olan mağara insan boyundan bir qulac uca idi. Tavanı, divarları qazıq-qazıq, oyum-oyum olmuşdu. Bir küncdə yatağı xatırladan torpaq taxt, o biri küncdə qazılmış oyuqda sənək və «taxtın» üstündə nəsrin rəngli dəsmala bükülmüş çörək. İbrahimin

qırxgünlük imarəti, varidatı bundan ibarət idi. Dəsmal mağaranın alaqaranlığında tutqunlaşdı, nəsrin rəngi də soluq-küskün rəng aldı. Dünya bu gün nəsrin rənginə, nəsrin ətrinə bürünmüşdü. Nədəndi? İbrahimin ardınca mağaranın ağır daş qapısı qapandı və nəsrin rəngi itdisə də rayihəsi qaldı...

İbrahim birdən-birə məzara gömülmüş, diri-diri basdırılmış adam kimi taqətdən düşdü, «taxtın» yanında diz çökdü, üzünü qibləyə çevirdi və qəlbini çulğalayan soyuq içərisində dua oxumağa başladı...

Gecəsi gündüzündən seçilməyən bu qırx gündə İbrahim nələr düşündü, nələr düşünmədi. Birinci gün xəyalını nəsrin gülü tərk etmədi. Ona elə gəldi ki, dünya bütünlüklə cır qızılgülün – nəsrinin ətrinə boyanıb, buraya – qalın daş qalağının dalına da keçib, mağaranı doldurub. «Səndən ayrı dirilik yoxdur, sənsiz olmaq əsl ölümdü», – deyə düşünür, amma bununla belə, qızın adını qəlbində də dilinə gətirə bilmirdi. Ürəyindən, xəyalından çıxarmağa çalışırdı. Axı əsl sufi evlənə bilməzdi, çünki ürəyi bütünlüklə Allaha

bağlanırdı. Nəsrinin, anasının doğma ətri burnunun ucunu göynədir, amma İbrahim bu ətri, bu xəyalı qəlbindən, gözlərindən qovurdu. Axı indi o yalnız rəbbinə məxsus olmalı idi. Məgər bu inzivaya, bu xəlvətə məhz rəbbi ilə üz-üzə durmaq üçün girməmişdi? Məgər bu diri qəbrini, ölməzdən əvvəl ölüm hökmünü məhz rəbbinə qovuşmaq üçün qəbul etməmişdi? Bəs indi ürəyini, beynini yeyən bu düşüncələr, bu xəyallar nədir, ondan nə istəyir? O, yavaş-yavaş yerindən qalxdı. Rübabı, rübabının səsi susmuşdu, bircə misra belə şeir qoşa bilməyəcəyini anlayırdı. Odur ki, Xətainin dodaqlarına gələn ilk şeirini oxumağa və yavaş-yavaş fırlanmağa başladı. Bəlkə cəzb onu yaxın keçmişin xoş, amma indi rəbbi ilə xəlvətdə ikən lüzumsuz olan xatirələrini xəyalından uzaqlaşdıra bilsin. O, qəzəlin təqtini aram-aram, səngin-səngin tutmağa və yerindəcə fırlanaraq, bütün varlığı ilə rəbbinə sığınıb söyləməyə başladı:

Olu kim, laf edən meydanə gəlsün.
Müxənnət gəlməsün, mərdanə gəlsün.
Ərənlər mənzili həq mənzilidir,

Ərənlər sahibi-ürfanə gəlsün.
Coş etdi zülfüqarım qında durmaz,
Kim inkar əhlidir, imanə gəlsün.
Əzəldən həq deyən əhli-təriqət,
O kandan sürülüb, bu kanə gəlsün.
…Rəvayətdir Hədisi-Müstəfadan,
Min il ölüb yatanlar canə gəlsün...

İndi o heç bir şey görmür, öz səsini belə eşitmirdi. Qəlbində onun irşad yoluna qədəm qoyduğu, həqq yoluna girdiyi gün çalınan neylər, tamburlar, qavallar vurulurdu, şeir oxunurdu. Hamı fırlanırdı, o da həmçinin. Qulaqlarına arabir bu qəribə, qanı coşduran, damarları lərzəyə gətirən musiqi içərisindən pirinin səsi gəlirdi. Hələ cəm məclisinə gətirilməmişdən əvvəl qoca ona bildirmişdi ki, əsl insanın varlığına səbəb olan iki şəxs vardır: birinci, bel atası – bu onun doğma atasıdır. İkinci, yol atası – bu onun təriqətə yiyələnməsinə səbəb olan mənəvi atasıdır. İnsan təriqətə qovuşub ikinci dəfə doğulmayınca, haqqa irişmir. İkinci doğuluş kamil mürşüdə bağlanıb onun iqdamatını qəbul

etdikdən sonra baş verir. Kim onu həmin mürşüdün qəbuluna gətiribsə, analıq mövqeyi qazanır. Onu yenidən doğurmuş olur. O, yol atası, doğulan isə yol oğludur. Yol oğlu mürşüdün yanına gələndə ayinin icrasından əvvəl mürşüd ona dəstamaz aldırır. Bu dəstəmaz ayin vaxtı ona verilən nəsihət və öyüdlər pozulmayınca pozulmayacaqdır. Əbədi dəstəmazdı. Ayin icrası zamanı yol oğlu öz fərdi varlığından çıxır, cismən ölür, ölməzdən əvvəl ölür bu dünya üçün! Mənəvi cəhətdən isə yenidən dünyaya gəlir, haqqa irişmiş olur. Buna görə də intisab – yəni qəbul ayini – həqqə qovuşmaq mərasimi, yol oğlunun ölüm və yenidən doğuluş mərasimidir. Bu mərasim zamanı qılınan namaz – cənazə namazıdır. Yol oğlunun diriykən qılınan ölüm namazı. Yenidən dünyaya gəldikdə artıq ona namaz qılmaq vacib deyil. Dərviş namaz qılmaz.

Həqqin kamil zühuru bir kişidə – Mürşüddə zahir olur. Mərtəbəcə müridlərdən olan kişi ona daha çox yaxındır. Dəyirman daşının mili hesab edilən həmin mürşüd – pir ilə iki müqərrəb yaxın adam – «üçlər» adlanır. Məqam və mərtəbəcə bunlardan sonra «yeddilər», daha sonra «qırxlar»

ən sonra da «üç yüz ərən» gəlir. Qütb – pir öləndə üçlərdən biri yeni Qütb – Mürşüd – pir olur. «Yeddilərdən» biri onun yerinə keçir, «qırxlar»dan biri «yeddilər»ə qatılır, «üç yüz ərəndən biri» «qırxlara» qarışır: xalq içərisindən yeni yol oğlu olan bir nəfər isə «üç yüz ərən» cərgəsinə keçir, yeni üzv olur. Tanrı dünyanı bu kəslər vasitəsilə idarə edir.

İqrar – dərvişliyə daxil olanda yol oğlunun bu yolu əbədi tutmaq üçün verdiyi sözdür. İqrar imandır – Bada getməməlidir. Onu da beləcə yol oğlu qəbul edən üç yüz ərəndən biri oldu. Boynuna eşq kəməndi – tığbənd[23] saldılar. Cəm ayininin tərtib edildiyi meydana – iri bir otağa gətirdilər. Bu, hava və günəş şüaları kimi, quşların və suların təranəsi kimi məhəbbəti hamıya yetən bir ulu dərviş idi. İbrahimin qolu onun qoluna bağlanmışdı, Əli ilə mürşüdün ətəyindən tutmuşdu. «Meydanın» dairəsində on iki ərən oturmuşdu. Yol atası onu «meydanın» – otağın ortasına

[23] Ələvilərə görə, təriqətə girəni təqdim edən rəhbər onun boynuna bir kəmənd salıb, bir əlilə kəməndi, digər əlilə sağ əlini tutur. Müridin yanına gətirir. Kəmənd həmin mərasim üçün kəsilən qoyunun dərisindən düzəldilir.

«tapı qılmaq üçün» gətirdi, Öyrədildiyi kimi, İbrahim, sağ ayağının baş barmağını sol ayağınınkının üstünə qoyub, sağ qol üstə olmaqla əllərini açıq vəziyyətdə köksündə çarpazladı, əl barmaqları çiyinlərinə toxunurdu. Baş əyib bu vəziyyətdəcə dayandı. İlk sual-cavabdan sonra ərənlərdən biri məqam postundan ayağa qalxıb onların yanına gəldi və İbrahimin mənəvi qüsurlarından danışmağa başladı: «Qızğındır, – dedi, – hər şeyə tez inanan – sadəlövhdür, – dedi, – şeirə qədərsiz aşiqdir, – dedi – hələ dünyəvi məhəbbətləri, zövqləri qəlbindən tamamilə silə bilməyib», – dedi və qayıdıb yerində əyləşdi. Sonra başqa bir ərən qalxdı, o da «meydanın» ortasına gəlib İbrahimin məziyyətlərindən danışmağa başladı: «Şeiriylə təriqətimizi, yola qəbuldan, əvvəl yaymağa başlayıb, – dedi, – pakdır, naşər işlərdən uzaqdır – dedi, – bir körpə nəfəsi kimi təmizdir, – dedi, – əşarı dinimübinimizin füqəra qəlbindən qopan ah kimi dayağı olacaq», – dedi.

Bundan sonra «Məsnəddə» – on iki ərənin arasında ən uca mərtəbədə əyləşmiş Qütb-pir əllərini səmaya qaldırdı «hu»

dedi; dua oxudu və qəbulu mübarəkbad eylədi. Elə bu zaman ikinci otaqda neylər, tamburlar, udlar, qavallar dilə gəldi. Saz sızladı, ney inlədi, sarı tambur gurladı, udlar nalələr qopardı, dəflər-dümbəkələr qəlb çırpıntıları kimi döyünməyə başladı. Səma məclisi arəstə idi. Ərənlər qalxıb cəm məclisinə, səma məclisinə keçdilər. Ortalıqda əlvan süfrələr üzərinə əlvan yeməklər, şərablar, şərbətlər, məzə qoyulmuşdu. Az sonra süfrələr yığıldı. Şeir və səma-fırlança ayini başlandı. Ərənlər başlarını çiyinlərinə qoyub, əllərini yanlara açıb əvvəlcə yerlərində, sonra isə dairə boyu fırlanmağa başladılar. Dünya İbrahimin gözündə fırfıradan da sürətlə hərlənən qəribə, cazibədar bir aləm idi. O, özü də dərk etmədən, nə zaman şeir deməyə yeni-yeni misraları sapa düzməyə başladığını bilmədən ucadan, gözəl səsilə oxuyur, saza, neylərə, tambura, qavala cavab verirdi...

... İbrahim özünə gələndə mağaranın ortasında arxası üstə uzandığını gördü. Neçə gün əvvəl girmişdi bu mağaraya? Neçə gün əvvəl başlamışdı fırlanmağa, bilmirdi. Qulaqlarında yol atasının səsi hələ də öyüdlərini

təkrarlayırdı: «Qütbümüz keçmiş peyğəmbərlərin, ərənlərin sirrinə vaqif olduğu üçün onların davamçısı, davamıdır. Özü haqqa qovuşub bu dünyanı cismən tərk edəndə, yerinə başqası zühur edəcək. Yenidən həmin şəxsdə diriləcək – mənən. Allahın zühuru – hər şeydə və fərddə aləmin iç üzünü görməkdir. Varlıq özü tanrıdır və daim zühur edər. Tanrı dənizə bənzər, varlıqlar bu dənizin dalğalarıdır. Cəm məqamının qarşılığı – fərqdir ki, bu da aləmi tanrıdan ayrı bilməkdir. Ayini-cəm və ya eyni-cəm həmin birlik sirrini əyan edən mərasimdir. Təriqətə daxil olandan sonra «Məhəbbət məclisi» qurulur. Bu mərasim içki və musiqi ilə müşayiət olunur. Şeir oxunur. Üzünü görcək ərənlərin (sirrə vaqif) allahına, haqqa qovuşan vəlilərin əllərinə, məzarına sürtmək Kəbəni ziyarətdən əfzəldir».

Mürəbbisi ona demişdi: «Bu bağın gülləri arasına girməzdən əvvəl iki rükət hacət namazı qılıb, əfvini rəbbindən dilərsən. Yalnız ondan sonra «meydana» gedə bilərik».

...O, deyilənləri eləmişdi, rəbbinə isə irişə bilmirdi. Çünki xalqının diləklərinə barlı bir şair idi. Çünki dünyanın Vətən adlanan bu parçasını dərviş kimi gəzmişdi. Pay-piyada. Gözlərilə görmüşdü vətəndaşların halını. Bilirdi ki, insanlar binəsibdir. Bu dünyada heç nə, heç bir xoş güzəran, səadət tapa bilmədiklərindən, binəsib insanlar, üzlərini axirət dünyasına, axirətdə xoş gün, səadət, dinclik, bərabərlik vəd edən təriqət başçılarına çevirmişlər. Bu dərvişlər, təriqətlər hər şeyi axirətdə vəd etsələr də, beşgünlük dünyadan getməyə, əbədi səadətə qovuşmağa çağırsalar da, məclisləri şən idi, musiqili idi, dünyanın əzablarını unutdururdu. Dərviş özünü şah, sultan adlandırmaqla insanlara bərabərlikdən xəbər verirdi. «Haqqın qarşısında hamı bərabərdir», deyə müasir zalım şahlara, sultanlara meydan oxuyurdular. Fəqirin canından tikan çıxarır, qəlbini ümidlə doldururdular. Yollar boyu zaviyələr, mağaralar, karvansaralar bu «şah», «sultan» dərvişlərin meydanına çevrilmişdi. Bu «Meydanlar» binəsiblərin qibləsinə, ümid ocağına çevrilmişdi. İbrahim getdikcə, gözü açıldıqca görürdü ki, bu zaviyələr mürşüdlər – qütblər üçün heç də

qiblə, axirət dünyasının qapısı deyil: siyasi düşmənlərə qarşı mübarizədə, hakimiyyəti ələ almaq üçün gizli mərkəz, dayaq nöqtəsidir. Onlar istədikləri vaxt binəsibləri, minbir ümidlə buralara toplaşan füqəranı cahad adı ilə ayağa qaldırır, öz siyasi düşmənlərinə qarşı çıxarır, ölənlərin fərqinə varmadan qalib gəlirlər. Bu zaviyələrdə Ərdəbil, Xorasan, Nəcəf mədrəsələrində mükəmməl təhsil görmüş, gizli təlim «meydanlarında» qüvvət almış əsl vətənpərvər havalı dəliqanlılar da çoxdur. Onlar Cəm «meydanlarında» – mürid, cahad döyüşlərində sərkərdə, dinc günlərdə xışın macından tutan əkinçilərdir. Zaviyələrin ətrafı gah «hu...», gah «vur, öldür», gah da «səp, ək, biç» sədaları ilə dolur. Binəsiblər hər yerdə aldandıqları kimi buralarda da əzab, zəhmət içindədirlər. Əli Turanlı, dili imanlı, virdi sübhanlı pirlər bu zavallıları ölüm-dirim döyüşlərinə xoş gün – axirət adı ilə aparırkən heç nəyə, heç kəsə aman vermirdilər. Yunis İmrənin bu bəndi fağırların dilinin əzbəri olub:

Bu dünyada çoxdur vəli,
Hamısına dedik bəli,

Ey tanrı aslanı Əli,
Yardım eylə qiyamətdə.

Mürşüdün vədi o qədər şirin olurdu ki, qadınlar ümidlə onların üzərinə, yoluna qızılgül ləçəkləri səpirdi. Mürşüd ibadəti, ayini bu ləçəklər üstündə icra edirdi. Sonra da füqəra həmin səma-ibadət keçirilən yerdəki yarpaqları torbaya yığıb təbərrük kimi saxlayır, ondan nicat gözləyirdi. Ac-susuz, yuxusuz, evini-ocağını atıb zaviyələr ətrafına toplanmış, külfət yanında üzüqara kişilər, mürşüdü – onun duasını, vədlərini Allahın səsi kimi dinləyirdilər. Elə bil nicat yolu göstərir, xilas yoluna səsləyirdi onları. Çörək tamarzılı, torpaq həsrətli adamlar İbrahimin özünü də az izləməmiş, qoşmalarını, nəfəslərini, misralarını nəqarət kimi təkrarlamışlar.

Onun yolu pırtlaşıq yumaq kimi, dolam-dolam idi, bu günəcən. İndi isə ayılmışdı İbrahim. Bu, zaviyə, bu qaranlıq mağara, nə qədər təəccüblü görünsə də, onun fikrində bir ziya, bir nur parlatmışdı. İndi İbrahim öz binəsib qardaşlarına qiyamətdə deyil, bu dünyada, məhz bu torpaqda

yardım etmək istəyir, yardım edənin də məhz Şeyx oğlu şah olacağına inanırdı. Qəlbi aldananlarla aldadanlar arasında iman ilə şübhə içərisində çırpınırdı. Özü də aldanıb-aldanmamasının fərqinə varmadan böyük bir ümid ilə Şeyx oğlu şahdan həmvətənlərinə imdad gözləyirdi.

İbrahim yerindən qalxmadan əlini çökəyə tərəf uzatdı, sənəyi götürdü, qapazlığını açdı, başını dala əyib sənəyi dodaqlarına yapışdırdı, tək bircə qurtum su içdi. Neçə dəfə, neçə qurtum içmişdi, xəbərsizdi. Yemək istəmirdi. Nəsrin rəngini mağaranın qaranlığında itirmiş dəsmalın arasındakı çörək quruyub «tax-tax»a[24] dönmüşdüsə də, su ilə çeynənəndə yumşalırdı. Onu bişirən ana, mayasını yaxşı vurmuş, kamil acıtmış, kamil bişirmişdi. Nə kiflənir, nə ətrini, nə də dadını itirirdi. Bircə qurtum suyla yumşalıb pambığa dönürdü. Amma indi bütün bunları düşünmək üçün İbrahimin vaxtı yox idi. Həvəsi yox idi. Meyli yemək çəkmirdi. Elə bil kim isə ona «tələs, tələs, – deyirdi, vaxta az

[24] Səfər üçün bişirilən çörək növü

qalıb, gecikərsən» – deyirdi. Ürəyində sazın ümid dolu sızıltıları səsləndikcə, yeni ümid dolu, arzu, dilək dolu misralar düzülürdü; İbrahim əsl haqqa yox, pirinə-mürşidinə – Şeyx oğlu şaha yalvarırdı:

Zülm ərşə dayanıb, aman ağalar,
Açılın qapılar, Şah hümmətinə!
Nə aman, nə güman qalmadı bizdə,
Açılın qapılar, Şah hümmətinə!

Könül verdim imam Əli eşqinə,
Boyadı ruhları pirim müşküna,
Gəlin çıxaq Şah İsmayıl köşkünə
Açılın qapılar, Şah hümmətinə!

Ərdəbilin yolu çəndi, dumandı,
Zalımların zülmü ərşə dayandı,
Əlinin qulları qana boyandı,
Açılın qapılar, Şah hümmətinə!

İbrahimşah on iki imam quludu,
Uzaq-yaxın yolu Əli yoludu,
Boş gəlmir dərgaha könlü doludu,
Açılın qapılar, Şah hümmətinə!

O, yenidən neçənci dəfə yerindən qalxıb fırlanmağa başladığını bilmədi. Lakin dediyi şeirindən də narazıydı. Niyə, nə üçün qul dedikcə qəlbində təşnə bir qəriblik, intizar, ələm, ucalardan uca bir məhəbbət canlanır, bir-birinə qarışırdı? Gah anasının, gah da Nəsrinin xəyalı zaviyənin divarlarında əsrarəngiz kölgələr kimi titrəşirdi. «İnsan, şəxsi kamilliyə can atmalıdır. Şəxsən kamil olan insan başqasına zülm etməz. Heç kəsi qul etməz. Elə o zaman da zülm yer üzündən yox olar və dünya cənnətə dönər».[25] Bunları kim

[25] Hüseyn Həllac Mənsur, ( Bağdadda dindarlar tərəfindən asılıb ) «Kitabət-təbasin»

deyirdi, kim dedirtdirirdi ona? Titrəyirdi. Ağlamaq istəyirdi. Ağlaya bilmirdi. Gözləri qurumuşdu. Boğazını qəhər boğmuşdu. Anasının, Nəsrinin xəyalını unutmağa, yalnız rəbbini düşünməyə çalışırdı. Bir şey çıxmırdı. Gözləri kimi hafizəsi də qurumuşdu; boğazı kimi xatirəsi də boğulmuşdu. Dərviş rəbbi ilə üz-üzə dayanırkən, bu anda qəlbində, gözündə, dilində ondan başqa kimsə olmamalı idi... «Bir könüldə iki məhəbbət olmaz, «hu!..» Ey ismi allah, nə bisi rəsulallah, virdim qülhüvəllah... köməyimə gəl! Ya rəbbim, rəhbərim, rəhbərim! Ey ruhim, rəvanım, pənahım, qibləgahım, mədəd səndən, imdad səndən, imdad səndən, hu.. hu.. hu!»

Bu qırx gündə hər gün səmadan başqa dörd yüz rükət namazı qıldı. Həllac Mənsur kimi Hüseyn Əl Həllac Mənsurun bu sözləri dilində əzbər oldu:

«Mən oyam ki, ONUN həsrətindəyəm! Həsrətində olduğum – mən özüməm! Biz bir bədəndə yerləşən iki ruhuq. Kim məni görürsə, ONU görür, ONU görən məni görür!»

..Ağır daş mağaranın ağzından diyirlənib düşəndə, içəriyə səhərin bir aləm dolu işığından ölgün bir şüa düşdü. Təmiz hava mağaraya dolmağa başlayanda İbrahim yenilməz bir azadlıq arzusu ilə, eşqi ilə yerindən qalxmağa cəhd göstərdi. Qalxdı da...

Ərənlərdən onun vəziyyətini anlayan ikisi içəri girdi, qolundan tutub bayıra çıxardılar. Zaviyədən çıxanda İbrahim adına təkcə bir cüt göz qalmışdı. Beli qoşa ovuca sığardı. Dodaqları ilk yaz səhəri dərilib qalın kitab arasına qoyulmuş nəsrin gülü kimi soluq idi, rəngsiz idi, təravətsiz üzü bal mumu kimi sapsarı idi. Kiminsə dediyi «tutun, yıxıldı!» nidasını eşitdi, amma bu yıxılanın kim olduğunu, əmrin kimin dodaqlarından çıxdığını ayırd eləyə bilmədi. Qolundan tutmuş dostlarının ağuşuna yıxıldı... Sənəkdə sudan, dəsmalın arasında çörəkdən qalmışdı – quşlar üçün!

* * *

Bazar başında ələvi dərvişlərin yığıldığı meydançada bu gün həddən çox adam toplanmışdı. Cümə günü idi. Kəndlərdən, yaxın qəsəbələrdən bu gün bazara alış-verişə gələn adamlar demək olar ki, almalısını almış, satılmalını satmış və diləyi, duası qəbul olan dərviş babalara sədəqə, nəzir verməyə yığılmışdılar. Buraya «Şah» deyə bir-birinə yaxınlığını bildirən «qarasoranlar»[26] da gəlmişdi. Çoxu da ələvilərə, şiələrə, Xətai qullarına mənsub idilər. Canlı insan hasarının yaratdığı meydanda əqidəsi, fikri, əməli kimi ağ, bəmbəyaz köynək geymiş cavan bir dərviş dayanmışdı. Növbət onun idi. Hamının sevimlisi İbrahimşah – həm nəğməkar, həm dərviş... Yığılanlar onun sözlərini allahdan gələn vəhy kimi dinləyirdilər. İbrahim bu gün öz sözlərindən çox qəlbində məhəbbətini, dilində şeirini gəzdirdiyi Şah Xətainin asarında oxuyurdu.

[26]Parol

Xalq son sətirləri nəqərat kimi birdən, elliklə təkrarlayanda ətrafı sinc, təbil, qılınc zərbələrinin cingiltisi, ahlar, iniltilər, ufultular bürüdü. Birdən dörd tərəf meydanı ikinci bir hasar əhatə etdi. Ələ keçənlərin bircə-bircə qollarını bağlayıb zopalayır, başına-gözünə vurub ağlını çaşdırır, kütləşdirir və meydanın ayağındakı dəstəyə qoşurdular. Tutulanların hamısı, daha doğrusu, əksəriyyəti yerlilər idi ki, ordu və bazar möhtəsibi onları geyimindən, əmmamə və sarığından, papağından tanıyırdı.

İbrahim əvvəlcə nə baş verdiyini bilmədi. Aludəliklə oxuyur, ətrafda cərəyan edən qanlı döyüşü görmürdü. Ən yaxın dostlarının əhatəsində idi. Səlim lap çənəsinin dibindəydi. Qəflətən qolları dala qanrılanda özünə gəldi. Yox, heç onda da özünə gəlmədi. Nə olduğunu anlamadan, xəyal, şeir, şeiriyyət aləmindəykən qolunun nə üçün qanrıldığını bilmədən çiyni üstən ötəri dala baxdı. Və... əkiz-tay qardaşı İsrafilin vəhşiləşmiş sifətini görəndə hər şeyi anladı.

– Hə, sənsən?

– Lənətə gələsən, – deyə İsrafil fısıldadı. – Şeyx oğlunun əşarını oxuyub camaatı sultanımızın əleyhinə qaldırırsan? Külfətin adını batırdığın yetər. Cəzanı sultan özü verəcək.

– Cəzanı haqq verir.

– Haqqı sənə tanıdarlar.

– Mən həqqimə çoxdan irmişəm…

Qolları arxasına çataqlanmış İbrahim və onun dalında dayanmış İsrafili on yeniçəri əhatə etmişdisə də hadisə yerində dayananlar hamısı donub qalmışdı. Məhbus və möhtəsib iki bölünmüş bir alma idi, ikiləşmiş bir surət idi! Yox-yox, bənzəyiş nə qədər çox və ağlı heyrətdə qoyan olsa da, bu oxşar insanların birinci gözündən mələk, digərindən iblis baxırdı. Birincisinin simasından insanlara, döyülüb-söyülmüş, qanına bələnmiş, toz-torpağa qarışmış insanlara, qoyun-quzu sürüsü kimi nəzarət altında sıx duran məhbuslara, bütün dünyaya, aləmə qarşı məhəbbət, mehribanlıq, nəvaziş yağırdı; ikincidən qəzəb, nifrət, kin, qərəz sərpirdi.

İbrahim həbs olundu. O gün şərqi Anadolu şəhərlərində qırx min şiə həbsə alındı və heç bircə gün keçməmiş zindanlardaca qılıncdan keçirildi. Sorğusuz, sualsız!

İbrahimin isə günahı böyük idi. O, adi şiə deyildi. O, tanınmış bir tacir oğlu, hamının sevdiyi, məhəbbətlə əşarını dinlədiyi şair idi. Onun ölüm səhnəsi əhaliyə görk olmalı idi.

## DAR AĞACINDA

Yeniçərilər, məmə yeyəndən pəpə deyənəcən, hamını mizraq qabağına qatıb meydana toplamışdılar. Axşama az qalmışdı. Buna baxmayaraq, şəhər hakimi ikinci əzanı verilənəcən hökmü yerinə yetirmək, İbrahimi asdırmaq istəyirdi. Meydan küləş üçün təmizlənən kimi süpürülüb hazırlanmışdı. Təkcə ovxantısı çatmırdı. Tən ortada dar ağacı qurulmuşdu. Qırmızı geyimli cəllad dar ağacının dibində durub, kəndiri sabunlayırdı. Meydanın bir başında yüksəklikdə taxt qurulmuşdu. Taxtın üstündə hakim

əyləşmişdi. Onun yanında üzərinə tirma çəkilmiş kətillər üstündə fitvanın icrasına məsul olan baş ruhani, hakimin köməkçiləri əyləşmişdilər. Bazar möhtəsibi – qardaş qatili İsrafil də burada idi. Hər bir əmrə hazır vəziyyətdə dayanmışdı.

Hakim sağ əlində tutduğu ağ yaylığı yellədikcə, bir neçə yeniçərinin dövrəyə aldığı məhkumu – ağ geyimli İbrahimi dar ağacının altına gətirdilər.
İbrahim haqqında sultandan əfv çıxmamışdı. Edam hökmü təsdiq edilmişdi. Çünki şair zindanda da dinc durmamış, Şərqi Anadoluda qılıncdan keçirilib qırılan min şiənin faciəsi haqqında şeirlər qoşub oxumuşdu. Bu şeirlərdə sultan Səlimə lənət damğası vurmuşdu. Odur ki, bu gün sultanın xüsusi hökmü ayrıca təntənə ilə icra olunurdu.

İbrahim zahiri bir sükunətlə irəliləyirdi. Meydanı sarmış adamların içərisindən cavanın gözəlliyinə, gəncliyinə acıyıb ah çəkənlər, çadralı qadınlar içərisində ağlayanlar var idi.

Təbil çalındı. Hökm oxundu. Cəllad İbrahimə yaxınlaşdı. Hakim qədim qaydaya görə məhkuma son söz deməyə icazə vermədi. Qaş qaralırdı, azançılar minarələrə qalxıb «La ilahə illəllah» deməyə hazırlaşırdı. Tələsmək, hökmü icra edib məscidə yollanmaq, namaza çatmaq lazım idi. Hələ səhərdən məhkumun yanına getmiş ruhani, hakimə gənc dərvişin fikrindən dönməyəcəyini söyləmişdi. Bununla da, dar altında məhkumun xilasına son ümid yolunu kəsmişdi. Hamının gözü İbrahimdə, cəlladın gözü hakimdə idi. Hakim yenə sağ əlindəki yaylığı yellədi. Cəllad buna bənd idi. O da tələsirdi. Ələvi, bəktaşi dərvişlərdən ehtiyat edirdi. Arabir gözucu meydanı saranların içərisindən onları süzür, hücum çəkib məhkumu əlindən almaqlarından, özünü də ayaqlar altında əzib məhv etməklərindən qorxurdu. Hakimin yaylığı yellədiyini görüncə sabunladığı kəndiri cavanın boynuna keçirdi. Bu zaman İbrahimə tərəf daşlar uçmağa başladı. Daşları yeniçərilər və dindarlar atırdı. İbrahim bunların içində əli daşlı möhtəsib İsrafili görəndə dərindən bir ah çəkdi və düşündü: «Qəribədir, tarixdə bəzən eyni hadisə olduğu kimi təkrar olunur. Həllac Mənsur «Ənəl-həqq»

deyib dar ayağına gətiriləndə, ona daş atanlar içində Şibli adlı sufi dostu vardı. Şibli Mənsura daş atanların içində əlində bir gül tutub dayanmışdı, məcburiyyət qarşısında o, həmin gülü Mənsura tulladı, Mənsur yanıqlı bir ah çəkdi. Bunu görən cəllad soruşdu;

«Atılan daşlara əhəmiyyət vermirdin, gül sənə dəyəndə niyə ah çəkdin?»

Mənsur isə:

«Onlar kimə daş atdıqlarını bilmir, dərk etmirlər. Şibli isə bilir, – demişdi. İndi mənə daş atanlar içində bir beşikdə yatdığım, bir döşdən süd əmdiyim İsrafil kimliyimi bilir...»

Meydanda toplaşanlar içərisində adda-budda dayanmış dərvişlər kəndirin İbrahimin boynuna salındığını görüncə bir ağızdan «hu», «hu» deyə səsləndilər. «hu» sədaları meydanı titrətdi. Nə hakim, nə köməkçiləri, nə də camaat arasına doluşmuş qoşun nəfərləri dərvişlərə bir söz deyə bilmirdi. «hu» Allah demək idi və Allah deyənləri hansı iman, hansı tələblə tutmaq, susdurmaq olardı, zindanlara salmaq olardı?

Hakim tələsik ayağa qalxıb yaylığını üçüncü dəfə yellətdi. Və cəllad əcələ ilə kətili itələmək istədi. Meydanı bir də «hu» sədaları titrətdi. Ələvi dərvişlərdən Səlimin başçılığı ilə xalq hərəkətə gəldi. Şeyx oğlunun buraya xeyli tərəfdarı toplanmışdı. Bir dəqiqədə meydanı əhatə edən yeniçəri nəfərlərinin tərk-silah edib hakimə tərəf atılanda, hakim və başının adamları cəld atlara minib meydanı tərk etdilər. Qalanlar da onların dalınca meydandan uzaqlaşdı. Məcburiyyət qarşısında mizraq gücünə buraya toplanmış adamlar sevinc içində dərvişləri alqışladı və İbrahimin xilas olduğunu görüncə öz iş-güclərinin dalınca yollandılar. Elə bu zaman minarələrdən «La ilahə illallah» naləsi ərşə dirəndi.

Dindarlar axşam namazı qılmaq üçün məscidlərə üz tutdular. Qaş qaralmışdı, dar ağacının dibində Səlim və Qəni adlı iki gözətçi qalmışdı. Sultan Səlimin adaşı cəld İbrahimin boynundan sabunlanmış kəndiri çıxardı. Cəllad da ara qarışanda çoxdan əkilmiş, aradan çıxmışdı.

Cənub gecələrinə məxsus qəfil qaranlıq çökdü. Dar ağacını gecə kimi qaranlıq kölgələr əhatə etməkdəydi, gözətçi Səlim yoldaşına dedi:
– Bura bax, canına, balalarına yazığın gəlirsə, sən də əkil.

Söz gözətçinin ağzından çıxmamış, qara kölgələrin meydan və bazar atrafındakı təkəmbir gözətçilərlə əlləşmə hənirtisi kəsildi va üç kölgə dar ağacına yaxınlaşıb:
– Şah!.. – deyə İbrahimi Səlimlə oturduğu kətilin üstündən hop götürdü. Səlim:
– Şah!.. – cavabını verdi.

Qəni adlı ikinci gözətçi silahını işə salmağa macal tapmadı, yoldaşının hədəsindən hələ də özünə gəlməmişdi. Gəlməyinə gələsi bir nəfər də yeniçəri yox idi. «Dərvişlər» onların hamısının axırına çıxmışdılar. Qəni donub dayanıb gözü önündə cərəyan edən hadisələrə sanki heç bir şey anlamadan tamaşa edirdi.

Dərvişlərin biri cəld İsrafil möhtəsibin boğazını kəndirə keçirib ipi dartdı və qardaş qardaşı əvəz etdi. İbrahim huşunu itirmiş kimi xilaskarlarına olduqca biganəliklə baxırdı. Digər dərviş huşsuz İbrahimi çiyinlərinə alıb uzaqlaşanda Qəni dili topuq çala-çala Səlimin ətəyindən tutdu.

– Səlim, bə-ə-əs məən?

– Hə, mələmə, bildim, – dedi və vəziyyətin gərginliyinə baxmayaraq sultanın adaşını gülmək tutdu. Yoldaşlarına dedi:

– Siz gedin, mən bu bədbəxtə əncam çəkim. Yoxsa adaşımın nökərləri qayıdıb onun dərisinə saman təpərlər. İki gözünü bir deşikdən çıxardarlar. Öz günahlarını da sultan yanında bunun boynuna yıxarlar.

İbrahimi çiyinlərinə almış dərvişlər.

– Hu... Qəvil Yerində[27] meydanda gözləyirik.

---

[27]Ələvi dərvişlərə görə görüş yeri

– Meydanda! Dəmin[28] arxanızca gəlirəm.

Səlim dar ağacından asılmış İsrafilə baxanda, Qəninin canına üşütmə düşdü. Ona elə gəldi ki, Səlim indicə sabiq yoldaşını da dardan asacaq, dostunun intiqamını ikiqat alacaq.

Səlim onu dar dirəyinin altına itələyəndə Qəni buna lap inandı və bayaqdan harasa tulladığı mizrağını götürmək üçün ətrafa göz gəzdirdi. Qaranlıqdan başqa bir şey görmədi. Qaçmaq üçün taqəti də qalmamışdı. Səlim onu anladı:

– Sarsaqlama, Qəni! Səni öldürmək fikrim olsaydı, bayaqdan kim əlimi tutmuşdu? Anla, qardaş! Bu qorxulu işə canını qoyanlar elə sənin kimi fağır-füğaranın yolunda canından keçir, bu zalımların zülmünü yox eləməkçün. Bax qardaş, indi mən səni bu sütuna bağlaram. Bağışla, gərək

[28] İndicə, bu dəm.

bərk bağlayam. Gəlib açarlar, görərlər ki, məhkumu əlindən zornan alıblar. Deyərsən: qəfil başımızın üstünü aldılar. O Səlim də onlarnanmış. Dedi: məndən sultan Səlim adaşıma çox-çox salam. Deynən, deyir ki, qırx min qan axıdıb – günahsız, fağır qanı. Allah o dünyada cəzasını verər, özü bilər. Mən onun cəzasını bu dünyada öz əlimnən verəcəm! Çünki günahsız qurbanların içində mənim də atamnan anamın qanı var.

Bu sözləri tez-tələsik deyə-deyə Səlim, Qənini dar ağacının dirəyinə möhkəmcə sarıdı. Sonra da zarafatla alnından öpüb dedi:

– Salamat qal! Vaxtın olanda, haqqı fikirləş – haqqı tapsan, məni də taparsan. Qulluğunda hazır ollam.

Meydanda – dar ağacının altında dirəyə sarıqlı Qəninin qəlbini ətrafdakı zülmət kimi qara bir qorxu bürüsə də, beyni düşüncədən qalmamışdı, Səlimlə dostlarının qəribə salamlaşması, Qəniyə görə «mənasız mükaliməsi» beynində dolaşırdı:

– Necə yəni meydanda gözləyirik? Sultanın hökmülə

vivo www.vivo-book.com

dardan asılanı açıb aparasan, möhtəsibi onun yerinə asasan? Sonra da gizlənmək əvəzinə hansı meydana çıxacaqlar bu bədbəxtlər? Adamlardan, qoşundan, möhtəsiblərdən, qulaqçılardan qorxmurlar? Bəs sultanın qoşununun dalı gəlməyəcək? Gərək can hayına qalmayaydım. Gərək başa salaydım Yazıqları, sabah burda sultan bir tufan qopartdırsın ki...

Səlim dostlarına çox tez çatdı. Onlar yük altında, bu isə yüngül, qıvraq idi. Çatan kimi qəlbinə dolan qüssəni boğmağa çalışıb özünü irəli atdı və İbrahimin vücudunu qamarladı: «İlahi, görəsən, gecikməmişəm ki? Dərdimnən ölləm! Bu dərviş qardaşlar nə deyir-desin, mən haqqın yolunu öz qəlbimdə tapmışam. Öz bildiyim kimi iş tuturam».

Onun qulaqlarında «üç yüzlərə» daxil olan zaman «üç Yüzdən» «qırxlara» keçən pirin sözləri canlandı: «Ey dərvişliyə qədəm qoyan oğlan, haqqa zikr etməyə hövsələn, ürəyin varmı?» – Var! – demişdi, amma qəlbində: «Təkcə

zikrdən nə çıxar? Bu zülmün tuğyanının qənşərini almaq üçün iş-əməl lazımdır, pirim!» düşünmüşdü. Sonra pir demişdi: «Əsl aşiqdən əhval istərlər. Kallaşlıqla, Yalançılıqla bu yola qədəm qoyma! Təsdiq əhli səndən kar istər, batindən isbat tələb edərlər! Nə cavab verərsən?» Məndən kar istəyənə karımla, işimlə cavab verərəm, pirim! Sən ölmədən – mən ölərəm! İndi də budur, «hu» çağırana hay verdim. Özümü ölümün gözünə soxdumsa da, tədbirim baş tutdu. Dünyamız üçün bir elə şair xilas etdim ki, nə insanlıqda, nə nəfəsdə, nə iqrarda[29] tayı-bərabəri yoxdur. «Qırxlar»ın əlindən badə içib, «üçlər-yeddilər» dayağı olsun, bu ağır gündə! Böyük yaradan özü nəfəsini uzatsın. İlahi, ümidimi üzmə! Bəlkə qorxudan ürəyi partlayıb, təhlükədən, əzabdan özündən gedib. Ayılar, inşallah! Heç nə olmaz.

Səlim dostunun ağırlığını hiss eləmirdi, bədən çiynində getdikcə yumşalır, süstləşir, ağırlığı artırdı. Təlaş içərisində irəliləyən gənclər bunu duymurdular. Gecənin qaranlığına

---

[29] Dərvişliyə daxil olanda bu yolu əbədi tutmaq üçün söz vermək

daldıqca hava sərinləşir, yüngül meh gündüzün bürküsünü əridirdi. Yolları məlum kahalara tərəf idi. Şəhərdən çıxaçıxda at-adam qaraltısı seçdilər. Kim isə:

– Şah!.. – dedi.

Şah!.. cavabını alınca o tərəf-bu tərəfin cavanları əllərini mizraq, qəmə və yatağanlardan çəkib birləşdilər. Bu, onları atlı gözləyən dostları idi. Həm də əməliyyatı yerinə yetirənləri qarabaqara izləyib, əlavə gələ bilən yeniçərilərdən qorumalı idilər.

Səlim atlandı, dostunu qucağına almaq istəyəndə kiminsə təklifi ilə huşunu itirmiş şairi onun tərkinə qoyub sarıdılar. İndi İbrahimin başı onun çiynindəydi. Arabir ona elə gəlirdi ki, İbrahimin zəif nəfəsini duyur, üzünün istisini boynunun ardında hiss edir. Bunu duyunca daha da qanadlandı və şövqlə İbrahimin qırxminlərin lov xəbəri gələndə yazdığı nəfəsi oxumağa başladı:

Gəldim dərgahına, Şeyx oğlu şahim,

Aman, hümmət eylə, aman günüdü!
Sənsən mənim qibləgahım, pənahım!
Aman, hümmət eylə, aman günüdü!
Qərib dostlarının yaman günüdü.

Münafiq əsgəri yolu kəsdilər,
Qazilər dağlardan yel tək əsdilər,
Rum elində, şiələri asdılar,
Aman, hümmət eylə, aman günüdü!
Qərib dostlarının yaman günüdü.

Dəvələrin dingə gedir, mən durum,
Qəvi düşmən ilən bir savaş qurum
Şiənin qanına boyandı Urum[30]
Şahim, hümmət eylə aman günüdü!
Qürbət eldə sənə güman günüdü.

---

[30]Urum – Konya, ümumiyyətlə Kiçik Asiya

Üç kimsə tanıram fani dünyada,
Yeddilər çatdırar məni murada.
Qırxların əlindən içmişəm badə.
Qırx min dostun qanı axan günüdü.
Şahim, hümmət eylə, aman günüdü.

Xətai quludu Abdal İbrahim,
Göylərə dirənib ah ilə vahim,
Mələdkarımız ol, mürvətli şahim!
Dərvişlar yığılın, aman günüdü,
Şaha deyin; axır-zaman günüdü.

«O axan qanlar içində mənim də qocalarımın qanı var. Məni də qocalarımın qanını almağa çağırırsan, İbrahim! Dostum, özünün də qanın axdımı? Yox, əgər mehr ilə müştəri altında, yerin təkindən göylərin dərinliyinəcən haqq deyən bir qüvvət varsa, haqqın adını ucaldan, haqdan başqa virdi olmayan bir cavana qıyılmaz». Onun ürəyinə yenə də ümidsizlik doldu. Səlimə elə gəldi ki, bayaq İbrahimin hissiz

başı çiyninə düşəndə, soyuq dodaqları boynuna toxunanda ilıq bir nəfəs duymuşdu. İndi bu nəfəs yoxdur, daha gəlmir! Gəncin qəlbini, bütün vücudunu dəhşət sarıdı. Atı elə məhmizlədi ki, at yorğadan qəfil çaparağa keçdi. Səlim də, tərkinə bağlanmış İbrahim də bərk silkələndi. Səlimə elə gəldi ki, lap indicə inilti eşitdi və bu inilti dodaqları onun qulağından aşağı çılpaq boynuna söykənmiş İbrahimin mehdən də xəfif nəfəsi ilə birgə gəldi.

...Mağaralara çatanda gecə yarıdan ötürdü, onları qoca pir Niftəlişah mağaranın ağzında qarşıladı. Pirin əlində uzun əsa vardı. Bu əsaya söykənmişdi. Atlılar endilər. Köməkləşib İbrahimi Səlimin tərkindən açdılar və pirin müşayiətilə məşəllərlə işıqlanmış mağaraya gətirdilər. Burada onları qarşılamaq üçün hər şey hazır idi. Təcrübəli qoca həkim – dərviş gün irəlidən yalnız özünə məlum olan bitkilərdən davalar, məlhəmlər qaynadıb hazırlamışdı. İbrahimi yerə döşənmiş yumşaq dərilərin üstünə uzandırdılar. Həkim birinci növbədə gəncin köynəyinin yaxasını açıb qulağını köksünə dayadı və nəbzini tutdu. Başda pir Niftəlişah

olmaqla bütün dərvişlər İbrahimlə həkimi dövrəyə alıb nigarançılıq içində gözləyir, həkimin hər bir hərəkətini izləyir, heç birisi oturmağa, yerə çökməyə, nəfəs çəkməyə cürət etmirdi. İbrahim ölüdür, ya diri? Niyə belə hissizdir? Bəlkə ürəyi, ödü partlayıb? Zəhmətləri hədər getməyib ki? Cəmiyyətin dili – bayrağı susubmu? Şairi sağdırmı? Yoxsa indicə pir Niftəlişah ona cənazə qüslü verib kəfənə tutacaq, dərvişlər göz yaşları axıda-axıda ona qəbir qazacaq, torpağa sancılan hər bir külüng və bel zərbəsini düşmən qəlbinə saplamaq arzusu, qəzəbi ilə yerə çırpacaqlar?

Qoca həkim başını gəncin bəyaz sinəsindən qaldırdı, üzündə nə sevinc, nə kədər oxumaq olurdu. Ağ yolpa qaşlar altından soyuq bulaq kimi duru baxışlarında ümidsizlik də yox idi. Gözlərini gəzdirib pir Niftəlişahın nəvərlərini tutdu, dünyagörmüşlərə məxsus təmkinlə dilləndi:
– Hu!.. Ümid həqqədi ərənlər. Olduqca sağlam cavandı bədəni davam gətirə bilər. Zəf əldən salıb onu...

Pir Niftəlişahla birlikdə İbrahimi və həkimi əhatə edib,

cənazə namazına dururmuş kimi onları dövrələyən dərvişlərin və Səlimin çiynindən elə bil ki, dağlar ağırlığında yük düşdü. Hamı qismən rahat nəfəs aldı. Niftəlişah dedi:

– Ərən, kimliyini, gərəkliyini izaha ehtiyac yoxdur. Ümid haqqə və sənədi.

– Əlimdən gələni edəcəm, pir! Ümid haqqə və canının möhkəmliyinədi.

Qoca həkimin işarəsi ilə, onun cavan köməkçilərindən bir dərviş, hazırlanmış dava və məlhəmləri gətirdi. Həkim müalicəsinə başladı. O, İbrahimin boynuna, sinəsinə, qollarının qarısına məlhəm sürtüb sığalladıqca deyirdi:

– Şükr haqqə ki, kəndir boynuna işləməyib, haqqin köməyi olub. Canı çox sağlam olsa da zəf və qorxu öz işini görüb. Üzüb onu...

Səlimin qəlbi fərəh hissilə doldu. «Həqqin! Əgər binəsiblər cahad qaldırıb mənə kömək verməsəydi, imkan tapmasaydım, həqqin... köməyi... Yox, bəlkə elə bu imkanı yaradan, Qəninin gözlərini bağlayan, qaranlığı tez

qovuşduran, cəlladları meydandan tez rədd edən elə həqqin köməyi oldu?» – deyə düşündü. Hər halda əməyi hədər getməmişdi. Deyəsən, dostunu xilas etmək üçün əlindən gələni edə bilmişdi.

Bu ara qoca həkim, cavan dərvişin təqdim etdiyi duru davanı İbrahimin yarıaçıq qalmış dodaqları arasına damızdırmağa başladı. Maye qurumuş dili isladıb boğaza axdıqca, elə bil ki, İbrahimə can gəlir, bozarmış üzünün rəngi dəyişirdi. Təbib, gəncin dodaqlarını araladı, yumşalmış dilində hərarət, nəfəs duydu:

– Ümidimizi itirməyək, – dedi. – Əzizlərim! Siz öz işlərinizə qayıdın, burada yalnız köməkçim qalsın. Gecə hamilədir, görək səhər üçün dünyaya nə gətirəcək. Hər halda təhlükə sovuşur.
Bu sözlərlə də o, İbrahimin ayaqlarını, əllərini sığalaya-sığallaya yumşaq dərilərdən üstünə çəkdi. Hərə öz guşəsinə çəkildi. Səlim ayağa durub mağaradan çıxdı.

Uzaqlarda, gündoğan tərəfdə dan yerinin xəfif ağarması müşahidə olunurdu. Karvanqıran batır, dan ulduzu doğurdu. Göyün bir tərəfi ağarmağa başlayırdı. Az sonra dağların arxasından günəşin ilk şüaları, qızılı telləri çırtım-çırtım boylanacaq, gecənin zülmət qaranlığını günbatana qovacaqdı.

Səlim sübhün saf, sərin havasını sinəsinə çəkdi. Kahanın yad nəzərlərdən gizlənmiş ağzından xeyli aralandı. Qaya daldasında növbə yerini tutdu: «Heç eybi yoxdur, adaş! Sən sultan Səlim, mən cındırlı pir Səlim! Atamın anamın, gəlinlik örpəyi örtməmiş qızların, oğul toyu görməyən anaların, cənazəsi övlad çiynində getməyən ağsaqqal babaların qanı yerdə qalmayacaq. Bu qanı səndən mən Səlim alacağam! Bu sübhi-sadiqə and olsun, haqq yerini tapacaq, bu yerdə haqqın vuran əli, cəza qılıncı mən Səlim olacağam, adaşım sultan Səlim!»

Səhər İbrahim artıq özünə gəlmişdi. Gənc və sağlam vücud, ərənlərin hazırladığı xüsusi içkilərin köməyi ilə qüvvə

toplamışdı. Səlim və dostlarının uçmağa qanadı yox idi. Zəhmətləri boşa getməmişdi.

Bir neçə gündən sonra İbrahim sərbəst gəzə, səma məclislərində iştirak edə bilirdi. Həftənin axırında İbrahimin piri Niftəlişah onun möhkəmləndiyini görüncə gənci xəlvətə dəvət etdi.

– Övladım, sənə ərən demirəm, ərənlərdən başqa övladımsan da! Təkcə mənəvi yol atasından başqa məhəbbətimi elə qazandın ki, bel atası duyuram özümü sənin həqqində. Odur ki, sədaqətinə əmin olduğumdan, sənə bu bir-iki gündə bəzi təlimat verəcəyəm. Təbrizə Şeyx oğlu şahın hüzuruna yollanacaqsan. Badi-müxalif yaman bəd əsir. Belə görünür ki, müharibə bütün amansızlığı ilə hər iki bədbəxt qonşu ölkənin astanasını kəsdirib. Oğlum, övladım, sultan Səlim Şeyx oğlunun ordusunu basmaq üçün ingilislərdən, firənglərdən çox qorxulu silahlar alıb. Saraydakı ərənimizin verdiyi məlumatı Şeyx oğlu qibləgahımızın qulluğuna çatdırmaq yalnız və yalnız sənə etibar olunur.

Bu sözlərlə də pir Niftəlişah əlini İbrahimin çiyninə qoydu... Ərənlə, pir arasında ikigünlük sükunətdən sonra İbrahim karvana qoşuldu.

## QARAÇI RİBATI

İbadullah karvansarası karvansaralar içində ən səliqəlisi və rahatı hesab olunurdu.

Biz bir qədər əvvəl ata-babasının qalıqlarını Həzrə və Tabasarandakı məzarlardan çıxarıb Ərdəbilə köçürən hökmdarın həmin bu karvansarada dayandığının şahidi olmuşduq. Amma o zaman karvansaranı geniş təsvirə imkanımız olmamışdı. Burada həmişə, günün, gecənin hansı saatında gəlsən, hazır hil, mixək, zəncəfil çayı, qəhvə, isti xörək, yumşaq çörək tapa bilərdin. Təki pulun olsun. Burada həmişə rahat yatacaq da var idi. Karvansaraçı İbadullahı Allah nədən məhrum etmişdisə də, qız-gəlindən bol eləmişdi. Arvadı elə gəlin gəldiyi ilk ildən ətəcərə-südəcərə

doqquz qarın doğmuşdu. Bunlaradan üçü əkiz olmuşdu. Uşaqlardan biri böyüyən kimi, növbəti kiçiyi onun dalına şələləyib, əlinə süpürgə vermişdilər. İbadullahın arvadı Gülsüm də əri kimi evdar, söz-sovsuz, amma işli-güclü qadın idi. On iki övladından tək birini körpə ikən ölüm aparmış, qalanları buz baltası təkin açıq havada, ayaqyalın, başaçıq böyüyüb əmrazaya çatmışdılar. İbadullah atasından qalma kiçik Qaraçı ribatını[31] böyütmüş, həndəvərində yeni tikililər tikmiş, altı oğlundan hansı böyümüşdüsə hər birinə bir otaq verib baş-göz eləmiş, amma heç birini ayırmamışdı. Hamısı əlinin altında, qulluğunda, hökmündə dururdu. Qızları böyüdükcə kimə vermişdisə, onu da öz cınağına çəkib evli, külfətli etmiş, ya da karvançılara qoşub

ticarətə qurşatmışdı. Qızlar, gəlinlər karvansaranı gül kimi təmiz saxlayır, yemək və içməklə təmin edirdilər. Qaraçı

[31]Ribat – əslində hərbi fort, burada yenə də hərbi müdafiə məqsədilə qalaçaya bənzədilmiş karvansara

ribatının yanında sərin sulu quyu, qədim, möhkəm tikilmiş bir azdan da var idi. İndi, hekayətimizin cərəyan etdiyi illərdə, artıq İbadullah ağa və Gülsüm nənə qocalsalar da, əsalarını əllərindən salmadan hökmranlıqlarında davam edirdilər. Karvansara həmişə dərviş, karvançı, tacir, səyyah və başqa gəzəntə adamlarla dolu olurdu.
Ailə üzvlərinin yaşadıqları binalar karvansaranın yan-yörəsində idi. Ribatın üst qatları pullu və möhtəşəm qonaqlar, səfərilər üçün ayrılmışdı, alt mərtəbəsindəki hücrələr isə kasıbları, dərvişləri yerləşdirmək və azuqə saxlanmaq üçün anbar idi.

Bir neçə gün idi ki, ribatda arası kəsilmədən qul tacirləri gəlib qalır, bir neçə gün dincəlir, yollarına davam edirdilər. Bu günlərdə olduqca qarmaqarışıq, kəşməkəşli hadisələr baş verir, karvansaraya dərvişlər də gəlirdi.

Bu gün təndirə çörək yapmaq növbəsi İbadullahın kiçik gəlini Gülyazın idi. Qoca bir dərviş kürsülü təndirin qabağında, iri bir daşın üstündə oturub gəlinin çörəyi bişirib

qurtarmasını və onun payını verməsini gözləyirdi. Gəlin gənc idi, toxmacar kimi əndamlı idi. Gen tuman, darayı köynək və al məxmər arxalıq onu bir qədər də əndamlı göstərirdi. Gəlin xınalı əlləri ilə orta həcmli yaxşıca acıyıb-gəlmiş kündələri tabaqdan götürür və yuxayayan dördayağın üstündə onlara, istədiyi şəkli verirdi. Al xınalı əllər bu yumşaq, dəyirmi kündələr üzərində gəzdikcə, qoca dərvişin gözləri onun əllərini və əlindəki kündələr kimi dəyirmi və yumşaq döşlərini izləyirdi. Ah, kaş heç olmasa qırxca il çiyinlərindən ata bilsəydi, bu gəlinin o kündəcələr kimi köksünü öz qüvvətli əlləri ilə nə əzələyərdi. Amma zamanın insanın başına gətirdiyini düşmən də eləyə bilməz. İndi arzusu ilə qüvvəsi bərabər gəlməyən qoca, bulanlıq gözlərində istək məşəli yana-yana qadına baxırdı. Gəlin, arif idi, nazəndə idi, görənlərə minnət qoyardı. Qocanın onu seyr etdiyini duyur, daha cəld, daha işvəkar bir ataşla əyilib qalxır, çörəkləri təndirə yapır, qocanın baxışları ilə əylənir, təndirin istisindən allanmış üzündə gülüş oynayırdı. Yandıra-yandıra əylənirdi, əylənərək işini görürdü.

Təndirdən çıxartdığı birinci çörəyi qocanın dizi üstünə atdı. Bu hərəkətin özündə də bir incəlik, bir ərkyanalıq var idi. Gözəlliyinə və bu gözəlliyin təsir gücünə arxayın olan nazlı gəlinlər kimi.

Qoca çörəyi demək olar ki, Gülyazın əlində böyümüş və qocalmış bir pişik kimi göydə qapdı. Çörək gəlinin yanaqları təki qırmızı idi. Elə də yumşaq idi ki! Qoca çörəkdən bir tikə kəsib dişsiz ağzına qoydu. Çoxdan diş yerləri yastılanıb getmiş, kəsərini itirmiş damaq, pambıq tikəyə batdı. Qocanın çənəsi məzəli bir şəkildə ağ lopa bığlarına qədər qalxdı, az qala sivri uclu arıq və uzun burnuna dəyəcəkdi. Qocanın çörəyi çeynəməsini gözucu seyr edən gəlin qəhqəhəsini saxlaya bilmədi, qəşş edərcəsinə güldü.

Qoca bu gülüşdən incimədi. Qəlbində bir an əvvəl qopmuş fəryad və arzu ilə öz-özünə pıçıldadı: «Ax... bir qırxca il əvvəl düşeydün əlimə, onda dişlərimin kəsərini görərdün. Amma onda, deyəsən, heç sənin anan da dünyaya gəlməmişdi».

Karvansaranın həyətində İbadullahın böyük oğlu iri tiyanda cız-bız qovururdu. Kürənin dib tərəfində kiçik bardaqlarda piti qoymuşdular.

Bu gün iki böyük karvan gəlmişdi. Biri Ərəş və Gənə tərəflərə gedəcəkdi. Biri Təbrizə yollanmaq üçün gəlib burada əylənmişdi. Aşağı divar boyu axurlara at, qatır və eşşəklər bağlanmış, onlardan azacıq aralı yüklü dəvələr xırxırdılmışdı. Dəvələr gövşək vurur, at və ulaqlar samandan, arpadan yeyirdi. İbadullah karvansara hücrələrini bölüşdürüb sarvan və səfərilərə yer göstərirdi. Təbrizə gedən karvanın sarvanı İbadullaha yanaşıb onu kənara çəkdi;
– Bu firəngi[32] qonaq Təbrizə padşahın qulluğuna gedir. Ona irah mənzil ver, İsbadullah! Yad qonağın yanında xəcalətli olmayaq, – deyə kamzollu, başında mavi üçkünc papaq olan bir nəfəri göstərdi. Geyimindən karvansaradakılardan

---

[32]O zaman venesiyalı, ingilis və s. olmasından asılı olmayaraq bütün avropalıları firəngi adlandırırdılar.

tamamilə seçilən bu adam, axurda bağlanmış atının yanında durub verilən arpanın təmiz olmasına nəzarət edirdi. Söhbətin özündən getdiyindən xəbərsizdi. Ətrafında danışanların sözlərinə, səslərin rəngarəng ahənginə qulaq asırdı.

Dəvəçilər – karvansaraçılar arasında bir-birilə əlaqədar olmayan müxtəlif söhbətlər gedirdi. Bir dəstədə iki dəvəçi bir-biri ilə danışır, yanında mallarını yerbəyer eləyən digər dəvəçilər də bu söhbəti dinləyib gülüşürdülər. Görünür, Cumar adlandırdıqları bu dəvəçi çox baməzə adam idi. Deyirdi:

– Hə, elə Xınısdıya çataçatda gözümə bir dəstə zənən dəydi. Əvəlik yığırdılar. Çoxu qız-gəlin idi. Aralarında bir yaşlı arvad da var idi. Birdən mazarat bir gəlin yolumun üstünü kəsdirdi: «Əyşi, dəvəçi, bu arvadı aparırıq ərə verək», deyib qarını mənə göstərməsinmi? Özümü saxlaşdıra bilmədim, dedim: «Əh... onun boğazı armud sapıncandı, onu kim alar?» – hamı qaqqıldayıb gülüşdü. Cumar isə iştaha ilə

sözünə davam elədi. Amma insafən almalısı elə o mazarat gəlinin özüydü. Maşallah, biləkləri maya budu, gözləri köşək közü... – Cumar təsvirini tamamlaya bilmədi, yoldaşlarından biri onun sözünü kəsdi: – Elə deynən dəvəydi dayna...

Yenə qaqqıldayıb gülüşdülər. Başqa bir dəvəçi öz tanışına kəndlərinin amilindən şikayətlənirdi:

– Sən ölməyəsən, külfətimin boğazını kəsib zalım oğlu. Hər kəndə gələndə çalışıram gözünə görünməyəm. Əlimə bir quruş keçirsə, tutur alır əlimdən vergi adına. Qınnan asır, qındırqaynan kəsir. Deyirəm, qardaş, axı mən bir çətən külfət saxlayıram. Bircə dəvə umudluyam. Kirə daşıyıram. İstilik üzü görmürəm. Yayı alafını yığıram, qışı karvana gedirəm.

Sərçə deyil, sərin verim,
Bildirçin deyil birin verim.
Bir dəvədən sənə mən nə verim?

Müsahibi ürək sıxan söhbəti dəyişdi.

– Əyşi, bəri gəl, qoyun ətinin kababı, min il ibadətin savabı. Gəl kababa qonağım ol, çıxsın dərdin yadından. Yanında qoyun qatığı, vallah kafirin dilinə dəysəydi, çoxdan imana gələrdi. Bəri dur görüm, – deyib kişini çəkib apardı.

Cındırından cin hürkən, ələvi olduğu təkcə başını deyil, bığ-saqqal və qaşlarını belə qırxdırmasından məlum olan bir dərviş şikayətlənirdi:

– Gecə sübhəcən qaşınmaqdan var əndamım dırnaq-dırnaq olub birə əlindən, bit əlindən, kişilər!

– Kişiyə kasıb olmaq ayıb deyil, amma day belə də yox da...

Bir dəvəçi nəql edirdi:

– Gədiyə çatanda qar-kirvə gücləndi. Göz gözü görmədi. Dedim: axır günümdü. Sən ölməyəsən, sarvan ovsarı qoluna keçirdib çarəsiz durmuşdu. Gözünə dolan qarı əlinin dalıynan sildikcə elə bilirdi ki, gözünün yaşının qara qarışıb buz bağladığını görən yoxdu. Kallah[33] da durub...

---

[33]Kallah – dəvə topası

Başqa birisi deyirdi:

– Ayə, elə onda döşümü irəli verib dedim: tacir deyiləm, bac alasız, qannı deyiləm öc alasız...

– Dedim ki, bura bax, baqqal, o yağlı dilləri saxla. Bazarda gərəyin olar. Bu dilnən məni bir quruşa möhtac elərsən...

Kim isə yaxındakı bir qızılbaş dərvişdən soruşdu:

– Bəs canına qurban olduğum içkiyə nə deyib?

– Yes əlunəkə ənil-xəmri vəl-meysəri. Qul: fihima ismun kəbirun və mənafqu linnasi və ismahuma əkbəru min nifihima.[34]

– Yəni?

– Sual etdilər səndən içki və qumar haqqında. De: onların insanlar üçün böyük günah və bir az mənfəəti var. Ancaq zərəri mənfəətindən daha artıqdır.

– Hə da! Ağzuvun qadasın alım. Mən də deyirəm ki, zərərlidir hər ikisi.

---

[34]Quran, «Bəqərə» surəsindən 216-cı ayə

İkinci dəstə bir neçə dərvişdən ibarət idi. Karvançılardan azacıq aralı oturub, hücrə almaq növbəsinin onlara çatmağını gözləyirdilər. Aralarında bəzi namazı qəzaya qalanlar yerə qoyun dərisi salıb, «allahın borcunu» verir – namaz qılırdılar.

Deyilənə görə, dəri üstündə namaz qılmaq həm savab, həm də xətərsiz idi. Dərinin üstünə ilan-əqrəb çıxıb ibadətə məşğul adama dəyməz, ağzı dəriyə dayən kimi geri qayıdar.

Elçinin nəzərlərini məhz bu dərvişlərin söhbəti daha çox maraqlandırırdı. O, eşitmiş, öyrənmişdi və bilirdi ki, dərvişlər içində Şeyx oğlu şahın xeyli güdükçüsü, qulaqçısı, sadiq xələfləri vardır. Bunlar ölkənin müxtəlif yerlərini gəzir, məlumat toplayır və şəxsən şahın özü ilə görüşüb, əhalinin əhvali-ruhiyyəsini, yerli xəbərləri ona çatdırardılar. Ordu yığmaq, hər hansı bir fikri həyata keçirmək, şahın gördüyü «müqəddəs yuxuları» yaymaq lazım olanda da dərvişlər işə düşürdu. Doğrudur, bu dərvişlər içində şiəliklə əlaqəsi olmayan başqa əqidə sahibləri də çox idi. Amma

avropalı elçinin bunlarla işi yox idi. O, şah sarayına gedir və şahın özü, saray ərkana üçün hədiyyələr aparırdı. Bunların içərisində bu yerlərdə qarazey adlandırılan zərif al mahud, al-çəhrayı, abı məxmər topları, beş ədəd kiçik tapança, əlli ədəd fırça, 6 top holland kətanı, səfər zamanı dən üyütmək üçün kiçik dəyirman və s. var idi. İndi dərvişlərə qulaq asdıqca sarayda necə qarşılanacağını düşünürdü. Odur ki, məhz İsmayıldan bəhs edən şiə dərvişlərə qulaq asırdı. O yalnız bu rəvayətlərə əsaslanıb uzaq qohumu olan bu şah haqqında onun yanına çatanacan özündə bir təsəvvür yaratmaq istəyirdi. Axı şahın ana nənəsi Biznas hökmdarının qızı idi və onun da xalası Venesiya zadəganlarından birinə ərz verilmişdi. Beləliklə də, Şah İsmayıl bir tərəfdən Türkiyə, digər tərəfdən isə həmin nənə vasitəsilə həm Bizans, həm da Venesiya sarayı ilə qohum – xalanəvəsi idi. İndi elçi bütün bunları düşünə-düşünə xalası nəvəsi olan hökmdar haqqında dərvişlərin nə deyəcəyini maraqla gözləyir; daha doğrusu, bu sözləri, fikirləri ovlayır, harda belə bir söhbət rastına düşsə huş-quş ilə qulaq asırdı. Elçi fars dilini əla bilir, türk dilində də yaxşı danışırdı. Türk

dilinin vasitəsi ilə isə bu yerlərin doğma dilini az müddətdə mənimsəyə bilmişdi. Dərvişlərin söhbəti əvvəlcə ona bir nağıl təsiri bağışladı. Özlərini «şah» adlandıran «cındırlı» pirlərdən biri danışırdı:

– Deyirlər, bir zaman bir padşahın xəzinədarı oğurluq eləyir. Şah yaman qəzəblənib, meydan qurdurur, vəzir-vəkillə gəlib, qızıl taxtının üstündə oturur. Camaatı da carçılara çağırtdırıb meydanın dövrəsinə yığdırıbmış. Şah əvvəlcə vəzirlərinin fikrini bilmək istəyir. Sağ tərəfində duran qoca vəzirinə deyir:
«Vəzir, mücrimə nə cəza verilsin?»
«Qibleyi-aləm, şaqqalansın, hər şaqqası da şəhər darvazasının bir tərəfində asılsın. Qoy hamıya görk olsun».

Bu zaman camaat içindən pirani bir qoca yerindən qalxır və uca səslə deyir:
«Əsləhu əsləh»
Padşah qocaya bir söz demir, sol tərəfində duran cavan vəzirindən soruşur:

«Oğruya nə cəza verək, vəzir?»
«Bağışlansın, sultanım, çünki bu qədər camaatın arasanda rüsvay olandan sonra, əgər o, insandırsa, daha belə iş tutmaz.
Yenə də camat içindən həmin qoca qalxır. Ucadan səslənir:
– Əsləhu əsləh!
Padşah heyrətlənir, qocanı yanına çağırtdırıb soruşur:
«Bu necə olan işdi, sən hər iki halda eyni söz dedin? Hansı vəzir haqlıdır?»

Qoca cavab verir:

– Hər ikisi, padşahım. Sən də, bu yığılan camaat da cavansız. Mən isə dünyada çox yaşamışam, bilirəm. Bax, o qoca vəzirin atası qəssab idi. Odur ki, əslinə çəkib: «Şaqqalansın», dedi. Bu vəzirin atası isə ədalətli adam olub, o da öz nəslinə çəkib «əfv olunsun», dedi. Çünki adil adam balasıdır. İndi mənim əzizlərim, bizim padşahımız, qibleyi-aləm peyğəmbər nəslidi. O da öz nəslinə çəkib: dini-mübinə rəvac verməsi ilə. «Qisəsül-ənbiya»da deyirlər ki, bir gün rəsuli-əkrəm Məhəmmədsalavatullahdan soruşdular! «Ya rəsulallah, dostun kimdi, düşmənin kim?» Rəsuli-xuda

buyurdu: «Dostum – dinimi birləşdirən, ona rəvac verən, düşmənim isə islam dininə rəxnə salanlardır». Başqa bir dərviş sözə qarışdı:

– Hə, doğru buyurursan, ağa dərviş! Görmürsən, bütün Yezid sünniləri necə qılıncdan keçirir? Hələ qəzavət vaxtında bir dəfə yolum Ərdəbilə düşdü. Şah özü meydana çıxdı. Əhali də, qoşun da meydana yığılmışdı. Şah deyirdi:

«Həmvətənlərim, bizim haqq işinə kim inanmır? Din yolunda, məzhəb yolunda, Əliyyul-Mürtəza yolunda cihada çağırıram sizi»... Sonra da bir nəzm oxudu. Adamın tükləri biz-biz durdu. Onda gördüm ki, qılınclar qınından çıxdı, günəşin qabağını tutdu, şəhabi-saqib kimi bərq vurdu. Meydanda minlərin səsi ərşə dirəndi:

«Apar bizi! Yolunda ölümə hazırıq, şahımız! Qoy əlimizdə qılınc, din yolunda ölək. Qiyamət günündə, Şahi-mərdanın qulluğuna üzü qara gedincən, hər iki dünyanın ağasının qabağında xar oluncan, əldə qılınc şəhid olmaq əfzəldi. Apar

bizi, ya Sahibəzzaman!»

– Vallah, bu sözü mən də eşitmişəm. Deyirlər Sahibəz zamanın zühuru yaxınlaşıb.

– Day nə yaxınlaşacaq? Elə zühurdu da!..

– O Allah göndərən Quran haqqı, mən özüm ağamız dərviş Qiyasəddinşahdan eşitmişəm ki, yuxuda görüb, ona əyan olub ki, elə Şeyx oğlu şahın özünün simasında imami-zaman Mehdi Sahibəzzaman zühr edir.

– Helədi, arabir müharibə olmalıdı ki, qanı artan bəşəriyyətə neştər vurulsun. Yoxsa qan çoxluğu toxluq edər. Allah özü göndərib onu ki! Amma xaliq verən canı məxluqun əlilə almaq olmaz.

Bu sözü deyənə heç kim baş qoşmadı.

Qızılbaş təbliğatçılarından başqa birisi ortalığa atıldı:

– Rəhmdildi, ədalətli padşahdı, şahımız! O irəli davada qələbə çalan kimi carçılara əmr elədi, camaata xəbər versin ki, yeddi ilin xəracını onlardan almayacaq. Yeddi il bundan belənin xəracını onlara bağışlayır.

Dərvişlərin ətrafına yığılmış sövdagərlər, tacirlər, bəzirganlar, sarvanlar, dəvəçilər, cilovdarlar, qullar, karvansaradakı digər səfərilər təbliğatçı dərvişlərin sözünə qulaq asır, arabir bir-birlərinə deyirdilər:

– Allah qılıncını kəsərli eləsin day da.

– Yüz sar gəlsə laçına bir şey eləyə bilməz. Laçındı!

– Kitabı Qurandı, qayil olub. Qurani-məcid köməyi olsun.

– Şahi-mərdan, Qəmbər ağası, Mürtəza Əli köməyi olsun.

Riqqətə gələnlərdən birisi bəzirganbaşının yanını kəsdirib dərdlərini ona danışır, əlindəki bükülü bir kağızı kişiyə verib odlu-odlu yalvarırdı:

– Səni and verirəm üzünü sürtdüyün həcərə, atam-anam sənə qurban, hacı Salman! Məni dolandır kür-kürfətinin başına. Əl mənimdi, ətək sənin, ya əlimi kəs, ya ətəyini. Bu naməni Şeyx oğlu şaha çatdır, hələ-həlbət. Rəhmdildi deyirlər, bəlkə Allah könlünə saldı, kömək elədi. Ağalar ağasının eşqinə. Görürsən ki, deyirlər:

Kişinin sözü səs-küy içində batdı. Dərvişlərin Şah İsmayılı Sahibəzzamana bənzətməyini eşidən bir neçə

mömin salavat çevirdi.
Dərvişlərin içində cavan bir dərviş də var idi. Dinmirdi, danışmırdı, qulaq asırdı. Ələvilərə mənsub olan bu cavan bir az əvvəl dar ağacından xilas olmuş İbrahim idi. Bir neçə gün idi ki, Təbrizə gedən karvana qoşulmuşdu. Pirinin tapşırığını şaha aparır. Qəlbinin hökmü ilə həqiqəti axtarırdı. Onun ətrafındakı dərvişlər şahı tərifləməkdə davam edirdilər. Biri deyirdi:
– Hələ onun qazilərə məhəbbətindən de!

Deyirlər ki, Osmanlı tərəfə adlı sərkərdələrindən birini göndəribmiş. Sərkərdə döyüşdə həlak olur. Gəlib şaha xəbər verirlər ki, sərkərdə şəhid oldu, torpaqlar əldən getdi. Şah ağlayır. Soruşurlar: «Qibleyi-aləm, nə üçün ağlayırsan? Sərkərdədən ötrü, ya torpaqdan ötrü?» Deyir: «Torpağı geri almaq olar, oğul kimi sərkərdəni geri qaytarmaq olmaz».

Başqa birisi sözə qarışdı:
– O Allahdan nazil olan Quran haqqı, mən özüm öz gözümlə görmüşəm ki, qaziləri qəzavata göndərəndə

deyirdi: «Mənim yanımda beş yüz düşmən başından, sizin əzilən bir barmağınız qiymətlidi. Özünüzü qoruyun, övladlarım».

– Elə ona görədi da, qadam, – deyə qoca dərviş canfəşanlıqla danışmağa başladı – elə ona görədi ki, Kürdüstanda, Farsistanda, Cığatay düzənlərində, Rum ellərində bütün yerli hakimlərdən inciyən, əzab-əziyyət görən bədbəxtlər İskəndərnən, sahibqıran, şahi-cavanbəxtə pənah gətirirlər. Onun qoşununa qoşulurlar. Əşrəfi-əla şahımız öz hatəm səxavəti ilə gələnin hamısına tor-torpaq verir, iş tapşırır, əzizləyir... Öz gözümlə görmüşəm...

«Qəribədir, – deyə İbrahim düşünürdü, – hamısı da öz «gözü ilə görüb». Qəribədir. Mən bütün bunları dərk etməli, həzm etməliyəm. Mən axtardığım suallara cavab tapmalıyam. Amma bu danışıqların biri də mənim suallarıma cavab vermir. Şübhələrim daha da artır». Bu düşüncələrlə də İbrahim şiə dərvişlərin cəmiyyətindən uzaqlaşdı. Bir-iki gün idi ki, o, qoşulduğu karvanda Nəfi adlı bir tacirin oğlu ilə

dostlaşmışdı. Mənzillərdə xörək-çörəyini onunla birlikdə yeyir, söhbətləşir, müvəqqəti düşərgələrdə, karvansara olmayan yerlərdə onunla birlikdə gecələyirdi.

İbrahim dostunu axtarmağa başladı. Onun alt qatdakı hücrələrdən birində yerləşdiyini öyrənincə, qonşuluqdakı hücrələrdən birini də özü üçün kirayələdi. Karvanın burada dincələcəyi üç gün müddətində tacir Rəfinin oğlundan ayrılmaq istəmirdi. Həyətdə isə həngamə idi.
Karvansarada axurların yan tərəfindəki divar dibində bir neçə gəzəri hoqqabaz dəstəsi birləşib, karvansara həyətində yığılan camaata tamaşa göstərməyə hazırlaşırdı. Kəndirbaz, tamaşaçıların köməyi ilə karvansaranın bu divarından o biri divarınacan ip çəkib, geyinmiş, əlinə iri bir çomaq alıb yuxarı qalxmış və kəndir üzərində yeriməyə başlamışdı.
– Şükür sənə xudaya, elə bil quşdur, adam deyil. – Allah saxlayana heç nə olmaz.
– Adətkərdədi, balam. Yoxsa adam düzdə o oyunları çıxarıb elə mayallaq aşa bilməz ki, bu, barmaq naziklikdə ipin üstündə eləyir.

– Deyirəm Allah saxlayır...
– Adə Allahın oyunbaz-kəndirbazla nə işi? Günahdı.
– Niyə? Kəndirbazın allahı yoxdu?

Kəndirbaz kəndirdən düşdü. Papağını əlinə alıb onu əhatə edən adamların qarşısında gəzməyə başladı. Papağın içinə şahılıqlar töküldükcə tacir Rəfi də oğlu ilə burada dayanıb baxırdı. Növbə ona çatanda üzünü yana çevirib, bayaqdan həsədlə papağa yağan şahılıqlara baxdığı halda, indi özünü görmürmüş kimi göstərdi. Kəndirbaz başını bulayıb Rəfidən ötəndə kim isə onun qolundan tutub saxladı:

– Dayan! Adə, səhərdən sənə dörd göznən baxırdı, qoy haqqını versin.
– Nə haqq, oğlan? – deyə tacir çımxırdı.
– O haqq ki, bu kişi sənin bircə anlıq zövq almağın üçün günlərin, ayların əzabına qatlaşıb, zəhmət çəkib. Ver haqqını! Yoxsa, aşuvun suyunu verrəm, verməsəm, bığlarımı qırxdırram.
Tacir deyindi:

– İlan vuran o qədər qatıq yığdı ki, artığından ayran çalxaladı. Bəsdi də. Tacir, hıqqanaraq cibindən çıxardığı bir şahını papağa ata-ata deyinməyində davam elədi:
– Yazığım gəldi, yoxsa sənin bığlarına qiymət qoyan kimdi?

Tacirin yanında dayanmış oğlu xəcalətlə başını aşağı dikib durmuşdu. Tamaşaçıların çoxunun onlara nəzər salmasından narahat olan tacir Rəfi oğlunun qolundan tutub deyinə-deyinə dəstədən aralandı.
– Gəl bəri, bu namüsəlmanlarnan nə işimiz bizim.

Onlar hücrəyə çəkildilər. İçəri girən kimi tacir Rəfi oğlunun başına kök bir qapaz saldı:
– Ay köpəyin qızı, min dəfə sənə demişəm ki, adam çox olan yerdə görünmə!
Kişi bu sözlərlə yenidən qolaylandı.
– Şahın başına and olsun, əgər sözümə baxmayasan ha... Birbaş şəhər hakiminin yanına gedib, sənin cəzalanmağını tələb eləyəcəyəm. Parçalatdıracam səni, köpəyin qızı! Oğlan

paltarını geyindirdim sənə ki, naməhrəm gözlərdən uzaq olasan. Ona görə geydirmədim ki, meydana çıxasan, soxulasan kişilərin arasına. Qulsan, kənizsən – qaxıl otur yerində, hücrə xarabada. Mənzilimizə çatanacan.

Aytəkin ağlamırdı. Qocanın əlində onu incidə bilən gir yox idi. Özü də bu axır vaxtlarda, deyəsən, kişi qızdırmaya tutulmuşdu. Tez-tez safrası qarışırdı. Yeyib-içə bilmir, öyüyür, bəzən karvandan qalmalı olurdu. Elə buna görə də mallarını birinci qoşulduğu karvanın sahibi bəzirganbaşıya əmanət eləyib yüngül-yaraq gedir, amma hərracdan aldığı kənizi – Aytəkini özündən ayırmırdı.

Qapı vuruldu. Kələn dərviş İbrahim idi. İbadullah kişinin nəvəsilə üç bardaq piti gətirtmişdi. Oğlan pitiləri ağa dərvişin göstərişi ilə hücrənin ortasına qoyub çıxdı. İbrahim də qoltuğuna vurduğu isti təndir çörəklərini Aytəkinə uzatdı:
– Qardaş, acından öldük hamılıqcan, tez bir süfrə sal. Bu çörəkləri də al!

Gülyazın bir az əvvəl təndirdən çıxardığı üzü küncütlü, xaşxaşlı, girdə, qıpqırmızı çörəklərin iyi, pitiyə vurulmuş zəfəranın da ətrini basıb batil elədi. Tacir Rəfi bu ətrin qarşısında duruş gətirə bilmədi. Havayı piti qarnını deşməyəcəkdi ki! Bu dərviş də qəribə adamdı. Özgə dərvişlər adamı diri gözlə yeyir, cəddinin payını istəyir, bu isə tacir dostunu və onun «oğlunu» təzə təndir çörəyinə qonaq eləyir.

Aytəkin kədərini yeyib, hazırlıq görənəcən, tacir Rəfi özü cəld kiçik qələmkar boğçanı süfrə əvəzinə hücrənin yerinə döşənmiş həsirin üstünə saldı. Aytəkin də mis camı küncdəki çökəkdən çıxardığı səhəngin suyu ilə doldurdu və hər üçü dadlı pitini yeməyə başladı.
Həyətdə isə kəndirbazın kəndirinin altında, topuqlarına gümüş qumrovlu xalxal bağlamış, əyninə qadın paltarı geymiş lotu-mütrüb «sındır» rəqsi oynamağa başlamışdı. Venesiyalı elçi, dərvişlərin «xalanəvəsi şahı» təriflməyindən yorulub, Şərq incəsənətinin bu sadə, eyni zamanda olduqca maraqlı növlərinə böyük bir zövqlə tamaşa

edirdi. Arabir rəqslərin, oyunların adını soruşur və cib dəftərçəsində bəzi şeylər qeyd edirdi.

İbrahim axşamacan Rəfi ilə söhbətə məşğul oldu. Tacir Rəfi şam namazı üçün dəstəmaz almağa hazırlaşanda, İbrahim onlarla vidalaşıb çıxdı.

– Gecəniz xeyrə qalsın.

– Xeyir qənşərinə çıxsın, – deyə tacir Rəfi onu hücrəsinəcən yoluzandı elədi. Abdəst üçün quyunun yanına getdi. «Xeyir aparasan» demədi, xeyiri özgəyə verməzdi, «xeyir qənşərinə çıxsın» dedi.

İbrahim bütün gecəni fikirlər, düşüncələr içində keçirdi. Əvvəlcə şam işığında bir xeyli kitablarına baxdı, qəlbini çeynəyən suallara cavab axtardı, tapa bilmədi.

Sonra bu sualların bir qisminə öz düşüncələri ilə gəldiyi cavabları yazdı. Yenə də xeyli oxudu. Karvansaranın gecə belə kəsilməyən hənirtisini eşitmədən çalışdı. Dəftərində mənası və yazılmaq səbəbi yalnız özünə məlum olan belə qeydlər var idi: «Dedi: bütün bunlar xırda-para şeylərdir.

Dedim: həyat qurama parçalardan düzəlmiş gözəl bir pərdədir ki, həmin o xırda-xuruş dediyin parçalardan yaranır». «Elə adamlar var ki, dilində dünyanı beşgünlük sayır. Amma buna inanmır, inansa da, dünya malını beş əllə tutur. Çayır kimi kök atır, ev tikir, bostan əkir, kainatı versən də, gözü doyan deyil dünya malından». Altında da qeyd etmişdi: «Hər halda bunlar dünyaya gəlib heç bir iş görməyib gedənlərdən yaxşıdır. Heç olmasa abad ev, abadan bağ qoyub gedirlər». «Mənə elə gəlir ki, xudavəndi-aləm özü də yaratdıqlarının dəniliyinə, fırıldağına, cəhalətinə, zalımlığına, qaniçənliyinə öz məsnədi-qüdsiyyəsindən təəccüb və heyranlıqla baxır». «Mən ondan soruşmalıyam, deməliyəm ki, «Sultanım, sənin məmləkətində, sənin zamanında yaltaqlıqla hörmət, rüşvətlə bəxşeyiş, lovğalıqla qürur bir-birinə elə qarışıb ki, baş açmaq olmur. Necə edəsən ki, hörmətin yaltaqlığa, hədiyyən rüşvətə, qürurun ədabazlığa həml olunmasın? Necə edəsən ki, bunlardan birinə yuvarlanmayıb, təmizliyini, ləyaqətini həm batində, həm də zahirdə, el gözündə qoruyub saxlaya biləsən?»

Sonra da şamı söndürüb, nazik yay yorğanını sinəsinə çəkdi, nə qədər çalışdısa da yata bilmədi. Xəyal onu şübhəli suallar aləminə sürüyüb aparmışdı. Yerində əllərini başı üstündə çataqlayıb düşünürdü. Gözləri qaranlığa zillənib qalmışdı. «Karvana qoşulmaqdan bir gün əvvəl qaldığım qəbiristanda xərabə bir məzar gördüm. Demək, bədən belə paşidə olur, belə çürüyür, sümüklərdən başqa heç nə qalmır! Bekara yerə demirlər ki, sümüyü sürmə olub?! ...Bəs onda ruh? Ruh necə olur? Ruh hara uçur? Harda qərar tutur? Axı bu bədənin içində məni danışdıran, düşündürən nə isə bir şey var!

Cismlə vəhdət təşkil edib məni canlandıran bu ruh, bu səs, düşüncələr mən öləndə necə olur? Axı bu üzünü bir parça dəri tutmuş cismin içində «can» var. Bədənin harasında isə əyləşib, məni yaxşı və pis işə vadar edir. Yaxşıya «hə» deyir, bəd əməldən qoruyur. Bəs mən öləndən sonra, bədənim torpaq altında çürüyəndə bu «can» necə olur? Ola bilməz ki, o lap elə-izsiz tozsuz bu dünyanı tərk etsin. Yer üzündə bir iz qoymasın (O, gözlərini pəncərədən parlaq

ulduzlar sayrışan aydın səmaya qaldırdı.). Bəlkə orada ruhların, canların uçuşduğu bir yer var? Bəlkə «cənnət» dedikləri elə oradı? Bəlkə hind fəlsəfəsinin dediyi daha düzdü? Doğrudanmı insan öləndən sonra onun «avara» qalmış ruhu hansı bir canlıya isə keçir? Yox, bu ağlıma batmır. Bəlkə «can» dediyim şey özü elə cisimlə birlikdə məhv olduğunu bildiyi üçün insana əmr edir ki, bu dünyada yaxşı işlər, əməllər, gözəl əsərlər, abidələr qoyub getsin, bəlkə də onun ölməzliyi elə bundadı?! Hə?!. Yox mən mütləq Xanəgaha çatmalıyam. Mən bu sualları şeyx əzəm Mövlana Sədrəddinşah Şirvanidən sual etməliyəm. Mövlana Sədrəddinşah mənim şübhələrimə son qoyandan sonra hökmdarın qulluğuna azim olub, onunla dini mubahisəmi həll edərəm. Qəlbimdə şübhələr mövcud ikən heç bir müsahibə aparmaq cayiz deyil».

...Karvansaranın həyətində əzan səsi eşidildi. Könüllü azançı şiə dərvişlərdən biri idi. Yerindən qalxan tacir, sövdəkar, sarvan, bəzirgan, əlinə aftafa götürüb abdəst almağa girişdi.

Dodaqlar təkbir deyir, qəlblər pıçıldayırdı: «İlahi, məni zamanın xəta-bəlalarından qoru! Pərvərdigara, yoluma quldur çıxmasın, malım qəsbkara qismət olmasın! Xudaya xudavənda, özün mənə gəlirli bazar, əli pullu müştəri yetir».

Görəsən, karvansaranın tövlələrindən birində gecələyən, təzəcə hərrac bazarından alınmış qullar müxtəlif xalqların oğul və qızları öz qəlbində, öz doğma dilində yüksək pərvərdigarına üz tutub nə deyir, istixasəsi nədir, nə istəyir onu xəlq edən xəllaqi-aləmdən? Alnına köləlik damğası vurulmuş, qulağına köləlik tanası keçirilmiş, boynu kündəli, ayağı zəncirli qullar nə deyir, necə yalvarır, nə istəyir ilahisindən? Bu qullardan tək bircəsinin – Aytəkinin qəlbində heç bir arzu olmadığı bizə məlumdur. Qalanlar arzu edə bilərdilər ki, bir sərkərdənin, vadəkanın başında ağır iş olsun, ölüm-itim ayağında qul azad etməyi nəzir desin və onu növbəti hərrac bazarında satın alsın, sənəd versin, əlini kürəyinə çəksin: «Get, Allah yolunda səni azad elədim», deyib köləlikdən azad eləsin. Onda həmin qul da sənədini əlinə alıb, öz şəhərinə, kəndinə, qəbiləsinə yola

düşər. Orada onu gözü yaşlı ana, saçları vaxtsız pambığa dönmüş yarı gözləyir. Getsin, vaxtsız qocalan sevgilisinə qovuşub getsin.

Eləmi düşən ağlar,
Qürbətə düşən ağlar,
Düşmən gözünə düşsün
Saçına düşən ağlar.

Aytəkinin isə belə bir arzusu yoxdur, qəbiləsi də dağılıb. Ata-anası da didərgin düşüb. Kim bilir, bəlalı başlarını kimin qapısı qabağında daş üstünə, torpaq üstünə qoyub dağlı sinəsindən son ah çəkib, bala həsrətli gözlərini namərd dünyaya yumublar... Aytəkinin bu dünyada heç kəsi yox idi.

## ŞAH-DƏRVİŞ VƏ YA «MƏCLİSİ-SƏMA»

Onlar ikilikdə oturub söhbət edirdilər. Bir neçə ayın yolu gəncləri xeyli yaxınlaşdırmışdı. Cavan dərviş İbrahim, tacir Rəfinin «oğluna» mehir bağlayıb, bir an ondan ayrı durmur, onun xətrinə qoca tacir Rəfiyə «ata» deyir, bütün tapşırıqlarını canla-başla yerinə yetirirdi. Bəzən qocanın sifətində xəstəlik, yorğunluq əlamətləri görünəndə, dərviş, tez kəşkülündən yalnız özünə və həmməsləklərinə məlum olan otlardan, qurutduğu ələfiyyatdan düşdükləri karvansaranın sahibindən birovuz aldığı qazançaya tökür, üstünə lazım bildiyi miqdarda bir, ya iki kasa su əlavə edir, qaynadır və bu davanı zor-güc, ya da xoşluqla «ataya» içirirdi. Bir-iki gün keçməmiş «ağa dərvişin duaları» sayəsində qoca ayağa qalxır və birlikdə növbəti karvanların birinə qoşulub yola çıxırdılar. Əlbəttə, qoca Rəfi irəlicədən sarvanla danışır, ona pənah gətirirdi. Yanındakı xırım-xırdasını da mütləq sarvana etibar eləyirdi.

Yol kəsən qəsbkarların, düzü-dünyanı tutmuş dərəbəylərin bildiyini elədiyi bu dünyada başqa cür ola bilməzdi. Nədənsə qoca yalnız iri karvanlara qoşulur, cavan dərvişin

təkidlərinə baxmayaraq, kiçik dərviş dəstələri ilə yola çıxmırdı. Odur ki, cavan dərviş İbrahimə minnətdar olsa da, ondan ayrılmaq istəməsə də, qoca tacir dərviş dəstəsindən bacardıqca aralı gəzirdi.

Keçən mənzildə titrətmə-qızdırma tacir Rəfini elə hala saldı ki, kişi yatağından qalxa bilmədi, yarı mənzildə çölün ortasında huşunu itirə-itirməyə qaldı. Bu zaman etirazına baxmayaraq dərviş İbrahimşah onu «oğlu» ilə birlikdə dərvişlərin yaxında mövcud olan xanəgahlarından birinə gətirdi. Bir neçə gün burada qaldılar.

Xanəgah quru səhrada rəhmətlik bənna Novruzqulunun tikdiyi ovdanlardan birinin yanında salınmışdı. Yaxında qocaman bir tut ağacı da var idi. Tut ağacının budaqlarını zaman burub-burub döyənək eləmişdi. Bəzi budaqları quruduğundan kəsilmiş, cavan pöhrələri təzədən yamyaşıl bulud-tac kimi kök üzərindən göylərə qalxmışdı. Daim eyni tərəfə əsən səmt küləkləri onun gövdəsini bir qədər cənuba əymiş, elə bil kimə isə salama gətirmək, baş endirtdirmək

istəmiş, amma budaqlar etirazla yenidən göylərə baş qaldırmışdı.

Tacir Rəfi sağalanacan onun «oğlu» ilə dərviş İbrahimin günləri bu ağacın altında keçdi. Gecələr isə... Gecələr dünya İbrahim üçün dəyişirdi. Axşam düşcək xanəgahın qapısında dərvişlərdən biri görünür, onu ibadətə dəvət edirdi. O da böyük bir təəssüf hissilə yerindən qalxır, dostundan ayrılır və içəri keçirdi. Bir dəfə Aytəkin bu ibadətin nə olduğunu bilmək istədi. İbadətgahın daş-şəbəkə pəncərəsindən boylanıb baxdı: gözləri bərabərində altı dərviş gördü. Otaq yarım qaranlıq idi, küncdən zəif bir işıq gəlirdi. Görünür, içəridə divar dibində ocaq və ya çıraq yanırdı. Torpaq döşəmənin üstündə hər dərviş altına birər qoyun dərisi salıb oturmuşdu. Aytəkin onların hamısını tanımırdı. Görünür, bəzisi inzivaya çəkilənlərdən idi. Ortada əyləşən dərviş qoca idi, bığları, sinəsinə düşmüş saqqalı tamamilə ağappaq idi. Əynində dəri xirqə, başında sivri uclu keçə papaq var idi. Ağ, uzun saçları papağın altından çıxıb çiyinlərinə dağılmışdı. Qarşısında diz üstə çökmüş İbrahimşahın

suallarına cavab verirdi. Qız pəncərədən baxanda İbrahim soruşurdu:

– Ya şeyx, təriqətinizdə xəlvət ilə zikr yoxdursa, bəs nə üzərində müəssisdir?

Söhbət, görünür, qız qulaq asmağa başlayandan əvvəlki müsahibənin davamı idi. Qoca dərviş bir az düşünüb zəif səslə aram cavab verdi:

– Zahirən xəlq ilə, batinən həqq ilə bulunmaq üzərində müəssisdir. Təriqəti-əliyyeyi-nəqşiyyə minkülləl-vücud mütabiqişəri-əşrəf olub piri-təriqət cənab şah Nəqşbənd həzrətləri, imami-əzəm Əbu hənifə həzrətlərinin məzhəbi-ənvərilərinə salik olduqları kimi, bu təriq məşayexnin əksərisi hənəfiyyəyə tabedir.[35]

– Ayəti-kəlamüllahi-məcidə münasibətiniz necədir? Onu xudavəndi-mütəalın rəhmətinə gedənlər üçün oxumağı

---

[35]Xacəzadə Əhməd Helmi – «Həqiqətül-övliya-sadati-nəqşiyyə», Bab-Ali, 1900, səh. 48-49.

zəruri sanırsınızmı?

Şeyx fikrə getdi. Düşündü. Cavan müsahibinə nə yolla cavab verməyi fikirləşirdi. Elə olsun ki gəncin qəlbində şübhələr meydana gəlməsin. Odur ki, «Qisəsüs-övliya»dan misal çəkməyi zəruri sandı. Nazik əlini pambıq kimi ağ, ipək kimi yumşaq saqqalında gəzdirib dedi:

– Şeyx Əbu Səid həzrətlərindən sual olundu: «Sizin cənazənizin önündə hansı ayat oxuyaq?» Dedi: «Cənazəmizin önündə ayat oxumaq böyük savab işdir. Amma bu beyti oxuyun:

Çist əzin xubtər dər həme afaq kar,
Dust rəsəd nəzdi-dust, yar benəzdiki yar?[36]

Bir xoş səsli tələbə də bu rübaini oxusun:

Muflisanim aməde dər küye-to,

[36]Dünyada bundan gözəl nə ola bilər ki, dost dosta yaxın gedə, sevən sevənə qovuşa.

Şaye-allah əz cəmali-rüye-to,
Dəst beqoşa canibi-zənbili-ma,
Afərin bər dəsto bər bazuye-to[37].

Şeyx Əbu Səid həzrətlərinin xələflərinə vəsiyyətindən məna budur ki, rəhməti-xudaya gedən insan öz allahına, xəllaqına qovuşur, yəni dost dost yanına gedir. Ayati-şərif dirilərdən ötəridir ki, xəllaqi-aləmin Rəsuli-əkrəm vasitəsilə nazil etdiyi qanunları, təriqətləri mənimsəsinlər, sirati-müstəqim ilə getsinlər, həvayi-nəfsə tabe olmasınlar.

Aytəkin xeyli qulaq asdı. O, sözlərin mənasını dərk etmir, farsca şeirləri başa düşmür, şeyxin və dostunun söhbət və

[37]Yanına gələn müflislərik, camalını görənə şükür olsun: əlini bizə uzat, sənin əl-qoluna afərin olsun.

müsahibəsindən isə yalnız tək-tək sözləri, kəlmələri anlayırdı. Müsahibə bitməmiş İbrahimşah dizləri üzərində qalxındı və aram səslə oxumağa başladı:

Xaceyi-piri-Bahaəddin şah Nəqşbənd, Himmətindən
mürdələr buldu həyati-cavidan, Riyzəçin feyz oldu ərbabi-süluk,
Zahiru batin edər imdad xəlqə bigüman.
Ziyn edüb nuri-vilayətlə kəramət kişvərin,
Etdi izhari-kəramətlə təriqin gülistan.

Cavan dərviş oxuduqca dövrəsində əyləşən dərvişlər yerlərində yavaş-yavaş yırğalanırdı. Cavan başqa, daha coşqun, insanı cuşə gətirən mənzumələrə keçdikcə haradansa həzin bir musiqi ucaldı. Dərvişlər xirqələrini yırtıb atmağa başladılar. Onlar yırğalandıqca məclisin ortasına doğru hərəkət edirdilər. Dərvişlər çoxaldı. Demə, qızın görə bilmədiyi tərəflərdə – divarların dibində başqa

dərvişlər əyləşibmiş. Dərvişlərin yuxusuzluqdan, istirahətsiz, dərbədər həyatdan yorğun gözləri qızarmağa, qan piyaləsinə dönməyə başladı. İndi onlar qəribə, heybətli səslər çıxarır, yerlərindən qalxıb fırlanır və qıza gülünc görünən hərəkətlər edirdilər. Bir çoxu artıq xirqəsini atıb cəzb olunmağa başlamışdı. Dərvişlərin «Məclisi-səma» – musiqi, cəzb yığıncağı bu imiş... Gördüyü qəribə hadisə son illər, aylar ərzində başına xeyli macəra gəlmiş, əldən-ələ keçmiş, qul bazarında satış mənzərələrini görüb sarsılmış Aytəkinin belə vücudunu ürpətdi. Ona elə gəldi ki, indi bu saat ayaq üstə qalxıb, coşqun bir cazibə ilə şeir oxuyan İbrahim də, az keçəcək, xirqəsini atıb cəzb olunanlara qoşulacaq və qız onun qan dolmuş gözlərini, gülünc hərəkətlərini, çılpaq vücudunu görüb dəhşətə gələcək. Dözmədi, daş-şəbəkə pəncərənin önündən çəkildi. Xanəgahın sağ əlindəki hücrədə yatan Rəfinin yanına gəldi. Qocanın dəhşətli titrətmədən sonra gələn dəli qızdırması bir az azalmışdı. Amma titrətmə ilə qızdırma onu xeyli zəif salmışdı. «Su, su», deyib inləyir, qurumuş lök dodaqlarını yalayırdı.

Aytəkin küncdə qazılmış nəm çuxurdan balaca sovçanı aldı, qapazlığını götürüb açdı, başını dala əyib sovçanın sərin suyundan əvvəlcə özü bir neçə qurtum içdi. Sonra da hücrənin kifsimiş taxçasından mis camı qaldırdı, içinə azacıq su töküb Rəfiyə gətirdi. Qoca titrək əlləri ilə camı almaq istədi, bacarmadı, qız camı qocanın nifrət etdiyi dodaqlarına, yaxınlaşdırdı. Xəstə sərin sudan bir qurtum içdi: «Salamullah», dedi, gözləri camın yazılı kənarında gəzdi, «Əməli-usta Saleh, vəqfi...» sözlərini oxumağa çalışdı, bacarmadı. Otaqda işıq az, gözlərində isə fər qalmamışdı. Qızdırma onu əldən salmışdı.

Aytəkinin qəlbində qəribə, küt bir ağrı var idi. İlk dəfə hərrac bazarına gətirildiyi günü xatırladı.
Hərrac vaxtı bircə dəfə də başını qaldırıb ətrafına baxmadı. Zolaqlı ağ yaylığının ortasına dairəvi qıl keçirib uclarını üzünə kölgəlik etmiş ərəblər, at dərisindən geymə geymiş tatarlar, iri qazanı andıran dəri papağının yun saçaqları gözlərinin üstünə düşmüş türk-manlar, ağ

əmmaməli farslar, hindlilər – yarımçılpaq nubiyalılar, yaxası güləbətin çuxalı ermənilər, keçə təsəkli, çərkəzi çuxalı gürcülər, çərkəzlər, mahud paltarının yaxasından və qollarından sabun köpüyünə bənzəyən ağ yaxalıq və qolçaq görünən avropalılar, rus tacirləri, zolaqlı, sırıqlı xələt geymiş özbəklər, xivəlilər, mərvlilər, əlvan geyimli Xorasan, Sind, Pəncab, Bəlx tacirləri hərrac bazarında kirt vururdular. Bazarda başındakı tabaqda lülə nabat, təpə kimi noğul gəzdirən ayaqçı-qənnadıçılar, xırdavatçılar, aralıda zərgərlik məmulatını tərifləyən zərgərlər, qarşısındakı qutuların üstünə müxtəlif dəyərli, müxtəlif ölkələrdə kəsilmiş sikkələri qalayıb pul dəyişdirən sərraflar, çiynində və qolu üstündə əlvan xalı, xalça, yəhər üzlüyü, heybət, dölbənd, rəngarəng at çulları, dəvə cihaz-bəzəyi gəzdirən tərəkəmələr, ayaqçı satıcılar bir-birinə qarışıb, müxtəlif dillərdə, cürbəcür səslər çıxararaq mallarını tərifləyir, qarmaqarışıq bir səs-küy aləmi yaradırdılar. Qız bütün bunları görmürdü. Bircə dərdi vardı. Yarımçılpaq bədənini qanovuz örtüklə bürümüşdü, indi kim isə yaxınlaşacaq, örtüyü qaldırıb baxacaq, bədəninin müxtəlif yerlərini əlləyəcək, at alıcısı kimi ağzını

ayırıb dişlərinin tənasübünə baxacaq, sonra da qiymətlənəcəkdi.

Onu satan tacir alıcıları sifətindən, geyimindən tanıyır, bəzisini heç baxmağa qoymur, tez-tez deyirdi:

– Varındı – giriş, yoxundu – sürüş.

Sonra başına o qədər işlər gəldi ki... Bu neçə müddət ərzində o bir neçə ağaxanım dəyişmişdi; dəyişməyə məcbur olmuşdu. Ağalar ona tamah salmış, xanımlar nifrət etmiş, qısqanmış: «İş-güc bilmir», – deyə satdırmışdı. Evlərindən çıxanda on dörd yaşını təzəcə doldurmuşdu. Qəlbində hələ məhəbbət yuva salmamışdı. Nifrət isə istədiyin qədər var idi. Utancaqlıq və həyasını birinci dəfə ata yurdundan, ana qucağından didərgin salındığı, qardaş cənazəsi üstündən qoparılıb qul bazarına gətirildiyi və birinci dəfə lüt soyundurulub, yad gözlərə nümayiş etdirildiyi günlərdə, hərrac bazarında əlindən almışdılar. Bakirə də olsa, sonrasını xatırlamağın mənası yox idi.

Bu müddət ərzində oxumaq da öyrənmişdi, oynamaq da. Rəqsə elə kəndlərində olandan həvəsi var idi. Toylarda o qədər oynardı ki, yoruldum deməzdi. Alababat səsi olduğunu, rəqs qabiliyyətini görən kimi, qul alverçiləri ondan daha artıq qazanc əldə etmək üçün Aytəkini bir neçə başqa qızla birlikdə musiqi, rəqs və xanəndəlik təlimi ilə məşğul olan Səlmi adlı bir qadına tapşırdılar. Qardaşının öldürüldüyünü bilirdi, anası ilə atasının başına nə gəldiyindən xəbərsiz idi. Onlardan ayrılandan sonra əgər bircə xoş gün görmüşdüsə, o da həmin Səlmi qadının evində – özü kimi fələkzədə qızların yanında görmüşdü. Səlmi ona rəqsin ən incə yollarını öyrətmiş, rübabda çalmağı və zəif səsi ilə ürəkdən gələn nəğmələr oxumağı təlim etmişdi. Dərdlərinə tərcüman olan bu nəğmələri Aytəkin məharətlə oxuyur, dinləyənlər zəif də olsa səsinin təravətinə heyran olurdular. Məharəti artdıqca, satış qiyməti də artırdı. Amma daha onu indi xırda-xuruş dövlətli evlərinə satmağı tacirlər

özlərinə rəva bilmirdilər. Aytəkin gözəlliyi və bacarığı ilə saraylar bəzəyi idi.
Nəhayət, qocalıb əldən düşmüş tacir Rəfinin cənginə keçmişdi. Tamahkar qoca, qızı Təbrizə aparmaq, vəzirlərdən, sərkərdələrdən birinə, bəlkə də mümkün olsa, şahın özünə satmaq ümidilə bu ağır yola çıxmışdı. Səfər başa çatanda tacir Rəfi də artıq karvanlardan, sarvanlardan, uzun yollardan əl çəkəcək, evində, külfətinin yanında qalacaq, Aytəkinin satılmasından əldə edəcəyi və daim yanında gəzdirdiyi ömürlük ticarət qazancı ilə ömür-gününü başa vuracaq idi. Rəfi qızı xeyli baha qiymətə almışdı, sonra da bu səfərdəki qazancın bir qismini mala verib tanıdığı bəzirganbaşıya tapşırmışdı. Özü də əlindən alarlar deyə qorxusundan qıza oğlan libası geydirib «oğlu» adı ilə səfərə çıxmışdı.

Aytəkin xəstə qocanın iztirablarını görüb bir anlıq kövrəldi, ona yazığı gəldi, lakin bu yalnız bir an çəkdi. Qocanın əməllərini yadına salanda (bunlar heç yadından çıxırdı ki?) yenidən qəlbini nifrət odu qarsaladı. «Deyək ki, zəmanə

belədi, deyək ki, alnımıza belə yazıb Allah, qədərimizdi. Bəs onun özü adamlığını itirməyibmi? Gördüyüm başqa yaxşı insanlar, halal əməyi ilə, əlinin rənçi ilə dolananlar kimi dolana bilməzdimi? Yox, o qutabsifətin elə özü əvvəlindən iblis doğulub. Div doğulub. Nağıllardakı divlərdən nəyi əskikdi? Mənim isə ona yazığım gəldi. Yazığım! Quzunun qurda yazığı gəlib! İşə
bax sən Tanrı!» – deyə öz-özünə mızıldandı.

Təkcə satınalınma əməliyyatından sonrakı günlərin birində baş vermiş hadisə bəs idi ki, Aytəkin qoca Rəfiyə ölənəcən nifrət etsin. Aytəkin həmin hadisəni bu gün olmuş kimi xatırladı, gözlərinin önündə canlanan vahiməli bir xəyal kimi tacir Rəfinin sifəti qəribə idi, elə bil ki, onun hər iki ovurdundan və gicgahlarından basmış, alnını, burnunu və çənəsini sərt bir şəkildə irəli çıxarmışdılar. Elə bil ağrıdan indi də onun gözləri hədəqəsindən çıxırdı. «Üzü lap tabaqdır», – deyə qız düşündü. Əslində bu üzlə tabağın arasında heç bir bənzəyiş yox idi. Sadəcə, qız, üzün yastı-yapalaqlığını tabağa bənzətmişdi. Odur ki, qəlbində ona

«tabaq» ləqəbi verib, haqqında eləcə düşünürdü. İndi tacirin bu «tabağa» bənzəyən siması daha da qəribə, qorxunc olmuşdu. Ehtirasdan domba gözləri daha da qabarmışdı. Hər biri matəm məşəli kimi hisli-dudalı işıq verirdi. Ağzı, daha doğrusu, arabir iştahayla yaladığı lök dodaqları sulanırdı. Batıq ovurdlarından rəşə keçdikcə damarları oynayır, udqunduqca aşağı-yuxarı cuman hülqumu fasiləsiz qalxıb-enirdi. Kişinin sarımtıl tük basmış arıq, damarlı əlləri də aramsız səyriyir, özünə yer tapmırdı. Adəti bir hərəkətlə, qul tacirlərinin etdiyi kimi, qız bədəninin müxtəlif yerlərinə toxunur, ilan çalmış kimi qıvrılır, dişlərini qıcayır və görünür ki, özünü güclə saxlayırdı. Nəhayət, dözmədi. Qızın üstünə cumdu. Qız anladı! Bütün dəhşətilə anladı ki, deyəsən, iş-işdən keçəcək, namərd əli bədənini murdarlayacaqdır. Hıçqırıqlarını udub, qəzəb saçan gözlərini sulanmış domba gözlərə dikdi:

– Yadında saxla, şahın başı üçün, şahın qulluğuna çatanda birinci şikayətim bu olacaq. İnan və bil ki, mən əzəl-axır onun qulluğuna çatacağam. Məni kimsəsiz bilmə!

Kişi duruxdu. Qız ilk dəfə idi ki, bu andı içirdi: «Şahın başı üçün» deyib qəsəm yad edirdi. Bu and qorxaq qocanın kefini pozdusa da, ağlını üstünə gətirdi.

– Necə? Sən şaha deyəcəksən?

– Deyəcəm! Şahın başına and olsun ki...

– O da sənə qulaq asacaq? İnanacaq?

– Bəs necə? – Qız anladı ki, yenə müvəqqəti olsa da hər halda qələbəni o qazanmışdır. – İnanacaq! Şah mənim bütün sözlərimə inanacaq! – Qəlbində  düşündü: «Mantar kimi kütsən, ay allahın qoyunu». Ucadan dedi: – əlbəttə, mənə də inanmayıb kimə inanacaq? Mən ona bütün başıma gələn qəziyyələri danışacam. Sənin barəndə ayrıca deyəcəm, artığın gətirib sənə, şahım!

– Elə şahın iş-gücü qurtarıb, bircə sənin qəziyyənə qulaq asmağı qalıb. Qibleyi-aləm bütün kənizlərə qulaq assa, padşahlığı kim dolandırar?

– Ağıllı vəzirlər. Amma heç kimə qulaq asmasa da, mənə qulaq asacaq. Bircə dayan ora çataq. Onda özün görəcəksən ki, məni almağına və elə-beləcə də əl dəyməyib aparmağına

peşman olmayacaqsan.

Qəlbində düşündü: «Ulu tanrım, mən nə danışıram? Axı neyləyim bəs? Kim mənə qahmar duracaq? Bir ümid, təkcə bir ümidlə uydururam. Təki şahın qulluğuna çataq. Sonra nə olacaq, olsun».

Tacir isə düşündü: «Əşi, köpəyin qızı yalan demir ki! Birdən aldadar məni ha!.. Yox canım, bu boyda yalan olmaz! Görünür, şahın əqrəbasından, bəlkə də, istəkli kənizlərindən biridi. Necə olubsa, ələ keçib, gətirib satıblar qul bazarında. Mən də almışam. İndi birdən, doğrudan, şahın yaxın adamlarından olsa, yaxşılıqla aparsam ənam allam; yamanlıqla aparsam hələ bəlkəm boynumu da vurdurar. Yox, cəhənnəmə! Nə olur-olsun mən bunu belə biləndən sonra gözüm kimi qoruyub, şaha aparmalıyam».

Qoca hündürdən güldü və qıza qıyqacı baxdı.

– Zarafat eləyirdim aaz, sən də özündən söz qayırma. Neyşim var səniynən. Dünyada qız qəhətdir? Özüm öz

əlimlə şaha apardığım gül dəstəsini korlayaram ki, heç ənamımın da azala? Bunu hansı ağılsız elər?
Qızın qəlbi sakitləşməyə başladı. Aylardan bəri gülməyin nə olduğunu bilməyən dodaqları xəfifcə səyrişdi:
– İnanımmı?
– İnanmırsan? Şahın başı üçün, zarafat eləyirdim.

«Ay səni yalansa yerə girəsən. İndicə dediyinə özün də inanırsan, bir az əvvəlki halını unudub dünyada ən müqəddəs bildiyin bir şeyə and içirsən. Tacir ki tacir! Gərəyin olsa, şahını deyil, ananı da satarsan... Uf, məlun!»

«Nadürüstün qızı, heç inanar? Mən də lap day ağ eləmişəm. Elə bil dünyada arvad qurtarıb, bir bu qalıb. İnsafən, elə şah sarayına layiqli qızdı. Amma innən belə day bunu elə-belə apara bilmərəm. Yol-iriz qaçaq-quldurla doludu. Heç bilmirəm nə çarə eləyim? Hə... Əla! Vallah, məndə baş var ha! Heç şahın bəzi vəzirlərindən geri qalmaram. Kim bilir? Bəlkə, elə bu mənim bəxt ulduzumdur. Bəlkə, elə şahın qulluğuna aparandan sonra, bir də gördün mənim bu fəndimi

bəyəndi, yanında vəzirdən-vəkildən birinə dedi: dur bala, düş döşəkcənin üstündən, dövlətə belə tədbirli kişilər lazımdı! Şahın başı üçün, şaha sədaqət məndə, bir də ki ağıl... vallah... ağıl dəryasıyam». Qıza tərəf dönüb ucadan dedi:

– Ay qız, gərək özünü qoruyasan, mən də səni əl dəyilməmiş apara bilim. hə...yol-iriz də ki, qaçaq-quldurnan dolu. Gəlsənəm bir ağıllı iş tutaq?

– Nə iş?

– Bir dəst oğlan libası alım sənin üçün. Gey əynüvə, yolda da kimə irast olsaq, deyərəm ki, sən mənim oğlumsan guya... hi.. hi... hi... hə necədi səninçün?

– Yaxşı məsləhətdi. Qız qəlbən bu işə sevindi. İndi o, özünü nalayiq baxışlardan xilas olmuş sana bilərdi. Yola çıxanda isə cavan hərisi olanlardan qurtarmaq üçün sir-sifətini qaralamışdı, bel-buxununu sarıyıb-sarmalamışdı. Sitizə gözlərdən can qurtarmışdı...

MÜƏMMALI MƏHƏBBƏT

İndi həmin hadisədən bir-iki ay keçib. Qocanı qəfil qızdırma yorğan-döşəyə salıb. İyrənc xəyal qızın nəfəsini tıxadı. Elə bildi ki, yenidən boğulur: «İşə bax sən allah», – deyə təkrarladı. Özünə acığı tutdu. Yollarda dəfələrlə, elə indinin özündə də Aytəkinin qaçmaq imkanı olmuşdu. Amma hara? Kimin yanına qaçacaq idi? Bütün yolları kəsilmişdi, ata-anadan, doğma qəbilədən məhrum olmuşdu. Qaçsaydı nə faydası? Yenə də yollarda başıpozuğun birinə rast olacaqdı. Yenə də əldən-ələ keçəcək idi. Bütün bunları bilirdi, odur ki, taleyinə boyun əymişdi. Yalnız bu axır vaxtlarda dərviş-qələndər İbrahimə rast olandan sonra qızın könlünə qəribə bir istilik gəlmişdi. Amma bunun da faydası yox idi. Dərbədər dərvişin özünün nə günü vardı ki, ona nə gün ağlaya idi? Odur ki, qız dərdini dostuna açmadan ona arxadaşlıq edən gəncin qərəzsiz qardaş nəvazişlərini qəbul edirdi.

Bir qədər hücrədə dolaşdı, artıq kişinin zarıltılarına cavab

vermir, «su... su...» iniltilərini də eşitmirdi.

Heybəni açdı, karvansaradan götürdükləri çörəyi, pendiri çıxarıb bir az yedi, yenə də sovçadan su içdi, özünə bir iş tapa bilmirdi. İbrahim burada olsaydı, heç olmasa oturub söhbət edərdilər. Bu ümidlə də qalxıb xanəgahın həyətinə çıxdı. Görünür ibadət bitmişdi. Dərvişlər iki-bir, üç-bir ibadət otağından çıxıb hücrələrinə dağılışırdılar. Sakit bir gecə düşürdü. Ayın özü görünməsə də, aydınlıq idi. Səmanın dərinliklərində minlərlə qızıl pul kimi parlaq ulduzlar sayrışır, fəttan gözlər kimi göz qırpırdılar.

Aytəkin gözünü ibadət hücrəsinin naxışlı tağ qapısına zillədi. Budur İbrahimşah da çıxdı. Şah!.. Hələ bir şaha bax! Özlərini nə üçün şah adlandırırlar, görəsən, bu dərvişlər? Əyinlərində yamaqlı xirqədən başqa bir şey yoxdu. Əksəriyyəti cır-cında, xıdır-zında... başaçıq, ayaqyalın, bir kəşkül, bir təbərzin. Başı muncuq, əlvan cındırlar və saplarla bəzənmiş çomaq! Təkcə İbrahim belə deyildi. Onun geyimi nisbətən təzə və təmiz idi. Çiynində içi kitab dolu heybəsi

vardı. Bu kitablardan bəzisini düşərgələrdə çıxarıb oxuyur, arabir maraqlansa ona da oxumaq üçün verirdi... «Mənazirə», «Fərayiz», «Nisab», «Fiqh», «İsaquçi», «Fənari», «Sülləm», «Şərhi-İsaquçi»... Bütün bunları da o, başqa səfirlər kimi çörək əvəzinə, tacir Rəfi kimi pul əvəzinə arxasına çatıb gəzdirir, yorulmur, onlardan əl çəkmir, yatanda başını bu heybəyə söykəyib mürgüləyirdi. Hücrədə onları nəm yerdən qoruyur, bir taxça tapıb qoyurdu. Qələmdanı və qamış qələmləri var idi. Bəzən bu qamış qələmlərdən təzəsini yonanda içərisindən çıxan zoğu dostuna verir: «Ye, xeyirdi, yaddaşın möhkəm olar», deyirdi. Aytəkin düşünürdü: «Hə, mənə yaddaş lazımdır, lazımdır! Mən heç nəyi unutmamalıyam. Bəlkə, Allah irasta saldı, qardaşımın, ata-anamın, qəbiləmin qanlısı əlimə keçdi. Ovuc-ovuc qanından içə bilsəm, bəlkə onda ürəyim soyudu. Hələ qanlımı təkcə «şah» adlandırmırlar. Deyirlər o din müəssisi bir şeyx, gözəl qəzəllər yazan şairdir!

Deyirlər mənim qəbiləmi dağıtmaq hökmü verəndə elə mənim yaşımda imiş. Yaşıdım imiş! Şair! İndi deyirlər elə

kamil şeirlər yazır ki! Səlmi xala onun qəzəllərindən bizə oxudardı. «Qəribə padşahdır şahımız, deyərdi, doğma ana dilimizdə, görün nə gözəl qəzəllər yazıb. Farsın müqtədir qəzəlxanlarına meydan oxuyub, sübut eləyib ki, bizim dildə də gözəl qəzəllər yazmaq olar:

Ol sənəm kim gecə-gündüz can onun heyranıdır.
Əqlü fəhm ondan bərü eşq ilə sərgərdanıdır.
Dilbərim, yarım, əzizim, qəmkusarım, munisim,
Canikarım, sevgi yarım, canımın cananıdır.
Bu Xətai şerinə eyb etmə, ey nakəs həsud,
Cümlə üşşaq əhlinə həmdəm onun divanıdır.

Bəs «divanı eşq əhlinə həmdəm» olan şair də öz camaatına divan tutarmı? Sənin köksündəki doğrudanmı, şahim, şair ürəyidir? İnanmıram! İnanmıram!». – Son sözləri hündürdən dedi.

– Sən nəyə inanmırsan, qardaşım? – Sualı özünü unudub xəyallarına qərq olmuş Aytəkinə İbrahimşah verirdi.

«Hə... İkinci bir «şah» da budu gəldi». Qız xəyalına

gülümsəyib sözü dəyişmək üçün soruşdu:
– Ağa dərviş, neyçün siz dərvişlər özünüzü şah adlandırırsız?
– Bunun bir neçə səbəbi var, qardaşım! Əvvəla, bizim mabeyimizdə gəda ilə şah, fəqir ilə padişah arasında fərq yoxdu. Biz özümüzü şahdan-sultandan əskik bilmirik. Fəqr sultanıyıq. Digər tərəfdən, dərvişlər özləri özlərini şah adlandırmırlar. Xələflər, müridlər elm və bilikdə seçilən dərvişləri şah adlandırır, yəni elmin, biliyin şahı.
– Aydın oldu.
– Dədən necədi?
Rəfinin «dədə» adlandırılması qızın ətini çimçəşdirdi.
– Ağam babatdı, – dedi, – bayaq qızdırma aparmışdı onu, indi qızdırma çəkilib, zəifləyib, su istədi verdim. Deyəsən, yuxuya gedib. Tək darıxıb çıxdım.

«Ağa» sözü dərvişi təəccübləndirmədi. Çoxları atasını «ağa» adlandırırdı.
– Məni gözləyirdin?
– Hə... Deyirdim söhbət elərik. Heç yuxum gəlmir.

– Tezdi, mənim də yuxum gəlmir. Bir şey yemisən? – Bir az pəndir-çörək.

İbrahim:

– Bizə qoşulsaydın heç nə itirməzdin. Elə indidən yeməyin bizimkindəndi, – deyə güldü. Əlindəki bağlını qıza uzatdı. – Gəl. Xanəgaha ehsan gəlmiş halva-yuxa yeyək.

Birlikdə daş üstündə oturdular. Həyətdə onlardan başqa demək olar ki, heç kəs yox idi. Hamı ibadətini bitirib «yatmaq da ibadətdəndi», – deyə hücrəsinə çəkilmiş, qoyun dərisini altına sərib xirqəsinə bürünmüş yatmışdı. O iki gənc isə yata bilmirdi. İndi artıq ay da ucalmışdı, ətrafı nura qərq etmiş, kölgələri sehrli əsrarəngiz bucaqlara qovub dünyanı işıqlandırmışdı.

Halvanı məharətli bir nənə çalmışdı. Yuxanı Güləz kimi topurca biləkli, yaxası mixək qoxulu, nəfəsi hil rayihəli bir gəlin yaymışdı. Elə şirin, elə dadlı, elə ətirli idi ki, ağıza qoyulan kimi kərə yağı təki əriyir, zəfəranın iyi bihuş eləyirdi. Hər ikisi özünü ana dizinin dibində, doğma ana

ocağının qırağında sandı. Hər ikisi yanıqlı bir ah çəkdi. İbrahimşah qibtə ilə səsləndi:

– Sən niyə ah çəkirsən? Sənə nə var ki! Bir ay yarımdan sonra evinizə çatacaqsan, anan bu halvalardan, daha dadlı şirniyyatdan-zaddan bişirəcək, yeyəcəksən. Dərd mənim dərdimdi, ata görməyəcəyəm, ana görməyəcəyəm. Diri yetimin, qələndərin biriyəm...

Qız özünü unutdu, harada, kiminlə danışdığının fərqinə vara, özünü saxlaya bilmədi, pıçıldadı:

– Mənim anam yoxdur...

İbrahimin səsində təəssüf duyuldu, dostunun yaralı yerinə toxunmuş, dərdini təzələmişdi:

– Bağışla, qardaş, vallah ananın rəhmətə getdiyini bilməmişəm.

Aytəkin diksindi. Sirrinin açıla biləcəyindən qorxdu. «Qələndər dərvişliklə rəqsanlığın arasında fərq görsəydim, dərdimi sənə açardım. Qurtar məni bu nadanın əlindən, apar dünyamızın o başına. Amma nə yazıq ki, sən özün də

fələkzədə, qələndərin birisən» – deyə düşündü, ucadan isə:

– Hə neynəmək olar, hamının gedəcəyi yoldur, – dedi.

– Elədi, Allah rəhmət eləsin.

– Səninkilərlə belə. Amma bu kişi də mənim atam deyil. Ağamdır. Məni hərrac bazarından alıb, qulam...

Aytəkinin səsi qırıldı, əllərini üzünə, dirsəklərini dizinə dayayıb hıçqırdı.

İbrahimşah az ömründə çox qul görmüşdü, hərrac bazarlarından çox keçmişdi. Satılan kənizləri, qulları seyr etmişdi. Həmişə də biçarələrin halına yanmışdı. Amma qulu bu qədər yaxından görüb, səsini, dərdini eşitməmişdi.

«İlahi, qardaş kimi sevməyə başladığım bu zavallı nə bəlalı imiş! Nə fələkzədə imiş! Deyirəm axı, nə o «ata» buna bircə dəfə «oğul», nə də bu onu «ata» adlandırıb. İlahi, nə ağır dərddi. Kaş pulum olaydı, alaydım: «azadsan, qardaş, istəyirsən vətəninə get, hara istəyirsən get, quş kimi azad uç! Ya da mənə, səni qardaş kimi sevən dərvişə qoşul, cahanı seyrə çıxaq» deyərdim. Nə yazıq ki, əlimdən gəlməz... Bu

düşüncələrlə də o, sağ əlini dostunun titrək çiyninə qoydu, mülayimliklə dilləndi:

– Xudanın alnımıza yazdığı yazıdı... Nə etmək olar... Neynək... Fikir eləmə... Səhər şeyximlə danışaram, bəlkə xanəgahın vəqf pulundan bir miqdar ayırıb səni aldıq, azad edə bildik...

Aytəkin artıq özünə gəlmişdi. Oğlanın onun dərdinə belə ürəkdən şərik olması onu ovundurdu. Amma Rəfinin onu şeyxin verə biləcəyi cüzi pula satmayacağını bilirdi. Rəfi qızı saraya aparmaq, böyük qazanc əldə etmək xəyalında idi. Odur ki, sükunət içində dedi:

– Çox sağ ol, ağa dərviş! Amma o ölsə də, məni əldən buraxmaz. Ağzını ağrıtma.

İbrahimşah təəccüb etsə də, bir söz demədi. Dostunun fikrini başqa səmtə yönəltmək üçün özündən danışmağa başladı. İstəyirdi ki, dostu onun da dərdli olduğunu bilib təsəlli tapsın:

– Anam elə mehriban anaydı ki!.. Atam da elə gözəl insan idi! İstəyirdi mən oxuyum, savadlanım. Özü tacir ola-ola elmin qədrini bilirdi, savadı da var idi. Mənə elə yaxşı şeirlər oxuyardı ki! Günlərin birində, mən məktəbi tamam eləyənə yaxın bir dərvişə rast oldum. Mənə dünyamızdan qəribə şeylər danışdı. Dedi ki, əsl insan həqqə varmalıdı, həqqi tapıb ona qovuşmalıdı. Həqqin yolunda canından keçməlidi. Məgər sən görmürsən ki, dünyada nələr olur. Biri pərilə gülşən seyrində, o biri bir tikə çörəkçin əl açıb pay yığır? Dərvişlə söhbətdən sonra dünyam dəyişdi. Evdə qərar tuta bilmədim. Oxuduğum kitablarda, nənəm danışan nağıllarda eşidib öyrəndiyim cahanı görmək istədim. Qələndər dərvişlərə qoşulub cahangəştliyə çıxdım. Onların içində çox bilikli, dünya görmüş bir dərviş var idi. Ələvilərdən idi. Məni də çox istərdi. Yavaş-yavaş təriqət adabını mənə başa saldı. Nə isə... Dünyadı da...

– Elədi. Bəs indi elə hey gəzəcəksən? Bir yerdə bin-binə tutmayacaqsan?

– Bilmirəm. Gəzdiyim dünya böyük, görməli yerlər çoxdu.

Hara gedirəmsə, o şəhərin alimləri ilə görüşürəm, bilmədiklərimi öyrənirəm. İndi isə... İndi məqsədim başqadı. İstəyirəm gedib Təbrizə çıxam. Yol tapıb, vəsilə axtarıb Şeyx oğlu şah ilə görüşəm.

Qızın bütün vücudu titrədi. Şahın adı gəlincə fəlakətli günləri yenidən xəyalında canlandı. Titrək səslə soruşdu:

– Neynirsən Şeyx oğlu şahı?

– Ondan soruşmalı sözlərim çoxdu. Yazdığı əsarını, nəfəslərini, qəzəliyyatını oxumuşam. Təriqətini dərk etməyə çalışıram. Əsərlərində həm hürufilik, həm nəqş-bəndiyyə, həm şiəlik izləri, mənim fikrimcə, bir-birinə qarışıb. Mənə elə gəlir ki, hakimiyyət başına keçmək, məqsədinə çatmaq üçün hansı təriqət, əqidə ona yarayıbsa, onu da götürüb, ondan yazıb. Həm də bunu mən biləni, həmin təriqətin adamlarını, davamçılarını da öz tərəfinə cəlb etmək üçün eləyib. Təriqətləri qatıb-qarışdırıb, xalqı isə parçalayıb. Bilmək istəyirəm görüm, o bunları bilərəkdən, qəsdən eləyib, ya nə?

Aytəkin soruşdu:

– Necə yəni xalqı parçalayır? Axı mən bəzi ağılbəndlərdən eşitmişəm ki, o vətən torpaqlarını bir bayraq altında birləşdirir? Sən deyirsən parçalayır.
İbrahim dərin-dərin düşündü, dedi:

– Bilirsənmi, bizim bir dildə danışan camaatın yarısı sünni, yarısı şiə olanda, bu parçalanma deyil? Dili, qanı, adəti bir olan xalqın yarısı elə, yarısı belə?
Aytəkin onun dediklərindən az şey dərk edirdi, təriqət məsələlərini isə heç başa düşmürdü. Rəhim bəyi xatırlamırdı. Qardaşı Gültəkinin də məhz onun əlilə qətlə yetirildiyini, qəbiləsinin onun hökmü ilə dağıldığını bilmirdi. Qız onu çay qırağında bircə an görmüşdü, qorxmuşdu və unutmuşdu. Onun bütün bəlaları dağılan evlər, viran kəndlər, oğul itirəndə:

Eləmi xan ədalı.
Kölgədi xana dalı,
Bir oğul itirmişəm,
Xan elli, xan ədalı, –

deyə fəryad çəkən analar haqqında xəyalı, fikri təkcə bir adamın – Şeyx oğlu şahın adı ilə bağlı idi. Qanlısı təkcə o idi, o! Şeyx oğlu şahın əməllərini Aytəkin, bəlkə də oğlandan daha çox görmüşdü, bilirdi. Qəbiləsinin tar-mar olduğu gündən sonra keçirdiyi həyat ona çox şeylər öyrətmiş, qızı yaşına yaraşmayan müdrik bir qadına çevirmişdi. Aytəkin onun şair qəlbindəki bu ikiliyi bilmək istərdi. Qatilliklə şairlik, zalımlıqla şairliyin qəddarla ən incə, süslü şeirlər qoşan, ülvi məhəbbətdən bəhs edən şairin bir qəlbə necə sığdığını görmək, dərk etmək istərdi. Lakin təəssüf! Bu mümkün deyildi...

– Sən onun qəzəliyyatını, məhəbbəti uca tutan, insanın böyüklüyündən danışan əşarını oxumusan. Bəs onda insan qanı axıtmaqla, kəndlər dağıtmaqla bunların bir yerə sığışdığına necə məna verməyə çalışmısan?

İbrahimşah cavan dostundan gözləmədiyi bu suala cavab verə bilmədi. Duruxdu. Yanakı onun üzünə baxdı. Dolğun

ayın işıqlandırdığı bu gözəl simada elə bir kədər, elə bir dalğınlıq var idi ki! İbrahim titrədi. Bu sualı böyük dərdi olan, hökmdarın əməllərindən dərin yara almış bir insan verə bilərdi. O isə dostunun həyatına təzəcə bələd olurdu. Bir tacir köləsi bu təzadları necə dərk etmişdi?

– Yaxşı dedin, qardaş, amma ümid etməzdim ki, sən bunları belə yaxşı duyasan.

– Neyçün?

– Çünki onun arxasına, əməllərinə bələdiyyətini bilmirdim.

Susdular. İki gənc ay işığında sakitcə oturmuşdu. Oğlan, yanındakı qızın qəlbindən keçənləri bilmirdi...

Amma qəribəsi bu idi ki, həmin yaxınlıq ona daha başqa, doğma simanı – Nəsrini xatırlatdı, gözləri önündə Nəsrinin solmaqda olan gözəl üzü canlandı. Aytəkin isə... Qız da qəribə hallar keçirirdi. Ay işığı, kimsəsizlik və gənclik onun qəlbində bir neçə gündən bəri baş verməyə başlayan duyğuları gücləndirirdi... O hələ bunun cücərməkdə olan məhəbbət olduğunu dərk etmirdi, uçunurdu.

Məhəbbət qızın qəlbinə hakim kəsilməyə başlamışdı. İndi o, gəncin qarşısında, oğlan geyimində olsa da, sevən bir qız idi. Arabir onunla əylənir, ona sataşır, zarafatlaşırdı. Cavan dərviş bir şey anlamırdı. Gənc dostunun şıltaqlarını əvvəllər ərköyün tacir balasının atmacaları kimi səbirlə, uşaq şıltağını qəbul edən böyük qardaş səbri ilə qarşılayırdı. İndi isə?! O, qızla təkbətək oturmuşdu. Şam yeməyini bitirmişdilər. Cavanlar qızıl kürrə kimi göyün tünd sürməyi ənginliklərində üzən ayın parlaq işığı altında göz-gözə qalmışdılar.

Qız oğlanın ay işığında daha da parlaq görünən ağ dərviş libasına sataşırdı; onun gen tumanı qızı daha çox əyləndirirdi. Qız görmüşdü ki, gəzdiyi bəzi şəhərlərin arvadları da belə geyinirlər. Altdan dar şalvar, üstdən gen və qısa tuman.

– Ağa dərviş, bəs sizin yerin zənənləri necə geyinir? – deyə qız oğlanın köynəyinin qolundan dartdı. Qəribə idi, oğlan bu təmasdan diksindi. Təriqəti ona sevmək, evlənmək kimi

şeyləri qadağan etdiyindən o, qəlbində qız görəndə baş qaldıran duyğuları boğmağa çalışırdı. Nəsrini belə, Nəsrini belə!.. Mümkünmüydü? Belə düşünməyi də özünə qadağan edərdi. İndi bu nədir? Onun qəlbində elə bir duyğu baş qaldırırdı ki... Cavan dərviş bunun nə olduğunu, nədən baş verdiyini anlaya bilmirdi. Axı yanındakı «qardaş»ı idi. Bu «qardaş»a qarşı onda qardaş duyğusundan başqa nə ola bilərdi? Bəs vücudundakı bu dəyişiklik nədir? «İlahi, yoxsa bəzi pozğun dərvişlərin əməlinə murtəkib oluram? Özün saxla məni afətlərdən, ilahi!» Qaşlarını çatdı. Qızın əlini özündən o yana, həm də dirsəyilə rədd etdi. Əlinin bu ələ toxunmasından qorxdu. Yerindən qalxdı.

– Yatmaq vaxtıdı, qardaş, yatsan yaxşıdı. Mən də azacıq dolanıb qayıdıram, – dedi.

Şıltaqlıq qıza ehtiyatı unutdurmuşdu. Yoxsa da əksinə, hər şeyi ona çarəsizlik unutdurmuşdu: «Bir gün onsuz da zalım, qəddar birisinin pəncəsində məhv olacağam. Bəlkə, elə ilk gecəm, sevməyə başladığım bu cavana qismət olsun? Bəlkə də, bu yaxşıdı? Bəlkə də, sirrimi ona açsam, məni sevdi,

xilas elədi bu zalımın pəncəsindən? Yox, onun nəyi var ki, məni ala bilə? Heç verərlərmi? Hanı onda o məbləğ? Məni saraylara aparırlar, məndən nə qədər mənfəət gözləyirlər. Yox... Saray dedi, qəlbində intiqam hissi coşdu: «Yox, getməliyəm mən o böyük zalımdan soruşmalıyam, mən onu görüb soruşmalıyam ki, görüm nə haqla, hansı ixtiyarla məhəbbətdən, ülvi bir eşqdən bəhs edənlər yazır? O qəddarlıqla bu eşq tutuşan deyil! Onları yalnız insanpərvər qəlbə malik olan pak insan yaza bilər. Özü də, yazandan sonra belə hökmlər verə bilməz! Anaları balasız, ataları oğulsuz, elləri-obaları viran qoymaz. Bu qədər qan tökməz, yeridiyi yollarda özündən sonra bayquşlar ulamaz!.. Mən bunları ondan soruşmalıyam. Mən onun qanından heç olmasa bircə damla içməliyəm ki, qəlbimdəki bu azğın intiqam alovu bir azacıq soyusun: «Aldım intiqamını, elim-günüm mənim! Aldım intiqamını, atam-anam mənim. Aldım intiqamını bacım-qardaşım mənim!» deyib bu istəkli dünyamıza göz yumum. Viran obalarımızdan köçüb o dünyaya gedənlərin qulluğuna ağ üzlə yollanım. Yox, məhəbbət böyük nemətdir, mənə dar gündə qismət olub. Və

bu qismət özü də məni ikiqat imtahana çəkir. Mən məhəbbətimdən intiqamım yolunda keçməli, onu da intiqamıma qurban verməliyəm».

– Yaxşı, get gəz, mən də yatıram, yuxu gözlərimdən tökülür. Bağışla, səni də incitdim.

Cavan dərviş qardaşının səsindəki qəribə titrəyişi eşidəndə ürəyi qısıldı. Amma bir az əvvəlki hisslərin təsirindən qurtarmağa başladığına sevindi: Yox, xuda-nəkərdə, o pozğun cavan deyil. Mən nə axmaq düşüncələrə qapılmışam? Eləcə nadinc uşaqdır. Mən isə... Yenə Nəsrin, Nəsrin canlandı gözündə.

Cavan dərviş yerindən qalxdı. Ağ köynəyinin boğazındakı bağları açdı, yaxasını gecənin qız busəsi kimi xəfif mehinə verib uzaqlaşdı...

...Həmin günlərdə Qaraçı ribatındakı elçi isə istirahətə məşğul idi. O, uzun yolun yorğunluğunu çıxarmaq üçün üç-dörd gün burada, İbadullah kişinin qonaqpərvər

karvansarasında qalıb dincəlmək, sonra da yoluna davam etmək istəyirdi. Onun dostumuz gənclərlə tanışlığı yox idi, qəlblərindən keçənləri bilmirdi. Heç onların varlığından, karvansaranın cəmi bir neçə ağaclığında, Xanəgah da varlıqlarından belə bixəbər idi. Amma o da, bildiyimiz kimi, Şeyx oğlu şahın hüzuruna gedirdi. Gəldiyi yollar uzunu qara cildli qalın dəftərindən ayrılmamışdı. Hər yerdə maraqlı nə görsə bu dəftərə yazırdı.

Elçinin qeyd dəftərində maraqlı yazılar var idi. Bunlar karvan ilə gəlib durduğu şəhərlərdə, karvansaralarda malların qiyməti, bu yerlərdə nə alıb, nə satmaq mümkün olduğu haqqında yazılardan ibarət idi: «Buradan Avropa bazarlarına, xüsusilə İngiltərəyə ucuz xam ipək alıb aparmaq olar. İngiltərə tacirləri burada karanki adlanan parçanın iki topunu altı batman xam ipəyə dəyişirlər. Nazik al mahudun bir qulacını 25-30 şahıya satdıqları halda, xam ipəyin batmanına altı şahı verirlər! Türk tacirləri kəndlilərdən xam ipəyi daha ucuz alır və hər dəfə 40-50 at yükü ipək aparır, əvəzinə pul kəsilməsi üçün gümüş gətirirlər. Buradan yükün

hərəsinə 50-60 batman vurmaq hesabilə üç yüz, dörd yüz at yükü ipək aparmaq olar. Burada qırmızının müxtəlif çalarları, narıncı, qara, mavi, yaşıl, mixəyi məxmər, ingilis mahudu, Venesiya mahudu dəbdir. Eni bizimkindən iki dyum artıq olan rus mahudu daha baha qiymətə gedir. Toxucular nəzərə alsın.
Buraya gələndə mütləq türk dilini bilən tərcüman-qul almaq nəzərə çatdırılsın.

Rus tacirləri buraya ticarətə xəz, mahud və digər çoxlu mal gətirir, bazarlara idxal olunan mal ticarətinin əsas hissəsini öz əllərinə almağa çalışırlar. Rusiya ilə rəqabət bizim də, ingilislərin də qarşısında duran əsas məsələdir. Mən əminəm ki, idxalı çoxaltsaq, bu rəqabətdə üstünlük qazanar və yaxın iki ildə bu ölkələrdə mövqeyimizi möhkəmləndirə bilərik.

...Əllərində taler, macar dukatı olan türklər malı daha ucuz alırlar.

Bizim şah ilə qohumluğumuzdan istifadə etmək və ticarət

üstünlüyü verən icazənamə almaq haqqında danışıqlar aparmaq lazımdır. O zaman gömrük rüsumundan azad olarıq. Onda kənd və şəhərlərdə, qaydaya görə, hakim və qazilər bizə kömək edər...
Ucuz holland kətanı, əlvan məxmər və mahud, keyfiyyətli və gözəl mallardan bol göndərilsə, türklərlə, ruslarla rəqabətdə üstünlük bizim tərəfimizdə olar. Onda ingilis və rus tacirlərinə az hörmət edər, bizi daha yaxşı tanıyarlar»...

Elçinin geyimi, davranışı, qəribə ləhcə ilə danışmağı, arabir dəftərinə bəzi qeydlər eləməsi, düşdüyü karvansaralarda adamların nəzərini cəlb etsə də, ona bir şey demir, xahiş və tələblərini yerinə yetirib padşah yanına yollandığına görə «kafır»ə hörmətlə yanaşırdılar.

## TOZ BURULĞANI

Səhər tacir Rəfi özünü nisbətən gümrah hiss etdi. Yerindən qalxdı, İbrahimin onlar üçün Xanəgahdan gətirdiyi pendir, çörək və halva ilə nahar etdilər. Qara aftafada qaynayan suya zəncəfil dəmləyib içdilər. Elə bu zaman Xanəgaha yaxınlaşan karvanın önündə gedən qara nərin boynundan asılmış kənləng zənginin səsi eşidildi. Rəfi, yaşına və səhhətinə yaraşmayan bir cəldliklə yerindən qalxdı və Aytəkinə dedi:

– Yığış, gedək. Babatam. Bu karvanı ötürsək, bir də Allah bilir neçə gün gözləməli olluq.

O, cəld yola çıxdı. İbadullah karvansarası tərəfdən gəlib Xanəgahın yanından ötməli olan karvanı gözləməyə başladı. Az sonra karvanın başı açıldı. Karvanın önündə cins ərəb atı üstündə gələn bəzirganbaşını görüncə Rəfinin gözləri işıqlandı. Bu onun çoxdan tanıdığı hacı Salman idi, sevinclə öz-özünə pıçıldadı.

– Nə yaxşı oldu. Hacı Salman etibarlı adamdı.

...Hacı Salmanla qarşılaşınca hər iki əlini at üstündəki

bəzirganbaşıya uzatdı, yaltaq təbəssümlə kişini salamladı:
– Əssalaməleyküm, hacı, səfər bixətər, inşallah!
– Əleykümməssalam.

Hacı Salman altdan yuxarı, sahibinə itaət və yalmanmaqla baxan köpək gözlərindən heç bir etibar gözləmir, xəsisliyinə, alçaq xislətinə bələd olduğu tacir Rəfini sevmirdi. «Xırdaçıdır», deyirdi. Hacı Salman Xanəgahın yanındakı ovdandan tuluqları doldurmaq əmri verib atdan düşdü. Gəzinməyə başladı. Sarban və başqa dəvəçilər su götürüncəyə qədər Rəfi Salmandan aralanmadı. Hacı Salman soruşdu:
– Rəfi ağa, nə əcəb, Xanəgahda nə gəzirsən?
Nəhayət, hacının ona əhəmiyyət verməyindən sevinən tacir Rəfi dedi:
– Hacı, Allah canıva sağlıq versin, İbadullah karvansarasında bərk titrətmə qızdırma tutmuşdu məni. Bir dərvişin mənə rəhmi gəlib, nökərimlə götürüb ulağa yükləyib gətiriblər bura. Burda bir neçə gündü ki, yatırdım. İndi yaxşıyam, şükür xudamın kəraminə, elə karvan

gözləyirdim. Allah səni mənə göydə axtarırdım, yerdə yetirib özü. İndi səfərin Təbrizədi inşallah?

– Bəli.

Elə bu vaxt qoca bir dərviş hacıya yaxınlaşdı, dedi! – Badi-müxalif əsir, hacı!..

Bu cümləni eşidincə hacı Salman tələsdi, dərvişin dalınca düşüb Xanəgaha tərəf yollandı, yolüstü Rəfiyə dedi:

– Nə deyirəm, qoşul karvana. Yükün varsa, sarbana de...

Rəfi cəld dilləndi:

– Yox, yox, yüküm yoxdu!.. İrəliki karvanla göndərmişəm. Elə nökərimlə özüməm...

– Çox yaxşı, bu saat çıxırıq...

...Su tuluqları doldurulub dəvələrə çatıldı. Hacı Salman da Xanəgahdan İbrahimlə birlikdə çıxdı. Karvan yola düşdü. İndi karvanla birlikdə Rəfi, Aytəkin və hacıya xüsusi tapşırılmış cavan dərviş İbrahimşah da gedirdi.

* * *

Bu günəcən bəzirganbaşı hacı Salmanın işi yaxşı gətirmişdi. Karvan mənzilbəmənzil, sağ-salamat gedirdi. Hacı Salman yorğa kəhər qulanını karvanın qabağında sürür, arabir bir dənə də ağ tük görünməyən top qara saqqalına tən verir, keflə irəliləyirdi. Onun ardınca, sarvan Sübhan gəlirdi. Boynuna on ağaclıqdan səsi eşidilən kənləng iri zəng asılmış qara nərin ovsarından tutmuşdu. Qara nərin başında lələk və qotazlardan düzəlmiş pərək yellənirdi. Üzünün hər iki tərəfindəki qauri-itmuncuğu, gözmuncuğu və güzgü qəlpələri ilə bəzədilmiş üzlüklərə gün dəydikcə, güzgülər bərq vururdu. Dəvənin kapanları, cahazı, üstündən aşırılmış əvvəl qayaq marfaşlar mahir xalçaçı qadın əlilə toxunmuşdu. Sarban dəvə cahazının öndə dik tərəfinə bir ələm-beşbarmaq pəncə vurmuşdu ki, karvana qaçaq-quldur yaxın düşməsin. Guya karvanbaşı müqəddəs Əlinin qəzəbli oğlu Əbülfəz-lül-Abbas ilə ticarətində şərikdir. Malın bir qismi pəncətən ali əba eşqinə nəzirdir. Qara nərin ardınca bir-birinə bənd edilmiş başqa dəvələr gəlirdi. Ən axırda heç bir şey yüklənməyən cavan və göyçək bir ağ maya irəliləyirdi. Bu ağ maya karvanın, xüsusilə sarban Sübhanın iftixarı idi. Ağ

maya müxtəlif, əlvan toxunma malları – xalça, heybə, üzlük, dabənd və s. bəzədilmişdi.

Hacı Salmanın malı, Təbrizdə xüsusi qiymətə gedən xam ipək, darayı və kəlağayı idi. Karvana qoşulan adamlarda da kişinin bəxti gətirmişdi. Təbrizə çatan kimi mətahından bir neçə yük saraya aparacaq və onunla birlikdə gələn firəng elçisini də özü ilə götürəcəkdi. Güman edirdi ki, şahın məhəbbət və iltifatına nail olacaqdı. Şah üçün xüsusi başqa mətahı da var idi. Elçidən başqa karvana bir aşıq da qoşulmuşdu. Saraya gedirdi. Şahın xidmətinə. Eşitmişdi ki, şah şairlərə, aşıqlara, əli iş tutan sənətkarlara, xəttatlara, daş üstündə naxış açan ustalara qiymət verir, onları saraya yığır, iş-güc tapşırır. Sarayda doğma ana dilində danışıb, yazışırlar. Ana dilində oxuyan xanəndəyə, aşığa meydan verirlər. Bu, indiyəcən görünməmiş bir iş idi. Aşığın sarayda nə işi vardı? Şeyx oğlu şah isə...
Qərəz, aşıq üçtelli sazını da qoltuğuna vurub gedirdi. Oralarda özünə bab müqabil axtaracaqdı. Cavan adam idi, həm dünyanı görəcək, həm də öz ustalığını göstərəcəkdi.

Kim bilir bəlkə başqa arzumanı da yox deyildi. Bəlkə, vətənindən ayrılıb Aşıq Qərib kimi çöllərə düşməyinə başqa səbəb vardı. Bəlkə, doğma yurdunda onun yolunu yoxsul aşığa verilməyən bir gözəl gözləyirdi. Aşıq pul yığacaq, mal-dövlət sahibi olacaq, gəlib öz gözəlinə qovuşacaqdı. Kim bilir? Hələlik aşıq karvana qoşulandan bəri hacı Salmanın kefi kök idi. Aşıq hərdən üçtelli sazını köynəyindən çıxarıb döşünə basır, zilini zil, bəmini bəm, sinə üstə müstəhkəm eləyib, yanıqlı havalar çalır, gözəlləmələr, nəsihətnamələr, duvaqqapmalar, qıfilbəndlər oxuyurdu.

Ay ağalar, ay qazılar,
Yar yaman allatdı məni,
Əl atdım yar ətəyinə –
O kənara atdı məni.

Tor atdım eşqin gölünə,
İlişdi sonam telinə,
Düşdüm bir nadan əlinə –

Ucuz alıb-satdı məni.

Hərdənbir karvan əhlinin istəklisi sarvan Sübhan onun səsinə səs verirdi. Sübhanı hacı Salman çoxdan tanıyırdı. Bütün girələrini neçə il idi ki, təkcə bu xoşxasiyyət kişinin karvanı ilə daşıtdırardı. Qaydaydı, hər karvanın öz xanəndəsi, pəhləvanı, nağılçısı olardı. Uzun yollarda karvançıları əyləndirərdi. Kəndlərin bəzisində qənşərlərini pəhləvan kəsib müqabil istər, güləşçisi olmayanda pay verib ötüşər, olanda qarşı çıxardı. Sübhan da beləydi. Sübhanın gözəl səsi vardı. Muğamı çox xoşlayırdı, görərdin Dəştini, ya Rastı mənzilin birində başdayar, o birisinəcən oxuyardı. Dodağını zümzümə tərk etməzdi. Amma aşıq karvana qoşulandan bəri Sübhanın muğamları arabir səslənirdi. Sübhan aşığı aşıqlamışdı. Xoşlamışdı. Yollar yorğunu olmasın deyə çox vaxt onu dəvələrdən birinin üstünə – marfaşların arasına mindirirdi:

– Oxu, dərdin alım – deyirdi, – orda yerin rahat olar – deyirdi, səsini də bütün karvan əhli yaxşı eşidər, damağımız durular – deyirdi.

Karvanın böyrü ilə piyada zəvvarlar, atı, miniyi olmayan səfərilər və cahangəşt dərvişlər gedirdi. Piyadalar içində tacir Rəfi, onun ardınca Aytəkin və dərviş İbrahimşah irəliləyirdi. Arabir Rəfi sarvan Sübhanı girləyib, xəstə çiyinlərini içinə çəkir, yazıq-yazıq yalvarır, «qutaba» bənzəyən sifətini daha da qırışdırırdı. Domba, bulanıq gözlərini müsahibinə dikirdi:

– Öldüyüm gündü... – deyirdi.

Sarvan Sübhan da ona acıyır, hərdən ağır yüklü dəvələlərə yazığı kəlsə də, onu az bir müddətə marfaşların üstünə mindirirdi. Belə hallarda tacir Rəfi yatmırdı. Aytəkin İbrahimşahla yanaşı, tək qaldığından için-için titrəyir, qırpımsız domba gözlərini onlardan çəkmirdi.

Sübhan bunu duyunca acıqlanırdı:

– Kişi, yıxılıb ölsənəm! Nökərini hopp eləyib yeməyəcəklər ki, günün günortaçağında. Dəvə tay altında nər-nər nərildəyir, sən də bu yandan... Yükü aşırdarsan...

Mübahisəni müşahidə edən hacı Salman dillənməsə də, ürəyində Rəfi kimi kəmfürsət adamın nökərinə acıyırdı, qəlbində düşünürdü: «Yazıq oğlan, hayıf səndən! Bu kəmfürsətdən səni ala bilsəm, sarayda yaxşı xidmətkar olarsan».

Hacı Salman bu səfərdən gileylənə bilməzdi. Xüsusilə qara nərin üstündəki taylardan birində rus tacirlərindən aldığı samur xəzləri və mücrü gedirdi. İçərisində Şamaxı şəddəli kərdənbəndlər, məşhur Bakı zərgəri Dərgahqulu işi boğazaltılar, silsilələr, qırxdüymə, piyalə, badamı, qozalı zəng sırğalar həsiri, əncaməli, kəsmə kül qolbaqlar, zınqırovlu xalxallar, yaqut, əqiq, zümrüd, xatəmi və firuzə qaşlı üzüklər var idi. Bütün bunları hacı Salman saray xəzinəsi üçün aparırdı. Daldakı dəvələrin üstündə kəcavələrdə kəniz qızlar içində gözəl oxuyan, çalan və rəqs edənlər var idi. Bunlar da saray və saray ərkanı üçün idi.

Hacı Salman qırxını yenicə ötmüş ər igid təki atını karvanın

qabağında cövlan etdirdikcə, aşıq da üçtelli sazını sinəsinə basıb bülbül kimi cəh-cəh vururdu.

Dərdini de biləndərə,
Dərd başına gələnlərə,
Hər üzünə gülənlərə
Etibar eyləmək olmaz.

Karvandan müxtəlif səslər qopdu:
– Sağ ol, aşıq!
– Dərdin alım, nə deyirsən?! Hər üzünə gülənlərə etibar eyləmək olmaz.
– Yaşa, min yaşa, aşıq!
– Əhsən kəlama! Dərdini bilənə, başına gələnə de!
– Çalan barmaqların var olsun.
– Halal olsun o anadan əmdiyin süd.
– Allah səni atana çox görməsin.
– Ağalar ağası köməyin olsun.
– Kişilər, Allah vergisidi!
– Badəsnin Şahi-Mərdan verib.

– Var ol, aşıq var ol! Dünya durduqcan yaşayasan səni.
Hacı Salman əlini gözünün üstünə qoyub göyə baxdı. Günorta namazına mənzil başına çatmalı idi. Uzaqdan mənzil edəcəkləri karvansaranın səhaba bənzəyən qaraltısı görünürdü. Atlar, dəvələr, binə-mənzil iyi alıb, qədəmlərini yeyinlətdilər.
Birdən qəfil ilğıma bənzər bir toz dumanı qalxdı. Gözlənilmədən əsən külək səhranın qumunu burulğan kimi buruq sütuntək havaya yüksəltdi. Qum adamların gözünə, ağzına dolmağa, qamçı təkin yapaqlarını, boyunlarını döyməyə başladı.
– Dayanın! Tez olun, miniklərdən düşün!..
– Yaylıqlarınızı, dər-dəsmalı isladıb dəvələrin, atların başına bürüyün...
– Dəvələrin böyrünə çökün... Daldalanın...

Səslər boğulur, küləyin əlindən ağız deyəni qulaq eşitmirdi. Dəvəçilər, cilovdarlar, sarban və digər müsafirlər cəld dəvələri xıxırtdılar, əllərinə gələn cır-cındırı, yaylığı, dəsmalı tuluqlardakı, meşkərdəki sularla isladıb heyvanatın

başına sarıdılar, özləri də dəvələrin yanında çöküb, başlarını heyzanların böyrünə qısdılar... Nəhəng fırfıra təkin burulan qum tufanı, gəldiyi kimi tez də çəkildi. Heç on beş dəqiqə keçməmiş, hər yerə sakitlik çökdü. İlk əvvəl sarban Sübhan özünə gəldi, qalxdı, karvan əhlini səslədi: –

– Qalxın, qardaşlar! Tufan ötdü!

Adamlar yerlərindən qalxıb az müddət içində üst-başlarını örtük kimi qaplamış qumu silkələyib təmizləməyə başladılar.
– Şükür Allaha, çox çəkmədi.
– Beləsi çox sürmür.
– Allahın bəlasıydı, tez sovuşdu, şükür kəraminə!
Hacı Salman üst-başını tozdan təmizləyib, yenə göyə baxdı və nə qərara gəldisə, üzünü Sübhana tutdu:

– Sübhan, qardaşım, dəvələri qalxızma! Zöhr namazının vaxtı çatıb. Biz yığışılıb mənzilə gedənəcən əsr namazının da vaxtı gəlib çatacaq. Yaxşısı budu ki, elə zöhr namazını

burda qılaq. Pərvərdigari-aləmin nicat verdiyi bu yerdə.
– Nə deyirəm, hacı! – deyə sarban bəzirganbaşının sözünü karvan əhlinə çatdırdı: Camaat! Zöhr namazına duracayıq, tələsməyin!

Dəvəçilərdən biri hacı Salmana yaxınlaşdı.
– Qurbanın olum hacı ağa, tuluqlarda bir damcı da su qalmayıb. Tələsikdə yaylıqlar isladılanda çoxunun ağzını bərkitməmişik, axıb gedib. Dəstamaza su yoxdu. Bəlkə, elə gedək mənzilə, zöhr və əsr namazlarını birkərəmlik qılaq?

Bəzirganbaşı qərarını dəyişmədi:
– Eybi yoxdu! Səfəri adamıq, təyəmmüm edərik. Bu yerlərin pak qumundan yaxşı nə var?

Karvan əhli (elçidən başqa) hamısı hacı Salmanın yanına yığılmışdı və dəvəçi ilə onun müsahibəsini eşidirdi. Odur ki, hərə öz payını götürdü. Cəld qırağa çəkilib, ayaq izi görünməyən kənar yerlərin bir az əvvəlki külək hamarlayan qumlarının üstündə diz çökdülər, əllərini bir neçə dəfə quma

sürtüb, müəyyən edilmiş qərar üzrə «təmizləndilər», təyəmmüm yolu ilə «dəstəmaz aldılar» və hacı Salmanın arxasında düzləndilər, üzlərini qibləyə çevirib namaza durdular. Bu ibadəti hacı xüsusi bir şövqlə edir, ərəbcə və duaları xüsusi bəlağətlə oxuyurdu...

Zöhr namazı bitdi.

Elə bu zaman onların nəzərini dəvələrdən birinin böyründəki dəstə cəlb etdi. Aytəkin və dərviş İbrahimşah yerdə uzanmış və deyəsən, can verməkdə olan tacir Rəfinin yanında diz çökmüşdülər. Rəfi zəif, titrək səslə dedi:

– Hacı Salmanı ça... çağırın.

Dərviş, yerindən qalxıb namazı qurtardıqdan sonra ata minməyə hazırlaşan hacı Salmana yaxınlaşdı.

– Hacı, deyəsən, kişinin əcəli yetib, cənabınızı istəyir...

Hacı Salman sevmədiyi bu adamın yeni bir əngəl çıxaracağına qəlbində deyinərək xəstənin yanına gəldi.

– Hə, nə olub, Rəfi ağa? Nəyindi?

Rəfi sinəsini qovuran xırıltıya güclə dözərək zəif əl işarəsilə onu yaxına çağırdı. İşarə aydın idi. Karvan əhli də onları dövrələmişdi. Kim isə dedi:
– Deyəsən, vəsiyyət eləmək istəyir.

Bunu eşidən Rəfi göz və əl işarəsilə müsbət cavab verdi. Hacı Salmanın əmrilə adamlar xəstədən aralandılar. Xəstə və hacı ikilikdə qaldı. Hacı, Rəfinin «qutab» üzünə tərəf əyildi. Əlini əlinə aldı. Rəfinin əli buzlamağa, göyərməyə başlamışdı. Can onun əl və ayaqlarını tərk edib təkcə sinəsinə toplanmışdı. Güclə eşidilən xırıltılı səslə pıçıldadı:
– Nökər... nökər... qızdı... rəqs... Min dinar... verərsən. Təbrizdə Cəlayir məhəlləsində... Bizə... Ölsəm... Sarbon Məhərrəmdə malım...

Bu, onun son sözü oldu. Nə kəlmeyi-şəhadət deyə bildi, nə tövbə etdi, nə bir xoş söz dedi. Nə də oğul, bacı-qardaş adı çəkdi...

Hacı Salman onun domba gözlərini örtdü, qalxa-qalxa düşündü: «Elə belə də olmalı idi. Yurdsuz, kəfənsiz, kəlməsiz, tövbəsiz... Allah sənə rəhmət eləsin. Kəmfürsət adam idin. Bəlkə, böyük, rəhmli tanrı dərgahında günahını bağışladı, ruhun sərkərdan qalmadı...»

Karvan əhli yenidən durub, meyit namazı qıldı. Tacir Rəfini oradaca təyəmmüm qüslü verib, dəfn etdilər. Sonra da hacı Aytəkinə dedi:

– Bala, indi sən mənim qəyyumluğumdasan. İnşallah, mənzil başına çatanacan fikirləşib, bir əncam çəkərik.

Yalnız bundan sonra atına mindi və karvana köç işarəsi verdi.

...Karvan şəhərə girəndə artıq gün-günortadan xeyli keçmişdi.

Hələ uzaqdan şəhərdə əvvəlinci nəzərə çarpan şey minarələr və gümbəzlər idi. Zərif, nazik, sivri uclu minarələr və enli, iri gümbəzlər məscidlərə, xırda dəyirmi gümbəzlər isə

imamlara məxsus idi. Qalan binalar yastı-yapalaq, alçaq daxmalardan, kiçik birmərtəbəli, alçaq damlı, çiy kərpicdən tikilmiş evlərdən ibarət idi. Bütün bunlar da uca, palçıq hasarlarla əhatə olunduğundan, evlərin ancaq damı görünürdü. Nə hasarlarda, nə də evlərin dar küçələrə yönəlmiş divarlarında bir dənə də pəncərə nəzərə çarpmırdı. Firəng elçisi düşünürdü: «İlahi, bəs onlar havanı hardan alırlar? Bu qızmar cənub ölkəsində daşdan, çiy kərpic və palçıq hasarlardan qurulmuş aləmdə insanın nəfəs alması nə qədər çətin olmalıdır».

Küçələrdə uşaq nəzərə çarpmırdı. Elçi bircə şeyi yaxşı bilmirdi: bu uca palçıq hasarların dalındakı həyətlərdə güllüklər, sərin hovuzlar, təkəmbir yalnız ucları görünən, çardağa qaldırılmış tənəklər, ağaclar var idi. Uşaqlar bu həyətlərdə oynayır, qadınlar da bu həyətlərdə güzəran keçirirdi. Palçıqdan olsa da, hər hasar bir qala, bir qüllə idi. Bütün dünyası bu palçıq hasarla məhdudlaşmış, gen dünyadan bixəbər uşaqlar və analar dünyası orada idi. Onları zamanın hökmü çölə çıxmağa qoymurdu. Hər üç-dörd

gündən bir hasarların dar küçələr əmələ gətirdiyi bu tozlu-torpaqlı yollarda dəli-köhlən atlara minmiş süvarilər, görünür, hansı hasarı silahlı ata-ər qorumurdusa, oraya basqın edir, küçələrdə cövlan eləyib, əlinə keçəni soyub aparırdılar. Elə pəncərələri gen dünyadan dönüb həyətə çevrilmiş həmin evlərdəki insanları könüllü «həbsxanaya» salan da bu idi.

Şəhərin küçələrində bir dənə də dükan yox idi. Bütün alver şəhərciyin girəcəyində, karvansaranın qabağındakı geniş meydanın ətrafında gedirdi. Allaflar, baqqallar, papaqçılar, zərgərlər, misgərlər, nalbəndlər, xarratlar, dulusçular, dəmirçilər, sərraclar, bəzzazlar, çıraqçılar matahlarını dükanların qabağına düzüb müştəri gözləyirdilər. Sənətkarlar dükanın içində satış üçün mal hazırlayır, müştəri gələndə qənşərə çıxıb, istənilən şeydən alıcıya verir, ticarətlərini eləyirdilər. Gələn karvanlar da yüklərini burada açır, karvansarada dincəlir, almalılarını alır, satmalılarını satır, bir gün sonra yüklənib, əsas ticarət mərkəzi olan şəhərlərə yollanırdılar.

Qədim adətə görə, qəbiristan da şəhərciyin lap yaxınlığında, bazar meydanının yanında idi. Burada gümbəz məqbərədən başqa, bir dənə də abad qəbir yox idi. Əskiləri batmış, yarı uçuq təzə qəbirlər isə xırda təpəciklər kimi bozarırdı. İslam adətincə, qəbir batmalı, itməli idi. Onu abadlaşdırmaq, yan-yörəsində ağac əkmək ölmazdı. Təkcə seyid məqbərəsi qədim tikili, yaraşıqlı gümbəz idi ki, yanında olduqca qoca, gövdəsi və budaqları əyrim-üyrüm olmuş tut ağacı bitmişdi. Tut ağacının dibində üstü tar qapılı olduqca qədim bir ovdan mövcud idi. Karvansara da, qəbiristana gələnlər də bu ovdandan istifadə edirdilər. Ovdandan azca aralı cənazə yumaq üçün alçaq qəssalxana binası görünürdü.

Hacı Salman bəzirganbaşı və sarban Sübhanın karvanı şəhərciyə çatanda gün günortanı çoxdan keçmişdi. Şəhərcik və bazar meydanı xeyli qələbəlik idi. Bu, dərhal hacının nəzərini cəlb etdi. Şəhərciyin daim sakit həyatını nə isə pozmuşdu. Bu, adi karvan gəlməsilə qopan hay-küy deyildi. Nə isə olmuşdu. Meydana daxil olan karvan əhli qələbəliyi görüb dayandı. Dəvələri xıxırtmaq, mal gözdən keçirmək

heç kimin yadına düşmürdü. Hacı Salman Aytəkinə ondan bir qədəm də aralanmamasını tapşırıb irəli çıxdı.

İrəlidə qəribə bir dəstə göründü. Qabaqda şəhərciyin hakimi bazəkli at üstündə gedirdi. Əlvan geyimli hakimin ardınca atlı bir cavan gəlirdi. Cavanın hər tərəfində yadın qılınclarını göyə qaldırmış beş nəfər atlı nökər gedirdi. Havaya qalxmış on qılınc günəşdən bərq vururdu. Onların ardınca eşşəyə tərsinə mindirilmiş, geyimindən ingilis tacirlərinə bənzəyən bir nəfər aparılırdı. Cilovdar eşşəyi çəkdikcə arabir qamçısını gah eşşəyə, gah da döyülməkdən əldən düşmüş tacirə ilişdirirdi. Şəbih tamaşalarında olduğu kimi, dəstənin ətrafını şəhər camaatı bürümüşdü. Eşşəyə mindirilənə gülənlər olduğu kimi, yazığı gələnlər də var idi. Hakimin ardınca gedən cavan, arabir gah kəlmeyi-şəhadət deyir, gah salavat çevirir, gah da «ya Xeybər ağası, ya Heydəri-kərrar, sənə sığınmışam», sözlərini açıq bir ləhcə duyulan səslə təkrar edirdi.

Onlardan bir qədər dalda şəhərciyin ağ qatıra süvar olmuş

qazısı gəlir və zikr edib deyirdi:

– Ya minəl-əta[38], ya damadi-Əhmədi-Mürsəl[39] özün əfv eylə, özün qəbul eylə! Özün şəfaətçi ol, ərəsati-məhşər günü!

Camaat içindən də salavat çevirən, «amin» deyənlər var idi.

Elçi, heyrət içində dayanmış hacı Salmana yaxınlaşdı:

– Cənab hacı, bu nə əhvalatdır? – deyə soruşdu: Azacıq əvvəl yerlilərdən birindən hadisəni soruşub öyrənən hacı, gözünü mərəkədən çəkmədən elçiyə cavab verdi:

– Cənab elçi, məlumunuz olsun ki, o eşşəyə mindirilən ingilis taciridir. O, on qılınclının arasında gedən də onun bizim dili bilən nökəri və ya şərikidi. Deyirlər ki, guya

---

[38]Ey bəxşeiş sahibi

[39]Ey peyğəmbərin kürəkəni – Hər iki halda şiələrin birinci imamı Əli nəzərdə tutulur.

yuxuda Düldülün sahibi, Qəmbər ağası cənab Əlliyyul-Mürtəzanı görüb. Gedib şəhər hakiminin yanına, deyib ki, tacirin malları onunkudu. Şəhər qazısının qulluğunda bizim dini qəbul eləyib. Bütün mallar da ona çatıb. Tacir qibleyi-aləmə şikayət verməklə onu təhdid eləyib.

Qazının fitvası ilə, dinimizə gələn adamı təhdid etdiyi, ona əl qaldırdığı üçün tacir cəzalanıb. Mən irəlidə də belə hadisələr haqqında eşitmişəm. Bəzi nökərlər öz ağalarından ya qisas almaq, ya da elə doğrudan da, dinə daxil olmaq üçün şəhər hakimlərinə, qazılara müraciət edirlər.

Bizlərdə belə adam ən müqəddəs müsəlman hesab edilir. Yetmiş arxa dönəminəcən Allah qarşısında bütün günahları bağışlanmış olur. Onu açıq qəlblə qarşılayır, evləndirir, mallarına heç bir vergi rüsumu qoymadan ticarət etməsinə imkan və şərait yaradırlar.

Elçi qəlbində düşündü: «Hə, başqalarını da

şirnikdirmək üçün. Bu çox qorxulu məsələdir. Hər bir dələduz nökər, ağasının malına sahiblənmək üçün belə hərəkət etsə, onda bizim üçün ticarət daha da qorxulu olar. Ağacı qurd öz içindən yeyəndə, təhlükə birə-iki artır. Yox! Şahın xidmətinə çatanda mütləq bunun da qarşısını almaq lazımdır. Elə olsun ki, bir də belə nökərlərə şərait yaradılmasın. Şahı başa salmaq lazımdır ki, bu azad ticarət qanunlarına mane olar. Ölkənizə mal gətirilməz. Avropa tacirləri mallarının və canlarının qorxusundan buralara gəlməzlər! Qoy şah xüsusi fərman verib, bu büdətin qarşısını alsın. Heç bir yerdə hakim, darğa və qazılar dələduz nökərlərə himayə göstərməsin».

Bir qədər sonra həmin sözlər elçinin qeyd dəftərinə köçürüləcəkdi. Hələlik isə qəribə dəstə bazar meydanını dolanır, «İslama müşərrəf» olan cavana xeyir-dua və ianə nəzir verilirdi. Nəhayət, dəstə seyid məqbərəsinin qarşısında dayandı. Atlılardan yalnız ikisi, həmçinin hakim və «dinə gəlmiş» cavan piyadalandı, qazı da qatırından endi. Daha doğrusu, nökərlər və dindarlar onu əl üstündə qatırdan

düşürdülər. Üçü də seyid məqbərəsinə daxil oldu.

Qazının göstərişi ilə cavan ingilis müqəddəs məzarın sinə daşından öpdü, nəzir qoydu. Müqəddəs kəlmeyi-şəhadəti bir də təkrar etdi. Nəhayət, onlar məqbərədən çıxdılar. Yenidən atlara minib, yola düzəldilər. Yalınqılınc nökərlər, bekarlar dəstəsinin müşayiətilə şəhərciyin digər səmtində gözdən itdilər.
Atların ayağından qalxan toz dumanı yatmağa başlayanda, hacı Salman və Sübhan, dəvələri əyləmək, yükləri saf-çürük edib burada qalmalıları açmaq, yeni alınanları yükləmək haqqında əmr verdilər.

Elçi karvansaranın kiçik hücrələrindən birində özünə yer aldı. Burada az qalmalı olsalar da, o, adətincə, gün ərzində gördüklərini qeyd dəftərçəsinə köçürməli idi. Bir mənzil irəlidə qum burulğanı, cəmi üç simli iri taxta qaşığa bənzəyən alətdə onun qulağı üçün yad olsa da, gözəl havalar çalıb-oxuyan, aşıq adlandırdıqları bard və başqaları haqqında yazmalı idi. Elçinin nəzərini bir məsələ də cəlb

etmişdi. O görürdü ki, hər mənzildə hacı Salmana bir dərviş yaxınlaşır. Nə isə bəzi sözlər deyir və sonra da hacı ilə xəlvətə çəkilir. Əvvəl mənzillərdə elçi bu hadisəyə o qədər də əhəmiyyət vermədi, düşündü ki, yəqin bunlar zəngin bəzirganbaşıdan ianə istəyən yoxsul dərvişlərdir. Lakin sonra gördü ki, bu dərvişlərin hər mənzildə yalnız biri hacı ilə xəlvətə çəkilir. Özü də diqqət edib eşitdi ki, həmin dərvişlər hacı Salmana üç eyni söz deyirlər: «Badi-müxalif-əsir». Tək bircə bu cümləni eşidəndən sonra, hacı Salman, həmin dərvişlə xəlvətə çəkilir. Qalan dərvişlərə hacı o qədər də əhəmiyyət vermir. Elə indicə də, mallar haqqında sərəncam verdiyi zaman, qəbiristandakı qəssalxana yanından cındırından cin ürkən bir dərviş hacıya yaxınlaşdı:

– Badi-müxalif-əsir, hacı ağa! – deyən kimi hacı Salman onunla təmənləşdi. Yəni dərvişlə əl verəndən sonra sağ əlini əvvəlcə ürəyinin, sonra da dodaqlarının və axırda alnının üstünə qoyub:
«Qəlbim, dilim, düşüncələrim səninlədir», fikrini ifadə edən bu hərəkətdən sonra gülümsədi:

– Buyur hücrəyə, ağa dərviş, bir fincan süd içək bəndən ilə, – dedi.

Hacı Salman yüklərlə əlləşən sarbanı çağırdı. Xəlvətcə ona tacir Rəfinin nökərindən göz olmağı tapşırdı. Ucadan Aytəkinə dedi:

– Bala, sarbana əl-ayaq ver, sonra da hücrəyə gəl, səninlə danışmalı sözüm var.

Yalnız bu tapşırıqları verəndən sonra dərvişlə birlikdə hacı üçün ayrılmış hücrəyə çəkildilər.

Elçi bu gün qəti qərara gəldi ki, «badi-müxalif-əsir» sözlərində nə isə bir sirr var. Mənzillərdə görünən dərvişlər hacıya məlumat verirlər. Hacı ya hökumət əleyhinə çalışan məxfi təşkilatın, ya da elə padşahın özünün yerlərdən xəbər tutan qulağıdır. Elçi şahın yanına çatanda bu sirri öyrənə biləcəyinə ümid edirdi. Hər halda, görüb müşahidə etdiklərini işarə ilə olsa da şaha çatdırmalı, onu xəbərdar etməli idi. Bəlkə, bu xəbərdarlıq gözlərindən heç bir şey

yayınmayan elçinin rütbə və nüfuzunu şah yanında artırdı. Bəlkə, onu qorxulu bir təhlükədən xilas etdi. O zaman şah da elçinin xahiş və tələblərini yerinə yetirər.

## ASLAN OVU

Hacı Salmanın karvanı şəhərə daxil olanda paytaxtda elə bil bayram idi. Müridlər, qazilər, nəfərlər bir-birinə şahın ovdan, aslanla təkbətək çarpışmaqdan qalib çıxdığını gözaydınlığı ilə xəbər verir, sevinişirdilər. Şaha Savalan yaylasında aslan görünməsi xəbərini gətirən qazi, şamlu Murad bəy, özünəbəy kimi təşəxxüslə bazar meydanlarında atlı gəzinir, harda bir yığnaq görürdüsə orda peyda olurdu. Hamı Murad bəyin mindiyi qara ürkəyə həsədlə baxırdı. Bilirdilər ki, ömründə iki atı eyni vaxtda saxlamağı sevməyən şamlu Murad bəy aləmpənahdan gümüş-qızıl işləməli yəhər-əsbabla birlikdə qəşəng bir ərəbatı alan kimi qara ürkəni satacaq. Elə indidən müştərilər çıxırdı. Bəyi

təbrik eləyənlərin çoxu sövdələşir, qiymətləşirdilər:

– Murad bəy, allahın yetirib, qara ürkəni satacaqsansa...

– Satacaqsan sözdü? Ömründə iki atı kim birdən minib ki, mən minəm? İlxıçı deyiləm, qaraçı deyiləm, at alverçisi də deyiləm. Canına, cəddinə qurban olduğumun əsgəriyəm! Bu gün burada, sabah bir ayrı yerdə, dini-mübinin düşmənlərilə çarpışmaqda. İki at nəyimə gərəkdi? Birciyi bəsimdi.

– Bəlkə o at bundan nayran oldu?

– Kişi indidən niyə satsın?

– Heç elə şey olar? Bəy verən atın dişinə baxmazlar. Nə verəcək, onu da minəcək. Day bunu qoyub onu sata bilməz ki, dadaş?

– Kişi, elə boz sözü niyə deyirsən? Bilmirsən ki, şah adama mindiyindən bəd at, geydiyindən yaman geymə verməz? Necə olsa bundan yaxşı olar.

Murad bəy bığlarını burub danışanlara qulaq asır və qara ürkənin qiymətini birə-beş artırmaq üçün arabir cövlana gətirir, şahə qaldırır, bığaltı gülərək, həris gözlərlə qara

ürkəni seyr edənləri gözdən keçirirdi.
Meydana yığılanların içərisində xeyli dərviş də var idi. Onlardan bir neçəsi bayaqdan bəri şahi-cavanbəxtin hünərlərini sadalayıb, haqqında təriflər oxuyur, özünə, övladına, nəslinə mədhlər deyir, aslanlar qıran, pələnglər doğrayan şahın bundan qəvi düşmənlərə qalib gəlməsi üçün, cəddi İmam Cəfər Sadiqdən, Kərbəla şəhidindən, Ədiyyul-Mürtəzadan qılıncına kəsər, biləyinə qüvvət, qəlbinə sonsuz cürət, gözlərinə günəş ziyası diləyirdilər.

Cavan bir tərəkəmə sərraca bənzəyən bir qocanı yanlayıb soruşdu:
– Əmi, şamlu Murad bəy nə iş tutub ki, qurbanı olduğum ona at bağışlayır, özü də qızıl yəhərli?
Qoca sərrac şagirdə dərs öyrədən ustad dili ilə dedi:

– Bala, görünür, padşahımızın fərmanından xəbərin yoxdu. Axı şahımız yaman ov həvəskarıdı. Dünyada heç nəyi ovdan üstün hesab eləmir. Özü də belə ov ki, əsl igidə yaraşan olsun. Təkbaşına aslan öldürür. Elə hünərlidi! Odu ki,

fərman verib: hər kəs ona həndəvərdə pələng gördüyünü xəbər gətirsə və yerini desə – vəkil Məhəd ona yəhərsiz at, aslan xəbəri gətirsə yəhər əsbablı at bağışlasın. İndi budu, şamlu Murad bəy iki gün irəli xəbər gətirib ki Savalan dağında aslan var. Şah da yaraqlanıb gedib ova. Nökər-nayib qalıb aralıda, özü təkbaşına aslanı öldürüb. Muştuluqçu hamıdan əvvəl dərbara gəlib xəbər gətirib. Sübh tezdən padşahımızın şücaətini carçılar bazarda elan eləyiblər. Şamlu Murad bəyə də yəhərli at çatır. Fərmana görə.

– Ax, kaş mən görəydim!.. – sözləri cavan tərəkəmənin ağzından çıxmamışdı ki, carçının səsi yenidən aləmi başına götürdü:

– Ey cəmaət, ey qazilər, ey müridlər, ey əhli-Təbriz!... Bilin və agah olun, pərvərdigari-aləmin qüdrəti ilə, cahanın hökmdarı, dinimizin nacisi şah həzrətləri, ovda zülfüqar kəsərli qılıncı ilə aslana fayiq gəlib... Müjdə sorağı gətirən şamlu Murad bəy vəkil Məhədin iqamətgahına dəvət olunur. Sorağın mükafatı şahi-aləmpənahın xas ilxısından «xaldar day», bütün yəhər əsbabı ilə bu gün əsr namazından sonra

Murad bəyə təslim olunacaq. Mərasimə baxmaq istəyənlər vəkil Məhədin imarəti önündəki meydana gəlsin..ii...i...in!

– Şahın səxavətinə söz ola bilməz.
– Bir xəbərə bir yəhər, bir xaldar.
– Hələ dərgahından bir əl boş qayıtmayıb.

Bütün bu bazar-küçə hadisələrinin şahidi olan Hacı Salman elçi ilə söhbət edə-edə saray meydanına tərəf irəliləyir və düşünürdü:
– Doğrudur, şahın səxavəti hatəm səxavətidi! Elə buna görə də çox vaxt xəzinənin boş qalmağına təkcə müharibələr, cəng-cidallar səbəb olmur.

O, elçini nəzarətə salıq verəndən sonra, şahın xəlvət nədimi ilə görüşüb gəldiyini xəbər verəcək və xəlvətgahda rubəru görüşə müntəzir dayanacaqdı. Şah aslan ovundan xətərsiz və qalib qayıtdığından kefi kök, damağı çağ idi. Hacı Salmanın gətirdiyi xəbərlər, hədiyyələr də onun ruhunu qanadlandıracaqdı...

* * *

Hacı Salman günün qalan qismini tacir Rəfinin külfətini tapıb, onun son tapşırıqlarını yerinə yetirməyə həsr etdi. Tacirin oğul övladı yox idi. Kiçik mülkdə hacını mərhumun qoca arvadı ilə ərgin qızı qarşıladı. Hacının gətirdiyi əmanəti qəbul etdilər. Aytəkinin müqabilində də hacı Salman Rəfinin külfətinə bir miqdar pul verib məziyyətlərindən xəbərdar olmadığı, rəqqasəliyini bilmədiyi qızı elə həmin gün çoxdan tanış olduğu qoca vəzirə hədiyyə apardı. Sübh namazından az keçmiş xəlvətgahın pişxidmətlərindən biri onu nədimi-xəlvətin yanına dəvət etdi. Hacı Salman şahlıq üçün gətirdiyi hədiyyələri də qatıra yüklətdirib, şahın daim belə gəlişlərdə onu qəbul etdiyi xəlvətgaha yollandı.
Nədimi-xəlvət hacı Salmanı otağa daxil etdi. Bura hacı Salmana çoxdan tanış idi: sadə, bəzək-düzəksiz bir əsgər xeyməsini xatırladırdı. Yerə gözəl Təbriz xalıları döşənmişdisə də, divarlar boş idi. Yuxarı başda iri tirmə döşəkcə salınmış, ardınca yerə enli  püştü – arxa döşəyi,

yanlarına dirsəkaltılar qoyulmuşdu. Şah burada yalnız tək-tək adamları – dərvişləri, sarbanları, ona böyük məmləkətin müxtəlif yerlərindən, qonşu ölkələrdən, həmsərhəd diyarlardan məlumatlar götürən qulaqçıları qəbul etdiyindən yanında təkcə bir kiçik nimdər var idi.

Hacı Salman içəri girib dayandı. Şah gəlməmiş, ona yer göstərməmiş oturmazdı. Aradan çox az bir fasilə keçdi. Otağın dib tərəfindəki yan divarda nəzəri cəlb etməyən kiçik qapı açıldı. Nubiyalı zənci qul qapının astanasında göründü. Yana çəkilib qapının sağ cəhəngində əli qoynunda durdu. Sonra da nədimi-xəlvət göründü. O da itaətkarcasına qapının sol cəhəngində baş əymiş vəziyyətdə dayandı. Yalnız bundan sonra şah içəri daxil oldu, hələ də ovçu libasını çıxarmamışdı. Görünür, nədim, şahı şəhərin girəcəyində qarşılarkən, hacı Salmanın gəldiyini xəbər vermişdi və o da dərhal hacını görmək istəmiş, xəlvətgaha gətirilməsi sərəncamını vermişdi. Hacı Salman baş əyib durduğundan şahın üzünü görmür, yalnız qaytarma burun, uzunboğaz kimxa çəkmələrini, yaşıl atlas şalvarının üstündən geydiyi

ovçu «şirvanisinin» baftalı ətəklərini seyr edirdi.

Şah daxil olan kimi səsləndi:

– Səfər bixətər, hacı, buyur buraya!

Hacı Salman başını qaldırdı, əlləri qoynunda olduğu halda irəlilədi, şaha bir neçə qədəm qalmış diz çökdü. Səcdəyə gedərcəsinə əyildi, şahın qədəmləri önündə yeri öpdü və diz çökdüyü vəziyyətdə başını qaldırıb oturdu. İndi o şahın üzünü aydın görürdü. Həmişəki nazik xətti bir azacıq uzanmış, iyirmi yaşlı gəncə bir qədər yaşlı görkəm vermişdisə də, bu qara, qıvırcıq saqqal nazik və bəyaz sifətin təravətini itirə bilməmişdi. İri, qara gözləri zərif simasında daha böyük görünürdü. Birçəkləri kiçik səfər cıqqası taxılmış külahın altından çıxıb, saqqalını bir qədər də sıxlaşdırmışdı. Boynunda rəsmi görüşlərdə, mərasimlərdə taxdığı qiymətli sinəbənd, qollarında bazubənd, belində yeddi ilin xəracına başa gəlmiş məşhur Xətai kəməri yox idi. Adi qurşaq bağlamışdı, sadə qolçaqlar geymişdi. «Şirvani»sinin bir neçə yeri çırmaqla parçalanmışdı. Hacı: «Yəqin aslan pəncəsinin işidi», – deyə düşündü. Yenə də

şahın üzünü oğrun nəzərlə seyr etməyə başladı. Bu gözəl, gənc üzdə bir səadət, bir qalib fərəhi parıldayırdı. Cavan şah ötkəm səslə hacıya müraciət etdi:

– Buyur, hacı! Necə deyərlər, qürbət diyarlarda, gəzməli-görməli yerlərdə yediyin özünün olsun, gördüyünüsə bizimlə bölüş.

– Bəçeşm hökmdarım! Amma icazə ver, xidmətçilər gətirdiyim xırdaca töhfələri qadəmlərinə nisar etsinlər.

Şah gülümsədi:

– Hacı, özün bilirsən ki, təarüfü, dəbdəbəli danışığı xoşlamıram. Öz ana dilində danış, mənə daha xoş olar, gətirdiklərinlə birgə.

Hacı Salmanın dodaqlarını tabəssüm qımıldatdı:

– Adətimdir, şahım! Amma, gözlərim üstə.

Şahın nəzərə çarpmayacaq dərəcədə cüzi işarəsilə nədimi-xəlvət qapını açıb, əlləri üstündə xonçalar tutmuş xidmətçiləri içəri buraxdı. Xonçaların örtüyü götürüləndə

cavan şah, müxtəlif biçimli, qızıl və qaş-daş işləməli bəzək şeylərinə, demək olar ki, ötəri baxdı; samur xəzlərini seyr etdi. Əli ilə, xəzinəyə aparmaq işarəsi verdi. Hacı Salman xüsusi qiyməti olan bir neçə əşyanın ustası, sənətkarlığı haqqında məlumat verəndən sonra dedi:

– Şahım, hərəmsaraya keçirilmiş qırx xas kəniz də bura daxildir. İçlərində rəqqasə, xanəndə var. Meyil etdiyiviz vaxt nəzər salarsınız, birini bəyənsəniz bəxtiyar ollam.

– Çox gözəl. İndi isə... – Yenə də şahın gizli işarəsi ilə xidmətçilər xonçaları götürüb çıxdılar. Nədim və zənci kölə də otağı tərk etdi. Şah hacı ilə təkbətək qaldı.

Hacı Salman şahın sual ifadə edən baxışlarını tutub sözə başladı; amma elə bil ki, altı ay evvəl deyil, elə dünən, bəlkə də, bir saat əvvəl ayrılmışdılar və

hacı da yarımçıq kəsilmiş sözünü davam etdirirdi;

– Qibləgahım, elçiləri yerinə sədəməsiz-zadsız çatdırdım. Səlim Konyada idi deyən, yolumuzu elə Konya bazarına saldıq. Sarayda elçinizi böyük ehtiramla qəbul etdilər.

Şahın üzündən istehzalı təbəssüm keçdi. «Əlbəttə, fəthlərimizin, zəfərlərimin sorağı qulağına çatmamış deyil. Əlbəttə, indi özünü qohum sanır».
Hacı isə sözünə davam edirdi:

– Bir neçə ay elçiləri sarayda qonaq saxlayacaqlar. Cavabını sonra göndərəcəklər. Düşündüm ki, karvanı bu qədər boş-bekar saxlamaqdansa, qulluğuna qayıdım. Növbəti səfərimdə onlar da işlərini bitirib namələrini almış olsalar, özümlə gətirrəm.
Şahın üzündə kədər buludları görünməyə başladı;

– Bəs Sivas əhvalatı doğrudurmu? Qiyasəddini gördünmü?

– Təəssüf ki, şəxsən özünü görə bilmədim, şahim. İnzivadaydılar. Onlar qəribə bir surətdə Ələviliklə Bəktaşiliyi bir yerə salıblar. Orada İbrahim adlı bir dərviş qırx nəfər başqa dərvişlə birlikdə cihad bayrağı qaldırıb. Bu adla da Səlimin zülmündən cana gəlmişləri qəlyana gətirib. Qiyasəddin özü və qırxları Ərzurum ətəklərində böyük

kahada inzivaya çəkiliblər.

Əlbəttə, hacı Salman karvanında gizli tapşırıqla gələn İbrahimdən bixəbər idi. Onun el içində yayılmış şair-dərviş İbrahim olduğunu bilmirdi. Odur ki, bu cavan dərviş haqqında başqa bir söz demədi. Şah da cavanın gəlişindən xəbərsizdi, deyirdi:

– İbrahim kimilərdən müqəyyəd olmaq lazımdır, hacı adamlarına de ki, həmişə onda göz olsunlar. Yeddi gün qabağı görməyən arvaddan, yeddi gün irəlini görməyan kişidən ev olmaz. Şair isə yeddi, bəlkə də yetmiş il irəlini görür. Sözün gücü böyükdü. Təəssüf ki, qabaqlar şairlərimizin çoxu fars dilində yazıb, sözlərinin el-camaat içində kəsəri olmayıb, çünki başa düşülməyib. İbrahim isə eşitdiyimə görə bizim üçün indilikdə Rumda bir dünya qoşunun işini görür. Onun sözünü eşidib, həyəcana gələn, dəstələrə qoşulanların haqqında dərvişlər də mənə deyiblər.

Söz var kəsdirər başı,

Söz var kəsər savaşı,
Söz var ağulu aşı
Bal ilən qaymaq edər.

O, danışdıqca, hacı Salman misraları hafizəsinə hökm eləyirdi. Hacı Salman bir ibadət, bir dua kimi oxuyacaqdı bu sözləri. Hər yerdə, hər mənzildə, karvan dincə dayananda başına yığılanlara şahın kəlamlarından az oxumamışdı, az danışmamışdı. Və hələ çox danışacaqdı. Əcəl başının üstünü alanacan.

Hacı Salman əyildi, şahın önündə yeri və «şirvani»sinin ətəyini öpdü, duakarcasına əllərini qaldırıb cavanbəxtin zəfər qılıncının kütəlməməsi üçün dua etdi və məlumatına davamla söylədi:

Qırxlar bir deyil, beş deyil, hər qırxa mənsub abdalın özünün də bir qırxı, hər qırxın özünəməxsus üç yüz arəni var. Dərvişlik böyüyüb bütün güney Rumu ağzına alıb, sənin bir işarənə bənddilər, padşahım!

– Bu biqeyrət Səlim cəngə dəvətimi qəbul eləmir...

– Qorxur, sahibqran, sənin zəfər qılıncının şöhrəti bütün dünyaya yayılıb. Hər yerə gedirsən, söhbət səndən gedir. Səni zamanın Mehdisi adlandırırlar. Xüsusən İbrahimin əşarı bütün Rumda bu babətdən çox işlər görür. Onun nəfəsləri, cürətimi əfv eylə, qibləgahım, səninkilərdən seçilmir.

– Qaraman tərəflərdə nə var?

– Hər yer məğşuşluqdu, hökmdarım, sənin bircə «hə» deməyinin intizarındadırlar.

Söhbət xeyli uzandı. Şah rəqibinin qüvvəsi, silah növləri və özünü maraqlandıran başqa məsələlər barəsində hacı Salmandan soruşur, hacı da bütün görüb eşitdiklərini danışırdı. Hacı Salman yeni gələn «firəng səfiri» haqqında bildiklərini və müşahidə etdiklərini hökmdara deməyi unutmadı.

Şah hacı ilə söhbətindən xeyli məmnun qalmışdı. Hər iki

tərəf bir-birindən razı ayrılanda gün günortaya çatmışdı.

Şah bilmirdi ki, qarşıda onu Sultan Səlim sarayına çox yaxın olan ərənlərdən birinin elçisi – şair dərviş İbrahimlə görüş gözləyir.

* * *

Şəhərə çatanda İbrahim karvandan ayrıldı. Münasibətlərindəki bütün qəribəliklərə baxmayaraq ona Aytəkinlə vidalaşmaq ağır gəlirdi. Qız qızlığını bilirdi, indicə bu ağır ayrılıq, bu əbədiyyət qarşısında o aciz, yazıq bir görkəmdəydi. İstəyirdi ki, desin: «Mən oğlan deyiləm!» Mən o xəsis qocanın köləsiyəm. Məni bu hacı Salman tacir onun vəsiyyətilə malından, əşyasından biri kimi qəbul edib, qul bazarında satacaq; pulunu da onun külfətinə verəcək. Pulun yox – alasan məni. Yerin-yurdun bəlli deyil ki, aparasan, gizlədəsən məni. Yersiz-yurdsuz, ələvi dərvişin nəyi var? Amma bu az ömrümdə dünyada çox şey görmüşəm. Çox üzlər... çox gözlər... təkcə sən... təkcə sən...

Ah səni... Mənə kimsiz-kimsəsiz qaldığım bu dünyada təkcə sən əzizsən.

Nədir bu hiss? Deyə bilmərəm! Mən pulla satın alınmış, tacir Ağa Rəfinin artıq-urtuğunu yemiş kələyəm, qulam. Yerimi bilirəm... Sevməyə haqqım yoxdur! Bu ixtiyarı əlimdən aldılar. Mən də azadların azadıydım... Yalçın qayaların, zümrüd dağların, günəşli vadinin gülşən qoynunda azad bir diyarım var idi. Atam, anam var idi. Qızılgül qönçəsi kimi pöhrələnmişdim. Al Günəşə qarşı çəhrayı ləçəklərim açılmışdı, bülbül misallı cavanlarımızdan birini sevəcəkdim. Bəlkə də o cavan sən, sənin kimi birisi olacaqdı. Aldı bu ixtiyarı əlimdən o qanlı hökmdar! Sonralar şeirinə məftun olduğum, məhəbbət tərənnümünü şərbət kimi qana-qana içdiyim o qanlı cahangir aldı əlimdən bu sevmək haqqımı! Kəndimi, doğma yurdumu al qana boyadı. Yerlə yeksan elədi. Əqrəbamı qırdı, qılıncdan keçirdi. Təkcə bir söz üçün, «Əliyyə vəliyyullah» dedirdib şiə etmək üçün. Əşarını oxuduqca suallarıma cavab tapmaq istədim. Tapa bilmirəm; bu böyük məhəbbət tərənnümçüsü

aşiqlə, qanlı cahangir qəlbinin bir köksə necə sığdığını dərk edə bilmirəm! Sənin üçün bəlkə bu intiqamımdan keçə bilərdim. Sənin üçün!.. Ayrılığın mənə doğma yurdumun odlara qalandığı, zəbanə çəkdiyi o günü xatırlatdı. Yanıram, oğlan, yanıram, yar sinəmi bax, qəlbimdən axan qanları gör.

Oğlan da onun qarşısında durmuşdu. O da, İbrahim özü də bu ayrılığı qəribə, anlaya bilmədiyi bir çətinliklə keçirirdi. Ona elə gəlirdi ki, qarşısında durub ağlayan, hərəsi qanla dopdolu dolmuş bir piyaləyə bənzəyən bu gözlər dostunun deyil, Nəsrinindir. Ağlayan, titrəyən Nəsrindir. O, bu napak hissləri qəlbindən qovmağa çalışırdı. «İlahi, bu nə axmaq hissdir ki, mənə hakim olur? Yoxsa mən də bir para əsl ərən dərviş adını batıran pabəkardar kimi pozuluram? Nəsrinin burda nə işi var? Niyə bu ağlar gözlər arabir pərdələnir, rəngini dəyişib Nəsrininkinə çevrilir? Oğlan hara, Nəsrinim hara? Yaxşı ki, ayrılırıq. Qardaş itirsəm də, dost itirsəm də, çətin olsa da, bir yandan mənə elə gəlir ki, bu yaxşıdır, bu salahdır».

Hacı Salman isə artıq qət etmişdi. O Aytəkini baş vəzirin sarayına aparacaq, görüləsi bir para işlərin müqabilində qoca vəzirə hədiyyə edəcəkdi. «Göz qoymuşam qız təmizdir, pak tinətlidir. Vəzirin qızlarına xidmət edər. Bir zaman qızın özü də vəzirin dərbarında qismətini tapar. Mən də onu bu narəhmət Ağa Rəfi kimi pis niyyətliyin əlindən alıb yaxşı bir yerə caladığım üçün savab yiyəsi ollam!»

Beləliklə, İbrahim, Aytəkindən ayrıldı, onun qız olduğunu yalnız vücudu duydu, əqli və qəlbi qəbul etmədi. Oğlan çətin imtahan kimi ağır bir tapşırıqla, pirinin əmrilə saraya, şahın hüzuruna gəlməliydi. Doğrudur, ona, «Badi-müxalif-əsir» cümləsilə rast gələn dərvişlər bəzi mühüm xəbərlər çatdırmışdı.
Doğrudur, «Badi-müxalif-əsir» kəlməsini hacı Salman da bilirdi və o da bir sıra başqa yerlərdən topladığı mühüm xəbərləri padşaha çatdıracaq idi.

Lakin bütün bunlar İbrahimin apardığı xəbərlər qarşısında dərya yanında damcıya bənzərdi. Hacı, bəktaş və ələvi

www.vivo-book.com

qulları – dərvişlər həmin zərrələri dönə-dönə yığmış, İbrahimin pirində toplamışdılar. Ərənlər ərəni pir, dar ağacından xilas edilib məlum mağaraya gətirilmiş öz çillə çıxardığından sonra saleh ərənlər dəstəsində mühüm mövqe tutmuş sazlı-sözlü bu gəncin qarmaqarışıq bir dövr keçirən Konyada qalmasını məsləhət bilməmişdi. Saraydan aldığı son hərbi məlumatı da, əsgərin, əsləhənin, Firəngistandan gətirilmiş gizli saxlanan atəşfəşan topların sayını İbrahimə əzbərlətdirib onu karvana qoşmuş, yola salmışdı. Bu sirləri, hətta çoxdan tanıdığı, qibləgah Xətai ərənin xəbərdarlıqlarla göndərdiyi tacirbaşı-bəzirganlardan birinə belə etibar etməmişdi. Yalnız qızğın qanlı, övlad qədər sevdiyi mənəvi oğuna – İbrahimə cahangəştliyi zamanında göz olmağı tapşırmışdı.

İbrahim şəhərdə bir gün ecgahan qaldı. Karvansara hücrəsində özünə xırdaca bir yer girələdi. Hamama getdi, dibasını, vücudunu yolun toz-torpağından, his-pasından təmizlədi. Könlü hələ də cinsini bilmədiyi Aytəkin dostunun

fəraqından pərişan ikən, əşarını, nəfəslərini sevdiyi, böyük hökmdar və əlirişməz din başçısı – hələ dörd yaşından təriqət başçısı şeyx mənsəbinə yüksəlmiş ərənlər ərəni, pirlər piri Şah İsmayıl Xətai ilə görüşə hazırlaşdı. Axşam əzanından bir qədər keçmiş saray darvazasına yaxınlaşdı. Pirinin ona verdiyi əqiq qaşının üstünə «Hu» həkk olunmuş gümüş üzüyü eşik ağası Div Sultana təqdim etdi. Heç bir urub keçməmiş nədimi-xəlvət onu şahın xəlvətinə gətirdi.

...Nubiyalı zənci yoğun, qara, mis kimi parlayan bazubəndli qollarını sinəsində çarpazlayanda İbrahim diz çökdü. Xəlvətdə çox sadə, ovçu geyimində olan şahi-cavan-bəxt içəri girdi. Əlini İbrahimə uzatdı, İbrahim qəlbindəki anlaşılmaz döyüntü ilə iri, firuzə, zümrüd, yaqut, öpdü. Sonra da şahın iznilə onun qarşısında əyləşdi, otaqda tək, üz-üzə qaldılar. Və İbrahim gətirdiyi müharibə hazırlığı xəbərini Sultanın Firəngistandan gətirdiyi atəşfəşan topların sayınacan, aldığı tapşırığa görə şəxsən hökmdarın özünə məlumat verdi.

Şah ərənlərin, Konya və ətrafındakı ələvi dərvişlərin, qırılan qırx mindən ziyadə şiənin, əhalinin başına gətirilən fəlakətləri bilavasitə gözü ilə görmüş cavandan soruşdu, öyrəndi və dedi:

– Dərviş libasını çıxart, ərən, bilirəm ağırdır, lakin lazımdır. Bu gün vətənin dərvişdan çox, biləyi güclü igid cəngavərə, sədaqətli əsgərə ehtiyacı var. Bir müddət sarayda, şüəra arasında qal! Vaxtaşırı hərbi məşqlərda iştirak et! Söz vaxtı ötür, söz döyüşündən qılınca keçmək vaxtıdır. Vaxtına hazır ol!

İbrahim hökmdarının hər kəlməsini, hər sözünü göydən enmiş bir ayə kimi qəbul etdi. Sarayda qaldı. Onun sarayda nəqqaşlar, xəttatlar, aşıqlar, üləma və şüəra üçün qurduğu büsatı görüb vətən, doğma ana dili, doğma xalq haqqında dediklərinə inandı. İnandı ki, bütun bunlar bir xalq, bir birlik naminə edilir.

RƏQQASƏ

Hadisələrdən iki il keçmiş, şah bir az da kişi həddinə dolmuşdu. O, bu gün öz qoca vəzirinə söz verdiyi kimi, onlara nə isə qəribə bir şey görmək dəvətilə qonaq gəlmişdi. Onlar qapının önünə çatınca şəbəkə qapılar öz-özünə, deyəsən, içəridən açıldı. Ev sahibi qoca vəzir hörmətlə yana çəkilib şahı irəli ötürmək işarəsi verdi. Şah otağa daxil olanda onu heyrət götürdü. Otaq, demək olar ki, boş idi. Qara mərmərə bənzər, lakin sürüşkən olmayan döşəməyə xalı-xalça salınmamışdı, mütəkkələr düzülməmişdi. Otaq çox böyük idi. Yalnız yuxarı başda hündürləşdirilmiş səhnəyə bənzər bir yerdə şahanə kürsülər qoyulmuşdu. İki dənə: biri qoltuqlu, taxta bənzər idi; digəri alçaq, qoltuqsuz kətil idi. Amma hər ikisinin üzünə çubuğu tirmə çəkilmiş, oturacağı isə al, ingilis məxmərinə qutulmuş, yumşaq döşəkcə idi.

Otağın divarlarına əlvan Kaşan, Təbriz, Şirvan xalıları vurulmuşdu. Hündür rəflərdə gülabzənlər, şərbətdanlar, əlvan, naxışlı nimçələr, şəkilli qablar düzülmüşdü. Şah

anladı ki, otağı boş göstərən məhz yerin – döşəmənin döşənəcəkdən xali olmasıdır. Şah bir şey demədən, təəccübünü büruzə vermədən, ev sahibinin dəvəti ilə qoltuqlu kürsü qoyulmuş yerə qalxdı. Oturdu. Bu dəfə onun icazəsi ilə qoca vəzir də alçaq kürsüdə əyləşdi. Elə həmin anda otağa haradansa, xəfif, həzin bir musiqi axıb gəlməyə başladı. Kim isə əvvəlcə udda çalmağa başladı. Bir az keçmiş musiqiyə tar qoşuldu, sonra da kamançanın incə həzin nidaları udla tara cavab verməyə başladı. Bu çox incə, çox xumar bir musiqi idi. İnsanı hara isə xəyal aləminə, nağıllar dünyasına aparırdı...

Şah və vəzir musiqini dinləməyə daldığı anda, otağa xəfif kölgələri andıran gözəl cariyələr daxil oldular. Onlar boş döşəməyə unmu, tabaşir tozumu, nə idisə olduqca ehtiyatla yaymağa başladılar. Elə yavaş hərəkət edirdilər ki, havaya bir misqal da toz qaldırmırdılar. Şah kürsünün dəstəyinə dirsəklənib seyr edir, heyrətini büruzə verməməyə, bu əcaib hazırlığın nə üçün görüldüyünü soruşmamağa çalışırdı. Amma xumar musiqinin onu hara isə çəkib aparmağa səy

göstərməsinə baxmayaraq, şah bir hərəkəti, bir hadisəni də ötürməməyə cəhd edirdi... Cariyələr ağ tozu yayıb hamarladıqdan sonra çıxdılar. Əvvəlkilər kimi mavi geyimli digər iki cariyə onları əvəz etdi. Qızlar iki qələmkar süfrə gətirdilər bu süfrələri yazısı şaha tərəf olmaqla səssizcə ağ tozun üstünə sərdilər və kənarlardan yeriyərək otağı tərk etdilər. Ev sahibi etiramla şaha müraciət etdi:

– Qibleyi-aləm, lütfən qələmkarların üstündəki qəzəli oxuyun!

Bardaş qurub otursa nigarım, fəğan qopar,
Dursa-otursa, fitnəyi-axirzaman qopar!

Şirvan xəlayiqi qamu Təbrizə daşına,
Mülki-əcəm sorar ki, qiyamət xaçan qopar?

Yetdikcə tukənür ərəbin güyü məskəni,
Bağdad içində hər neçə kim türkman qopar.

Hə... yadına düşdü. O, bu qəzəli İraq fəthinin təsirilə,

Bağdadda ikən yazmışdı. Dəclənin sahilində, ay işığı çayda qızılı yol salanda, ərəb nəğmələri sahil sularının həzin xısıltısında əriyəndə...

Şah dikəldi. Yaxşı, nə olsun? Burada təəccüblü bir şey yox idi. Şərqin bütün şəhərlərində belə qələmkarlar işlənirdi. Onları yazısının məzmunundan asılı olaraq xeyir və şərdə, ehsanda süfrə kimi işlədir, ya boğça kimi hamama aparır, bəzilərinə hətta cənazə də bükürdülər. Belə qələmkarlara sevimli şairlərin şeirini yazdıranlar olurdu ki, bunlar buyurtdurma qələmkarlar idi. İndi yerə sərilmiş qələmkarların üzərində əlvan çəhrayı-mavi-firuzəyi naxışların ortasında iki qoşa cərgəylə şahın öz qəzəli yazdırılmışdı. Şah elə birinci beytdən bunu anladı və «nə olsun ki, bunda nə qəribə şey var?» deyə heyrət bildirən baxışlarla ev sahibinə baxdı. Vəzir dodaqlarını qımıldatmadan xəfif bir təbəssümlə dilləndi:

– Söz vermişsiniz, qibleyi-aləm, bir qədər səbir...

Şah bir söz demədi. Doğrudanmı bu əbləh qoca ağıldan

çıxmış, onun qiymətli vaxtını alıb, əcaib-qəraib vədi ilə bu adi qələmkarda yazılmış qəzəli oxumağa gətirtmişdir? Axı onun həmin bu qəzəlləri ən gözəl xəttatların əlilə yüzlərlə nüsxə köçürülüb, sənətkar rəssamların, nəqqaşların firçası ilə bəzədilib əllərdə gəzir. Şah bu düşüncələr içində qəlbinə dolan qəzəbi boğmağa çalışırkən, musiqi ahənginin dəyişdiyini duydu. İndi bu bir rəqs havası idi. Onu gözəgörünməz çalğıçılar dəstəsi böyük şövqlə ifa edirdi. Ud, tar, kaman, saz, kanon, dəfna-qara səsləri getdikcə coşaraq otağa coşqun bir rəqs musiqisi yayırdı. Birdən şahın oturduğu məsnədlə qarşı-qarşıya olan qapılar açıldı. Şah elə zənn etdi ki, cariyələr içəri girib nə isə gətirəcək. Lakin içəri girənlər iki cavan «oğlan» idi. «Oğlanlar» musiqi ahənginə uyğun bir şəkildə qələmkar süfrənin üstündə rəqsə başladılar və rəqs bir anda, sanki bir göz qırpımında başlayıb qurtardı. «Oğlanlar» tək bircə dəfə qarşı qapı önündə rəqsə başlayıb şahın önünəcən gəldilər və yan qapılarda qeyb oldular. Şah nə olduğunu düşünməyə macal tapmamış, cariyələr içəri girib ehtiyatla qələmkar süfrələri qaldırdılar. İndi doğruçu möcüzə qarşısında şahın gözləri təəccüb və heyrətdən

böyümüşdü. Qara xətlə ağ toz üzərində şahın indicə qələmkarda oxuduğu qəzəli yazılmışdı. Həm də bunu rəqqaslar, rəqs edən ayaqları ilə elə «yazmışdılar» ki, döşəmənin qara rəngi yazı xətti olmuş, ağ toz – ağ kağızı əvəz etmişdi. Şah qəzəlini ilk dəfə görürmüş kimi oxumağa girişdi. Son möhrə bəndinəcən diqqətlə oxudu.

Çıxsa saraydan bu cahan vadisin tutar,
Bir mürşidi-təriqəti-pirü cavan qopar.
Görmişdi ta Xətai əzəldən yəqin bunu,
Nuhun əlaməti gəlür andan tufan qopar.

Ax... qoca mürid!.. Bir qələbədən soraq verən qəzəli naməlum «xəttatlar yazanda» bircə xəta belə etməmişdilər. Şahın dodaqları titrədi:

– Cindilər, şeytandılar nədi?

Yenə də xəfif bir təbəssüm ev sahibinin dodaqlarını qımıldatdı:

– Nə cin, nə də şeytan, qibleyi-aləm, sizin kəminə qulunuz

kərimələridir.[40]

– Necə, üstəlik hələ onlar qızdı?

– Bəli, qibleyi-aləm, sizin qulluğunuzda və libaslarında rəqsə cürət etmədilər. İcazə buyurun gəlib qədəmlərinizdən öpsünlər.

Vəzir onsuz da bilirdi ki, şah qızları görmək istəyəcək.

– Gəlsinlər! – Şah həyəcanını gizlətmədən pıçıldadı.

Zəminə və Səbinə otağa daxil oldular, onlar indi artıq öz zəngin, əlvan libaslarında idilər, süslü gəlinə bənzəyirdilər. İkisinin də əynində nazik, qollu zər nimtənə vardı. Ağ qollarını burma bilərzik bəzəyirdi. Üz tutmamışdılar. Boyunlarında xas Şamaxı şəddəli gərdənbənd var idi. Hərəsi saçına on dörd hörük hörüb mirvarid düzümlü saçbağıyla bəndləmişdi. Bazularında ləl bazubənd od saçırdı. Aralar ağasının önündə baş əyib xidmət məqamında ədəblə əl-əl

[40]Sizin əskik qulunuzun qızlarıdır.

üstə dayandılar. Hər iki qızcığaz on üçünə təzəcə girmiş, qızlıq həddinə dolmamışdı. Bir az əvvəl oğlan libasında qızlıqları büruzə vermirdilər də, indi qız donunda incə – qönçə gül idilər. Şahın işarəsilə taxtına yanaşdılar, özlərinə tərəf uzadılmış əllərin hərəsi birini öpdü. Şah qızların tirmə şal altından çıxmış cığalarını bir ata, sənətə yüksək qiymət verən bir insan kimi sığalladı:

– Yaxşı, ay şeytanlar, bir deyin görüm bunu necə öyrənmisiniz? Bu məharət hardan sizə? Ustadınıza bərəkallah, ustadınız kimdi?

Qızlar baxışdı, ata dilləndi.
– Şahım, elə qulluğunuza təqdim edəcəyim möcüzə də həmin ustaddı. İzin versən...

Şah səbirsizliklə onun sözünü yarımçıq kəsdi:
– Əzizi-mən, belə xeyir işdə icazə almamış da iş görə bilərsən. İzindi, əlbəttə, izindi...

Şahın məsnədi ilə qarşı duran və az əvvəl rəqqasələrin daxil olduğu şəbəkə qapı açıldı. İçəriyə bir gəlin, bir mələk girdi. Bu, iki il əvvəl bəzirganbaşı hacı Salmanın qoca vəzirə hədiyyə gətirdiyi, müqabilində bir miqdar bəxşeyiş aldığı Aytəkin idi.

Şah heyrətindən ağzı açıla olduğu halda yerindən qalxdı. Belə şey görülməmiş bir iş idi. Şah kəniz üçün ayağa durdu! Şah durmuşkən qoca vəzir yerində əyləşə bilərdimi? O da qalxdı, qızlar da. «Mələkdir, mələk, ilahi, göylərindəki mələk! Rəsuli-əkrəmin meraca gedərkən yollarına nur saçan mələk!..» Şah ayrı söz tapa bilmirdi. Gəlin isə... hə bir az əvvəl şahın başı qızlarla söhbətə qarışmışkən gözəl cariyələrin içəri girib qalın sumaqlar döşədiyi döşəmə üstündə nazlı xuraman, sərv kimi, narın-narın irəliləyirdi. Məğrur başını dik tutmuşdu. Sənətinə, gözəlliyinə məftun olmuş bu xoşbəxt şah, onun düşməni, elinin, vətəninin, yurd-yuvasının qatili, qanlar tökən, evlər yıxan, ölkələri tar-mar edən bir şəhriyar idi. Heç vaxt ayrılmadığı balaca xəncər qızın incə arxalıq və ensiz kəmər altından göbəyini yandırırdı. Aytəkin bu anı, bu dəqiqələri nə qədər vaxt idi ki,

gözləmişdi. Neçə aylar, illər sərf etmişdi. Neçə qurbanlar vermişdi. Bu günü gözləmişdi ki, xəncəri onun köksünə saplasın və içərisindəkinin ürək olub-olmadığını öyrənsin! Qanından bircə damla içsin, bəlkə onda bütün varlığını qovuran intiqam hissi sükunət tapa bilsin. Bir an Aytəkinə elə gəldi ki, artıq məqam yetişib və əgər bu məqamı ötürsə, daha ələ fürsət düşməyəcək. Elə bu zaman Səbinə ilə Zəminənin – əkiz bacıların və ona atalıq etmiş qoca vəzirin özünə çevrilmiş məhəbbət dolu baxışlarını gördü: «Yox, yox! Məqam deyil! Müridlər, qızılbaşlar bu zavallıların hər tikəsini qulaqları boyda edər. Hər tikəsini bir quduz itə paylarlar. Bu nəməkbəharamlıq olar sonra, asudə fürsət ələ düşəcək, düşəcək!» O narın-narın irəlilədikcə düşünürdü. Şah ani pərəstişindən özünə gəlib kürsüsünə əyləşdi. O indi bir şair idi, sənət, istedad aşiqi şair Aytəkin hökmdara yanaşdı, bir addım qalmış diz çökdü və adət üzrə yeri öpmək istədi. Lakin şah buna imkan vermədi. Şair, sənətkarın yer öpməsinə razılıq vermədi, onu yaxına – Səbinə ilə Zəminənin yanına çağırdı.

– Bura gəl, ustad, bura gəl! Yəqin ki, şagirdlərin səni belə

də çağırır.

– Onun əkizlərdən başqa şagirdi yoxdu, qibleyi-aləm! O sizin kəminə nökərinizin pulla satın aldığı kənizdir.

Aytəkin bu sözlərə adət etmişdi. Bununla belə qəlbi sızladı. Şair şah isə onun qəlbindən keçənləri üzündən oxuya bilmədi. Çünki Aytəkinin başı aşağı idi, nəzərləri yerə dikilmişdi. Bununla belə «pulla satın alınmış kəniz» sözləri şair qəlbini titrətdi. Ürək ağrısı ilə «lənətə gəlsin belə sənətkarı, belə ziqiymət gözəlliyi alver hədəfi edən qanunu!» Unutdu, bir anlığa şah olduğunu unutdu! Ürəyində danışan şair idi!

– Dünyanın bəzəyi, tacların ən giranbəha incisi... Vəzir, sən onu neçə dirhəmə almısan?

Vəzir qəsdən uydurdu:

– Üç yüz dirhəmə...

– Necə dilin gəldi, qiymət dedin, qoca?! Onun özü ağırlığında, bəlkə, daha artıq qiyməti var.

– Elədir, hökmdarım! Amma mən olanını dedim. Sualınıza cavab verdim. Əslində satın almamışam, tacir onu mənə hədiyyə gətirmişdi. Mən də müqabilində üç yüz dirhəm baxşeyiş vermişəm.

– Şahlara layiq hədiyyə verib sənə, vəzir! – deyə şah gözünü Aytəkindən çəkmədən fərəhlə səsləndi. Vəzir sözdəki eyhamı duysa da, özünü o yerə qoymadı:

– Padşahım! – dedi, – elə mən də şaha layiq olanı nəzərinizə çatdırdım, özünüz binagüzarlıq edəsiz.

Yenə də bu alqı-satqı mükalimələrinin qızın ürəyini nə hala saldığını duymayan şah, yerindən qalxıb oturdu; nə soruşacağını, bu qənirsiz gözəli necə ələ alacağını düşünürdü:

– Çoxdanmı sizdədi?

– İki ildi, qibleyi-aləm! Amma özü də təsdiq edər ki, bu evdə o kərimələrin biri kimi asudəlik tapıb. Gülcən könlünü incidən olmayıb. Bu gündən isə qibleyi-aləm, o sizə peşkeşdi.

Şahın ürəyinə bir arxayınlıq gəldi. Yaxşı ki, qoca vəzir özü bu sözü dilinə gətirdi. Onun özünün istəməsinə meydan buraxmadı.

– Təşəkkür edirəm, vəzir! İstə məndən bu qiymətsiz hədiyyənin əvəzini. Nə istəsən...

Vəzir sakit bir kədərlə başını yellətdi:

– Hökmdarım, onda o hədiyyə olmaz, yenə də alver olar mənə yalnız qibleyi-aləmin səhhəti, can sağlığı bəsdi. Ayrı mükafat, əvəz istəmirəm.

«Qoca tülkü, görəsən, ürəyindən nə keçir. Görəsən, qiymət və hədiyyədən muradın nədir? Nə olur-olsun, verdiyin ona layiqdir» – deyə düşünən şah, gözünü qızdan çəkmirdi.

– Vəzir, bu qənirsiz gözəllik, bu böyük sənət heç nəylə ölçülməz, sən haqlısan. Mən onu sarayda özüm gəzdirəcəm. Qoy saraydakı başqa sənətkarları görüb tanısın. Özü də sənətini sarayda istedadı olan cavan kənizlərə öyrətsin.

Şahın dili bu sözləri deyirdisə də, qəlbi başqa məqam

çalırdı.

– Təkcə bu deyil, hökmdarım, – deyə vəzir şahın tərifindən vəcdə gələrək dilləndi. – O, oxumaq da bilir, yazmaq da! Xuddavəndi-mütəal ona gözəlliyin də, ağlın da ən seçilmişini verib. Sənin də əşarını çox əzizraq tutur. Deyərəm ki, bilmədiyi qəzəlin yoxdu.

Şah xəfifcə gülümsədi, üzü qızardı. Qəlbindən süzülən sözləri dodaqlarına gətirməyə bilmədi, qoca vəziri də nəzərə almadı, qızları da. Məxmur gözlərini Aytəkinin allanmış üzünə dikib oxumağa başlamazdan əvvəl dedi:

– Amma indi bir eləsini oxuyacağam ki, zəmanət verirəm, onu bilmir.

Vəzir də, qızlar da gülümsəmiş baxışdılar. Şair indicə yaranan qəzəlini oxumağa başladı:

Dilbəra, mehrin əzəldən sidq ilə canımda var.

Ondan özgə kimsə yoxdur, həm bilür pərvərdigar.

Bu fəna darində əhli-zövq ilən qılgil səfa,
Mülkü malü təxtü cah olmaz cahanda paydar.

Sayeyi-qəddinlə gərçi yer yüzü buldu şərəf.
Sayəbani-rüfətindən nöh fələk tutmuş qərar,

Gəlməmişdir sən təki aləmdə, ey sultani-hüsn,
Sahibi-fəzlü kəmalü izzəti baiftixar...

Qəzəlin dalı gəlmədi, o möhrə bəndini demədi, bir anlığa susdu və qəribədir ki, yüzlərlə təriflərdən qulağı dolmuş hökmdar indi sadəcə bir şair idi, yüksək sənət sahibi sandığı insandan tərif gözləyirdi. Qız bunu duydu. Heç bir sıxıntı çəkmədi. Axı indi iki böyük sənətkar qarşı-qarşıya dayanmışdı. Sənətkar sənətkarın qiymətini gözləyirdi. Dedi:

– Qibleyi-aləmin bu incə qəzəlini həqir cariyəsi bilə bilməzdi. Şükür böyük ilhamın ilhamçısına ki, əşrəfi-əlaya bu qiymətsiz incini ilham etdi. Və bu dəyərli misraların,

beytlərin yaranmasında əgər mən də bir anlıq böyük hökmdara zövq vermişəmsə, bəxtiyaram.

Qızın dodaqlarını xəfif bir təbəssüm titrətdi, bunu görən şair qəlbində düşündü: «Qadının ən yaxşı bəzəyi təbəssümdür, ilahi».

Qızın cürətli sözlərindən vəzirin qəlbi titrədi, qorxdu. Amma şair bir söz demədi. Müəlliminin tərifini dinləyən bir şagird sevincilə qıza baxır, danışmasını seyr edirdi. Qız sözünü bitirəndə dilləndi:
– Səni yaradan pərvərdigara afərinlər olsun. Adın nədi?

Bu dəfə qızın əvəzinə vəzir cavab verdi:
– Kənizinizin adı Aytəkindir.
– Sənə bu adı verən valideyninin ömrü uzun olsun! Hardadılarsa, de! Quldurlarsa – azad edərəm, əsirdirlərsə – əsarətdən qurtararam. Dünya malından qəni edərəm.

Qızın gözlərində hər şey dəyişdi. Şair də, şeir də

bir anda öldü. Yerində cahangir bir hökmdarın əlilə qanlara qərq olmuş doğma kənd, ölən cəngavərlər içində qardaşı, əsir gedənlər içində yerini-yurdunu bilmədiyi ata-anası canlandı. Yaraları qövr elədiz sən buraya intiqam üçün gəlmişdin, Aytəkin! Doğma oymağının, əzizlərinin intiqamı üçün yaşayırdın, əzizlərinin intiqamı üçün yaşayırdın, qız! Şair məclisində şeir üçün, zövqlər üçün yaşamırdın, qız! İntiqam üçün yaşayırdın!

Qızın gözlərində fərin söndüyünü, hər birində bir inci giləlendiyini görən şair, Aytəkinin ağır bir dərdinə toxunduğunu anladı. Elə zənn etdi ki, yetim qızın yarasının gözünü qoparıb, ölən valideynini yadına salıb, təəssüfləndi:

– Əfv et, – dedi, – bilmədiyim dərdinə toxundum. Allahın rəhməti hamımızın üstündə olsun.

Vəzir də, qızlar da heyrət içində susub şahın kənizlə söhbətinə qulaq asırdılar. Bundan sonra artıq ortaya yeni

mövzu gətirmək mümkün olmadı. Şah qalxdı. Onun ardınca vəzir də, qızlar da qalxdılar. Şah qoca vəzirin sarayını tərk edib gedəndə dedi:

– Sabah qəsrin sənət hücrələrini Aytəkinə özüm göstərəcəyəm.

* * *

...Qəsr olduqca böyük idi. Bürünc işləməli şəbəkəli darvaza demək olar ki, daim açıq qalırdı. Böyük dəvə karvanlarının yerləşə biləcəyi nəhəng, bağatlı həyət uca hücrə-barılarla əhatə olunmuşdu. Darvazadan baxanda həyətin üzbəüz səmtində ikimərtəbəli bina ucalırdı. Sağ-sol tərəfdən barılar boyu tikilmiş hücrə-otaqlar bir-mərtəbəli olsa da saxsı kərpiclərdən həndəsi fiqurları – bəzəyi-ornamentləri ilə əsas binadan az gözəl deyildilər. Həyətin ortasında güllüklər içərisində fəvvarəli, dumduru, gözyaşı kimi su dolu hovuz vardı. Uca ağaclar və hovuzun böyründən imarətə gedən yol boyu əkilmiş sərvlər xiyabanı, həyətə xəfif kölgələrlə dolu park görkəmi verirdi. Əndərun isə imarətin arxasında

yerləşirdi. İki tərəfdən yolu vardı: bir birun – imarətin daxili tərəfindən, bir də dal həyətə çıxan qapıdan. Dal həyətlə ön həyətin arasını şəbəkəli taxta hasar kəsirdi. Xatınlar, cariyələr ön həyətdə  görünməz, yalnız dal həyətdəki bağçaya və güllüyə çıxa bilərdilər. Burada sərvlərin əhatə etdiyi fəvvarəli hovuzda müxtəlif biçimli əlvan balıqlar üzüşürdü. Ağacların arasında arabir hürkək ceyran, əlvan tovuz quşları görünürdü.

Aytəkin saraya gəldiyinin ikinci günü axşamüstü şahın istirahət otağına çağırıldı. Şah onu böyük bir məhəbbət və intizarla gözləyirdi.

– Sənə imarəti özüm göstərəcəyəm, – dedi və onlar gündüz gəlib-gedənlər, xidmətçilər, gözətçilər dolu olan, indi isə darvazası sımsıx bağlanmış ön həyətə endilər. Cavan şah qıza barı boyu uzanan, ins-cinsdən xali otaqları nişan verməyə başladı:

– Bura xəttatlar üçündür. Qədimdə Əndəlüsdə[41] bir qazi

[41] Kordova qazisi Əbdül-Mütarrifi Əbdürrəhman ibn Məhəmməb ibn Əhməd ibn

olub. Böyük kitab həvəskarı imiş. Altı xəttat daima onunçün kitab üzü köçürərmiş. Harda yaxşı kitab adı eşitsə, böyük qiymətə alar, kitabın əslini oxumaqçün heç kəsə verməzmiş, üzünü köçürtdürüb verərmiş. Mənim də qəsdim elə bir kitabxana düzəltməkdi.

Otağın içərisində müxtəlif ölçülü xırda kətillər, alçaq mizlər düzülmüşdü. Mizlərin üzərində müzəyyən qələmdanlar, şamdanlar, yazı ləvazimatı, əlvan rənglər, qızıl və gümüş ərintisi üçün piyalələr, rəhillər var idi. Xəttat, rəssam, şirazəçi və bəzəkçilər bu otaqlardan ikisində yerləşirdi. Xəttatlar əlyazmalarının üzünü köçürür, ağ buraxılmış səhifələrinə rəssamlar mövzuya uyğun, əlvan miniatürlər çəkirdilər.

Qız böyük bir maraqla bütün bu şeir dolu, elm dolu aləmi seyr edir və düşünürdü: «Şeirə də, sözün qüdrətinə də yüksək qiymət verən hökmdar, bəs qəlbindəki daşlıq

---

Übeydüllah ər-Rüayni ( X-XI əsrlər) nəzərdə tutulur.

haradandır?»

Kitabxana yerləşən otaq daha böyük idi. İçərisində divarlar boyu qəfəsələr tavana qədər qalxmışdı. Şahın kitabxanası məşhur idi. Burada Quranın müxtəlif, müzəyyən və qədim nüsxələri, şərhlər, haşiyələr, «Şərhi-Məzahib», «Yimüzəc», «Tərəssül», «Məzəmir», Razinin, İbn Sinanın, Meybudinin, Əbu Reyhan Biruninin, Qara Davudun, İbn əl Əshrin, Nəsiminin kitabları, Əlişir Nəvainin, Hüseyn Bayqaranın Səmərqənddə təzə köçürülüb göndərilmiş divanları, tarixə, dilə, dinə, məntiqə, nücuma aid müxtəlif əlyazmaları, Həbibinin, Füzulinin hələ divan kimi tərtib olunmamış əşarı toplanmışdı. Firdovsinin «Şahnamə»sinin, Nizamimin «Xəmsə»sinin isə şahın özünə məxsus nəqqaş və rəssamlar, xəttatlar tərəfindən qızıl suyu və əlvan rəngli ornamentlərlə müəyyənləşdirilmiş nüsxələri ayrıca saxlanırdı.
Şair, qızın bu şeylərdən baş çıxarıb-çıxarmadığının fərqinə varmadan qiymətli divanların hər birini ayrıca, əzizini oxşayar kimi əlinə alıb baxır, yenidən ehmalca qaytarıb yerinə qoyurdu. Qızın nəzərindən qaçmadı; o, burada

hökmdar deyil, əsl şair idi...

Digər otaqlarda musiqişünaslar, şairlər, aşıqlar yerləşirdi. Dal həyətə girəndə, şahın işarəsilə bir-birinə keçən iki böyük otağın qapısı açıldı. Onlar otağa daxil olanda Aytəkinin ağzı açıla qaldı. Müzəyyən otağın divarları ayna və büllurdan idi. Hansı səmtə çevrilsən öz əksini görürdün. İkinci otaq bəzəkli olsa da daha sadə nəzərə çarpırdı. Taxça və camaxadanlarından gümüş salmancalı ipək pərdələr asılmış bu otağın baş tərəfində taxt və xırda tirmə örtüklü kürsülər, divar boyu ipək və məxmər üzlüklü döşəkcələr, dirsəkaltılar, püştülər düzülmüşdü. Şah burada dayandı, bir anlığa taxtın yanındakı kətillərdən birinin üstündə əyləşdi.

– Bu otaqlar ustad Aytəkinə məxsusdur, – dedi. – O, burada yaşayacaq, dincələcək, aynabəndli otaqlarda isə şagirdlərinə öz sənətini öyrədəcəkdir.

Aytəkin ayaq üstə, əlləri sinəsində müntəzir dayanmışdı. Bayaqdan bəri onları müşayiət edən cariyələr incə təbəssümlə təzə xanımlarını seyr edirdilər. Bir qəbilənin son

yadigarı olan cəfalar çəkmiş Aytəkinin saray həyatı belə başladı. Şah tez-tez işlərindən, çox sevdiyi balıq və ya pələng ovundan, səfərlərindən macal tapıb onu yoluxurdu. Şagirdlərinin məşqlərinə tamaşa edirdi. Son iki ildə ona atalıq etmiş qoca vəzir də, onun əkiz qızları Səbinə ilə Zəminə də Aytəkini unutmur, ara-sıra rəqs salonuna gəlirdilər. Zəminə son aylarda nişanlandığından başı toyqabağı hazırlıqlara qarışdığı üçün Aytəkinin yanına Səbinə daha çox gəlir və qızlar bir-birinə daha möhkəm bağlanmışdılar. Elə-belə buludsuz kimi görünən tale göylərində bir gün ağlasığmaz bir hadisə baş verdi. Sakit axan suları ləpələndirdi... Mənim qəlbimi də!

## TƏZƏ «PİYALƏ»

... Səhər cariyələrdən biri ona xəbər vermişdi ki, bu axşam şah və mələkə Taclı xanım işrət və şeir məclisini onun otağında keçirmək fikrindədirlər. Sarayda şeir demək məharəti, qabiliyyəti olan xanımlardan da bir neçəsi bu

gecəki işrətdə iştirak edəcəkdir. Aytəkin qızlarla bu səhərki məşğələlərini tez qurtardı, şagirdlərini azad etdi. Cariyələr divarları güzgü və büllur parçaları ilə bəzədilmiş böyük otağa daha iri, əlavə qəndillər asdılar, qəndillərin üstünə onlarla şam qonduruldu. Otağa başabaş əlvan Kaşan, Təbriz, Şirvan xalıları döşəndi. Məxmər, zərbaft, tirmə, «İynə batmaz-qayçı kəsməz» xaralardan üz çəkilmiş döşəklər, kimxa püştülər, nimdar və dirsəkaltılar düzüldü.

Otaqdan müşk, gülab, buxur iyi gəlirdi. Divarlara vurulmuş xüsusi qəndillərin ələ bənzər çıraqlarında ətirli yağa salınmış piltələr şölə verdikcə divardakı güzgü parçaları min rəng çalır, orta qəndillərdəki şamlar da bu güzgü parçalarında min-min şama çevrilir, inikas edirdi.

Otaq şahanə toyxanaya çevrildi. Şahın istirahəti üçün yuxarı başda xüsusi iri taxt qoyuldu. Süfrələr döşəndi, zərif şiraz şərabı və reyhan, bədmüşk, gülab, narınc, nar şərbətləri və ovşarları dolu çini, gümüş və qızıl dolçalar, kuzələr, ibriqlər, məzə qalanmış nimçələr, dövrələr, buludlar, meyvə

əmbizləri nurulmuş sinilər, məcməilər, ol suyu üçün aftafaləyənlər, çini, büllur qəlyanlar gətirildi. Şahın çox sevdiyi ətirli «Süneyvaz», «Bozdəli», «Bilərcin», «Ağaxani», «Karrar» yemişləri, Səmərqənddən qurşun dəbbələrdə buz içində gətirilmiş «cərco» qovunu ayrıca gümüş sinilərə dilimlənmişdi. Axşam namazından bir qədər keçmiş bu gecəki şeir, musiqi və işrət məclisinə izin verilmiş xanımlardan Cahan xanım, Həyat xanım, Zəminə və Səbinə şahla birlikdə otağa daxil oldular. Şeir söyləməkdə və hazırcavablıqda saray xanımları içində şöhrət qazanmış cariyə Fəna da bunların içində idi. O ilkindi çağından gəlmiş, Aytəkinlə birlikdə hazırlıqlara nəzarət etmiş, Aytəkinin şagirdləri içərisindən bu gecəki mey maclisində rəqs etməyə layiq qızlar seçmişdilər. İndi də qolları sinələrində çarpazlanmış halda əl-əl üstündə durub şahın fərmanını – məclisi başlamaq işarəsini gözləyirdilər.

Şah məclisin yuxarı başında hazırlanmış yerinə keçib əyləşdi. Onun bir tərəfində şeir deməkdə şöhrət qazanmış cariyələrdən Cahan, digər tərəfində Həyat xanım əyləşmişdi.

Onlardan bu tərəfə Səbinə ilə Zəminə bacıları və Aytəkin qərar tutmuşdular.
Şahın arxasında iki yelpazəzən heykəl kimi donub durmuşdu. Biri ağ, biri nubiyalı qara qul idi. Hər iki cavan qul bədənlərinə heç bir hərəkət vermədən, yalnız barmaqlarnın xəfif hərəkəti ilə tovuz lələyindən düzəlmiş əlvan yelpazəni yelləyirdi.

Qulların boynunda zərif, gümüş zəncir, qulaqlarında qulluq tanası sayılan «heydəri» sırğa var idi.
Elə bu zaman yan qapının pərdələri tərpəndi. Bəydili qəbiləsinin ən tanınmış ailələrindən səkkiz qızın müşayiətilə Şahbanu Taclı xanım otağa daxil oldu. O şeir və musiqini sevirdi. Arabir Xorasandan buraya yolu düşəndə şahın şeir məclislərində bir qonaq kimi iştirak edər, daha doğrusu, bircə kəlmə danışmadan maraqla söz döyüşünə tamaşa eləyərdi. Taclı xanım şah tərəfə yüngülcə baş əydi, sağ əlini sol döşü üstə qoyub xəfifcə gülümsədi, keçib şahla qarşı-qarşıya onun üçün hazırlanmış yarımtaxt üstündə əyləşdi. Onunla gələn qızlar da sağ və solunda qərar tutdular.

Məclisin ayaq tərəfində yerləşən sazəndə dəstəsinin önündə xırda gümüş manqalda kömür közərirdi. Xanəndə qız Şəmsiyyə incə balıq dərisi çəkilmiş gümüş qumrovlu dəfini oda tutub qızdırırdı. Şahın işarəsi ilə sazəndələr çalmağa başladılar. Xanəndə Şəmsiyyə dəfa çırtmıqlar vura-vura diringə tuturdu. Əraqın dəramadi bitincə Şəmsiyyə dəfi çənəsinin altına tutub aramla yelləyə-yelləyə şair Xətainin ülvi bir məhəbbətdən söhbət açan qəzəlini oxumağa başladı:

Aşiq oldur kim, sözü canu dililə yar bir,
Bir durur aşiq əzəldən, sevgili dildar bir.

Şəmsiyyə oxuduqca Aytəkin onun zərif dodaqlarından süzülən sözlərin mənasına dalıb dinləyir, mütəkkələrə yaslanıb mey-məzə nuş eləyən şahı seyr edir və düşünürdü. «Bəs özün? Aşiqin bir – vahid məhəbbətindən bəhs edən şair-padşah, bəs özün, özün neçəsini almısan? Taclı, Bəhruzə xanımlar ola-ola indi sağ-solunda əyləşən Cahanla Həyata tamaşa edirsən! Gözlərini gah mənə, gah

Şəmsiyyəyə zilləyirsən? Bəs bu nədi? Ey böyük şair! Şair dililə bəşəri, əzəli, əbədi dünya qədər qoca və cavan məhəbbətdən, göylər qədər dərin sədaqətdən danışırsan! Padşah kimi, ehtiras əsiri kişi kimi, güldən-gülə qonan pərvanəsən. Gah bu, gah o biri çiçəyə qonursan. Sözünəmi, özünəmi inanım?»

Şəmsiyyə oxuyurdu.

Əhli eşqin məniyi-zatü sifati bir dürur,
Adəmə qıl səcdə zahid, qılmagil inkar bir.

Pir birdir, sirr bir, iqrar bir, köftar bir,
İkilik sığmaz onu yolda, sirr ilə sirdar bir...

... Atəşi-eşqin tutuşdurdu vücudum şəhrini
Baxaram ki, hur birdir, nur birdir, nar bir.

Sədhəzaran zülm edərsən, dönməzəm, döndərməzəm

Yüzümu, ya sözümü, ya gözümü, qəmxar bir.

Canə minnətdir nə gəlsə qəm yemən, şükr eylərəm,
Canı verdim, başı qoydum, olmuşam bimar bir...

Ömr birdir, gün bu gündür, yetsə dəm, saət deməz,
Baqi olmaz can bu təndə, fanidir ədvar bir.

Sazəndələr rəngə keçəndə, Şəmsiyyə dəfi qaldırıb çırtmaq vurmağa başlayanda rubəru qapı açıldı, zərrin geyimli rəqqasələr – Aytəkinin şagirdləri içəri girib rəqsi başladılar.

Şah isə hələ də muğamın – sözləri, bu sözlər vaxtilə özü tərəfindən deyilsə də, təsiri altında idi. O, başını sağa-sola əyərək, rəqqasələrə o qədər də nəzər salmadan «Gün bu gündür» deyə gah Cahanın, gah Həyat xanımın əlindən mina ibriqlərdən gümüş piyalələrə süzülən qan kimi al, zərif şiraz şərabı alıb nuş edirdi. Şahın xasiyyətinə Taclı da, xanımlar da, rəqqasələr də, sazəndələr, xidmətçilər də bələd idi. Duydular ki, o indi yalnız və yalnız şairdir. Şeir demək

istəyir. Musiqi getdikcə yavaşıdı, həzin iniltiyə çevrildi. Rəqqasə qızlar yerə çöküb, əlvan xalıların üstünə çətir kimi yayıldılar və pərvanələr təkin yalnız qolları ilə səssiz qanad çalmağa başladılar. Xanımlardan biri bədahətən deyilən şeir yarışını qızışdırmaq üçün üzünü hökmdara tutub dedi:

– Qibleyi-aləm, məclisimizin hökmdarı – şair sağında, solunda əyləşən xanımlar – şair, xidmətində duran cariyə də şairdir. Amma biz şeirdən məhrumuq. İcazənizlə şeirə başlamayaqmı?

Təklif xanımların hamısının ürəyindən idi, gülümsədilər:

– Doğrudan da, vaxtdır... Gəlin şeirləşək.

Təklifə əvvəlcə şah özü cavab verdi. O gümüş piyaləni qaldırıb baxdı, xeyli əlində tutdu, seyr etdi və ilham çeşməsi açıldı:

Neşəstəəm be meyane-do delbəro do deləm –
Ke, meyli-del be ke bəndəm dər in meyan xəciləm.[42]

---

[42]İki gözəlin arasında əyləşmişəm, ürəyim ikiyə

Şahın cavabını hazırcavablığı ilə tanınan, gözəlliyinə qürrəli, şairə Cahan xanım verdi:

To padişahe-cəhani Cahan z dost mədeh –
Ke padişahe-cahanra Cahan be kar ayəd.[43]

Şah bədahətən söylənən misralardan cuşə gəldi:
– Afərin! Əhsən, Cahan! Düzdü, Cahanın padşahı Cahanı əldən verməməlidir.

Bu sözlərlə də sağ əlinin xəfif hərəkəti ilə Cahan xanımın çiynini oxşadı.

---

bölünüb.

Xəcalətəm, bilmirəm ki, meylimi hansına bağlayım.

[43]Sən ki cahanın padşahısan, odur ki, cahanı əldə vermə,
Çünki cahanın padşahınınişinə Cahan yarayar

Həyat xanımın gözləri atəşdən yanırdı. Azacıq nuş etdiyi bal şərbəti, gördüyü mənzərə, rəqibəsi Cahanın qələbəsi onun bütün həsəd hisslərini cuşa gətirmiş, coşdurmuşdu. Şərbət piyaləsini qaldırıb çırtması ilə cingildətdi və səsləndi:

Tərke-qəme-Cahan bekon, ta z Həyat bərxuri.
Əgər həyat nə başəd Cahan çe kar ayəd?[44]

Şah da, məclisdəkilər də qəhqəhə çəkib güldülər. Rəqiblər bir-birinin ilham arxasını məharətlə yerə qoymuşdu.
Şah doyunca gülüb bu dəfə ehmalca Həyat xanımın çiyninə toxundu və gülə-gülə dedi:
– Bərəkallah! Əhsən hər ikinizə. Əgər bu rəqabət olmasa: arayımın qiymətli incilərinin ilhamı çətin ki coşa. Görək Fəna nə deyəcək?

Elə bu zaman əlindəki mina ibriqdən piyalələrə şərab süzən

---

[44] Cahanın qəmin tərk elə ki, həyatdan ləzzət alasan. Axı həyat olmasa, cahan nəyə gərəkdir?

Fəna, şahın qarşısında diz çökdü. Hər iki əlində tutub şaha təqdim etdiyi piyaləyə baxa-baxa söylədi:

Həyato Cahan do çon bi bəqast
Fənara tələb kon ke, axer fənast.[45]

Məclisdən gurultulu qəhqəhə qopdu. Hamıdan çox gülən

[45]Həyat və cahan hər ikisi əbədi olmadığı üçün, Fəna tələb eylə, çünki axırı fənadır.

Fənaya xüsusi məhəbbət bağlamış Taclı xanım idi. O, qızı bu məclislərdən ayırıb Təhmasla birlikdə yaşadığı Xorasana apara bilmir, buralara ayağı düşəndə də söhbətlərindən, oyunlarından doymurdu.

Şah da güldü. Lakin bu gülüşdə indi nə isə bir şeytanət var idi. Sanki həyatın puçluğundan bəhs edən kəniz onun qəlbində əks təsir buraxmış, şairi deyil, mömin təriqət başçısını deyil, ədalətli hökmdarı deyil, cəngavəri deyil, məhz qəsbkar bir cahangiri oyatmışdı. Yarımsərməst başını qürurla dik qaldırıb, gözlərini qarşısında əyləşən Fənadan, ondan o yana çətir tutanlarla yeri yayılıb pərvanə qanadlarını həzin-həzin yırğalayan rəqqasələrdən, lap aralıda tarı, kamanı, kanonu inlədən sazəndələrdən o yana qarşı divara zillədi. Elə bil ki, gözləri önündə divar yarılıb cəng meydanına çevrildi.

Budur onun «darğa İsmayıl» adlandırıb, özünü peyğəmbər nəsli hesab edən Şeybani xan, son məktubunda özünü nəsilbənəsil qanuni müsəlman hökmdarı sayır, «Gərək

hədiyyələr və peşkəşlər hazırlayasan. Zərrabxanənizdə bizim mübarək adımıza sikkə vurdurasan. Məscidlərinizdə bizim dünyaya yayılan adımıza xitbə oxutdursan. Özün də bizim ulu taxtımızın ayağına gələsən...» – deyə yazırdı. Halbuki onun Hüseyn Bayqara və ölməz Əlişir Nəvai ilə dostluğu, ata-oğul adlanmaları dillərə düşmüşdü. Özbək hökmdarları, aqılbəndləri heç vaxt onu belə təhqir etməmişdilər. O isə... Padşah qoşunu götürüb Mərvə yollandı. Səkkiz gün qalanı mühasirə etdi. Özbəklər qəhrəmanlıqla vuruşurdu. Şah onların igidliyinə əhsən deyib, qalib gəlmək üçün hiyləyə əl atmağa məcbur oldu: «Nə qədər ki, Şeybani xan qaladadır. Özbəklər öz hökmdarlarını qoruyacaqlar», – deyib 916–cı ilin 28 şəbanında zahirən Mərvdən aralandı. Üç ağaclığa çəkildi. Mahmud adlı kəndlinin yanında dayandı. Əmir bəy Türkman öndə qara vermək üçün qaldı. Əslində o da Şeybanini güdürdü. Özbək sərkərdələri möhkəm və qüdrətli Mərv qalasından tez çıxmağın əleyhinə idilər. Onlar deyirdilər ki, gözləyək, qoy Übeyd xanla Teymur Sultan köməyimizə gəlib çıxsın, sonra Xaqanı təqib edib, açıq döyüşə çıxaq. Şeybani xanın arvadı Moğul xanımın

simasında elə bil ki, «Ərənlər Şah İsmayılın köməyinə gəldi». Moğul xanım ərinə və özbək sərkərdələrinə dedi: «Siz həmişə Xaqana məktub yazıb hədələyir, döyüşə çağırırdınız. O da qoşunları ilə arğın-yorğun gəlib Mərvə çatıb. Siz isə namussuzluq gülünü başınıza sovurub şəhərdən bayıra çıxa  bilməyəcəksiz? Məsləhət belədir ki, qorxmadan, hürkmədən, yüksək ruh ilə cəng meydanına atılın. Qorxaqlıq kişilərə yaraşmaz».

Sevimli arvadının tənələri Şeybani xanı qeyrətə gətirdi. Özbək sərkərdələrinin ağıllı məsləhətinə qulaq verməyib, onları söydü və Mərvdən çıxmaq əmri verdi. Qoşunlar qarşılaşdı. Əmir Nəçi, Sani, Div Sultan, Cayan Sultan, Lələ Hüseyn bəy, Abdal bəy, Zeynal bəy şamlu, Badımcan Sultan Rumlu kimi sərkərdələr sağ və sol cinahda, şah özü isə mərkəzdə – qəlbidə döyüş mövqeyi tutdu. Şah çalmanı tacından açıb hücuma keçdi.  Axşamacan rüzgarın gözü görməyən bir döyüş oldu. Şah döyüşə «təzə nəfəs qazilər» atdıqca onlar «ya Allah» sədaları ilə hücuma keçirdilər. Axşama az qalmış Şeybani xanın qoşunu məğlub oldu.

Meyitlər arasından onun cənazəsini tapdılar. Əmir Div Sultan onun başını bədənindən ayırıb gözü qanlı Cahangirin ayaqları altına atdı. Qandan məst olmuş hökmdarın əmrilə Şeybani xanın üzünün dərisini soydular. İçinə saman təpib qorxu gəlmək üçün rum sultanına – Səlimə göndərdilər. Kəllənin sümüyünü qızıl nəsb elətdirib «Piyaləyə» çevirdilər». Adlı sərkərdələrin mey-məzə məclisində saqi bu «piyalə» ilə dövran gəzdirdi.

İndi Yenidən qanlı hərbin nəfəsini duymuş hökmdar bu «piyaləni» görmək istədi. Fənanın təqdim etdiyi mina qədəhi rədd edib, dizləri üzərinə qalxdı və əmr etdi:
– Mənim təzə «piyaləmi» gətir. Mənim üçün fəna dünyanın fəna olmadığını sənə göstərim.

Fəna baş əyib çıxdı. Az sonra əlində yeni «piyalə» ilə qayıtdı. İbriqdən içərisinə qan rəngli şərab töküb şahın qarşısında diz çökdü:
– Hökmdarımın həmişə qılıncı kəsərli olsun, hər yürüşü belə zəfərlərlə bitsin! – dedi, və Məhəmməd Füzulinin Şah

İsmayıla təzəcə ithaf etdiyi «Bəngü badə» əsərindən bu misraları oxumağa başladı:

Saqiya, sübhdəmdir, eylə şitab,
Dövrə gəlsin çu mehr cami-şərab!..
Cami-mey sun ki, ta dilirанə,
Ol səfabəxşi çami-cəm ki, müdam,
Təxt ğeyrinədir çu badə həram.
Ol ki, başlar zamanda bəzmi-fəraq
Padşahlar başından eylər əyağ...

Və qız bu sözlərlə də təzə «piyaləni» şaha təqdim etdi. Hökmdar qızıl nəsb olunmuş mum rəngli kəllə-piyaləni aldı; qıyılmış, xumar gözlərinin önünə gətirdi, süzdü, zərif dodaqlarında xəfif təbəssüm gəzdi, yerində deyilmiş misraların kimin olduğunu soruşa bilmədi.

Aytəkin bu yeni «piyalə» haqqında eşitmişdi, amma hələ onu görməmişdi. Qəlbində bir dönüş duydu. Əslində Aytəkin son vaxtlarda əcaib hallar keçirirdi. Bu hətta hara getdiyini, tacir Rəfinin ölümündən sonra bir dəfə də üzünü görmədiyi cavan dərviş İbrahim şaha qarşı duyduğu hiss deyildi. Bu qəribə aləm idi. O, İsmayılın mayası məhəbbətlə yoğrulmuş hər misrasını, hər beytini, hər nəfəsini, hər qəzəlini, xüsusilə «Dəhnaməsini» oxuduqca qəlbində indiyədək duymadığı hisslər baş qaldırırdı. Qız bilmirdi ki, bu hisslər sənəti anlayan, dərk edən gözəl və cəsur bir cavana bəslənən məhəbbətdirmi, yoxsa onu əşarına məftun olduğu bir şairə doğru cəzb edən ülvi, ilahi eşqdir?

Qız bu duyğuların əsiri idi. Ona elə gəlirdi ki, yavaş-yavaş saraya gəlməsinin səbəbi – intiqam arzusu soyumağa başlayır. Axı o, iki il qoca vəzirin evində tamamilə azad yaşamışdı. İstədiyi yerə çıxıb gedə bilərdi. Amma bu illər ərzində onu intiqam hissi yaşatmışdı, halbuki indi İsmayılın qəzəlləri məhəbbət muğamına çevrilib, onun qəlbində yeni-yeni təzə hisslər, məqamlar bəstələyirdi.

Bu təzadlı duyğular az qala Aytəkinə qalib gələcək, bəlkə də şeir – şair qələbə çalacaq, onu gözəl bir şeiriyyətin bədi pərəstişkarına çevirəcəkdi. Lakin indi... o bu təzə «piyaləni» görüncə özünü unutdu.

Məclisə xəfif pıçıltı düşdü. Aytəkin Fənanın əlində qızıla tutulmuş kəlləni görəndə, hər şeyi anladı. Eşitmişdi, amma inanmırdı. Bu şahın yeni «piyaləsi» idi. Qızın qəlbindən soyuq bir gizilti keçdi. Bu piyalə onun qardaşının da başı ola bilərdi. Bədəninin bütün hüceyrələri üsyan etdi. Damarlarındakı hər damla qan qəbiləsinin bir üzvünün qanı kimi coşdu və təlatümə gəldi. Piyalə məclisdə əldən-ələ gəzib, dolub-boşaldıqca Aytəkinin üsyanı göylərə dirəndi, gözlərini qan örtdü: «Yox buradakı şair qəlbi deyil. Şair qəlbi haqsız qanların tökülməsinə, kəllədən piyalə yapılmasına hökm verə bilməzdi. Mən görməliyəm... Mən onu görməliyəm!» – Sözləri ilə yerindən sıçradı. Məclisin ortasına cumdu. Rəqs edircəsinə əlini kəmərinə atıb, qardaşının kiçik qəməsini çıxartdı və taxtın üstündə sərməst halda mütəkkələrə dirsəklənmnş şahın üzərinə atıldı. Amma zərbəni endirə bilmədi. Qüvvətli bir əl, biləyindən yapışdı,

sıxdı. Bu pələng, aslan ovuna adət etmiş şahın əli idi. O, bütün ovçular kimi təhlükənin baş verməsindən bir ay əvvəl duymaq qabiliyyətinə malik idi. Pələngin yumşaq, xəfif, gözlənməz sıçrayışını çox görmüşdü. Qəmənin qızın əlindən düşməsilə yerə yıxılması bir oldu. Məclisdəki qadınlardan ani bir hayqırtı qopdu və sonra hamı donub yerində qaldı. Təkcə Səbinə özünü itirməyib, cürətlə müəlliməsinə tərəf yüyürdü. Onun yarım hissiz bədənini qucaqlayıb, indicə şahın oturduğu taxta sürüklədi.

Səbinə güzgülü otağa daxil olanda, bura suyu sovulmuş dəyirmana bənzəyirdi. Bir neçə gün əvvəlki işrət məclisindən əsər-əlamət yox idi. Yarım qaranlıq otaqda xoflu xəyala bənzəyən kölgələr, Səbinənin güzgülərdəki öz əksləri idi. İçəriyə nabələd adam girsəydi yerindəcə donub qalardı. Səbinə isə bu otağa bələd idi. O, rəfiqəsinin yataq otağının içəri qapısına yaxınlaşdı. Yarımaçıq qapıdan atası ilə sarayın baş həkimi hacı Təbarəkin söhbətini eşidib dayandı. Qulaq verdi. Atası deyirdi:

– Düz buyurursuz! Mən də fikir vermişəm. Qızın

gözlərindəki dəlilik deyil, nifrət və qəzəb əlamətidir.
Həkimbaşı dedi:

– Orası elədi. Amma bir məsələ də var ki, bir-iki günəcən qız büsbütün özünə gələndə şah da bunu anlayacaq. İndi böyük bir məhəbbət bəslədiyi kənizə qarşı qəlbində qəzəb baş verəcək. Səbəbini bilmək istəyəcək. Kim? Nə üçün? Suallarına qız cavab verməli olacaq. Qorxuram işgəncələrə dözməyə.
Səbinə mükalimənin sonunu dinləmədi. Qeyri-ixtiyari məxfi söhbətdə iştirak etdiyinin atasına belə bəlli olmasını istəmədi. Saray həyatının hər üzünə bələd olan qız, sürətlə döndü, güzgülü otağı tərk edib, öz imarətina qayıtdı, otağına çəkildi. Heç yarım saat keçməmiş libasını dəyişib, atasının saraya tərəf yollandığını görüncə fiqəsinə dəyməyə getdi.

Səbinə Aytəkinin yanına girəndə yatacaq taxtının önünə çəkilmiş zərif tül pərdənin arxasında qızın sağ əlini zərif alnına, sol əlini yanına uzadıb, gözlərini bəzəkli otağın tavanına zillədiyini gördü.

Kənizlərdən heç birisi burda yox idi. Görünür, həkimbaşı Təbarəkin hansı bir tapşırığınısa yerinə yetirməyə getmişdi. Səbinə hava kimi şəffaf pərdəni qaldırıb, Aytəkinin yanına gəldi. Taxtın ucunda əyləşdi. Rəfiqəsinin əlini əlinə alıb sığallamağa başladı. Lakin Aytəkində heç bir hərəkət əlaməti görünmədi. Kirpikləri də qırpınmadı. Səbinə tez-tez, lakin yavaş səslə danışmağa başladı.

– Mənə inanmaya bilərsən, öz işindi. Amma sən bu gecə nə olur-olsun sarayı tərk etməlisən.
Bu sözlərlə qız yerindən qalxdı, üst paltarını soyunmağa başladı. Yalnız bu zaman başına hərəkət vermədən gözucu onu izləyən Aytəkin, qızın əynində gənc ovçulara məxsus kişi paltarı olduğunu gördü. Dodaqları səyridi. Bu şəfqət onu ağladacaqdı. Amma Aytəkin ağlaya bilmədi. Göz yaşları çoxdan, qəbiləsinin son nəfəri qılıncdan keçəndə qurumuşdu. Səbinə isə cariyələrin gələ biləciyindən qorxub, gətirdiyi paltarı sürətlə Aytəkinin yatdığı taxtın altında gizlətdi. Daş kimi düşmüş rəfiqəsinin sol əlini əlinə aldı.

Pıçıltı ilə dedi:

– Arxayın ol! Şah bu gecə sarayda olmayacaq. Başının bir neçə adamı ilə deyəsən Acıçaya balıq ovuna getdi. Sabah axşama yaxın qayıdarlar. Bu gecə xacələrə və dərbana elə bir guzə şərab göndərəcəyəm ki, bir də sabah günorta əzanına güclə oyansınlar. Sən sarayı tərk edib, bizim imarətə tərəf gələndə mənim nökərim bir atla yolunun üstündə hazır olacaq. O, mənim qoca dayəmin oğludu. Aparıb səni kəndlərində gizlədəcək. Bir müddət dayəmgildə qalarsan. Sonra Allah kərimdi.

Səbinə əlinin sıxıldığını duyunca, rəfiqəsinin üzərinə əyildi. Aytəkinin solğun yanağından öpüb göz yaşları içində pıçıldadı:

– Salamat get, ustad! Allah köməyin olsun.

Səbinə xalqın dərbədər qızına beləcə xeyir-dua verdi.

Hökmdarın şair qəlbi

## Səlim

Sultan yuxudan oyananda bikef idi. Bir neçə gün idi ki, ona Təbrizdən şahın yeni məktubunu gətirən elçinin gəldiyini xəbər vermişdilər. O, nədənsə bu görüşü istəmirdi. Əslində, səbəbini bilirdi. Bilirdi ki, şahın bu məktubu da dövtələb olacaq, «Mənəm-mənəm» deyəcək. Sultan əvvəlki məktublara cavab verəndə də indi də müharibəni uzaqlaşdırmaq istəyirdi. Tez idi. Cəmi bir neçə il idi ki, hakimiyyəti ələ almışdı. Dava başlamağa nə həvəsi, nə imkanı var idi. Sultan şahla haqq-hesabı daha münasib vaxta qədər uzatmaq, Avropada xaçpərəstlərlə sərhədlərini, Bizans ilə əlaqəsini möhkəmlətmək, Firəngistandan alacağı odlu atəşfəşan topları gətirdib qurmaq istəyirdi. Yalnız bundan sonra o, qoşununu sahmana salıb şahın cənginə çıxa bilərdi. Qoşununu təzəcə silahlarla, toplarla indi-indi təchiz elməyə başlayırdı. Bu bir neçə xırda məmləkəti caynağına keçirmiş

cavan padşah isə zəfərlərindən sərməst olmuşdu. Qələbələr gözlərini qanlı pərdəylə örtmüşdü. «Qoy şələni, gəl savaşaq», deyirdi. Sultan Səlim bütün vəziyyətini mülahizə edib padşahın əvvəlki məktublarına ehtiyatla cavab vermiş, yazmışdı ki, biz bir dinin, müxtəlif təriqətlərinə mənsub olsaq da, Allahımız, peyğəmbərimiz, Kəbəmiz, Quranımız birdir. Biz səninlə az qala qohumuq, bir qandanıq. Yad düşmənləri qoyub, dinin yağılarını buraxıb bir-birimizlə vuruşmaq bizə salah deyil. O, çox belə dəlil gətirmişdi. Padşah isə Fərrux Yasara – Şirvan kəndi Cabanıda, Şeybani xana Mərv hüdudunda, Əlvənd Mirzəyə – Şərurda, Sultan Murad və Əsləmiş bəyə Həmədanın Almaqulağı torpağında qalib gələndən sonra, daha lap gözü dünyanı görmür, hələ o Məhəmməd Ustaclu!.. Diyarbəkri alıb, Zülqədərin qoşunlarını məğlub edib, Sultan Qansunun cəngavərləri Dəli Dolağın cümlətanı 300 məmlükünü yenib. Bununla da özünü dünyanın yenilməz sərkərdəsi sayır. Elə lovğalanıb ki, «mənəm-mənəm», İstanbula gəlib çatıb. Özünü elə yetirib ki, «asaram-kəsərəm»i, təkəbbürü dünyanı tutub. Daha şahını da gözləmir. Mənə onun adı ilə hədə məktubları

göndərir peydərpey... Daha onu dərk eləmir ki, hər yerlə iki-üç yüz gədə-güdə qırmaqla sərkərdə, cəngavər olmaq olmaz. Mən onun qabağına elə indinin özündə iki yüz min yeniçəri çıxarda bilərəm.

Xəbəri yoxdu, deyəsən. Odlu silahlarımdan, firəng toplarından... Neynək, türk demişkən, ağa durub – ağacan durub. Məni Ustaclu köpəyi hamıdan çox ağrıdıb. Neynək! Bu elçini də qəbul edərik. Bu dəfa də ağıl, öyüd-nəsihət verrik. Görək... Amma mənə elə gəlir ki, bu döyüş labüddür. Çünki cavan padşahı əhatə edənlər içində Ustaclu Məhəmməd kimi ikisi olsa, dünyada od qoymağa bəs edər».

Sultan Səlim düşündükcə gözəl, boylu-buxunlu, şəstli həbəş-xidmətkar onun rəsmi görüşlər libasını əlləri üstündə gətirdi.

Bu, ərəb xəlifələrini təqlidlə Sultan Səlimin qəbul mərasimləri zamanı geydiyi qara əmmamə və qara əbadan ibarət idi.

Nədimi Qarıncaoğlu sultanın geyinmək mərasimini icra etdikcə, həbəş balası gah bu, gah digər əşyanı onun baxışlarından, işarələrindən anlayaraq təqdim edirdi. Otaqda Sultanın səhər xəyallarını qıran bircə səs belə yox idi.

Geyim mərasimi bitdi. Sultan yan otağa keçdi. Burada onu döşənib bəzədilmiş süfrə gözləyirdi. Sultan zərrin nimdərlər üstündə əyləşdi. Süfrəni bəzəyən müxtəlif yeməklərin ətrini əla Suriya almasının iyi itirmişdi. Sənadan gətirilmiş iri yaqut parçalarından düzəlmiş qədəh, Yəmənin damarlı-naxışlı əqiqindən qayrılmış piyalələr göz oxşayırdı. Gözəlliyi, süfrədə belə bəzəyi sevən sultan, bu gün ətrafına almazlar düzülmüş Kirman və Nişapur firuzələrindən olan üzüyünə belə heç nəzər salmadan barmağına keçirtmişdi. Halbuki hər dəfə bu firuzələrə baxanda vətəninin firuzəyi göylərini xatırlayır, dərhal sarayın ən uca külafirəngisinə çıxıb firuzəyi səmanı seyr etməkdən doymurdu. Bəlkə də, bu bir də ona görə idi ki, sultanın firuzəyiyə çalan göy-ala gözləri ilə bu qiymətli daşlar arasında bir bənzəyiş vardı. Onun baş hərəmi Sevincək, sultanın təzə kənizi Rayihə tez-

tez bu iki firuzədən, sultanın əlindən və gözlərindən öpürdü. Sultanın yadına Rayihə kəniz düşən kimi bir anlıq elə bil ki, qızın ətrini burnunun ucundan dimağına keçər kimi duydu, vücuduna xoş bir ılıqlıq yayıldı. Ona elə gəldi ki, Afrikanın şimal-şərqində dənizlərdən əldə edib saraya göndərilmiş Rayihənin dodağı kimi al mərcan taxılmış boynuna əl toxundu.

Qız təmasdan ilan kimi qıvrılıb açıldı və sultanın dizlərinə sarmaşdı. Titrək əlləri ilə sultanın boynunu qıdıqlayan əlini tutdu, nişapur firuzəsini öpdü.

– Sultanım, böyuk Allahın bəxş etdiyi o firuzələrdən də öpməyi hökm elə! – dedi.

Sultanın dodaqlarını xafif bir təbəssüm qımıldatdı. Bu gün ikinci dəfə təəssüf etdi ki, görmək istəmədiyi elçini qəbul etməlidir. Dünən baş vəzirə söz verib. Yoxsa bu gözəl süfrənin qırağında Rayihənin şümşad əllərindən ətri insanı bihuş edən Suriya alması alardı. Dişlərini almaya batırdıqca, ətrini qoxladıqca bunu Rayihənin yanaqları sanardı...

Sultan naharını nədimsiz elədi. Könülsüzcə bir-iki loğma aldı. Çəhrayı damarları kəzmə-kəzmə naxış salmış Yəmən əqiqindən düzəlmiş piyaləyə süzülən lumu ətirli şərbətdən içdi. Qəlbindəki zidd istəklərə sükunət verməyə çalışaraq qalxdı. Sarayın elçilər qəbulu üçün süslənmiş taxt salonuna keçdi. Baş vəzir, vəzir-vəkillər və nədimlər hərə öz mövqeyində səf çəkib durmuşdular. Əyləşməmişdilər. Sultanın gəlib taxtda oturmasını gözləyirdilər. Sultan başının xəfif hərəkəti ilə məclisi salamladı. Şiş papaqlı, fəsli, kalansuvalı başlar əyildi, əllər divlərdən də aşağı endi. Uzun saqqal, təkə saqqal, topa saqqal, qarışqaayağı xətt saqqalların dibi gücdən qızardı. Sultan yuxarı başa keçib, taxtına çıxdı. Yerini rahatlayıb əyləşdi. Dərhal arxasında iki nəhəng, pəhləvan cüssəli həbəş gəlib sıyırma qılınc dayandılar, iki qara qranit heykəl kimi sultanın arxasında dondular. Başları yuxarı, gözləri harasa qapıya tərəf zillənmişdi. Qara parlaq üzlərdə yalnız ağ, titrək bəbəklər bu heykəllərin canlı olduğunu bildirirdi.

– Vəzir, elçilər hazırdırmı?

Baş vəzir başını qaldıran kimi, digər gövdələr də düzəldi. Vəzir sağ əlini solda ürəyinin üstünə, sonra dodaqlarına və alnına qoydu. Dilləndi:

– Hazırdır, sultanım!

– Əmr elə gəlsinlər.

Baş vəzirin işarəsi ilə bu işə məmur olan nədim Qarıncaoğlu dalı-dalı yeriyərək qapını açdı və bir az keçmiş padşahın elçiləri otağa daxil oldular. İki nəfər idilər. Hər ikisinin başında təpəsi qırmızı, çevrəsinə yaşıl ipək sarınmış papaq, əyinlərində qəba var idi. Abı şalvar üstündən geyilmiş bu qəbaların biri yaşıl, digəri tünd-mavi idi. Biri əlində tuğra, digəri iri mücrü tutmuşdu. Qürurla irəliləyib, baş əymədən, salam vermədən sultanın taxtına yaxınlaşdılar, ədəb mövqeyinə çatanda dayandılar. Sultan da, heyrətdən donub durmuş məclis əhli də düşündü: «Baş əymədilər. Tuğra məktubdur, bəs mücrü nədir?»

Sultanın göz işarəsilə Qarıncaoğlu yaxınlaşdı. Sultanına

ədəb salamı verməyən elçilərə nifrətlə baxıb, tuğranı aldı və taxta yaxınlaşdı. Diz çökdü, hər iki əlini irəli uzadıb tuğranı sultana təqdim etdi. Sultan Səlim tuğranı aldı, möhrü sındırdı, ləffarəni cırdı. Səbirsizliklə ilk sətirlərə göz gəzdirən kimi dayandı, oxumadı, gözlərində qəzəb oynayırdı, dedi:

– Elçiləri intizar otağına aparın!

Nədim Qarıncaoğlu yerindən qalxıb elçiləri müşayiət etmək istəyərkən, tuğra gətirən elçi ona müraciət olunmasa da, gözlərini dik sultanın gözlərinə dikib səsləndi:

Sərkərdəmiz Ustaclu Məhəmməd bəy əlavə bildirir ki, yer üzünün vahid hökmdarı, şahənşahi-əzəm, sultan ibi sultan şah İsmayıl ibn sultan Heydər təcili cavab gözləyir.

Sultan Səlim dinmədi. Məclis quruyub qalmışdı. Nədim Qarıncaoğlu qənimin qabağından qaçan oğul deyildi, hirsini boğa bilmirdi. Sultandan ehtiyat etməsəydi, indicə elçinin boğazını cücə boğazı kimi üzərdi. Qəzəblə ikinci elçinin

hələ də əlində tutub durduğu mücrünü alıb Sultanın qarşısında yerə qoydu və birincini nəzərə çarpmayan, lakin sərt bir hərəkətlə qapıya tərəf itələyəndə Sultanın amiranə səsini eşitdi:

– Özünü unutma, nədim, Elçiyə zaval yoxdur. «Şərrəta, yörəhu həbbətü misqal»

Elçilər Qarıncaoğlunun müşayiətilə otağı tərk etdilər. Hamı sükut içində idi.

Baş vəzir Sultanın təmkininə heyrətlə dedi:

– Qəzəb gələndə ağıl gedər deyiblər, sultanım! Çox şükürlər olsun böyük xaliqə ki, həşəmətli sultanımız müdriklik göstərdi. Ərəblər deyib ki, «Əz-zeyfə əkrəmu və lov kafirun» – qonaq kafir də olsa əzizdir. Elçi də qonaq mənzələsindədir.

Vəzirin nəsihətə bənzər təhsisini açıq bir hövsələsizliklə

dinləyən Sultan Səlim özünü soyuqqanlı göstərməyə səy edərək qocanın sözünü kəsmədi. Tuğranı hələ də tutub əyləşmiş, arabir hərləndirib göz gəzdirsə də oxumurdu. Elə ilk sətirlərdən məzmununa bələd olmuşdu. Mücrünün açılmasını soyuq bir qəzəblə gözləyirdi. Vəzir sözünü qurtarmağa yaxın, Qarıncaoğlu otağa daxil oldu. Sultan vəzirə deyil, ona müraciət etdi:

– Nədim, mücrünü aç!

Qarıncaoğlu yenidən taxta tərəf irəlilədi. Ədəb mövqeyinə yetişib diz çökdü, mücrünü açdı və dili ağzında, bəbəkləri çanağında dondu: Mücrüdən, yatağan tutanda titrəməyən əli əsə-əsə bir örpək, bir cüt aşıq, bir dəst tuman çıxartdı. Bütün məclis əhli qəribə bir maraqla bu mənzərəni seyr edirdi. Sultan Səlim daha özünü saxlaya bilmədi... Yerindən qalxdı. Sultan qalxınca bütün məclis əhli də qalxındı, lakin sultan özünü ələ alıb yenidən taxtın üstünə çökdü. Məclis əhli də yerinə qayıdıb əyləşdi. Hamının altına sanki tikan qoymuşdular. Tikan üstündə əyləşmişdilər. Qurcalanırdılar.

Səlim qəzəbini yenməyə səy göstərən səslə sözə başladı:

– Vəzir, hər bir sözünü şükranla dinlədiyim cənabına da, əyan və əşrafa da bəllidir. Vəziyyəti nəzərə alıb mən də cəngi səlah görmürdüm. Müxtəlif bəhanələrlə bu bəlanı özümüzdən də o lovğalar, mütəkəbbirlərlə əhatə olunmuş bədbəxtdən də uzaqlaşdırmağa səy edirdim. Bütün təhqiramiz mürasilələrinə ədəblə cavab verir, əqlin yolu ilə mülahizələr söyləyir, onu da əqlin yoluna dəvət edirdim. Anlamadı. Bu məktub şəxsən hökmdar Şah İsmayıl tərəfindən yazılmasa da, fərqi yoxdur.

«Qəzəb gələndə, ağıl gedər» deyirsən. Amma səbir piyaləsinin dolduğu anı da unutma. Artıq mənim səbir piyaləm daşır. Tuğranı Məhəmməd Ustaclu vələdəlşər yazır. Diyarbəkri talandan, cumlətanı Dəli Dolağın üç yüz məmlükünu qırmaqdan elə məğrur olub ki, «əgər cəng meydanıma çıxmasan, bu tumanı gey, bu örpəyi ört, ya da aşıq-aşıq oyna», deyib yazır, heç eybi yoxdur. O, Ustaclu Məhəmməd olsun, biz də biz. Cavabı verməliyik, vəzir! Həm də tez! Yaz ki, qəbul eləyirik və gəlirik. Məktubu bu

gün elçilərə verib yola sal! Başlarından bir tük də düşməsin. Mən Ustaclu deyiləm.

Məclisin cınqırı çıxmadı. Vəzir də bir söz deyə bilmədi. İndi bu nalayiq hərəkətdən sonra sultana nəsihət vermək yersiz idi. Sultan qalxdı, kimsəylə salamatlaşmadan xəlvətxanəsinə çəkildi. Onu yenidən əyilmiş başlar müşayiət etdi.

Qarıncaoğlu Sultanın ardınca xəlvətxanəyə yollandı, bir əmri olub-olmadığını bilmək istəyirdi. Sultan sevimli və hər bir əməlinə sədaqətlə qulluq edən nədiminə əhəmiyyət vermədən, otağına girdi. Fikirli halda keçib zərrin döşək və qolabı tirmədən üz çəkilmiş mütəkkələr qoyulmuş təxtin üstündə uzandı, mütəkkələrə dirsəkləndi. Sultan bir neçə gün elçilərdən əvvəl Təbrizdən qayıtmış dostunu xatırlamağa başladı. Əsl adı Arğun bəy olan bu adam sultanın ən inanılmış dostlarından idi. Hacı Səyyah adı ilə cahangəştlik eləyir, arabir böyük qiymətli malların ticarətinə, bir neçə sarvanbaşının işinə nəzarət edir, İran və Türkiyə hüdudlarında, Rumda, Trabzonda, Şirvan şahlığında

ən zəngin və ən məşhur bir səyyah, zəngin səyahətlər həvəskarı tacir kimi tanınırdı. Şərqin bir çox saraylarına girib-çıxır, çoxlarında, o cümlədən Təbrizdə gözəl qarşılanırdı. Verdiyi ehsanlar, uzaq ölkələrdən gətirdiyi qəribə hədiyyələriylə də məşhur idi. Bütün bunlar onu sultan üçün əvəzsiz məlumat mənbəyinə çevirmişdi. Arğun bəy hacı Səyyah səyahət və səfərlərindən sultanı üçün qiymətli xəbərlər gətirir, rəqibi olan padşahların məmləkətində əhvali-ruhiyyədən, orduların vəziyyətindən, dövlətlərin gücündən görüb-bildiklərini danışırdı.

Bu son səfərində Arğun bəy Təbriz sarayında qələbə şərəfinə qurulmuş ziyafət məclisində olmuşdu. Gözəl hafiza va danışmaq qabiliyyətinə malik olan Arğun bəy, şah məclisini, orada danışılanları elə nağıl etmişdi ki, sultan sanki onun gördüklərini məhz öz gözlərilə görmüş, həmin məclisdə iştirak etmişdi.

İndi mütəkkəyə söykənib həmin məclisi Arğun bəyin danışdığı şəkildə gözləri önündə canlandırırdı. Budur,

yarımsərxoş sərkərdələr badəni badə dalınca nuş etdikcə bir-birinin qarşısında düşmənə çaldıqları zərbədən söz açırlar.

– Elə «gəlirlər» xəbəri çatan kimi atlandıq. At çapan, ox atan, qılınc oynadan, şeşpər hərləyən bir-birinə qarışmışdı...
– Onun bu işi mənə elə yer eləyib... Qoşapər cidasını alıb başına elə endirdim ki...
– ...Bilirsən nə sərkərdəydi? Padşahlar ondan tük tökür... Meydana girəndə əsrimiş nərə bənzəyir, Ustaclu Məhəmməd... Düşmən tuşa çıxdı... Mənnən duruşuna bax – dedi... Təbil döyüldü, gərənay başladı, meydan qızışdı..

– Xocaların qəhrin az çəkməmişəm...
– Dedim ayə, bir qabaqla nər nəçidi, nəkaradı, hardan gəlib, hara gedir?..
– Qoç igid yarasınnan bəllənər dedim, açdım yaxabəndin, baxdım...
– Sən öl, şeşpərim atının yalmanından elə keçdi ki, elə bil ildırım keçdi, görən olmadı. Atın nallarından od, qığılcım qalxdı...

– Hə... düz deyirsən, Ustaclu örpək örtən deyil. Arvad tumanının altında gizlənməz. Ər meydanında əsl ərdi.

– Gərək onun yurdunda sarımsaq əkdirəm...

– Dediyindən dönməz. Diyarbəkri görmədin nə günə saldı? Padşahımız söz vermişdi axı...

– Qançığasından qanlı başlar asılmışdı... Eləcə də çapıb gəldi hüzura, atdı başları Aləmpənahın qədəmlərinə... Qılınclarını da iki əlinin üstündə uzatdı şaha.

– Atıyçün polad mıx, gümüş nal kəsdirdi.

– Zordu... zor...

Ustaclunun adı gələndə, xüsusilə «örpək örtən deyil» sözləri yadına düşəndə, Sultan Səlimin tükləri biz-biz oldu. Özünə göndərilən mücrü gözünün önündə canlandı. Qəzəblə dodağını gəmirdi. Arğun bəyin söylədiyi başqa mətləbləri xəyalında canlandırdı. «Mən bu İsmayılı dərk etməliyəm.

Mən onu anlamalıyam... Təkcə bu mükalimə nəyə desən dəyər» – deyə düşündü. Yəqin ki, qələbə ləzzətindən məst olmuş Lələ Hüseyn bəy hökmdarının sağ tərəfində əyləşib

deyirmiş:

– Bilirsənmi, hökmdarım, qələbə şirin şeydi. Şöhrət olduqca şirin şeydi. Dünyada ondan böyük bir bəxtiyarlıq bilmirəm ki, sən küçə-meydana çıxan kimi barmaqla göstərələr, tanıyalar, «filan sərkərdədi» deyib ehtiramla pıçıldayalar. Səni görəndə gözlərdə məhəbbət doğa üzlərə günəşli bir təbəssüm qona...

Amma nə sən, nə də ixlasında duran müxlisin mən, bu şöhrətə qiymət verə bilmirik. Mən ona görə ki, bu şöhrət mənim qənşərimə çox gec gəlib çıxıb. O qədər gözləmişəm ki, hələ mərhum cənnətməkan atanızın vaxtından gözləmişəm. Artıq yorulub usanmışam gözləməkdən, arzulamaqdan. Gözləməkdən yorulmuşam və indi mənasız bir şey kimi baxıram ona. Sən isə... Sən isə, padşahım, sənə şöhrət tez nəsib olub. Doğrudur, sən də keşməkeşli həyat keçirmisən. Məhbəslərin də, qaçaqların da, gizli yaşamağın ağrı-acılarını da tez dadmısan. Amma onlar hamısı bir uşaq yaddaşı ilə tez də unudulub gedib. Yerində olduqca erkən

gəlmiş böyük bir cəngavər və məğlubedilməz hökmdar şöhrəti qalıb. Bu da cümlətanı on dörd yaşında gəlib. Əlbəttə, odur ki, sən də bu şöhrəti asan əldə edilən adi bir şey hesab eləyirsən, deməsən də belədi, hökmdarım!
Padşah isə barmağını qədəhin kənarına vura-vura gülümsədi və dedi:

– Amma zənbili unutmamışam... Sən demiş, cumlətanı yeddi yaşında bir uşaq qəlbi və yaddaşı zənbil sıxıntısını mühafizə edib, saxlayıb...
Padşahın da, Lələnin də üzündən xəfif bir kölgə keçdi.

Bu zaman sərməst sərkərdələrdən biri hökmdarın qarşısında diz çöküb ərklə dedi:
– Qibleyi-aləm, təklif edirəm ki, Məhəmməd kimi bir sərkərdə yetirən Ustaclu tayfasının şərəfinə badə qaldıraq.

Padşahı bu sözlə sanki ilan sancdı. Bir az əvvəlki zənbil ahvalatımı, ya bir neçə gün əvvəlki başqa bir söhbətmi buna səbəb oldu, heç kim, nə sərkərdələr, nə də hadisənin şahidi

olmuş Arğun bəy bilmədi, başa düşmədi. Padşahın dərhal məstliyi keçdi, mürəssə təxtin üstündə dizləri üstünə qalxdı, əllərini dizlərinin üstünə qoydu, qəzəblə sərxoş başları nəzərdən keçirdi və dedi, yox, demədi, bağırdı:

– Bəsdir!.. Nə vaxtacan anlamayacaqsınız!.. Ustaclu, Şumlu, Təkəlü, filan və filan mənim mabeynimdə bunların hamısı birdi. Bir xalqdı! Bir dindaşdı. Mən dini, əqidəsi, məzhəbi müxtəlif camaatı bir ələm[46] altında birləşdirib bir dövlət yaradıram. Bunların başında da mənim din qardaşlarım – əqidədaşlarım, əməddaşlarım durur. Siz isə xəlayiqi güclə qəbilə-qəbilə ayırırsınız, öycük-öycük oynayırsınız! Mən filan tayfa mən bu yerli, sən o yerli... O filan... heç nə yıxmasa da, camaatımızın evini yerlibazlıq, qəbiləbazlıq yıxacaq! Nə qədər ki, bu ayrıseçkilik, bu «haralısan?» sualı dilimizdən yox olmayıb, biz vahid xalq olmağı yuxuda da görə bilmərik. Bəsdir! Bir dəfə bilin ki, birlik olmayan yerdə qələbə də yoxdur! Adı var, özü yoxdur.

---

[46] Burada – bayraq

Yalnız birlik... yalnız birlik!.. Analara deyin ki, uşaqlarını bütöv bir Vətən üçün əsgər kimi, qurban kimi, fədai kimi böyüdüb tərbiyə etsinlər.

Daha beşiyin o biri üzünü qəriblik saymasınlar. «Arxandan vurulsan, Vətənə xain çıxsan, südüm sənə haram olsun» desinlər. Əks halda Vətən yoxdur!
Sultan Səlim Arğun bəyin təxmini deyil, eynən nəql etdiyi bu sözləri eşidən kimi oldu:

– Yox, – deyə düşündü. – Bunun burnuna vurulmasa, vuran olmasa iştahası böyüyəcək, uzaq gedəcək. Necə ki, bir neçə zəfərdən sonra göylə gedir.

Arğun bəyin deməyinə görə zəfər məclisi qəribə bir sonluqla bitmişdi. Cavan sufilərdən olduqca cəngavər birisi irəli çıxıb mərdanəliklə padşahdan soruşmuşdu:

– Bəs şiəlik? Məgər o, bir xalqı ikiyə bölmür? Qorxmursanmı, hökmdarım?! Gələcəkdə bu dili bir

yaşadığı, nəşvü nüma tapdığı torpağı bir olan camaatın ikiyə bölünməyi, yarısının sünni, yarısının şiə qalıb, gələcəkdə bir-birinə düşmən kəsiləcəyi səni qorxudub dəhşətə gətirmirmi, xaqanım?!

Şah heyrətlə cürətli cavanı süzüb demişdi:

– Əksinə, mən xəlayiqi birləşdirirəm. Qılıncımın gücünə sünnisini də şiəliyə qatıb birləşdirirəm.

– Qılınc gücünə xalq birləşməz, əşrəfi-əla! Şeir gücünə ayrılan xalqı genə də şeir birləşdirə bilərdi.

– Sənin şeirin, şiəliyi yayan nəfəslərin isə nifaq salır. Sən o şeirləri xəlayiqi öz bayrağın altında toplamaqçün yazmışsan, birlik üçün yox!

Arğun bəy sözünə davamla sultana demişdi:

– Bilmədim ki, nəyə padşah qəzəblənmədi, şagirdinə dərs izah edən müəllim hövsələsi ilə təkrar etdi:

– Səhvsən. Mən vətən torpaqlarını birləşdirirəm. Gələcəkdə hamı bir əqidədə – şiəlikdə olanda qalan şeylər yaddan

çıxacaq, nifaq da aradan götürüləcək. O zamanın şairi artıq bir ələm altında birləşmiş vətən haqqında şeirlər düzəcək. Cavan sufi inadkarlıqla başını yellədi:

– Yox, götürülməyəcək. Bu nifaq tarixidir, dəhşətlərə səbəb olacaq. Sənə lənət oxunacağından qorx, xaqanım!

Bir neçə dəliqanlı, cavan sufi dərvişə doğru atıldı, bayaqdan bəri hamı, ən sərxoş olan adamların belə qismən dumanları başlarından dağıldığı halda, İsgəndərşan[47] ilə sərt mükaliməyə cürət etmiş dərvişin halına qalır, indicə qətlinə və ya ən azı həbsinə fərman veriləcəyini gözləyirdilər. Bu yerdə Arğun bəy belə bir qeyd etməyi də lüzum gördü:

– Açığını deyim, sultanım, mənim də bu qorxubilməz gəncə hayıfım gəlirdi. Dəliqanlılar cavan dərvişə doğru atılanda hökmdar əlini qaldırdı. Hamı dayanıb onun nə hökm verəcəyini gözlədi. O, ucadan dedi:

---

[47]Şah İsmayıla verilən adlardan biri

– Ona toxunmayın, o, düşmən deyil! Safdır. Düşündüyünü deyir. Ürəyində nə varsa dilində odur. Camaatımızın səlahını, taleyini düşünüb yandığı üçün belə deyir. Kaş hamınız belə olaydız.

Dəliqanlılar əl vurmadı. Cavan dərviş isə daha heç bir söz demədən məclisə ümumi vida üçün baş əyib çıxdı.

Sultan düşünürdü: «İsmayılın ziddiyyətlər dolu əşarından, danışıqlarından bir şey başa düşmürəm. Başa düşdüyüm təkcə bir şey varsa, o da budur ki, o da Uzun Həsən kimi «Mənəm – digəri nist»[48], deyə dünyanı fəth etmək niyyətindədir.

[48]Mənəm başqası yoxdur

## MƏLİKÜŞŞƏRA

Məclis xudmani idi. Yalnız şeirə xüsusi bağlı olanlar dəvətliydi. Qalan cəngavər sərkərdələr, peşəsi sadaq taxıb kaman gərmək, ox atmaq, qılınc oynatmaq, gürz bulamağı məşq etmək olan igid qazilərin heç birisi buraya çağırılmamışdı. Onlar indi təzə dəb düşən firəngi odlu silahları görüb eşidən tüccar, sarvan, bəzirgan başına toplaşıb, həvəslə haradasa baş vermiş bir döyüşün təsvirini dinləyirdilər.

Hələlik dəvətlilərin yığılmasına xeyli var idi. İndi artıq çoxdan bəri müqərrəbləri arasında «İskəndərşən» adlanan Şah İsmayıl Xətai sarayın məliküşşüərası ilə üz-üzə əyləşmişdi. Şeir məclislərində heç bir təasrüf gözləməsinə yol verməyən Xətai, belə yığıncaqlarda yalnız və yalnız şair

olur, bütün qovğaları, cəngi-məğlubələri, silah hərb meydanı, qələbə, zəfər dəsgahlarını unudur, qəlbindəki dörd şəxsdən biri qalırdı. Bu dörd şəxsin biri igid, məğlubedilməz, heç nədən qorxmayan, həmişə mərd-mərdana öndə addımlayan, yağı qənimi sərkərdə; ikincisi başlar kəsilməsinə hökm verən intiqamçı, dünyagər, təxtü-tac aludəsi cahangir bir padşah; üçüncüsü bütün varlığını – həm qılıncını, həm də rübabını əqidəsinə qurban gətirmiş bir təriqət başçısı şeyx; dördüncüsü isə incə rübabi qəzəllər müəllifi, «Dəhnamə» kimi lirik məsnəvi yazan şair Xətai idi. Bugünkü kimi məclislərdə bu dördüzlü, dördqəlbli insanın üç başqa sifəti yoxa çıxar, bircəsi – şair siması, şair mənliyi şair ürəyi qalardı. Simasının onsuz da gözəl, lakin yerinə görə qəzəb, kin-küdurət, intiqam, alovu saçan qorxunc cizgiləri çox yumşalar, incələr, bir az da gözəlləşər, təravətlənər, şairanə-nurani olar, işıq saçardı. Belə günlərdə o, saz və qələm dostları arasında heç bir təarüfə – «şah-gəda» münasibətlərinə yol verməzdi. Keçənlərdə bir gün

məşhur bir ərəb atalar sözünü söyləmişdi: «İndəl, əhbab təsəqatül-adab»[49] demişdi.

Bununla da sıxıntıya son qoymuş, şeir məclislərində əsl bir sərbəstlik əhvali-ruhiyyəsi yarada bilmişdi. Bu gün şeir məclisində iki, demək olar ki, yeni ad çəkiləcəkdi. Doğrudur, Xətai əvvəllər də onların şeirini eşitmiş, vərəqlərdə oxumuşdu. Lakin bu gün məclis bütünlüklə bu şəxsə – Məhəmməd Füzuliyə və Miskin Abdala həsr olunacaqdı.

Qonşu otaqda süfrə hazırlanırdı. Bir az keçmiş oraya başqa

[49] Dostlar arasında buyur-buyur lüzumsuzdur

dəvətlilərlə birgə, qazi olmağına baxmayaraq, şeir pərəstişkarı Mövlana Axund Əhməd Ərdəbili də gələcəkdi. Bu həmən Mövlana Əhməd Ərdəbili idi ki, hicrətin 919-cu ilində zilhincə ayının 26-sında, çaharşənbə günü çox məşhur nəsildən olan Abdin bəy Bəydili – Şamlunun qızı Taclı bəyim ilə cavan hökmdarın kəbinini kəsmişdi və bu kəbindən sonra istəkli Taclı bəyim ona səfərlərdən birində Şahabad kəndində bir oğul – bir varis bəxş etmişdi ki, adını da Təhmasib qoymuşdu. İndi Taclı bəyim Təhmasiblə birlikdə Xorasan vilayətinin hökmdarı idi və sevimli zövcə də, süd kimi xoş ətirli körpə də ondan uzaqdaydı. Mövlananın gəlişini düşünəndə vücudunda ılıq-sıcaq bir atalıq hissi baş qaldırdı, damarlarını gəzdi, bu hiss onun üzünə vuranda zərif dərili bəyaz simasına xəfif qızartı çökdü. O, armudu butalı, qolabi tirmə üzlü mütəkkəyə dirsəkləndi. Az sonra müsahibini də, məclisi də unutdu. Çubuğu tirmə üzüklü kətil üstündən yarın sinəsi kimi bəyaz Səmərqənd kağızı və əlvan naxışlı qələmdandan şirazi qələm aldı, yazmağa başladı:

Ol pəri kim çeşmi saqi, ləli canımdır mənim
Qaşı mehrabü yüzü Beytül-həramımdır mənim.
Dilbərin vəslindən ayru istəmən hər sübhü şam,
Yüzi sübhümdür və leykin zülfü şamımdır mənim.
Ol pəripeykər neçün canım quşun bənd etməsün?
Danədür xali, pərişan zülfü damımdır mənim.
Valehəm bir qəddi tuba, ləli kövsər yarə mən
Asitani rovzeyi-darüssəlamımdır mənim.
Bu Xətayinin sözünə münkir olma, zahida!
Bir pərinin hüsnü vəsfində kəlamımdır mənim.

Ona elə gəldi ki, mövlana möhrəni eşidən kimi gülümsəyəcək, iş görməmiş, ağ nazik əlini yumşaq saqqalına çəkib bığaltı gülümsəyəcək və səslənəcək: – Münkir olmaram, qorxma şaira!

Xətai əlini qələmdana uzadanda Məliküşşüəra onun şeir yazmaq xəyalına düşdüyünü anladı. Aramla yerindən qalxdı. Bu gün üçün hazırlatdırdığı ən gözəl xəttatlara üzünü

köçürtdürdüyü «Bəngü badə»ni gümüş həlqələr nəsb olunmuş, qoz ağacından düzəlmiş naxışlı rəfdən götürdü. Yenidən (neçənci dəfə) vərəqləməyə başladı. Məliküşşüəra ucaboylu, nazik bədənli adam idi. Sarıyamayıl bənizini daima geydiyi ağ cübbə və ağ əba bir az da xəstəhal nəzərə çarpdırırdı. Kol-kol olmuş ağ qaşları, ağ kirpikləri altından baxan gah göl kimi sakit, gah günəşdən rəng almış dalğalar kimi parlaq gözlərindəki dərinlik, həzinlik, məna baxanı valeh edirdi. Şakirdi və kürəkəni ilə olan söhbət yadına düşdü. Kərbəlada olmuşdu bu söhbət. Keçən il, Məhəmmədlə paytaxta, şah Xətai sarayına köçməkdən söz salmışdı. Qoca məliküşşüəra demişdi:

– Oğul, bu şah başqalarına bənzəməz, hökmü də var, hikməti də. Bir tərəfdən, ölkələr alırsa, o biri tərəfdən sənətə, şeirə rövnəq verir. Bir gör elimizin ruhu saz-söz haqqında nə deyib:

Bu gün ölə almaz oldum mən sazım,
Ərşə dirək-dirək çıxar avazım,

Dörd şey vardır bir qarındaşa lazım;
Bir elm, bir kəlam, bir nəfəs, bir saz...

Qoca onun gözlərində sanki bu sözləri oxumuşdu: «Nə olsun ki! Hamısı da riya üzündəndi. Şeir də, sənət də, saz da ona fəthlər və bu fəthləri möhkəm bərqərar etmək üçün lazım olan vasitələrdən biridi, deyilmi?» Və qoca bu dilsiz sualı cavabsız qoymamışdı:

– Olsun! Amma bir fikir ver, ərəb işğalından sonra birinci dəfədir ki, dilimiz saraylara yol tapıb. Siyasət adamlarının dili olub. Dövlətlərarası məktubat – mürasilat doğma dilimizdə yazılır. Şah özü örnək göstərir: şeiri dilimizdə yazır. Axı bu vaxtacan yalnız fars dili şeir dili hesab olunur, türki dilimizdə sən özün də dediyin kimi «şeir düşvar olur». Sənin asan etdiyin yolda o da daha doğma, xəlayiqin öz dilində, öz nəfəsində yazır. Ozan yadigarı aşıqlarımız, qopuz nəsilli sazımız saraya yol tapıb. Şah savadlanmaq, təhsil almaq, sənət sahibi olmaq istəyənlərə xüsusi qayğı bəsləyir. Sarayda gözəl kitabxana yaradıb. Xəttatlar, təsvirçəkənlər, cildçilər topladıb saraya. Hamısına məvacib kəsib, qiymətli

divanların, elmi yazıların üzünü köçürtdürür. Sən onun zülmündən aman çəkən beş nəfəri eşidəndə, beş də belə xidmətini yada sal!

Söhbət bir nəticə verməmişdi o zaman. İndi budur, kürəkən yeni yazdığı əsəri əsrin hökmdarları içində xüsusi ad qazanmış Şah İsmayıl ibn sultan Heydər ibn Cüneyd adına ithaf eləyib. Məliküşşüəra fikirli-fikirli naxışlı rəfləri nəzərdən keçirirdi. Şahın ayrıca kitabxana otaqları olsa da burada əlinin altında xeyli lazım ola bilən nadir nüsxələr saxlayırdı. Budur Məhəmməd Zəkəriyya ər-Razinin tibb, fəlsəfə, kimya, ədəbiyyat və musiqidən bəhs edən əsəri; üzü təzəcə köçürülüb, «Elmi-Əhkam», «Zic» – nücumdan bəhs edən əsərlər... Şahın biliyə maraq dairəsi nə qədər də genişdir. Məliküşşüəra geri dönəndə şah, artıq yazdığını bitirmiş, səssizcə otağa daxil olmuş nədimi-xəlvət ilə şahmat oynayırdı. Hindistandan tacirbaşı bəzirgan hacı Salmanın ona hədiyyə gətirdiyi bu şahmat taxtası məşhur qarağacla sədəfdən düzəldilmişdi. Damaların biri ağac, biri sədəf idi. Fiqurlar fil sümüyündən qayrılmışdı. Hər fiqurun

hündürlüyü bir barmaq olardı. Piyadalar kəsmə gümbəz şəklində, at – süvari, şah – qiymətli daşlarla müzəyyən tac şəklindəydi. Ağlarla hökmdar özü oynayırdı.

Məliküşşüəra yavaşca, səssiz addımlarla onlara yaxınlaşdı. Hər iki oyunçunun arasında dayanıb tamaşa etməyə başladı.

Oyun bitdi. Şah qələbə çaldısa da, fikrində elə bil bir az əvvəl yarımçıq kəsdiyi söhbəti davam etdirmişdi. Bu onun adəti idi. İndi də elə oldu.

– Deməli, kürəkəninizin «Bəngü badə»sini oxuyuruq bu gün?

– İzninizlə, hökmdarım!

Padşah bayaqdan bəlkə də, lap çoxdan fikrində dolaşan bir məsələni dilinə gətirdi.

– Məhəmməd Füzuli şairi bura cəlb etmək gərəkdir, cənab Məlikuşşüəra.

– Gəlməz, qibleyi-aləm!

– Neyçün? – sualda təəccüb nidası duyulurdu.

– Çünki o daha böyük bir padşahın xidmətindədi, sahibqıran!

– Kimin? – səsdə qəzəb çalarları eşidilməyə başlayırdı. Bunu Məliküşşüəra ilə birlikdə nədimi-xəlvət də anladı.

Məliküşşüəra əvvəlki təmkini ilə cavab qaytardı:

– Hüseyn ibn Əliyyəl Mürtəzanın! Sənin ulu babanın, hökmdarım! Kərbəlada, ərəb içində şair Məhəmməd Füzuli öz doğma dilində yazır. Necə deyərlər, «din içində din bəsləyir».

Nədim, azad nəfəs çəkdi. Hökmdarın səsi əvvəlki sakit və yumşaq ahənginə düşdü!

– Afərin ona! Şair öz həmvətənlərinin eşidən qulağı, görən gözü, düşünən beyni, danışan dilidi. Əlbəttə, belə də olmalıdı. Axı bir təsəvvür eləyin ki, ərəblər bu yazıq camaatın başına nə gətiriblər. Körpə uşaq məktəbə gedir tələffüz elədiyi birinci söz: «bisimillahirrəhmanirrəhim, hüvəl-fəttahü əlim» – ərəbcədi. Yazıq uşaq bundan nə

anlasın? Olmaz ki, elə doğmaca – körpə diliylə «böyük olan, rəhman, rəhim, Allahın adı ilə başlayıram...» desin? Bu Allaha çox xoş gələr. Yaxud bütöv bir xalq, hətta xalqlar, onların ərəbcə bir kəlmə başa düşməyən kişisi-arvadı, çobanı-çoluğu gündə beş vaxt namaz qılır. Xəlvətdə, öz yaradanı, tanrısı ilə üzbəüz dayanır, dərdini deyir, onun böyüklüyünə inanır: «mənə rahi müstəqim-düz yol göstər», deyir. Olmaz ki, ərəb dilinin qol-qanadını sındırmayıb «Qul hüvəallahü əhəd»»», de ki, o, «Allah birdir» sözlərini öz doğmaca dilində desin? Vallahi ki böyük Allaha bu xoş gələr. Namaz qılan da sözləri tutuquşu kimi deyil, anlayaraq, dərk edərək deyər.

Şair Xətai, könlündə bütün varlığına hakim kəsilən bir fikri sanki bütün çılpaqlığı ilə dilinə gətirmədən düşünürdü: Qula çevrilmiş xalq üçün doğma ana dilini mühafizə etməyin böyük mənası vardı. Bunu ərəb işğalçıları çox gözəl dərk etmişdilər. İlk öncə məhkum etdikləri xalqların dilinə hücum etmişdilər. Beş vaxt ibadətindən bircə söz anlamayan fağır şələpapaq çobanın duası ərəbcə!.. Beşyaşlı uşağın

mollaxanada ilk sözü ərəbcə... Bəli milləti, xalqı öldürmək istəyirsənsə əvvəlcə dilini əlindən al. Bu bütün qəsbkarların, hakim xalqların şüarı olub.

O danışdıqca Məliküşşüəra və nədimi-xəlvət nə deyəcəklərini, nə cavab verəcəklərini bilmədən durub baxırdılar... Xətai sözünə davam edib deyirdi:

– Elə mənim də çalışmağım, öz dilimizə rövnəq verməyim bunun üçündü. Sizdən və digər şüəradan da tələbim budu... Buna görə də sizin kürəkən olub-olmamağından asılı olmayaraq, Məhəmməd Füzulinin mənim yanımda mərtəbəsi böyükdü. Hayıf ki, Kərbəlanı, Hüseyn qulluğunu tərk edib buralara gəlməz...

Elə bu zaman pubiyalı zənci nökər içəri girib məclisin arəstə, şaha müntəzir olduğunu xəbər verdi. Nədimi-xəlvət sadəlövhlüklə dilləndi:
– Şahım, təsəddüqün olum, nə olaydı namazı da, başqa duaları da doğma dilimizə çevirtdirib icra etmək haqqında

fərman verəydiz...

Şah qəhqəhə ilə güldü. Məliküşşüəra da qımışdı. Hətta qapının cəhəngində ağasının əmrini gözləyən, qatran kimi parlayan yoğun, güclü qollarını, əzələli köksündə çarpazlayıb qara qranit heykəl kimi dayanmış nubiyalı qulun ağ bəbəkləri səyridi, sədəf dişləri qalın dodaqlar arasında bir an işıldayıb söndü. Şah qəhqəhə çəkdi və ağ əli ilə istəkli nədimi-xəlvətin, şahmat rəqibinin kürəyinə vurdu və ciddi səslə dedi:

– Hələ tezdi, əzizim! Özümüzə bir dünya düşmən qazanarıq. Bütün ərəb dünyası, islam mübəlliğləri, mütəəssib dindarlar əleyhimizə qalxar. Ərəb dilinin əhəmiyyəti itir – deyərlər. Quranı tərcümə etmək günahi-əzimdir, deyərlər. Bu Quran dilinə xəyanətdir, deyərlər. Əslində tərcümə çoxlarının mənfəətinə ziyandı. Sözlər ərəbcə deyiləndə avam arasında ecazkar, nə isə sirli bir qüvvə varlığına etiqad yaradır. Məlumdur ki, hər bir sirli şey sadə insanın şüurunda titrəyiş, qorxu dolu bir inam doğurur. Onlara da bu lazımdır. Bax gör dünyanın nə qədər xalqı

duanı, Quranı ərəbcə oxuyur, namazı ərəbcə qılır. Əndəlüsdən Xətaya qədər. Qoca Edil sahillərindən İfrikiyyənin cənubuna qədər. Dünyanın az qala hamısı...

Şah bir anlığa susdu. Məliküşşüəra ürəyindən olan bu sözlərə qarşı dedi:

– Vaxtilə böyük Firdovsi demişdi:

Zşire-şotor, xordəni-susmar,
Ərəbra be cayi rəsidəst kar
Ki, taci – Kəyanra konəd arizu
Tfu bad bər çərx-gərdun, tfu.[50]

– Elə bizim camaat da bunu çox yaxşı başa düşüb. Dili

[50]Dəvə südü və kərtənkələ yeyən ərəblər işi o yerə gətiriblər ki, Kəyan tacını arzulayırlar. Çərxi-gərdunun üzünə tüpürməlidir.

qəbul edibsə də, nifrətini də unutmayıb. Baxın el içində ərəb istilasına münasibəti bildirən nə qədər məsəl, atalar sözü, bayatı var: «Dəvə qızdı, ərəb azdı». «Ərəbin üzü, dəvənin dizi», «Ərəb öldü – qan düşdü», «Ərəb nədi – corab nədi?», «Ac ərəb – gic ərəb», yaxud bu bayatıya baxın:

Ərəb gəldi hay verün,
Nə istəsə pay verün,
Aza duran döyürlər
Gətirün tay-tay verün.

Nədimi-xəlvət özünü saxlaya bilmədi, dedi:
– Öz aramızdı, heç bizim indiki amillərin da bəzisi bunlardan yaxşı deyil.

İsmayılın xəyalında başqa bir səs səsləndiyindən Nədimin sözünü eşitmədi. Bir zaman qaraçı ribatında rast olduğu nurani bir dərviş ona demişdi: «İnsanları zəmanəmizin üç afətindən xilas etmək zəruridir, hökmdar! Aclıq, arası

kəsilməyən müharibələr və sənin öz təxtü tacına da xəyanət edən yerlərdəki hakimlərlə amillərin zülmü. Onlar sənin gözündən iraq düşüb kama çatan – istədikləri vilayətləri ələ keçirən təki sənin rəiyyətini soyurlar, quru yurdda qoyurlar. Zülm o yerə çatıb ki, hakim sünbülün dənlərini sayır, kəndlidən ona nisbət taxıl tələb eləyir. Sənə qiymətli hədiyyələr gətirən hakim səndə şübha doğurmurmu? O bunları necə və hansı yolla əldə eləyib? Sərkərdələrin əli aşağı düşəndə gah bu, gah da o diyara soyğunçuluğa çıxır. Adamların mehmannavazlığına xəyanət edir. Evinə düşdükləri kişinin çörəyini yeyib, sonra da əlində olanını alırlar. Unutma ki, ulu tanrı cənnəti kasıblar üçün, o dünyada, dövlətlilər üçün bu dünyada yaradıb. Fəqirə qahmar ol, ədalətli ol, həqpərəst ol!»

Çox sözlər demişdi dərviş. Şah onu indi də dinlədikcə görüləcək işlərin çoxluğundan qısıldı, nədimin sonrakı deyil, əvvəlki sualına cavabı davam etdirərək yenidən sözə başladı:

– Hələ tezdir. Bax, cəsarət budur ki, Məhəmməd Füzuli kimi nəinki vətənində, hətta dindarların arasında, Ərəbistanın göbəyində oturub öz dilində şeir, məsnəvi yazasan! Hünər budu ki, o kişi eləyir. Öz dilini dünya dilləri cərgəsinə çıxarır. Belələri çoxalsa onda bəlkə...

O, yenə susdu... Qapıya doğru irəlilədi. Nubiyalı qara heykəl güclü boynunun hərəkətilə başını döşünə tərəf əydi. Şah şeir məclisi tərtib olunan otağa keçdi. Bir addım aralı, ədəb məqamı gözləyərək Məliküşşüəra və nədimi-xəlvət onu izlədilər.

* * *

Məclis dəm idi. Şeirə, elmə, musiqiyə pərəstiş edən vəzir-vəkildən də var idi. Məclisdə onlar şah məsnədina yaxın yerdə oturmuşdular. Otağa taxt qoyulmamışdı. Belə məclislərdə İsmayıl özünü də həmqələm saydığı şairlərdən, aşıqlardan seçməz, seçməyi sevməzdi. Məclisin sədrində ikiqat döşəklər qoyulmuş, üzərinə zolaqlı zərrin diba

çəkilmiş, hər iki tərəfinə misqalı tirmədən dirsəkal-şlar, arxasına məxmər püştü söykənmişdi (El arasında belə yarıbalış, yarıdöşəklərə, «qayınana döşəyi» deyər, yaşlı arvadların arxasına – divara söykərdilər.). Bax, şahın ədəb və musiqi məclisindəki yeri belə taxtsız-tacsız Şahın döşəyindən sağ və sol tərəfə nisbətən kiçik nimdər, döşəkcə, püştü və mütəkkələr düzülmüşdü. Əhli-məclisin sayına və adətinə görə döşəkcələrin qənşərinə nargilə qəlyanlar, çubuqlar qoyulmuşdu. Burada hər kəsən öz mövqeyini bildikləri kimi, nədim və kənizlər, cariyələr də onların yerini tanıyırdı. Bütün nimdərlərin önündə, qəlyanların yanına xırda, naxışlı kətillər, üzərinə şirazi qələm və qələmdən, Səmərqənd kağızı qoyulmuşdu. Mey, məzə, noğul və meyvə hər kəs üçün ayrıca xonçalarda verilirdi. Xonçalardakı ərzaqda fərq olmurdu. Olsa da bircə şərab içməyənlər üçün mina ibriqlərdə, sürahilərdə hil və zəfəran şərbəti qoyulmasındaydı. Vəzir-vəkildən sağ və sol tərəfə alimlər, şairlər, musiqi nəzəriyyəçiləri, xəttatlar, rəssamlar əyləşmişdi. İsmayılın yeri ilə qarşı-qarşıya bu gecə çalmalı olan musiqiçilər dəstəsi və aşıq əyləşmişdi. Hələ ki,

məclisdə xanəndə və rəqqasə qızlardan gözə çarpmırdı.

İsmayıl yarım addım ədəb məqamında onu müşayiət edən Məliküşşüəra və nədimi-xəlvətlə salona daxil olanda hamı bir nəfəs çəkimində yerindən qalxdı. Sağ əllərini ürəklərinin üstünə qoyub baş əydilər.

Şah keçib əyləşdi. Onun işarəsilə Məliküşşüəra, nədim və məclis əhli yerlərinə çökdülər. Bir an sükut oldu... Hər birisi oturduğu döşəkcə, dirsəkləndiyi mütəkkə üstündə yerini rahatladı. Şah üzünü sağ əlində oturmuş Məliküşşüəraya tutdu:

– Ustad, nədən başlayırıq?

Şeir məclisini rəsmi eşik ağası deyil, Məliküşşüara idarə edirdi.

– Hökmdarım, bu gün əsas məqsədimizdən əlavə maraqlı bir qonağımız var. Buradan xeyli uzaq olan Çuxur Səddən[51] gəlib. Vətənimizin şimalı elə bil ki, sənətkarlar arasında

---

[51]Yerevanın şərq mənbələrində o zamankı adıdır.

bölgü aparıb: mənim doğulduğum Şirvan torpağı şair yetirib, Bakı torpağı gözəl rəssam-zərgərlər, qərbdə Çuxur Səddə – Göyçə mahalı aşıqlar yetirir, – heç birisinə də çatan olmaz...

Elə bu zaman bayaqdan heç kəsin nəzərini cəlb etməyən, şahın böyrünə sığınmış təlxək özünə məxsus cürət və lağlağılıqla Məliküşşüəranın sözünü kəsdi:

– Bəli, hər şəhərin öz siması olmalıdır... Necə ki ərəblər deyib: sənətkarlıq – Bəsrədə, nitq gözəlliyi – Kufədə, ləzzətli eyş-işrətli həyat – Bağdadda, xəyanət – Reydə, paxıllıq – Heratda, əxlaqsızlıq – Nişapurda, xəsislik-Mərvdə, qürur – Səmərqənddə, igidlik – Bəlxdə, ticarət – Misirdə olan kimi...

Hamı qəhqəhə çəkdi.

– Bəs sənin doğulduğun Təbriz? – sualı şah vermişdi –

Yaxşı dübbələr yetirir, əzizim!

---

Gülüş ara verəndə şah üzünü yenə də Məliküşşüəraya tutdu:

– Eşidirik səni, ustad!

– İzninizlə sizə bu gün həmin mahir el sənətkarlarından birini, Miskin Abdalı təqdim edirik, əşrafi-əla.

– Buyursun.

Çalğıçılar arasında əlində üçtelli saz olan ucaboylu, arıqaz, surətindən işıq yağan bir adam qalxdı. Əynində bəhilqol çuxa, sərmə boğazlı köynək, ev hanasında toxunmuş mixəyi şalvar var idi. Qara nazik qaşları gicgahlarınacan uzanırdı. Aralı gözləri qonur idi. Bu gözlərin içində qızılı-sarı şüa saçan bir cüt nöqtə insanı əsrarlı heyrətə salırdı. O, sağ əlini sol döşünə basıb hər üç tərəfə baş əydi.

İsmayıl şah gözü ilə Miskin Abdalın qəddü qamətinə, sarı güşəş ziyasından bir cüt qığılcım alıb nur saçan gözlərinə baxdı. Qeyri-ixtiyari, yanında əyləşmiş Məliküşşüəraya asta səslə dedi:

– Göycənin Miskini, Abdalı budusa məğruru, ehtişamlısı nə təhərdi?

Məliküşşəranın dodaqları xəfifcə qımıldandı. Ömründə ilk dəfə şah məclisinə çıxan aşıq qonağı şəkkə-şübhəyə salıb utandırmamaq üçün cəld pıçıltıyla cavab verdi:

– Yəqin ki, hökmdarıma bənzəri olar. –

– Heç bu da geri qalmaz.

Amma hər iki müsahibin simasında sanki görünməz niqab var idi, danışdıqları duyulmurdu.

Miskin Abdal bir daha bilavasitə hökmdara tərəf hörmət salamını yerinə yetirib ədəb məqamında dayandı. Dodaqlarından bircə kəlmə eşidildi:

– İzin.

Məclisdə yaşca ən qoca adam olan qazı: «İzindi», dedi: Aşıq üçtelli sazı bağrına basıb taziyənəni tellərə vurdu və xırda-xırda səkə-səkə məclisin ortasına gəldi:

Dostu-mehribanım, yetiş imdada,

Səndən qeyri yox imdadım, ağlaram.
Ah çəkib dağlara salaram səda.
Qohum gəlməz, gülər yadım, ağlaram.

Dəstində zulfüqar, düldülə süvar,[52]
Məhzərül-əcayib, bir adı kərrar
Müşkülə düşmüşəm, könlüm intizar,
Sən gəlməsən, ey ustadım, ağlaram.

Salma nəzərindən, salma, ilahim,
Dal gündə köməyim, poştü pənahim,
Ərşə bülənd olub fəryadü ahim,
Abdaldı, Miskindi adım, ağlaram.

Məclisdən «afərin, mərhaba» səsləri göyə ucaldı. Aşığın səsi də, nəfəsi də, ifasındakı məlahət də, doğma dildə oxuduğu qoşmanın şeiriyyəti də, hökmdarın cəddinə işarə edən

[52] Xətainin ulu babası hesab edilən, şiələrin birinci imamı Əli ibn Əbütalib nəzərdə tutulur.

misralar da, sazı çalmaq məharəti də oynaması da, əski dədə-ozan ənənəsindən gələn ədəbi də salonda əyləşənlərə xoş gəlmişdi. Ürəklərindən idi. Onlar doğma dildə aşıq şeir və musiqisini birinci dəfə eşitmirdilər. Sənətə qiymət verməyi bacaran adamlar idi. Odur ki, aşıq Miskin Abdalı böyük bir məhəbbətlə, dönə-dönə Qurbanini dinlədikləri məhəbbətlə dinləyirdilər. Miskin Abdal isa sənətin gözəlliyinə, mənasına vurğun əsl aşıq kimi şeiriyyətə dalmışdı. Havadan-havaya keçdikcə şeir də dəyişir, qoşmadan təcnisə, təcnisdən gəraylıya, gəraylıdan divaniyə keçirdi. Nəhayət, o, ədəb dairəsini gözlədi, hər növdən bir-iki bənd oxuyub susdu. Yenə də məclisə böyük hörmətlə sağ əlini sol döşünün üstünə qoyub hər üç səmtə baş əydi. Keçib yerində durdu.

Şeiriyyətə dalmış Xətai şair-hökmdar əl işarəsilə bitikçibaşını yanına çağırdı. Nə dedisə, dərhal Bitikçibaşı qalxıb qonşu otağa keçdi, tez də qayıtdı. Arxasınca əlində kətil tutmuş xəttatla qayıtdı. Şah ucadan dedi:

– Yaz! Himayəmizi və Sarıyaqub kəndinin baratını ona veririk – Miskil Abdala – nəsilbənəsil.

Bitikçibaşı elə buradaca fərmanın qaralamasını yazdıqca, xəttat cəld onu Səmərqənd kağızına köçürdü. Kətilin üstündə xırda qablar, kiçik piyalələrdə mavi, qırmızı, qara, sürməyi rənglər, ayrıca xırda piyaləciklərdə qızıl və gümüş ərintisi qoyulmuşdu. Xəttat adəti hərəkətlə qamış qələmi gah piyalələrin, gah fərmanın üstündə gəzdirirdi. Heç bir urub keçməmiş fərman hazır oldu. Bitikçibaşı dalı-dalı sürüşüb onu hökmdarın qənşərinə tutdu. İsmayıl qamış qələmin bir cizgisilə fərmana qol qoydu.

Bitikçibaşı yerinə, xəttat isə otağına qayıtdı.
Məliküşşüəranın işarəsilə Miskin Abdal hökmdarın qarşısına gəldi. İki addım qalmış diz çökdü, yeri öpmək üçün əyiləndə (görünür, saray adabını ona irəlicədən təlim etmişdilər) şair-padşah dilləndi:

– Yox, yox, ustad, sən yer öpmə! Yerin çox ucadı. Buyur!

Al! Bizə bu gecə verdiyin böyük zövqün müqabilində bu fərman kiçik və acizdir. Sən bizə bir daha sübut etdin ki, doğma anamızın dili yüksək şeiriyyətə malik musiqili dildir. Bu dildə ən gözəl hissləri, ən idraki, dərin fikirləri musiqi dilinə çevirib tərənnüm etmək olar. Sənə və bunu sənə ilham edən böyük xəlqə əhsən və eşq olsun!

Miskin Abdal şairin sözlərini böyük bir fərəh, həyəcan içində dinləyirdi. Fərmanı aldı, öpdü, gözləri qarışıq alnına qoydu və qalxdı:

– Ömrün uzun olsun, qurbanın olum! – dedi. – Bu fikir, bu əqidə ki, səndə var, doğma el-obamız, ulusumuz-oymağımız ömrünə duaçı olacaq həmişə!

O qalxdı, dal-dalı yeriyərək mövqeyinə qayıtdı. Şah isə bayaqkı mövzuya keçib deyirdi:

Bizdən xeyli əvvəl böyük bir şairimiz öz şeirilə təsdiq edib:

Nagahan bustana girdim sübhdəm,

Lalənin əlində gördüm cami-Cəm,
Süsən eşitdim ki, aydır dəmbədəm
Dəm bu dəmdir, dəm bu dəmdir, dəm bu dəm, –

deyib və dilimizdəki şeiriyəti, musiqini təsdiq eləyib. Axund Əhməd dedi:

– Hökmdarım, axı bəs farslarda məsəl var. Deyirlər, əsl dil ərəb dilidi, farsca – şeir dilidi, türkcə isə hünərdir.

Təlxək şahdan əvvəl dilləndi:

– Heç kəs öz ayranına turş deməz.

– Doğrudur, bir də məsəli yaradan fars olub, şeiriyyəti özünə götürüb. Bağdadlı şairimiz bu məsələyə yazdığı bütün əsərlərlə cavab verib. Bu gün onlardan birini oxuyacağıq. Ustad, növbət şeirindir, buyurun!

Məliküşşüəra gətirdiyi bayazı özündən bir qədər aralı əyləşmiş şagirdinə ötürdü. Gözəl, bəlağətli şeir oxumağı ilə tanınmış cavan şair, bayazı alıb açdı. Şaha tərəf baxdı, məclisə sükut çökdü və cavan, Məhəmməd Füzulinin

hökmdar Şah İsmayıla həsr etdiyi «Bəngü badəni» oxumağa başladı:

...Məclisəfruzi-bəzmgahi-xəlil,
Cəmi-əyyam, şah İsmayil,
Ondan asudədir qəniyyü gəda.
Xəllədallahü mülgəhu əbəda!
(Allah mülkünü əbədi etsin!)

Cavan oxuduqca hamı diqqətlə dinləyir, arabir kimi qəlyan çəkir, kimi də olduqca ehtiyatla səssizcə qarşısına qoyulmuş xonçadan nə isə götürüb yeyir və ya ibriq və dolçalardan şərab, şərbət, paldava töküb içirdi...

Oxu qurtaranda axşamdan xeyli keçmişdi. Buna baxmayaraq, məclis yorğun deyildi. Son beytlər söylənincə məclisdən yenə də «afərin, əhsən, mərhaba, maşallah, sağ olsun» sasləri qalxdı. İsmayıl isə fərəhindən sərməst idi.

– Yenə də təəssüf ki, belə bir şair səltənətimizin,

paytaxtımızın, sarayımızın bəzəyi deyil. Ona yüz əşrəfi sila göndərilsin.

Məliküşşüəra ehtiyatla dilləndi:

– Etməyin xaqanım göndərməyin! O, Hüseyn quludur, mükafatını tanrıdan istəyən, aza qane insandır. Deyib ki:

Nə mülkü mal mənə çərx versə məmnunəm,
Nə mülkü maldan avarə qılsa məhzunəm.
Əgərçi müflisü pəstü mühəqqərü dunəm
Dəmadəm öylə xəyal eylərəm ki, Qarunəm.

– Təəssüf ki, biz İraqı fəth edib Kərbəlaya varid olanda, Məhəmməd Füzulini belə tanımırdıq. Yoxsa xuddamlar içindən seçib ehtiyaclarından hali olardıq.

Şahın qəlbində Füzulinin bu misraları səsləndi:

Saqiya, sübhdəmdir, eylə şitab
Dövrə gəlsin cu mehr cami-şərab...

Cami-mey sun ki, ta dilirane

Mədh edim padişahk-dövranə...

Ol ki başlar zamanda bəzmi-fərağ,

Padşəhlər başından eylər əyağ...

...Devrü bir bəzmdir behişti-bərin,

Tac zərrin, surahi həm zərrin...

Elə bu dəm xidmətçilər şahın önünə zərif çini buludda çox xoşladığı doğranmış qovun dilimləri gətirdilər. Axund Əhməd, Buxaradan qalay qutularda, buz içində, bütöv və təzə gətirilmiş yemişlərə baxıb dururdu. İsmayıl ona tərəf təklif etdi:

– Axund, buyurun!

– Əbədən, hökmdarım! Qədim təbiblər buyurub ki: «Fəslə zidd heç nə yemə». Hər fəslin öz yeməyi, öz meyvə-tərəvəzi var. Bu qaydanı pozan adam xəstələnə bilər.

İsmayıl güldü:

– Hər bir meyvədən pəhriz eləsəm də, yemişdən eləyə bilməyəcəyəm. Çox xoşlayıram, Axund! Özü də onu hər

fəsildə gətiriblərsə, yemişəm və hələ ki, inandığımız o təbabətin ziddinə olaraq, zərərini görməmişəm.

– Sizin cavan vücudunuza söz ola bilməz, hökmdarım! Sizi yəqin ki, cəddiniz də qoruyur. Mənimki məşhur Baba şeyx qarpızıdı ki, o da fəslində.

...Şahın işarəsilə çalğıçılar Kabili muğamını başladılar. Cavan xanəndə əsas etibarilə Xətai və Füzulinin qəzəllərini oxuyur, təsniflərdə xalq içində geniş yayılmış mahnılara müraciət edirdi. Rəngə keçəndə yan qapının pərdələri titrədi və nərmin bir qız göründü. Qızılı zər butalı, al ipəklərə bürünmüşdü. Üryan deyildi. Üzünün gözəlliklərini xəyala çevirən al tülbənd, niqab taxmışdı. Siması da, mirvari saçbağlı toppuz hörükləri də tüllər, nazik al ipəklər arxasından canlar alırdı. Əlüstülü donunun qolçaqları naxış xınalı əllərinin üstünəcən gəlirdi. Fındıqca barmaqlarının hər biri darçınlı bamiyəydi. Hər iki barmağının arasında ucuna benqal atəşi yaxılmış birər mil tutmuşdu. Pərdələrin dalından göründüyü anda xidmətçilər qəndillərin işığını

azaltdı. Millər atəş saçmağa başladı.

Rəqqasənin al rəngləri tutqunlaşan libası ətrafında minlərlə qığılcımlar, parlaq atəşböcəkləri, ulduzcuqlar uçuşurdu, heyrətamiz gözəllik idi. Lakin elə bil vaxt, millərdəki atəşin və rəqsin qədəri, çalınan rəngin qədəri ilə ölçülmüşdü. Rəng qurtaran anda rəqqasə pərdənin dalında yox oldu və qəndillərin işığı artdı.

– Hökmdarım, məni günaha batırdın. Naməhrəmə baxdım...

Şair güldü:

– Bunun vəbalı mənim boynuma. Arabir məclisdən yarımməst səslər eşidilirdi:

– Saqi, qurbanın olum, mey ver piyalə vaxtıdır.

– Qurbanın olum, saqi, mey ver, mənə bir mey ver. – Əfv et, axund ağa, qulluğunda biədəblik eləyirəm. – Ərənlər deyib ki, «Mərizdən ədəb saqitdir».

– Məgər mən mərizəm?

– Əlbət ki! Biriniz eşqin, digəriniz şərabın mərizidir.

Məclis davam edirdi. İndi də təzəcə Səmərqənddən gəlmiş şair – dərviş – qələndər Saili danışırdı. 0, Səmərqənddə Hüsam ibn Abbas-Şahzində, Qazizada, Şadmülk, Əmirzadə, Toğlutəkin məqbərələrini, Həzrət Xızr, Bibixanım məscidlərini, Rekistan və başqalarını görmüş, onların gözəlliyindən danışıb deyirdi;

– Sənətkarlar Allah və Məhəmməd sözlərini, qibleyi-aləm, firuzəyi və ağ şirli kərpiclərlə elə quraşdırıblar, elə yazıblar ki, xudavəndin yaratdığı əlvan gülə-çiçəyə oxşayır. Özü də dörd tərəfdən yuxarıdan aşağı, sağdan, soldan, aşağıdan yuxarı necə oxusan da həmin söz alınır.

– Bəs Əli?

– Xeyr, Əliyyəl-Mürtəzanın adı yoxdur.

– Neynək, biz də babamızın, atamızın məqbərəsini o cisbirdə qurdurmuşuq, o ziyarətgahlar kimi! Həm də doğma Ərdəbilimiz abad olub, ziyarətə gələn çoxalıb, həm də Əmirəl-möminin də adını biz yazdırmışıq, elə o cür, amma Allah-Məhəmməd-Əli şəklində.

Məclisdə isə şahın izniylə başqa bir aşıq oxuyurdu, qoşma və gəraylıları, ağır məhəbbət macərası məclisə bəlli olan Qurbanidən oxuyurdu:

Könül qalxdı Bərdə sarı yeridi,
Orda bir şəhər var adı Gəncə hey!
Gözəlləri, məhbubları, xubları
Xub batıblar mala, mülkə, Gəncə hey!

Birdən aşıq «sənəd verrəm, qulun ollam yüz ilə», deyə eşqə sədaqətindən oxumağa – cəh-cəhə başladıqda bu bircə ifadə aşığın ağzından çıxan kimi şairin xəyalı yerindən oynadı: «Yox aşıq, yox mənim əzizim! Sən qulun nə olduğunu bilmirsən yəqin! Sənin böyüdüyün vətən dağlarından qız-gəlin, polad qollu cavan, qul kimi alınıb-satılmır». Şair aşığı da, məclisi də unutdu, xəyal onu qanadları üstünə götürüb İraqa atdı.

Samirəyə girəndə gün iki cida boyu qalxmışdı. Başının dəstəsilə birlikdə adını çoxdan eşitdiyi qul bazarına yönəldi.

Dəclənin sağ sahilində yerləşən Harun-ər-Rəşid sarayı onu maraqlandırmırdı. Dəclənin bu biri sahilində imam məqbərəsindən bir qədər şimala çox maraqlı tikililər var idi. Mavi, firuzəyi! Samirə məscid-məqbərəsi də onu valeh etmədi. Kərbəlada Hüseyn, Nəcəfül-Əşrəsrdə Əli məqbərələri daha gözəl, zəngin və zərif idi.

Ətrafı ayə üzüklü hücrələrlə əhatə olunmuş geniş həyətdə ağ, mavi, firuzəyi kərpicdən tikilmiş divarlar bayırdan bütünlüklə, içəridən insan boyuycan ayələr, insanı yaxşılığa dəvət edən xitablarla bəzənmişdi. Məscidin çölü, nəhəng qızıl gümbəzi, içəridən daş güzgü və büllur stalaktit bəzəyi ilə göz qamaşdırırdı. Atəş saçan alov kimi yanan qızıl gümbəzin parıltısına bir göyərçin belə yaxın düşə bilmirdi. Bu göz qamaşdıran aləm ziyarətçiləri sehrli, möhtəşəm görkəmiylə heyrətə, qorxuya salırdı. Qara əbla-çadrasıyla qara sərvə bənzəyən zəvvar qadınlar, müxtəlif millətdən olan müxtəlif geyimli kişilər dər-divarı, altı guşə məzarın gümüş şəbəkələrini öpə-öpə dua edir, dərdini pıçıldayır, şəfa istəyirdilər.

Buradan Samirədəki incə-firuzəyi minarə va gümbəzi bircə

parça belə bulud görünməyən mavi qübbəyə dirənmiş məscid-məqbərə xəyala, kölgəyə bənzəyirdi.
Məsciddən azacıq şimalda yerləşən bina isə xəyal deyil, həqiqət idi. Deyirdilər ki, guya bu hündür hasarın nəhəng həyət – meydanını məhz qul bazarından ötəri Harun ər-Rəşid özü tikdirib. Elə də möhkəm tikdirib ki, yeddi əsr keçsə də bircə kərpici düşməyib, hələ də işləyir. Qul bazarı – meydanın darvazaları önündə üç yüz altmış buruq pilləsi, daşdan tikilmiş nəhəng qüllə-minarə ucalır. Bu daş minarənin ucunu görmək mümkün deyil. Pillələri adi minarələrdən fərqli olaraq içəridə – daxildə deyil, xaricdədir. Guya harun ər-Rəşid xüsusilə rövnəqli qul ticarəti gedən, qızğın alver olan günlərdə gəlib buraya çıxar, göylərə dirənmiş minarə zirvəsindən ticarət meydanını seyr edərmiş. Xoşuna gələn gözəl kəniz və cariyələri deyilənə görə gözəl şairə arvadı Zübeydə xatun üçün, qüssəli, igid oğlanları özü üçün seçərmiş, alarmış.

Şah Qüllə minarəyə baxanda Harun ər-Rəşidin nə duyduğunu, özünü necə hiss etdiyini bilmək istədi. Atdan

endi. Ətrafında ixlasla baş əyənlərə, səcdəyə düşənlərə, qədəmləri dəyən yerin torpağını götürüb tutiya kimi gözünə, ağrıyan yerinə sürtənlərə, addım atdığı səmtə qızılgül ləçəkləri səpələyib o keçəndən sonra basdaladığı həmin ləçəkləri xırdaca ağ torbaya yığıb sevdiyi üçün saxlayanlara əhəmiyyət vermədi.

Enli daş pillələri qalxmağa başladı. Ardınca o zaman ona cavan sərkərdələrdən xüsusilə yaxın olan Rəhim bəy gəlirdi. Pillələri, nədənsə heç səbəbini anlamadığı xüsusi həyəcanla qalxırdı. Bundanmı, yüksəklikdənmi, sürətdənmi ürəyi döyünməyə başladı. Nəfəsi təngləşdi. Aşağı baxanda qul bazarında alğı-satğı ilə məşğul olan və darvaza qənşərində bekar gəzişən, duran və başını qaldırıb qüllə-minarəyə qalxan şaha maraqla tamaşa edən adamlar ona qaynaşan nəhəng qarışqalar kimi göründü. Səndələyəcəkdi ki, Rəhim bəy xüsusi qayğı və ehtiramla ona yanaşdı: «Hökmdarım, – deyə belindən açıb hazır tutduğu qumqumanı ona uzatdı: bəlkə lütf etdiniz». – Cavan döyüşçünün dilinə xas olmayan dəbdəbə təvazö İsmayılın xoşuna gəlmədisə də, onu qeyri-

adi vəziyyətdən xilas etmək üçün həssaslığı xoşuna getdi. Qumqumanı aldı. İstilənməsin deyə gecə qovluğa salınmış qumqumadakı sərin suyu içdi və sahibinə qaytardı. Düşündü: ensinmi, qalxsınmı? Ensə aşağıdakıların gözündə nüfuzdan düşəcək, həm də zirvəyə qalxmaq, harunun tutduğu mövqeyi, duyduğu hissi duymaq ləzzətindən məhrum olacaqdı. Yox, yalnız, ucaya, yüksəyə! Mütləq zirvəyə! Oradan qul bazarını seyr etməli, Təhmasibin doğuluşu vaxtında etdiyi kimi qul alıb azad etməli – andını, nəzrini yerinə yetirməliydi.

Bazar dolusu müsəlmanın, yəhudinin, nəstərinin, assurun, kimin, kimin, təhsininə nail olmalı, cəddi Məhəmmədəl Mustafanın qul azad etmək haqqındakı hökmlərindən birinə riayət etməli idi. Sumu, düşüncələrmi, azacıq durub istirahət etməsini dizlərinə dolmuş və onları ağırlatmış qanı dağıtdı. Ürəyinin vurğuları azaldı. Adi halına düşdü. O, gənclərə məxsus əsgəri addımlarla pillələri qalxmağa başladı. Zirvəyə çatanda aşağıda başının dəstəsini gördü. Ağ köhləni əhatə edən adamlar əllərini göyə qaldırmışdı. O ucadan görmədiyi

üzlərdəki sevinci, dodaqlardakı eşitmədiyi təhsin sədaları duydu və gözlərini qul bazarına çevirdi.

Mavi fəzada, qüllə-minarənin zirvəsində durmuş iki gənc – İsmayılla Rəhim bəy bir aləm dolusu şəfəq saçan günəş altında bir cüt qara qartal heykəlinə bənzəyirdilər...

İsmayıl bazarı xeyli seyr etdisə də, satılan gözəli idbardan ayıra bilmədi. Enməyə başladılar.

Eniş yoxuşdan qat-qat asan olsa da, dolama pillələrdə baş gicəllədən bir xassə vardı ki, gənclər bunun çarəsini tez tapıb uyuşdular. Onlar çay keçəndə etdikləri kimi aşağıya, qaynaşan kütləyə deyil, üfüqə, bir az aşağıda minarəsi və gümbəzi göyü dələn məscidə və ətrafına səpələnmiş evlərə baxdılar. Başgicəllənməsi keçdi.

Aşağıda onu müşayiət edən Rəhim bəyə qibtə ilə baxan gənclərdən bir neçəsi birdən dilləndi:

– Hə, nə gördün, bəy?

– Necə gördün?

– Orada – tanrıya yaxın yerdə bizimçin də dua eləyə idin.

İsmayıl arxasında danışanların səsini eşidir, əhəmiyyət vermədən bazara doğru irəliləyirdi. Gənclərə qüllə-minarəyə qalxmaq icazəsi verib bazara girdi. Qalib hökmdarın önündə xəbərdarlıq eləyə-eləyə yol açan bazar möhtəsibi irəliləyir, başı alış-verişə qızışanları kənar edirdi. Ağ və qara kənizlər sağ tərəfdəki divar boyu düzülmüş iri, geniş taxtlar üzərində dayanmışdılar. Kiminin başında adi örtük, kimininkində dəyirmi çadraya bənzəyən şəffaf parçadan tikilmiş əba, satlıq qara kənizlərin çoxunun belində al ipək fitə vardı. Bədənlər üzərinə lak çəkilmiş qiymətli qarağac bütlər kimi parıldayırdı. Elə bil mahir zərgər ustad qara şəvəni sumbata kağızı ilə par-par yananacan sürtüb pardaxlamışdı. Zənci qızların əndamı nazik, yığcam, köksləri göz deşər kimi dimdik idi. Gənc hökmdar və onu müşayiət edən məiyyət qəribə ehtiras oyadan qara gözəlliyə heyrət dolu gözlərlə baxırdı. Lap arxada gələnlər hökmdar eşitməsin deyə xıssın-xısın zarafat edirdi. Qızların istər ağdərili olsun istər qara, çoxunun kirpikləri yerə dikilmişdi. Amma qığılcım saçan

bəbəklərini gözəl alıcı kişilərə zilləyib çiyinlərini oynadan bir-ikisi də var idi. Sol və qarşı əldə əksər kətil və taxt üstünə çıxarılmış zənci qulların boynundan və ayaqlarından ağır kündələr asılmışdısa da, ayaq və əlləri möhkəm, amma nazik zəncirlə bəndlənmişdi. İri, cəsim gövdəli nubiyalı qulların qol və qıç əzələləri, göz önündə hər tərpənişdə çarx kimi oynayıb hərəkətə gəlirdi. Qüllə-minarədən enib bazara girən kimi niqabını üzünə çəkmiş olan hökmdar, indi bu bədbəxtlərə bir padşah, sərkərdə gözü ilə baxa bilmirdi. Şair ürəyi qoyun, mal kimi satdığa qoyulmuş zavallıların gözlərində, duruşundakı həya, həsrət, qəzəb hisslərini duyduqca, qəlbi cam içində, soyuq suda öykələnir kimi buz bağlayırdı. O, duruşundan əzab, həya yağan on qul seçdi, arxasınca gələn xəzinədar, hökmdara təzim edib pul almaqda çəm-xəm eləyən ərəb tacirinin haqqını ödədiyi vaxt, bitikçibaşı tuğra kağızlarından birini yanınca gələn köməkçisinin kürəyinə söykəyib azadetmə fərmanı yazırdı. Bir anda möhtəsibin salavatı və qul azad edən hökmdara duası meydanı başına götürdü. Bayaqdan bəri əlini ticarətindən kəsib, qul alıb azad etməyə – nəzrini ödəməyə

gələn cavan hökmdara tamaşa edən bazar əhli ucadan salavat və duaya qarşı «amin» söylədilər. Satlıq qulların çoxunun gözündə həsəd, heyrət, təəssüf qarışıq qəribə bir hiss bilinirdi... «Neyçün məni seçmədi, ilahi?», «Bəxtəvər!», «Belə də olur!» oxunurdu bu gözlərdə. Azad edilən qulların əl-ayağından zəncir açılır və hələ öz səadətinə – azadlığına qovuşduğuna inanmayan on bəxtəvər gah əlindəki azadlıq fərmanına, gah da onu verən üzü niqablı gəncə minnətdarlıqla baxırdı. Sonra azad qulların onu da birdən kökündən biçilmiş qələmə kimi yerə, niqablı xilaskarın ayaqlarına səcdəyə düşdülər. Möhtəsib isə ucadan bağırırdı: «Şah İsmayıl ibn şeyx sultan Heydər ibn şeyx Cüneyd... Oğlu – vəliəhdi şahzadə Təhmasibin dünyaya gəlməsi münasibətilə qul azad edir. Şahzadənin ömrünə dua edək...»

Şah İsmayıl ömrü uzunu, lap desən ölən gününəcən alıcı qarşısında nümayiş etdirilən o incə gözəllərin, o cüssəli cavanların gözlərindəki kədəri unutmayacaq. Şair qəlbi üçün bu, bir hökmdarın ən ağır məğlubiyyətdən sonra belə çəkdiyi qüssə və andan daha ağır idi. O, bir anlıq indicə

qapıdan girən nubiyalı quluna baxdı: «O gündən dərgahdan əl çəkmədi, getmədi. Azad olan doqquz qul getdi: bu isə mənimlə qaldı», – deyə düşündü. – «Onun sədaqətini yaxınlarımdan heç birində görməmişəm və gözləmirəm də».

Xatirələr onu tərk edib şeir məclisinə qaytaranda Rəhim bəy nubiyalı zəncinin başqalarının anlamayacağı gizli işarəsilə yerindən qalxdı, hökmdara tərəf baş əydi.

Cariyələr məclisə ətri insanı bihuş edən çələmir (dağ keşnişi) küküsü gətirdilər. Rəhim bəy ön otağa keçdi. Burada onu eşikağası gözləyirdi.

– Hacı Salman bəzirganbaşı sabah sübh namazından sonra karvanı qaldıracaq. Kafirlər ölkəsinə tərəf. Qibleyi-aləm buyurmuşdu ki, hacı nə vədə gəlsə onun hüzuruna aparaq.

– Hardadı hacı?

– Qibleyi-aləmin buyurduğu kimi, şahın xəlvətgahındadı.

– Çox gözəl, mən indicə xəbər verərəm.

O, yenidən şeir və musiqi məclisinə qayıtdı. İndi burada da

cavan və olduqca lətif səsi olan bir aşıq Təbriz, Kaşan, Şiraz xalılarının üstündə quş kimi səkə-səkə hökmdarın çox sevdiyi Aşıq Qurbaninin qoşmasını oxuyurdu. Vaxtilə hökmdar həmin qoşmanı Qurbaninin öz dilindən eşitmiş, dərdinə də dərman üçün Becəni cəzalandırıb, sevgilisini aşığa qaytarmışdı.

Aşıq oxuyurdu:

Mürşidi-kamilim, şeyx oğlu şahim,
Bir ərzim var qulluğuna, şah, mənim.
Əziz başın üçün oxu yazğumu
Agah ol halımdan gahbagah mənim.

– Əhsən, afərin – səsləri ucaldı. Rəhim cürət edib şaha yaxınlaşa bilmədi. Qapının önündəcə dayandı.
Aşıq sazla oxuduğunu sözlə də deyəndən sonra cəhcəhinə davam etdi:

Şair olan dərsin alar pirindən,

Baş açmadım səgrəqibin sirindən,
Qolu bağlı keçdim Xudafirindən,
Üzüm gülməz, heç açılmaz ah mənim

– Güldürdü üzünü cahan – afərin!

Qurbani der: bahar olur gəlir yaz,
Göllərdə üzüşür ördək ilə qaz,
Sərim təvəlladı, üzüm payandaz.
Yoxdu bundan qeyrəz bir matah mənim.

– Gözəl matahdı!
– Allah hamını soltanım, şahım İsmayılın əliylə kamına çatdırsın.

Şah güldü:

– Elə Allah özü çatdırsın.
Rəhim bəy imkan tapdı, divar dibi, arxalarla hökmdarın məsnədinə yanaşdı. Arxasında diz çökdü, çiyni üstündən

qulağına tərəf yavaşca dedi:

– Hacı Salman bəzirganbaşı səhər tezdən şimala – kafiristana gedir. Sahibqıran, görmək meyliniz varsa, xəlvətinizdədir.

Elə bil ki, bir az öncə mina ibriqlərdən süzülən şərabı o içməmişdi. Tamamilə ayıq idi. Yerindən dik qalxdı:

– Həzərat! Mənim əziz-giramilərim, siz işinizdə olun. Məni çox vacib bir vəzifə gözləyir. İki urubdan sonra qulluğunuzdayam.

O qalxcağın maclisdəkilər də dik durmuşdular. Şah, Rəhim bəyin və sədaqətli nubiyalının müşayiətilə şeir otağını tərk etdi.

Ön dəhlizə keçən kimi başını döndərmədən Rəhim bəyə əmr verdi:

– Rəhim, vəziri-əzəmə xəbər ver. Bitikçibaşı da bütün ləvazimatı ilə xəlvətə gəlsinlər.

Xəlvət bir zamanlar hacı Salmanı görüb, təsvir etdiyimiz sadə, əsgəri otağı idi. Burada heç bir şey dəyişməmişdi.

Şah yerinə keçib əyləşən kimi vəziri-əzəm vəziri-dərbar, bitikçibaşı və əlindəki yazı ləvazimatı ilə birlikdə xəttat içəriyə daxil oldular.

– Səfərin haradır dedin, hacı?
– Macarlar ölkəsinə, hökmdarım! Türk tacirlərindən eşitmişəm. Türklərin o yerlərdə kafir məmləkətlərinin çoxuna hökmü işləyir. Lap haracan olsa gedəcəyəm, inşallah!
– Çox gözəl, səfərin xətərsiz olsun. Murasələmizi[53] o yerin hökmdarına çatdırarsan. Meyli olsa biznən əlaqə yaratmaq üçün.
– Gözlərim üstündə, qibleyi-aləm!

[53]Göndəriş, burada məktub.

Hökmdar bitikçibaşına əmr verdi:

– Yaz! Özü də öz dilimizdə yaz mürasələni.

Bitikçibaşı dərhal zər ornamentli tuğra kağızlarının birini xəttata uzatdı. Başlanğıcda yazılacaq rəsmi müraciəti o yaxşı bilirdi; bitikçibaşı özü isə əsas mətni qaralamağa başladı.

Vəziri-əzəm, əllərini sinəsinə qoyub baş əydi, söz üçün izin istədi:

– Qibleyi-aləm, bəlkə keçmişdəkilər kimi mürasələni fars dilində yazaq?! Axı o yerlərdə kafirlər içində bizim dili oxuyub başa düşən olmaz.

Onun qulağında hələ də Ərəbistanın göbəyində oturub ana dilində əsərlər yazan Füzulinin, qolu bağlı Xudafərin körpüsündən keçib gələn Qurbaninin, Çuxur-Səddən aşmış Miskin Abdalın səsi, əşarı səslənirdi. Elə bil Qaraçı

ribatındakı qoca dərviş ona:

«Hər sadə cümləmiz bir misra şeirdir, neçin də tanınmasın dünyada? Onda belə bir qəlblərə, beyinlərə qüvvət verən qüdrət varsa, neyçün ölkənin ürəyi, paytaxtı, siyasi əlaqələri bu dildə danışılmasın, bu dildə aparılmasın?! Vaxt çatıb, hökmdar! Sən indi bunu etməsən, kim edər?! Qüdrət səndədir, qeyrət səndədir!» deyirdi.

O vəzirə baxmadı, bir an qələmi saxlayıb, gözlərini ona dikərək ömrün dəyişilməsini gözləyən bitikçibaşıya tərəf sərt bir qətiyyətlə dedi:

– Yox! Bundan sonra Səfəvi xanədanının bütün mürasəlatı ana dilimizdə olacaq! Sarayda hamı bu dildə danışacaq və yazacaq! Bircə peyğəmbər sələvatullahın qoyduğu müqəddəs ibadətdən başqa, dərabarda ərəb və ya fars dilində kəlmə kəsilməyəcək!

Hamı diqqət kəsilmişdi. Hökmdarın səsi bir az yumşaldı.

İndi o, Rəhim bəylə danışırdı:

– Rəhim, hacı ilə bahəm gedib o yerlərə səyahət edəcəksən. Məktubumuzu macar hökmdarına şəxsən təqdim edəcəksən.

Rəhim bəy baş əydi.

Bitikçibaşı Azərbaycan dilində ilk diplomatik məktubu böyük bir həvəslə yazmağa başladı...

## E P İ L O Q

«Çox çalışdım. Artıq kamala dolmuşdum, çox əlləşdim, müharibə olmasın, dedim, olmadı. Yavuz Sultan Səlimə yazdığım:

Diyari-eşqə sultanəm, dila, mən də zamanımda
Vəzirimdir qəmü qüssə oturmuş iki yanımda.

mətləli qəzəlimdə ətrafımda olanların, bir qədəm məndən aralanan kimi, meydan sulayanların simasını, əhvali-

ruhiyyəsini vermişdim. Ətrafımda sanırdım ki, kimsə yoxdur, boşluqdur. Lələm qocalmışdı. Anam və qardaşlarım artıq çoxdan vəfat etmişdi. Dövrəmdə sadiqlərin çoxunun yaşı ötüb, əsası əlindən düşmüşdü. Məni davaya hazır olmadığım halda qonşularım, xüsusilə Yavuz Səlim ilə salışdırır, adımdan ona təhqiramiz məktub və «hədiyyələr» göndərirdilər.

O məşum ömür tariximdə ən faciəli saydığım Çaldıran müharibəsindən bir gün əvvəl isə yuxu görmüşdüm. Gördüm ki, dağlıq yerdə bir maral qovuram. Çathaçatda maral bir mağaraya girdi. Mən də dalıycan soxdum özümü həmin mağaraya. Baxıb gördüm ki, burada maral – ceyran nə gəzir? Burada yeddibaşlı əjdaha var ki, vallah cəddim Məhəmmədəl-rəsulillah haqqı, hərəsinin, ağzından bir cəhənnəm od qalxır; hər nəfəsini çölə verəndə, od-alov məni qarsır, hər nəfəsini içəri çəkəndə məni də kamına çəkir.

Çəkdi məni kamına Səlimin 100 minlik qoşunu. Yaman çəkdi! Ayılıb yuxumu danışmadan məsləhət gördülər ki,

«Səlimi yolda qarşılayaq, şəbxun[54] vuraq». Şənimə sığışdırmadım: «Mən karvanbasar quldur deyiləm. İgid igidi döyüş meydanında basar.

Təkbətək», dedim. Amma sən demə saya-sayda doğrudan da mənim qoşunumdan çox imiş. Halbuki həqiqətə irmiş ərənlər piri məndən daha çox şahlığa ləyaqətli İbrahim şahın dililə mənə Səlim qoşununun silahını da, sayını da xəbər göndərmişdi. Dinləmədim, dinləməyə qoymadılar dövrəmdəkilər; yalandır, elə qoşunu olmaz, – dedilər; tale cildinə girib məni elə bir cəngə çəkdilər ki, iləl-əbəd adıma ləkə oldu. Qərəz...

Bax, bu mənim birinci səhvim idi. Üz-üzə gəldik. Məsləhət gördülər ki, topların zəncirlə bəndlənməsinə mane olaq, düşmən hazırlıq görüb qurtarmamış üstünü alaq. Yenə rəva

---

[54] Qəfil gecə vuruşu

görmədim. «Qoy hazırlaşsınlar. Mən açıq davaya çıxmışam» – dedim. Binəva qazilərimin önündə dəmir qala yaranmasına imkan verdim, qorxaqlıq etmədim, hiylə işlətmədim, kələklə vuruşmadım. Bax, bu da mənim ikinci xatam oldu! Xətaidən ardı-arası kəsilmədən xətalar baş verdi. Üç gün sürən o vuruşmada qazilər, igidlər itirdim hərəsi bir cavan şir qeyrətli.

Hər şeydən ağır günahım Bəhruzə xanımla vəliəhdim Təhmas mirzənin anası Taclı xanımın kişi libasında Çaldıranda qalmalarına icazə verməyim oldu. Sən demə, hər ikisini Vətənin şərəfi naminə döyüşlər çağırırmış. Bəhruzəmi əsir apardılar, sonralar bütün minnətlərimə baxmayıb Səlim onu qaytarmadı. Saray şairi bir cızma-qaraçıya kəniz verdi. Bu mənə ölümdən betər oldu. Taclım! Taclım isə üstündəki daşqaşını Məsih bəyə verib azad olmuşdu: igidim! Düz üç gün nədimlərimdən başqa, üç cavan da dövrəmdən uzaq getmədi. Biri sağ, biri sol cinahımı, biri də arxamı gözləyirdi. Arxamı qoruyan İbrahim dərviş idi. Arabir gözəl səsi ilə gah mənim

nəfəslərimi, gah özünün qoşmalarını oxuyub, igid qazilərimi cəngavərliyə çağırırdı. O yıxılanda, al qanlar içinda atımın dırnağı dibinə düşəndə arxa-köməyim əlimdən getdi; dağım uçuldu sandım. Sağ-sol cinahımda üzü niqablı vuruşanların kim olduğunu bilmirdim. Sadiqlərdən sanırdım. Yalnız oxlanıb yerə yıxılanda tanıdım bədbəxtləri: biri gözəl sənətkar rəqqasə, mənə böyük nifrətinin səbəbini bilmədiyim Aytəkin, biri də bakılı cəngavər qadın, Qazi bəyin arvadı Sultanım xanım idi. Onları da Vətən çağırmışdı. Vaxtilə Əlaəddövlə Zulqədərin qorxmaz oğlu döyüş meydanında həlak olanda, özüm qara gecəyə, məiyyətim palaza bürünüb, gözyaşı tökərək atasına başsağlığı vermişdim. Halbuki bu iki qadının cənazəsi önündə diz çökməliydim.

Sonra eşitdim ki, düşmənim Sultan Səlim belə, onları qəhrəmanlara yaraşan qaydada dəfn elətdirib. Beş qızımdan Xanış, Pərixan xanım, Məhinbanu Sultanım, Firəngiz xanım, Şah Zeynəb xanım, oğlanlarım Nəvvab Kamyab, Təhmas Mirzə, Sam Mirzə, Bəhram Mirzə kaş Aytəkin və

Bibixanım-Sultanım qeyrətində olaydılar. Doğma yurdlarını, doğma xalqlarını həmin məhəbbətlə sevəydilər.

Budur, Çaldıran döyüşündən on dörd il keçib. Hələ bir dəfə üzüm gülməyib, dodaqlarımda təbəssüm görən olmayıb. Qazandığım zəfərlərdən gümrah olub, sayca az qoşunla qabağına çıxdığım və indicə dediyim xəta məndən baş verdiyi üçün.

Ömrün son günlərini yaşayıram, mənim əziz xələflərim! Sizin üçün bu az ömrümdə əlimdən gələni elədim. Fəthlər edib parça-parça bölünmüş diyarımızı qılınc gücünə birləşdirməyə çalışdım.

Vətənin bir sıxma torpağını bir ovuc qızıldan, dilimizin bir kiçicik sözünü bir ölçü ləl-cəvahiratdan üstün bildim. Hər ikisinin – Vətənimizin və dilimizin əbədiyyəti üçün. Nə bacardımsa onu elədim. Məni lənətlə yad etməyin! Yaxşı nə başlamışamsa – onu göyərdin! Səhvlərimi təkrar etməyin! Sizə vəsiyyətim budur. Bir də əşarım var. Əgər zövqünüzü oxşasa – məzarımda bir qədər rahat ola bilərəm. Sizə üç

əmanət qoyub ərən babalar: dilimiz, qeyrətimiz, Vətənimiz – can sizin can onlar əmanəti».